1936-cı il dekabrın 5-də Ümumittifaq Sovetlərinin 8-ci qurultayında SSRİ-nin yeni konstitusiyası qəbul edildi. Yeni konstitusiyaya əsasən, Zaqafqaziya Federasiyası ləğv edildi. Azərbaycan SSR, Gürcüstan SSR və Ermənistan SSR müttəfiq respublikalar kimi SSRİ-nin tərkibinə daxil oldular. 1937-ci il martın 14-də Azərbaycan Sovetlərinin fövqəladə qurultayında SSRİ-nin yeni konstitusiyası çərçivəsində Azərbaycan SSRİ-nin daha bir yeni konstitusiyası təsdiq edildi [7].

Sovet hakimiyyəti qurulduqdan sonra ictimai-siyasi institutların, xüsusilə də bundan əvvəl Azərbaycanda yaranmış kommunist partiyasının, həmkarlar ittifaqları və komsomol təşkilatlarının fəaliyyətləri genişləndi.

1920-ci ilin fevralında “Hümmət”in, RKP Bakı təşkilatının və “Ədalət”in birləşməsi nəticəsində yaranmış Azərbaycan Kommunist (bolşeviklər) Partiyası əsas hökumət partiyası olmuşdu. O, müstəqil fəaliyyət göstərən sərbəst partiya deyil, Rusiya Kommunist Partiyasının tərkib hissəsi idi. Belə ki, AKP Mərkəzi Komitənin Qafqaz Bürosunun rəhbərliyi altında işləyir, RKP-nin Proqram və Nizamnaməsini reallaşdırırdı.

Ümumilikdə Sovet hakimiyyəti dövründə qəza-

larda partiya institutlarının fəaliyyəti xeyli gücləndi, onların sıralarında azərbaycanlıların sayı çox-çox artdı. Buna baxmayaraq, ölkədəki özünəməxsus və mürəkkəb şəraitdə ümumi kommunist siyasətinin reallaşdırılmasında bir-birinə zidd mövqelərin mövcudluğu milli tərkibcə müxtəlif partiya institutları arasında çəkişmə və qarşılıqlı narazılıqlar yaradırdı [8]. Azərbaycanın xüsusiyyətləri nəzərə alınmaqla milli siyasətin həyata keçirilməsinin forma və metodlarının mahiyyətini dərk etmək, müstəqil, suveren dövlət kimi Azərbaycan SSR-in tanınmasının həqiqiliyi məsələlərində ciddi fikir ayrılıqları var idi. Çoxmillətli Bakı fəhlə sinfi ilə Azərbaycan kəndliləri arasında iqtisadi və mədəni əlaqələr yaratmaq, ziyalılara, xırda burjuaziyaya, Azərbaycan əhalisinin milli-məişət xüsusiyyətlərinə münasibət və s. məsələlər ətrafında səhvlər, mübahisələr törəyir və bir sıra mürəkkəb problemləri düzgün həll etmək yolundan sapdırmalar meydana çıxırdı.

Azərbaycanın Rusiya tərəfindən işğalı ərəfəsində Bakıda xarici dövlətlərdən İngiltərə, Belçika, Yunanıstan, Danimarka, İtaliya, Litva, İran, Polşa, ABŞ, Ukrayna, Finlandiya, Fransa, İsveçrə, İsveç, Hollandiya, Almaniya və Estoniyanın konsulluqları fəaliyyət göstərirdilər. 28 aprel 1920 – 30 dekabr 1922-ci illərarası dövr Azərbaycanın həm daxili və həm də xarici vəziyyət baxımından, ictimai-iqtisadi, siyasi münasibətlərin müəyyənlikdən uzaq və ziddiyyətli olması ilə xarakterizə olunurdu.

Azərbaycan SSR-in ilk dönəmlərdə Litva, Latviya, Ermənistan, Türkmənistan, Gürcüstan, Əfqanıstan, Buxara, Dağıstan və b. dövlətləri ilə də diplomatik münasibətləri mövcud idi. Tərəfləri maraqlandıran məsələlər barəsində danışıqlar sürür, siyasi-iqtisadi sazişlər razılaşdırılır, ticarət haqqında danışıqlar aparılırdı. Bir sıra xarici dövlətin Bakıda nümayəndəlikləri, ASSR-in də həmin ölkələrdə konsulluqları fəaliyyət göstərirdi.

Lakin ASSR-in qismən müstəqil xarici siyasəti getdikcə daha çox məhdudlaşdırılmağa və yerini Rusiya rəsmi şəxsləri tərəfindən tənzimlənən inzibati-amirlik sisteminə verməyə başladı. Belə ki RSFSR hökuməti tərəfindən fəaliyyətləri tanınmış olan bütün diplomatik nümayəndəliklər bütün sovet respublikaları ilə əlaqələri məhz RSFSR Xarici İşlər Komissarlığı üzərindən reallaşdıra bilərdilər. Və nəhayət 1922-ci il iyunun 13-də Zaqafqaziya respublikalarının xarici siyasəti birləşdirildi, onların xarici siyasət komissarlıqları ləğv edildi. Bu respublikaların xarici siyasətinə ümumi rəhbərlik İttifaq Şurası Rəyasət Heyəti tərəfindən həyata keçirilməyə başlandı.

Beləliklə, digər müttəfiq respublikalarda olduğu kimi, Azərbaycanda da inzibati amirlik sisteminin elementləri bürokratizm, totalitarizm rejimi kök salırdı.

Sovet rejiminin qalan illərində də Azərbaycan partiya təşkilatı daxilində mübarizə davam edirdi. Partiyada hakimiyyət uğrunda, respublika həyatının bütün sahələrinə təsirli nüfuza nail olmaq cəhdləri, kəskin "millətçilik" və "hakim şovinist dövlətçilik" təzahürləri inkişaf edirdi. Azərbaycanda rəhbərlikdə, partiya və hökumət işçiləri arasında da belə intriqa, çəkişmə dərinləşirdi, millətçilik və şovinizm meylləri özünü göstərirdi.

İkinci Dünya müharibəsinin bitməsinin nəticəsində bəşəriyyətin həyatında köklü dəyişikliklər baş verdi. SSRİ-də 10 fevral 1946-cı il tarixində Ali Sovetə yeni seçkilər reallaşdı. Bunun ardınca Ali Sovet Xalq Komissarları Sovetləri Nazirlər Sovetləri ilə əvəz olundu. İ.V.Stalin SSRİ Nazirlər Sovetinin sədri seçildi. Siyasi hakimiyyətin Ümumittifaq Kommunist Partiyası MK Siyasi Bürosunun əlində cəmlənməsinə baxmayaraq, tədricən bu siyasi institut da praktiki olaraq fəaliyyətdən qalmağa başladı. Bununla da partiya nizamnaməsi kobud şəkildə pozulur, ali orqanların çağırılmasında gecikmələr yaşanır, ümumkollegiallıq prinsiplərinə əməl olunmurdu.

1949-cu il aprelin 12-də şəhər və rayon milis orqanlarında siyasi idarələr yaradıldı, avqustun 9-da paytaxtlarda, o cümlədən Bakıda milisə xüsusi hüquqlar verildi, oktyabrın 13-də milis SSRİ Dövlət Təhlükəsizlik Nazirliyinin tabeçiliyinə keçirildi. Fikirlərə nəzarət, gizlin izləmə, çuğulluq (donos) genişləndi.

İnzibati-amirlik idarəetmə üsulunun getdikcə güclənməsi, mövcud “demokratik hüquqlar”ın yalnız formal xarakter daşıması vətəndaşların sosial-siyasi həyatda, idarəçilikdə iştirakına ciddi əngəllər yaradırdı. Belə ki, idarəetmə və institusional orqanlara seçkilər formal şəkildə, nəzarət və hətta təzyiq altında reallaşırdı.

1953-cü ilin martında İ.V.Stalinin dünyasını dəyişməsi imperiyanın siyasi həyatında əsaslı dəyişikliklərlə müşayiət olundu. Hakimiyyətə 1953-cü ilin sentyabrında N.S.Xruşşov gəldi. Bu siyasi dəyişiklik Azərbaycan SSR-ə də təsirsiz ötüşmədi. Belə

ki, 1954-cü il fevralın 14-16-da Azərbaycan KP-nin XX qurultayı keçirildi ki, nəticədə akademik İmam Mustafayev MK-nın birinci katibi seçildi.

**Mülayimləşmə dövrü**

Stalinin şəxsiyyətinə pərəstişin aradan götürülməsi ilə həqiqətən sovet ölkəsinin ictimai-siyasi həyatında mülayimləşmə başlanmışdı. Ölkədə yeni kütləvi tədbirlər, islahatlar, partiya və cəmiyyətdə nüfuz qazanmaq məqsədi daşıyan dəyişikliklər başladı.

İctimai-siyasi ab-havanın mülayimləşməsi şəraitində respublikada Azərbaycan dilinin rəsmi dövlət dili statusunun təmin olunmasına təşəbbüs edildi. Bu məsələnin mətbuatda açıq müzakirəsi keçirildi. 1956-cı ildə Azərbaycan SSR Ali Soveti 1937-ci ildə qəbul edilmiş Konstitusiyaya respublikada dövlət dilinin Azərbaycan dili olması barədə maddə əlavə etdi.

Azərbaycan SSR-nin sosial-siyasi reallığında mövcud siyasi sistemin baza prinsipləri olan təkpartiyalılığı, Kommunist partiyasının bütün siyasi institutlar və dövlət üzərində üstünlüyünü nəzərə alaraq sosial qurumların, xalq hakimiyyəti institutlarının fəaliyyətinə rəng qatmaq və onu canlandırmaq üçün şərait yaradıldı. Belə ki, bunun məntiqi davamı olaraq, operativ məsələlərdə ümumi idarəetmə mərkəzdən yerlərə keçirildi. Ölkənin Ali Sovetinin səlahiyyətləri genişləndirildi. Bununla yanaşı, həmkarlar ittifaqı, komsomol təşkilatları və onların seçkili qurumları hər zamankı kimi partiyanın ciddi nəzarəti altında fəaliyyət göstərirdi.

60-cı illərin ortalarında partiya, onunla birlikdə sovet, həmkarlar ittifaqları və komsomol orqanları təşkilatca yenidən ərazi prinsipi üzrə quruldu. Sov.İKP və respublika KP Mərkəzi Komitələrində bürolar birləşdirildi, kənd, rayon partiya komitələri bərpa olundu. İqtisadiyyata partiya rəhbərliyi gücləndirildi.

Sovet hakimiyyətinin 60-cı illəri Azərbaycan SSR də daxil olmaqla bir sıra milli respublikalarda müşayiət olunan milli oyanış ilə xarakterizə olunur. Belə ki, yüzə yaxın yüksək rütbəli şəxslərin 1962-ci il dekabrın 17-də təşkil etdiyi gizli yığıncaqda "Milli Azərbaycan Qərargahı"nın (MAQ) əsası qoyuldu. Bu təşkilatın sədri vəzifəsinə Oqtay Rəfili, müavin vəzifəsinə isə Xudu Məmmədov seçildi. Bölgələrdə də şöbələri açılan MAQ-ın başlıca missiyası üst səviyyəli və rəhbər vəzifələrə azərbaycanlıların gətirilməsi, ölkə büdcəsinə ayırmaların Moskvada deyil, Bakıda baxılması idi [4, s.119].

**Heydər Əliyev Azərbaycan KP MK-nın birinci katibi kimi**

1969-cu ildə Azərbaycanın tarixində dönüş mərhələsinin təməli Heydər Əliyevin Azərbaycan KP MK-nın birinci katibi seçilməsi ilə qoyuldu. Heydər Əliyevin rəhbərliyi altında Azərbaycan KP-nin 28-ci, 29-cu və 30-cu qurultaylarında, MK-nın plenumlarında, vaxtaşırı çağırılan müşavirələrdə respublikanın iqtisadi, mənəvi və sosial-mədəni inkişafının konkret vəzifələri, təşkilati tədbirlər müəyyən edildi.

Heydər Əliyev qısa bir zaman kəsiyində ölkədə idarəetmə və hakimiyyət sistemini xeyli möhkəmləndirərək korrupsiyaya qarşı sərt mübarizəyə başladı. Bütün imperiya tarixində birinci dəfə olaraq cəmiyyət həyatında vəzifədən sui-istifadə, korrupsiya kimi neqativ halların mövcudluğunu və onlara qarşı mübarizə aparmağın zəruriliyini cəsarətlə elan etdi. Onun dövründə Azərbaycan SSR parlamenti ölkənin iqtisadi, ictimai-siyasi və mədəni tərəqqisi üçün hüquqi zəmin formalaşdıran bir çox qanun layihəsi qəbul etdi. Bu dövrdə seçkili hakimiyyət orqanlarının reputasiyası artaraq respublikanın sosial-siyasi, iqtisadi və mədəni reallığında vacib rol oynamağa başladı.

Heydər Əliyevin mövcud siyasi baryerlər fonunda ağıl və dərin siyasi iradə ilə reallaşdırdığı çoxşaxəli siyasi dövlətçilik və idarəetmə fəaliyyətinin nəticəsi olaraq partiya, sovet, həmkarlar ittifaqları, komsomol və b. siyasi və ictimai institutların marağı ölkənin insan kapitalının artımına və inkişafına yönəldi. Məhz buna görə də ötən əsrin 70-ci illərində, demək olar ki, bütün imperiyada bir sıra iqtisadi göstəricilərin aşağı düşdüyü halda Azərbaycanda bu göstəricilər davamlı olaraq artırdı. Heydər Əliyevin böyük səyi ilə bir çox siyasi institutların – partiya və dövlət orqanlarının, sosial qurumların, ələlxüsus da, ziyalı və yüksək vəzifə adamlarının ölkənin milli insan kapitalı potensialının gücləndirilməsinə marağı artdı. Məhz buna görədir ki, Azərbaycanda siyasi həyat sürətlə inkişaf etməyə üz qoydu, bir sıra siyasi və ictimai institutların işlərində mühüm irəliləyişlər müşahidə olundu.

Göründüyü kimi, Heydər Əliyevin hakimiyyəti dövründə partiya və dövlət idarəçiliyi sahələrində görülən çoxfunksiyalı işlər Azərbaycanın nəinki si-

yasi, həmçinin ictimai reallığını da danılmaz biçimdə zənginləşdirdi. Siyasi və ictimai təşkilatların milli sərhədlər daxilində etibarlılığı yüksəldi ki, bu da özünü vətəndaşların partiya və dövlət qurumlarının işində fəallığını artırdı. Partiya və dövlətin, yerli sovetlərin, həmkarlar ittifaqlarının, komsomolun, ziyalıların, yaradıcılıq təşkilatlarının əsas diqqəti respublikanın iqtisadi, sosial-mədəni tərəqqisi, xalqın milli oyanışına istiqamətləndirilmiş siyasətin reallaşdırılmasına yönəldildi və səmərəli nəticələr verdi.

**Böhran dövrü**

Artıq 80-ci illərin ortalarında sovet ölkəsinin ictimai-siyasi, iqtisadi və mənəvi həyatında böhran yaranmışdı. Böhranlı vəziyyətin simptomları hələ 70-ci illərin ortalarından görünürdü.

Partiya elitasının öz dünyagörüşləri ilə Avropa sosial-demokratlarına yaxın olan islahatçıların ilk baxışdan cəlbedici, lakin elmi cəhətdən düşünülməmiş siyasəti dağıdıcı, pozucu proseslərin inkişafına imkan yaradır, bu isə əsaslı islahatları ləngidirdi. Hələ güclü olan rəqiblərinə zərbə vurmaq üçün "islahatçılar" Sov.İKP MK-nın 1987-ci il Yanvar plenumunda yeni siyasi xəttin - "aşkarlıq və demokratiya xətti"nin qəbul edilməsinə nail oldular.

Bütün Sovet konstitusiyalarında ittifaqa daxil olan respublikalara ayrılmaq hüququ verilirdi. Son Sovet konstitusiyasına görə, “Hər bir ittifaq respublikası Sovet Sosialist Respublikaları İttifaqından sərbəst çıxmaq hüququna malikdir”. Sonradan yenə də Konstitusiyanın 73-cü maddəsinin ikinci bəndinə əsasən “SSRİ-nin dövlət sərhədlərini müəyyən etmək və ittifaq respublikaları arasında sərhəd dəyişikliklərini təsdiq etmək” səlahiyyəti SSRİ-nin qanunvericilik və icra hakimiyyəti orqanlarının əlindədir. Əslində, ittifaqa daxil olan respublikaların qorunan qanunu konstitusiyanın başqa maddəsi ilə məhdudlaşdırılırdı. Bu səbəbdən də SSRİ-nin son dövrünə qədər ittifaqa tabe olan heç bir respublika bu hüquqdan istifadə etməmiş və ya istifadə edə bilməmişdir.

Ötən əsrin 90-cı illərindən etibarən postsovet məkanında yaranmış yeni dövlətlər öz suverenliyini real məzmunla zənginləşdirərək, beynəlxalq münasibətlərin müstəqil subyektlərinə çevrilməkdədir [1, s.62]. Bir çox ölkələrdə, o cümlədən postsovet respublikalarında, bu səbəbdən irəli gələn siyasi islahatlar, institusional dəyişikliklər Qərb siyasi strukturları və qanunvericilik normalarını yeni sosial-iqtisadi şəraitə, başqa sivil və mədəni zəminə uyğunlaşdırılması məsələsini aktuallaşdırmışdır [5, s.256].

**Nəticə**

Nəticə olaraq qeyd edə bilərik ki, ASSR dönəmi Azərbaycan tarixində xüsusi yer tutur ki, bu dövr də özlüyündə bir-birindən fərqli bir neçə yarım dövrə ayrıla bilər. AXC-nin işğalından 1953-cü ilə qədər olan müddət əsasən şəxsiyyətə pərəstiş kultu və təkmərkəzdən idarəetmə ilə müşayiət olunmuşdur ki, bu da özünü ən çox siyasi institutların ancaq rejimin qoyduğu çoxsaylı limitlər içərisində formal şəkildə mövcudluğunda göstərir. Stalindən sonrakı dövr isə mülayimləşmə dönəmi kimi xarakterizə olunur.

ASSR-də ən mütərəqqi dövr, şübhəsiz ki, 1969-1982-ci illər hesab edilir. Ümummilli Lider Heydər Əliyevin o dönəm ölkə idarəetməsinə gəlməsi ilə siyasi institutların fəaliyyətində də misilsiz canlanma müşayiət olundu. Qısa zaman ərzində ölkə idarəetmə və hakimiyyət sistemi möhkəmləndirildi, korrupsiyaya qarşı ciddi mübarizə başlandı. Bu dövrdə Azərbaycan SSR parlamenti ölkənin iqtisadi, sosial-siyasi və mədəni tərəqqisi üçün hüquqi zəmin formalaşdıran bir çox qanun layihəsi qəbul etdi. Bu dövrdə seçkili hakimiyyət orqanlarının reputasiyası artaraq respublikanın sosial-siyasi, iqtisadi və mədəni reallığında vacib rol oynamağa başladı.

**ƏDƏBİYYAT SİYAHISI:**


*1. Abbasbəyli, A. N. Dünya Siyasəti (XX əsrin ikinci yarısı – XXI əsrin əvvəlləri), “NURLAR” Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2011, s. 583.*

*2. Azərbaycan Respublikası Milli Elmlər Akademiyası, Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutu. Müasir Azərbaycanda politologiya və siyasi sosiologiyanın aktual problemləri, II hissə, “Təknur”, Bakı, 2013, s. 282.*

*3. Azərbaycan tarixi. Yeddi cilddə. VI cild (aprel 1920 - iyun 1941), "Elm", Bakı, 2008. s. 568.*

*4. Azərbaycan tarixi. Yeddi cilddə. VII cild (1941-2002-ci illər), "Elm", Bakı, 2008. s. 608.*

*5. Ələkbərova, N. Siyasi elmin müasir problemləri, Dərslik, Elm və Təhsil, Bakı, 2013, s. 372.*

*6. https://az.wikipedia.org/wiki/Az%C9%99rbaycan_Sovet_Sosialist_Respublikas%C4%B1*

*7. https://www.meclis.gov.az/news-az.php?id=15&lang=az*

*8. https://en.wikipedia.org/wiki/Azerbaijan_Soviet_Socialist_Republic*

**Mikayıl Yusif**

**Azərbaycan SSR dövründə siyasi institutların fəaliyyət xüsusiyyətlərinin təhlili**

**XÜLASƏ**

Modern dəyişikliklər çağında siyasi institutların fəaliyyət xüsusiyyətləri, onların cəmiyyət və dövlət həyatında oynadıqları rol və tutduqları yerin dərindən incələnməsi bir çox siyasi elm xadiminin əsas tədqiqat obyekti olmuşdur. Lakin bu səpgidə araşdırma aparılarkən ölkələrin tarixi inkişaf xüsusiyyətləri də nəzərə alınmalıdır. Bu səbəbdən Azərbaycan Respublikasının tarixində mühüm yerə sahib olan Azərbaycan SSR-nin siyasi mühitinin və bu mühitin dönəmin siyasi institutlarına göstərdiyi təsirlərinin incələnməsi məqalənin əsas tədqiqat mövzusudur. Məqalədə dərin araşdırma sayəsində sovet dövrü Azərbaycanının siyasi mühitinin analizi dörd əsas mərhələdə qiymətləndirilmişdir. Dəyişən şərtlərə bağlı olaraq siyasi mühitin dövrün siyasi institutlarına təsirləri dərin şəkildə araşdırılmış, məqalənin sonunda isə ümumi nəticəyə gəlinmişdir.

**Açar sözlər:** *Azərbaycan SSR, siyasi mühit, siyasi institutlar, siyasi fəaliyyət*

**Mikayil Yusif**

**Analysis of the characteristics of political institutions during the period of the Azerbaijan SSR**

**SUMMARY**

In the era of modern changes, the characteristics of political institutions, the role they play in the life of society and the state, and the deep examination of their place have been the main research objects for many political scientists. However, when conducting research in this way, the historical development characteristics of the countries should also be taken into account. It is for this reason that the analysis of the political environment of the Azerbaijan SSR, which has an important place in the history of the Republic of Azerbaijan, and the effects of this environment on the political institutions of the period is the main research topic of the article. The analysis of the political environment of Soviet-era Azerbaijan was evaluated in four main stages thanks to deep research in the article. Due to the changing conditions, the effects of the political environment on the political institutions of the time were deeply investigated, and a general conclusion was reached at the end of the article.

**Key words:** *Azerbaijan SSR, political environment, political institutions, political activity*

**Микаил Юсиф**

**Анализ характеристик политических институтов в период Азербайджанской ССР**

**РЕЗЮМЕ**

В эпоху современных перемен характеристика политических институтов, роль, которую они играют в жизни общества и государства, глубокое рассмотрение их места, стали главными объектами исследования многих политологов. Однако при проведении исследований таким образом следует учитывать и исторические особенности развития стран. Именно по этой причине анализ политической среды Азербайджанской ССР, занимающей важное место в истории Азербайджанской Республики, и воздействия этой среды на политические институты того периода является основной темой исследования статья. Благодаря глубокому исследованию в статье анализ политической среды Азербайджана советских времен оценивался в четыре основных этапа. В связи с изменившимися условиями влияние политической среды на политические институты того времени было глубоко исследовано, и в конце статьи был сделан общий вывод.

**Ключевые слова:** *Азербайджанская ССР, политическая среда, политические институты, политическая деятельность*

# Tarix

UOT 94(479.24)

## MİLLİ KOSMİK SƏNAYENİN ƏHƏMİYYƏTİ VƏ HƏYATA KEÇİRİLMƏSİ MEXANİZMLƏRİ

**ARZU XƏLİLZADƏ**
*Bakı Dövlət Universitetinin dosenti, tarix üzrə fəlsəfə doktoru*
*E-mail: arzuxelilzade89@gmail.com*

Azərbaycanda həyata keçirilən diversifikasiya siyasətinin əsas komponenti yaxın və ortamüddətli dövrdə informasiya-kommunikasiya texnologiyalarının ölkə iqtisadiyyatında üstünlüyünü təmin etməkdir. Bu strateji xəttin əsas trendlərindən biri isə kommunikasiyaların ən son innovativ meyarlarını tətbiq etmək, bu texnologiyaların gəlirtutumlu sahəyə çevrilməsi yolu ilə iqtisadiyyatda modernləşməni gücləndirməkdir. Bu baxımdan, kosmik sənaye təkcə kosmosu fəth etmək vasitəsinə deyil, həm də qlobal və regional sosial-iqtisadi məsələlərin, elmi-texniki problemlərin həlli üçün əsas vasitəyə çevrilmişdir. İnformasiya-kommunikasiya texnologiyaları (İKT) cəmiyyətin inkişafına təsir göstərən əsas amillərdən biri olmuş, dövlət strukturlarını, sosial-iqtisadi sahələri, elm və təhsili, bütövlükdə insanların həyatını əhatə etmişdir. Məhz bu səbəbdən Azərbaycan hökuməti ölkədə İKT sektorunun sürətli inkişafına çalışır və bu sahədə uğurlara nail olmuşdur. Bu baxımdan 2003-cü ilin fevralında Ümummilli Lider Heydər Əliyevin imzaladığı Fərmanla regionda ilk dəfə olaraq qəbul edilən İKT-nin inkişafı üzrə 10 illik Milli Strategiya mühüm əhəmiyyətə malikdir [9]. Peyk dövlətinə çevrilmək Azərbaycan üçün strateji hədəf idi. Prezident İlham Əliyev 2008-ci ilin noyabrın 4-də Azərbaycan Respublikasında kosmik sənayenin yaradılması və telekommunikasiya peyklərinin orbitə çıxarılması haqqında Sərəncam imzaladı [3]. Bu, artıq kosmik sənaye sahəsində daha keyfiyyətli mərhələnin başlanması demək idi. Bundan əlavə, İKT-nin daha sürətli inkişafı üçün 2012-ci ildə İKT-nin İnkişafı Dövlət Fondu, Yüksək Texnologiyalar Parkı, İnformasiya Təhlükəsizliyi Mərkəzi və İnformasiya Təhlükəsizliyi üzrə Dövlət Agentliyinin yaradılması üzrə Azərbaycan Respublikası Prezidentinin sərəncam və fərmanları imzalanmışdır [9].

Azərbaycanın ilk telekommunikasiya peyki olan "Azərspace"in orbitə buraxılması bu sahədə atılan əhəmiyyətli praktiki addımlardan idi. Telekommunikasiya peykinin fəzaya buraxılmasından sonra ölkədə internet, beynəlxalq telefon danışıqları, televiziya yayımı və peyk xidmətlərinin keyfiyyəti yüksələcək, müvafiq olaraq qiymətlər aşağı düşəcəkdi. Eyni zamanda məsafədən zondlama peyki vasitəsilə xəritəçəkmə, hidrometeorologiya, yerin təkinin öyrənilməsi, geodeziya işlərinin yüksək səviyyədə aparılması mümkün olacaqdı. Telekommunikasiyanın inkişafı neft-qaz sənayesi sahəsinə öz müsbət təsirlərini göstərəcəkdi. Belə ki, Azərbaycan neft-qaz sənayesi sahəsində milli telekommunikasiya peyki vasitəsilə kəşfiyyat işləri apara biləcəkdi. Milli peyk mümkün fövqəladə hallar – daşqınlar, torpaq sürüşmələri, yanğınlar barədə operativ məlumatlar əldə etməyə, hadisə yerindən kosmik çəkilişlər aparmağa, preventiv tədbirlər həyata keçirməyə imkan verəcəkdi [12].

"Azerspace-1" peyki üzərindən Azərbaycan, türk, rus, ingilis və digər dillərdə, yerli və beynəlxalq səviyyəli, ümumilikdə, 100-ə yaxın televiziya və radio kanalı yayımlanır. 2015-ci ildə Bakıda keçirilən ilk Avropa Oyunları, həmçinin ən önəmli idman hadisələrindən biri olan IV İslam Həmrəyliyi Oyunları, Formula-1 yarışları "Azerspace-1" peyki üzərindən yayımlandı. Bu da "Azərkosmos"un "İSB" və "Tata Communications" kimi nüfuzlu yayım şirkətlərinin daimi subpodratçılar siyahısına daxil edilməsinə və nəticədə milli peykimizin orbital mövqeyinin tanınmasına səbəb oldu [13].

Azərbaycanda kosmik sənayenin yaradılması iqtisadi cəhətdən də səmərəlidir. İlk növbədə, Azərbaycanın öz rabitə sisteminin təkmilləşdirilməsi, sonrakı mərhələdə isə yerin təbii ehtiyatlarının öyrənilməsi sahəsində kosmik məlumatlardan istifadə, operativ məlumatların əldə edilməsində səmərəli ola bilər. Əvvəlki illərdə Azərbaycan həmin istiqamətlərdə məlumatları çox çətinliklə başqa ölkələrdən əldə edirdi. Azərbaycanda kosmik sənayenin yaradılması yeni iş yerlərinin açılması, iqtisadiyyatın digər sahələrinin tərəqqisi üçün imkan yaradırdı.

Nəhayət, telekommunikasiya peykinin orbitə

çıxarılması ilə Azərbaycan MDB məkanında Rusiyadan sonra süni peykə malik ikinci ölkə olmaqla regionda bu sahədə mövqeyini daha da möhkəmləndirəcəkdi. Peykin orbitə buraxılması ilə Naxçıvan Muxtar Respublikası da daxil olmaqla, Azərbaycanın bütün ərazisində keyfiyyətli televiziya və radio yayımı, sürətli internet xidmətləri təmin olunacaqdı. Bundan başqa, ötürülən məlumatlara nəzarət mexanizmləri də təkmilləşəcəkdi. Eyni zamanda, peyklə bağlantıların təhlükəsizliyinə təminat veriləcəkdi. Kosmik sənayenin inkişafı eyni zamanda müdafiə sənayesinin inkişafına təkan verəcəkdi. Təsadüfi deyil ki, 2008-ci ildə təsdiq edilmiş Dövlət Proqramının icrasına məsul qurumlar içərisində də Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi ilə yanaşı, Müdafiə Sənayesi Nazirliyi və Müdafiə Nazirliyinin də adı çəkilmişdir. Bu proqramın icrası həm də müdafiə sənayesi sahəsində kadr hazırlığının inkişafına təkan verəcəkdi. Yüksək dəqiqlikli silah növlərinin yaradılması və tətbiqi məhz bu sənayedən asılıdır [9].

2014-cü il iyunun 30-da "Azersky" Yerin məsafədən müşahidəsi, bir neçə il sonra isə "Azerspace-2" telekommunikasiya peykinin orbitə çıxarılması ölkə tarixində mühüm hadisə idi. 2018-ci il sentyabrın 26-da "Azerspace-2" peyki orbitə buraxılanda Prezident İlham Əliyev peyk layihələrinin həyata keçirilməsinin əsas məqsədlərini vurğulayaraq Azərbaycan xalqını təbrik etdi: "...Peyklərin orbitə çıxarılması dövlətimizin gücünü göstərir, bizim siyasətimizi göstərir... Bu peyklərin çox böyük əhəmiyyəti var. İlk növbədə, Azərbaycan informasiya təhlükəsizliyi baxımından daha da önəmli addım atır... Bu gün Azərbaycan telekommunikasiya sahəsində xarici tərəfdaşlardan asılılığını tam aradan götürübdür. Eyni zamanda, kadr hazırlığı üçün Azərbaycanın kosmik sənayesinin inkişafı önəmli rol oynayır. Peykləri idarə edən kadrlar azərbaycanlı mütəxəssislərdir və onların böyük əksəriyyəti gənclərdir.... Peyklərin, eyni zamanda, kommersiya tərəfi var. Bu gün Azərbaycan öz məhsulunu ixrac edir və peyklərin fəaliyyəti nəticəsində ölkəmizə valyuta gəlir. Azərbaycanın kosmik sənayedə əldə etdiyi uğurlar, eyni zamanda, qeyri-neft sektorumuzu inkişaf etdirir, qeyri-neft sənayemizi irəliyə aparır"[16].

İkinci Qarabağ müharibəsində qazanılan qələbədə Azərbaycanın peyk sisteminin əhəmiyyətli rolu olmuşdur. Bu peyklərin, xüsusilə "Azersky" məsafədən müşahidə peykinin imkanları Azərbaycana böyük üstünlüklər qazandırmışdır. Müharibənin gedişində "Azersky"dan əldə olunan təsvirlər operativ surətdə ordumuz üçün lazımi informasiyanın ötürülməsində xüsusi rol oynamışdır. Bu informasiyaların əsasında düşmənin hərbi obyektləri və anbarları, zirehli texnikaları darmadağın edilmişdir [16].

Qeyd edək ki, 2015-ci ildən etibarən ölkənin müdafiə və təhlükəsizliyi üçün "Azersky" peykindən istifadə edilmiş, həmçinin işğal olunmuş ərazilərdə törədilmiş yanğınların mütəmadi olaraq monitorinqi və dəymiş ziyanın qiymətləndirilməsi aparılmışdır. Bundan əlavə, Kəlbəcər və Zəngilan rayonları ərazisində yerləşən filiz yataqlarının kosmik monitorinqi həyata keçirilmişdir [13].

Beləliklə, milli peyklər vasitəsilə ölkənin sosial-iqtisadi inkişafına dəstək davam etdirilməkdədir. Azərbaycanın peyk şəbəkəsi dövlətin suverenliyinə xidmət etmək və biznes layihəsi olmaqla yanaşı, həm də sosial-iqtisadi inkişafa təkan verir. Tədqiq edilən illərdə kənd təsərrüfatında məhsuldarlığın dəqiq müəyyən edilməsi, eləcə də torpaqlardan istifadənin və əkin sahələrinin uçotu ilə əlaqədar konkret layihələr həyata keçirilmişdir. 2017-ci il ərzində respublika üzrə bütün istixanaların peyk təsvirləri vasitəsilə monitorinqi aparılmış, istixana altında olan torpaq sahələrinin dəqiq sahəsi müəyyən edilmiş və elektron xəritəsi hazırlanmışdır. Peyklər vasitəsi ilə pivot suvarma sisteminin tətbiq edildiyi əkin sahələrinin və respublika üzrə meşələrin monitorinqinə başlanılmışdır [13].

Kosmik sahə beynəlxalq əməkdaşlıq üçün çox möhkəm zəmindir və bu istiqamətdə Azərbaycanda müəyyən bir mexanizm mövcuddur. Belə ki, "Azərkosmos" beynəlxalq kosmik layihələr çərçivəsində xarici dövlətlərin kosmik agentlikləri ilə kosmosdan dinc məqsədlərlə istifadə üzrə qarşılıqlı fayda gətirən əməkdaşlıqlar qurur. Bu da öz növbəsində Azərbaycanın beynəlxalq ictimaiyyət qarşısında intellektual nüfuzunun daha da möhkəmlənməsinə xidmət edir [16].

Azərbaycan milli kosmik sənayenin inkişafının təmini istiqamətində bir sıra mexanizmlər mövcuddur. Onlardan 2010-cu ildə telekommunikasiya peykinin orbitə çıxarılması, idarə olunması və istismar işlərinin həyata keçirilməsi məqsədi ilə "Azərkosmos" ASC-nin yaradılması mühüm əhəmiyyətə malik idi. Azərbaycan telekommunikasiya sahəsində xarici tərəfdaşlardan asılılığını tam aradan qaldırmaqla yanaşı, bu sahədə xidmət göstərən, ixracatçıya çevrilir və gəlir əldə edirdi [14].

Kosmik sənaye sahəsində beynəlxalq əməkdaşlığın gücləndirilməsi əsas strateji məqsədlərdən biridir. Beynəlxalq Astronavtika Federasiyasının Baş Assambleyasında keçirilmiş seçkilərdə 2022-ci ildə Beynəlxalq Astronavtika Konqresinin Bakı şəhərində keçirilməsi barədə qərarın qəbul edilməsi heç də təsadüfi deyildi. Azərbaycanın son illərdə ən mötəbər tədbirlərin təşkilində yüksək təşkilatçılıq bacarığı göstərməsi onun beynəlxalq reputasiya qazanmasına şərait yaratmışdır. Beləliklə, innovativ dünyanın çağırışlarına adekvat reaksiya verən Azərbaycan bu sahədə də regionun lokomotivi rolunda çıxış edir, kosmik texnologiyalar sahəsində qlobal miqyasda mühüm mərkəzə çevrilir [14].

Azərbaycan kosmik sənaye sahəsində beynəlxalq əməkdaşlığı daha da inkişaf etdirmişdir. 2022-ci ildə Azərbaycanın Türkiyənin İstanbul şəhərində 876 şirkət və 24 universitetin iştirakı ilə keçirilən "SAHA EXPO 2022" müdafiə, aerokosmik və kosmik sənaye sərgisində milli stendi ilə təmsil olunması mühüm tarixi hadisə idi. Yüksək texnologiyalı məhsulların nümayiş etdirildiyi beynəlxalq tədbirdə müdafiə, aerokosmik, dənizçilik və kosmik sənaye sahələrində strateji əhəmiyyətli bir çox məhsullar ilk dəfə təqdim olunmuşdur [1].

Azərbaycanda kosmik sahənin inkişafı üçün müəyyən mexanizmlər yaradılmışdır. 1992-ci il fevralın 21-də Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə kosmik fəzanın öyrənilməsi sahəsində dövlət siyasətini həyata keçirmək, milli aerokosmik proqramları hazırlamaq və yerinə yetirmək, beynəlxalq kosmik layihələrə dair işləri əlaqələndirmək və idarə etmək məqsədilə Kosmik Tədqiqatlar Elm-İstehsalat Birliyinin əsasında Azərbaycan Milli Aerokosmik Agentliyi (MAKA) yaradılmışdır [2].

MAKA 2003-cü ilə qədər Azərbaycan Respublikasının Dövlət Xüsusi Maşınqayırma və Konversiya Komitəsinin tabeliyində öz fəaliyyətini davam etdirmiş və yenidən Azərbaycan Milli Elmlər Akademiyasının tabeliyinə verilmiş, 2006-cı ilə qədər həmin strukturun tərkibində fəaliyyət göstərmişdir [18]. Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 27 sentyabr tarixli Fərmanı ilə AMAKA (sonradan MAKA) Azərbaycan Respublikasının Müdafiə Sənayesi Nazirliyinin tabeliyinə verilmişdir [3].

Təşkilatın əsas missiyası kosmik fəzanın elmi cəhətdən öyrənilməsi sahəsində elmi-texniki siyasətin formalaşdırılması, müdafiə və təhlükəsizlik sahəsində dövlət sifarişlərinin yerinə yetirilməsini, dövlətlərarası birgə aerokosmik proqramların, layihələrin və sazişlərin icrasını, bu sahədə beynəlxalq konvensiyaların hazırlanmasını, aerokosmik xidmətlərin dünya bazarına çıxarılmasını təmin etməkdən ibarətdir [15].

MAKA-da 2020-ci il sentyabrın 18-dən etibarən "STARTUP 2020" layihəsi həyata keçirilməyə başlanmışdır. Layihənin əsas məqsədi gəncləri elmi innovativ layihələrə cəlb etmək, gənc novator kadrları aşkar etmək, gənclərin kreativ biznes ideyalarının inkişafına yaxından dəstək göstərməkdən ibarətdir [17].

Kosmik sənayenin inkişafı sahəsində mühüm addımlardan biri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2010-cu il 3 may tarixli Sərəncamı ilə Azərbaycan Respublikası Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin tabeliyində "Azərkosmos" Açıq Səhmdar Cəmiyyətinin (Azərkosmos ASC) təsis edilməsi idi [4].

"Azərkosmos"un təsis edilməsində əsas məqsəd telekommunikasiya peykinin orbitə çıxarılması, idarə edilməsi və istismarı işlərinin həyata keçirilməsi idi [10]. "Azərkosmos"un əsas məqsədləri Azərbaycanın telekommunikasiya, Yer müşahidə və digər təyinatlı peyklərin orbitə çıxarılması, idarə edilməsi və istismarı işlərinin həyata keçirilməsindən, beynəlxalq kosmik layihələr çərçivəsində yerinə yetirilən fəaliyyətin əlaqələndirilməsi, beynəlxalq təşkilatlarla, həmçinin xarici dövlətlərin kosmik agentlikləri ilə kosmosdan dinc məqsədlərlə istifadə sahəsində əməkdaşlıq edilməsindən ibarət idi [9].

Araşdırılan illərdə kosmik sahənin inkişafı ilə əlaqədar praktiki işlərin görülməsi davam etdirildi. Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 17 oktyabr tarixli Sərəncamına əsasən Azərbaycan Respublikasının Nazirlər Kabinetinin qərarı ilə Azərbaycan Respublikasının Kosmik Məsələlər üzrə Şurası yaradıldı [6]. Kosmik fəaliyyət sahəsində dövlət proqramlarından irəli gələn vəzifələrin həyata keçirilməsinə nəzarət, kosmik fəzanın, o cümlədən uzaq kosmosun öyrənilməsinə və istifadəsinə dair işlərin aparılması istiqamətində sistemli araşdırmanın təşkil edilməsi, Azərbaycan Respublikasında və xaricdə kosmik fəaliyyətin nəticələrindən istifadənin elmi-texniki, istehsal, istifadəçi, təhsil və innovasiya strukturunun formalaşdırılmasının kompleks problemlərinin həllinə dair təkliflərə baxılması və tövsiyələr verilməsi, kosmik tədqiqatların, o cümlədən kosmik fəzada tədqiqatların apa-

rılması, belə tədqiqatlardan istifadə və kosmik sənaye sahəsi ilə bağlı təkliflərin hazırlanması və s. şuranın funksiyalarına aid idi [5].

Kosmik sənayenin inkişaf etdirilməsi mexanizmlərinin təkmilləşdirilməsi prioritet olaraq qalmaqdadır. Prezident İlham Əliyevin 2021-ci il 27 aprel tarixli Fərmanı ilə Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin (NRYTN) tabeliyində Azərbaycan Respublikasının Kosmik Agentliyi (Azərkosmos) yaradıldı. Agentlik kosmik fəaliyyət sahəsində əldə edilmiş uğurların və inkişafın davam etdirilməsi, dünyada gedən sürətli texnoloji tərəqqidən Azərbaycanın daha çox faydalanması, kosmik fəaliyyət sahəsində idarəetmə, tənzimləmə, əlaqələndirmə və nəzarət mexanizmlərinin təkmilləşdirilməsi məqsədilə “Azərkosmos” ASC-nin əsasında yaradıldı [4].

Tədqiq edilən illərdə bu sahədə inkişaf mexanizmləri daha da təkmilləşdirilmiş, “Azərkosmos”da Tədqiqat və İnkişaf Mərkəzi yaradılmışdır. Mərkəzdə peyklərin idarə edilməsi sahəsində müxtəlif proqram təminatlarının hazırlanması, neyron şəbəkələr əsasında qurulmuş sistemlər vasitəsilə peyk təsvirlərində obyektlərin və dəyişikliklərin avtomatik tanınması, süni intellekt həlləri və digər sahələr üzrə tədqiqatlar aparılır [13].

Beləliklə, Azərbaycanın kosmik sənaye strategiyası ilə bağlı məqsədlərə nail olmaq üçün əlverişli perspektivlər mövcuddur. Kosmik rabitə digər əlaqə vasitələrinə nisbətən 5 dəfə ucuzdur. Milli peykimizin kosmosa çıxarılması Azərbaycanın etibarlı informasiya təhlükəsizliyi sisteminin formalaşmasını təmin etməklə yanaşı, telekommunikasiya sisteminin inkişafına ciddi təkan verəcək.

## ƏDƏBİYYAT SİYAHISI


*1. Azərbaycan İstanbulda «SAHA EXPO 2022» müdafiə, aerokosmik və kosmik sənaye sərgisində təmsil olunur // https://ordu.az/az/news/238454/azerbaycan-istanbulda--saha-expo-2022-mudafie,-aerokosmik-ve-kosmik-senaye-sergisinde.*

*2. Azərbaycan Milli Aerokosmik Agentliyinin yaradılması haqqında Azərbaycan Respublikası Prexzidentinin Fərmanı // http://www.e-qanun.az/framework/6873.*

*3. Azərbaycan Respublikasında kosmik sənayenin yaradılması və telekommunikasiya peyklərinin orbitə çıxarılması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı // https://e-qanun.az/framework/15589.*

*4. “Azərbaycan Respublikasının Kosmik Agentliyi (Azərkosmos)” publik hüquqi şəxs Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin rəsmi saytı // https://mincom.gov.az/az/view/organization/29.*

*5. Azərbaycan Respublikasının Kosmik Məsələlər üzrə Şurası haqqında Əsasnamə, 23 sentyabr 2020 // http://www.e-qanun.az/framework/46033.*

*6. Azərbaycan Respublikasının Kosmik Məsələlər üzrə Şurasının yaradılması, “Azərbaycan Respublikasının Kosmik Məsələlər üzrə Şurasının Əsasnaməsi”nin və “Azərbaycan Respublikasının Kosmik Məsələlər üzrə Şurasının tərkibi”nin təsdiq edilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı, 17 oktyabr 2017 // http://www.e-qanun.az/framework/46033.*

*7. “Azərbaycan Respublikasının Kosmik Agentliyi (Azərkosmos)” publik hüquqi şəxs. Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin rəsmi saytı // https://mincom.gov.az/az/view/organization/29.*

*8. Azərbaycanda kosmik sənayenin yaradılması iqtisadi cəhətdən böyük səmərə vəd edir // https://yeniazerbaycan.com/Iqtisadiyyat_e11275_az.html.*

*9. “Azərkosmos” Açıq Səhmdar Cəmiyyətinin Nizamnaməsi, 23 dekabr 2010 // http://www.e-http://www.e-http://www.e-qanun.az/framework/21072 qanun.az/framework/21072 qanun.az/framework/21072.*

*10. “Azərkosmos” açıq səhmdar cəmiyyətinin təsis edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 3 may 2010. AMEA İnformasiya Texnologiyaları İnstitutunun rəsmi saytı // https://ict.az/az/content/176 -*

*11. Haqqımızda. Azərbaycan Milli Aerokosmik Agentliyinin rəsmi saytı // https://nasa.az.*

*12. Kosmik sənaye Azərbaycanın siyasi və iqtisadi gücünü artıracaq // https://sesqazeti.az/news/analytics/315911.html.*

*13. Məmmədli Z. Azərbaycanda kosmik sənaye intibah dövrünü yaşayır, 17-01-2018. // https://reyting.az/layihe/7114-azerbaycanda-kosmik-senaye-intibah-dovrunu-yashayir.html.*

*14. Məmmədov V. Kosmos sənayesinin nəhəngləri yarım əsr sonra yenidən Bakıda: niyə məhz paytaxtımızı seçdilər? – TƏHLİL // https://aztv.az/az/news/ 2614/ kosmos-senayesinin-nehengleri-yarim-esr-sonra-yeniden-bakida-niye-mehz-paytaximizi-secdiler-marktehlilmark.*

*15. Missiyamız. Azərbaycan Milli Aerokosmik*

*Agentliyinin rəsmi saytı // https://nasa.az/missiyamiz.*

*16. Sadıqlı F. İlham Əliyev strategiyası Azərbaycanı kosmosa yüksəltdi // https://azerbaijan-news.az/posts/detail/ilham-eliyev-strategiyasi-azerbaycani-kosmosa-yukseltdi-1625173329.*

*17. Start-up. Azərbaycan Milli Aerokosmik Agentliyinin rəsmi saytı // https://nasa.az/start-up.*

*18. Tariximiz. Azərbaycan Milli Aerokosmik Agentliyin rəsmi saytı. // https://nasa.az.*

**XÜLASƏ**

**Milli kosmik sənayenin əhəmiyyəti və həyata keçirilməsi mexanizmləri**

Məqalədə dövlət müstəqilliyinin bərpa edilməsindən sonra Azərbaycanda kosmik sənayenin inkişafı, süni peyklərin müxtəlif sahələrdə əhəmiyyəti, üstünlükləri, iqtisadi-sosial, eləcə də aqrar sahəyə təsirləri, ölkənin informasiya təhlükəsizliyinin təmin edilməsi baxımından əhəmiyyəti araşdırılmışdır. Kosmik sahədə qəbul edilən proqram və digər sənədlərin yerinə yetirilməsi mexanizmlərinin inkişafı, bu sahədə müəyyən qurumların və strukturların formalaşdırılması, beynəlxalq əməkdaşlıq məsələlərinə də diqqət yetirilmişdir.

**Açar sözlər:** *informasiya-kommunikasiya texnologiyaları, milli peyk, kosmik sənaye, rabitə, Azərkosmos, kosmos, orbit.*

**Значение национальной космической промышленности и механизмы реализации**

**Арзу Халилзаде**

***Доцент Бакинского государственного университета, доктор философии по истории***

**РЕЗЮМЕ**

В статье рассматривается развитие космической промышленности в Азербайджане после восстановления государственной независимости, значение искусственных спутников в различных сферах, их преимущества, влияние на экономико-социальную, а также аграрную сферу, важность с точки зрения обеспечения информационной безопасности страны. Также было уделено внимание разработке механизмов реализации программ и других документов, принятых в космической сфере, формированию определенных институтов и структур в этой сфере, вопросам международного сотрудничества.

**Ключевые слова:** *информационные и коммуникационные технологии, национальный спутник, космическая отрасль, связь, Азеркосмос, космос, орбита.*

**Importance of national space industry and implementation mechanisms**

**Arzu Khalilzade**

***Associate Professor of Baku State University, Doctor of Philosophy in History***

**SUMMARY**

In the article, the development of the space industry in Azerbaijan after the restoration of state independence, the importance and advantages of artificial satellites in various fields, their effects on the economic-social, as well as the agricultural sector, and the importance of ensuring the country's information security were examined. The development of mechanisms for the implementation of programs and other documents adopted in the space field, the formation of certain institutions and structures in this field, and the issues of international cooperation were also paid attention to.

***Key words:*** *information and communication technologies, national satellite, space industry, communication, Azerkosmos, space, orbit.*

UOT 94

# TALİBANIN DEVRİLMƏSİNDƏN SONRA TÜRKİYƏ-ƏFQANISTAN MÜNASİBƏTLƏRİ

*orcid.org/0000-0003-0387-1349*

**GÜLNARƏ MƏMMƏDZADƏ**
*Bakı Dövlət Universiteti, baş müəllim, tarix üzrə fəlsəfə doktoru*

*E-mail: gulka1@live.ru*

## GİRİŞ

XXI əsrin əvvəllərində Türkiyənin xarici siyasətində Asiya ölkələri ilə münasibətlər xüsusi əhəmiyyət kəsb etməyə başladı. Rəsmi Ankara Əfqanıstanda cərəyan edən hadisələri diqqətlə izləyirdi. Bu məqsədlə onun xarici siyasət xəttində yeni çalarlar üzə çıxmağa başladı. Bununla belə, qeyd etmək lazımdır ki, iki ölkə arasında əlaqələri gücləndirən bir sıra amillər və ümumi cəhətlər də mövcud idi. Bu sahədə Əfqanıstan əhalisinin sünni məzhəbli əksəriyyətinin iki ünsürü və daşıyıcısı olan - özbəklərin və türkmənlərin, bunun ardınca isə ölkənin milli azlıqları kimi onların nəzərə alınması mühüm əhəmiyyət kəsb edirdi.

Xatırlatmaq yerinə düşərdi ki, "Soyuq müharibə"-dən sonrakı dövrdə türk elitaları Türkiyənin öz periferik bölgələrinin müəyyən ərazilərində hegemon statusu əldə edə biləcəyinə inanırdılar [1, p.159]. Belə bir maraqlı cəhətə də diqqət yetirmək lazımdır ki, Türkiyə əsrin əvvəllərində dünya miqyaslı oyunçulardan birinə çevrilmək xətti götürərək Yaxın və Orta Şərqdə liderlərdən birinə çevrilmişdi. Əslində bunu şərtləndirən, zəruri edən bir sıra amillər də mövcud idi. Belə ki, çağdaş Türkiyə Respublikası dünya miqyasında mühüm geosiyasi mövqe tutur. Əvvəla, bu dövlət hazırda islam dünyasının aparıcı dövlətlərindən biridir, digər tərəfdən o, həm də özünün dövlət quruculuğu forması ilə daha çox diqqəti cəlb edir. Bu modeldə islam və demokratiya elementləri üst-üstə düşür. Bu amil ona davamlı iqtisadi artıma nail olmaq və ölkənin sabit inkişafını təmin etmək imkanı verir. Bununla belə, Türkiyə həm də islam dünyasının dinin dövlətdən ayrı fəaliyyət göstərdiyi az ölkələrindən biridir.

Əsrin əvvəllərindən başlayaraq Türkiyənin islam dünyasında mövqeyi nəzərə çarpacaq dərəcədə möhkəmlənmişdir. Xüsusilə Mərkəzi Asiya ölkələrində rəsmi Ankaranın mövqelərinin getdikcə güclənməsi müşahidə olunur [2].

Bəzi iranlı müəlliflərin fikrincə, "Mötədil İslam Türkiyənin milli mənafelərinin yüksəldilməsi məqsədinə çatmaq üçün Türkiyənin xarici siyasətinin əlində bir vasitə" olmuşdur. [3, p.160]. Lakin bu həqiqətə o qədər də uyğun deyil. Türkiyənin dünyəvi dövlət kimi iqtisadi maraqları üstün yer tuturdu.

Ankara özünün şərq siyasətində Əfqanıstana xüsusi əhəmiyyət verir. Osmanlı dönəmində də, Atatürkün hakimiyyəti illərində də Əfqanıstana münasibət məsələsi rəsmi Ankaranın xarici siyasət kursunun mühüm istiqamətini təşkil etmişdir.

Türkiyənin Əfqanıstan siyasətində dörd element daha çox diqqəti cəlb edir. Bunlar Əfqanıstanın birliyinin və bütövlüyünün qorunub saxlanması, onun təhlükəsizliyinin və sabitliyinin təmin edilməsi, ölkədə ictimai dəstək və təmsilçiliyi prioritet hesab edən geniş əsaslı siyasi strukturun gücləndirilməsi, Əfqanıstanı terrorizmdən və ekstremist cərəyanlardan təmizləməklə xalqın sülh və firavanlığının təmin edilməsidir. Türkiyə bu məqsədlərə uyğun olaraq həm ikitərəfli səviyyədə, həm də BMT və NATO-nun səylərini dəstəkləməklə Əfqanıstana geniş töhfələr verir. Eləcə də, Əfqanıstanın qonşuları ilə əlaqələrinin inkişafı Türkiyənin Əfqanıstana yanaşmasının əsas ünsürlərindən birini təşkil edir.

Türkiyənin Əfqanıstan ilə belə bir əlaqəsi, Taliban qüvvələrini hakimiyyətdən uzaqlaşdırmaq məqsədilə 2001-ci il 11 sentyabr hadisəsindən sonra NATO-nun başçılıq etdiyi hərbi kampaniya ilə radikal dönüş etdi. Türk kontingenti ilk günlərdən NATO missiyasının bir hissəsini təşkil etsə də onlar yalnız qeyri-döyüş əməliyyatlarında iştirak edirdilər. Türkiyə o vaxtdan etibarən Əfqanıstanın təhlükəsizlik qüvvələrinin təlimində iştirak edir və NATO üzrə digər tərəfdaşlarına logistik dəstək verirdi. Türkiyənin yenidənqurma qrupları Vardak və Cəuzcan əyalətlərində məktəblər və xəstəxanalar tikib, yolları və körpüləri bərpa edirdilər. Əfqanıstanın şimalındakı etnik türk, özbək və türkmən icmaları ilə türk əlaqələri xüsusilə güclü olmuşdur [4].

Türkiyə Talibanın məğlubiyyətindən sonra Həmid Kərzay hökumətini tanıdı və 11 sentyabr hadisələrindən sonra Əfqanıstanın daxili yenidənqurma prosesində də fəal iştirak etməyə başladı. NATO qüvvələri 11 sentyabrdan sonra Beynəlxalq Təhlükəsizliyə Yardım Qüvvələri (ISAF) çərçivəsində Əfqanıstana cəlb edilən zaman, Türkiyə Əfqanıstan milli

polisinin və ordusunun təlimi və təchiz edilməsinə, qeyri-döyüş təhlükəsizlik missiyalarının və logistik əməliyyatların təmin edilməsinə böyük töhfə verdi.

Bu arada, Kabil, Herat və Məzari Şərifdə ofisləri olan Türk Koordinasiya və Əməkdaşlıq Agentliyi (TİKA) yenidənqurma layihəsində dərindən iştirak edirdi. O dövrdən başlayaraq 1100-ə yaxın layihənin təşəbbüskarı olan TİKA Əfqanıstanda 100-dən çox məktəb tikdi və Heratda xəstəxana üçün əlavə binanın tikintisi, şimal Faryabda minlərlə ailəyə ərzaq yardımının edilməsi, Herat vilayətində fermerlərə texniki yardım və Pərvan Universitetində şair və sufi mistik Mövlana Cəlaləddin Rumi üçün tədqiqat mərkəzinin açılması. Bundan başqa, 2003-2016-cı illər arasında ölkədə 127 türk şirkəti fəaliyyət göstərib, dəyəri 6 milyard dollar olan 627 layihənin tikintisi və podratçısı olub [5].

Belə bir şəraitdə NATO-nun üzvü kimi Türkiyə özünün milli maraqları baxımından bu təşkilat qarşısında öhdəliklərinə uyğun olaraq və ABŞ-ın regional siyasəti ilə əlaqədə Əfqanıstana əsgər göndərdi və müxtəlif siyasi, iqtisadi, təhlükəsizlik və mədəni məsələləri nəzərə alaraq ölkədə nüfuzunu genişləndirməyə başladı. Eyni zamanda Türkiyə xarici siyasətinə gəlişi ilə nəzəriyyəçi Əhməd Davudoğlu dövlətini şərq perspektivli siyasətinə üstünlük verərək bu sahədə Əfqanıstana daha çox yer yetirirdi [6].

Ankara belə bir şəraitdə Əfqanıstandakı keçmiş siyasətindən fərqli olaraq bu ölkədə öz rolunu və təsirini genişləndirməyə çalışırdı. əsrin əvvəllərindən başlayaraq Əfqanıstan Ankaranın xarici siyasətində böyük rol oynayırdı. Bu dövlətin Türkiyə üçün əhəmiyyəti, ilk növbədə, regionun geosiyasi və iqtisadi imkanları, daha sonra isə iki ölkənin mədəni ortaqlığı ilə bağlıdır.

Türkiyədə hakimiyyətə gələn prezident Rəcəb Tayyip Ərdoğan yeni xarici siyasət doktrinasını hazırlayarkən Əfqanıstana yardımın prioritet olduğunu bəyan etdi. Türkiyə hökuməti prezident Burhanəddin Rəbbani hakimiyyətini rəsmən tanıdı və “Taliban”ın məğlubiyyətindən sonra Əfqanıstanın yeni rəhbərliyi – Həmid Kərzayi hökuməti ilə etibarlı münasibətlər qurdu. Bütövlükdə, 2001-ci ildən sonra rəsmi Ankara Əfqanıstanla bağlı hadisələrdə ən fəal iştirakçılardan birinə çevrildi.

Türkiyə parlamenti (Konstitusiyaya uyğun olaraq) “kəşfiyyat əməliyyatları aparmaq, mülki şəxslərin təhlükəsizliyini təmin etmək və onlara humanitar yardım çatdırmaq” məqsədilə bu ölkəyə xüsusi təyinatlılar qrupunun göndərilməsinə qərar verdi. Eyni zamanda, qeyd etmək lazımdır ki, “Türk komandolarının Əfqanıstana göndərilməsi ilə bağlı qərar BMT Təhlükəsizlik Şurasının 1368 və 1373 saylı qətnamələrinə və NATO çərçivəsində müttəfiq öhdəliklərinə uyğun olaraq qəbul edilib” [7].

## TALİBANIN DEVRİLMƏSİNDƏN SONRA TÜRKİYƏ-ƏFQANISTAN ƏLAQƏLƏRİNİN ƏSAS XÜSUSİYYƏTLƏRİ

Türkiyənin hərbi əməliyyatlardan uzaq durmaq və Əfqanıstan dövlət quruculuğu müəssisələrini dəstəkləmək siyasəti adi əfqanların gözündə onun xoş niyyətinə inam və rəğbət hissini artırmışdır. NATO-nun digər qoşunlarından fərqli olaraq Əfqanıstandakı türk kontingentinin hər hansı bir tərəfdən nadir hallarda hücuma məruz qalmasının səbəblərindən biri də məhz elə budur. Türkiyə həmçinin barışıq səylərini koordinasiya etmək üçün regional və qlobal oyunçuları bir araya gətirən platforma olan Asiyanın Qəlbi – İstanbul Prosesinə ev sahibliyi və tərəfdaşlıq edərək Əfqanıstan münaqişəsində siyasi vasitəçi olmağa cəhd edirdi.

Həmçinin Türkiyənin Əfqanıstandakı sülhpərvər missiyasına nəzər yetirərkən bir nəfər də olsun türk əsgərinin heç bir cinayətə görə məhkum edilməməsinə diqqət yetirilməlidir. Ən azından rəsmi səviyyədə etiraf olunurdu ki, bir nəfər də olsun Əfqanıstan vətəndaşı türk əsgərlərinin əlindən əziyyət çəkməyib [8]. Türkiyənin Əfqanıstandakı missiyasını təhlil edərkən belə bir cəhətə diqqət yetirmək lazımdır ki, onun bu missiyası əsasən Əfqanıstanda inzibati, məhkəmə, təhsil və səhiyyə sistemlərində islahatların aparılmasına, əfqan polis qüvvələrinin, ordusunun hazırlanmasına və s. sahələrə yönəldilmişdir. Eyni zamanda, Ankaranın inşa etdirdiyi xüsusi mərkəzdə əfqan polisinin böyük bir qrupu təlim keçib [9, s.134].

Ümumiyyətlə, Əfqanıstanda Türkiyə rəhbərliyi yumşaq güc texnologiyalarından səmərəli istifadə edirdi: dövlət qulluğu üçün mütəxəssislər hazırlayır; türk dilini məqsədyönlü şəkildə tədris edən məscid və məktəbləri bərpa edir; türkyönlü mediaya aktiv maliyyə yardımı göstərir; türk serialları və filmləri yayımlayırdı.

Ölkədə türk mədəniyyət nümayəndəliklərinin və mərkəzlərinin sayı artır, QHT-lərin fəaliyyəti əhəmiyyətli dərəcədə genişlənmişdir, məsələn,

Yunis Əmrə Fondu, Türk İnkişaf və Əməkdaşlıq Agentliyi (TİKA) [10, s.145].

Eyni zamanda, Ankara Əfqanıstan, Türkmənistan, Gürcüstan və Azərbaycanı əhatə edən Lazurit Dəhlizi regional iqtisadi layihəsində maraqlı olduğunu gizlətmir. Əfqanıstanda Türkiyənin daha böyük rolu Ankaraya bu ölkədə yumşaq gücünü genişləndirməyə imkan verir. Türkiyə Əfqanıstanda ən mühüm xarici hərbi aktora və ölkənin türk azlıqlarının ənənəvi liderlərinin əsas siyasi himayədarına çevrilir, beləliklə də Mərkəzi Asiyada əsasən türk xalqları ilə geosiyasi və iqtisadi əlaqələrini daha da gücləndirir.

Türkiyə hökuməti Əfqanıstandakı türk biznesmenlərinə dəstək üçün bir sıra tədbirlər hazırlayıb həyata keçirmişdir. Hesablama Qırğızıstan, Qazaxıstan və Özbəkistan bazarlarında uğurla fəaliyyət göstərən və Əfqanıstanda fəaliyyətini davam etdirə bilən şirkətlər üzrə aparılıb. Ekspertlərin fikrincə, bu gün burada 200-ə yaxın türk firması çalışır [11, s.81]. Eyni zamanda, hələ 2005-ci ildə türkiyəli general E.Erdagi ISAF komandiri vəzifəsini tutması münasibətilə verdiyi hesabatda təsdiqləmişdi ki, “Türkiyə işgüzar dairələrinin nümayəndələrinin bütün kontingentinə hərbi dəstək vermək niyyəti var. Türkiyə post-taliban Əfqanıstanın nizamlanmasında iştirak edir” [12]. Bir çox cəhətdən Əfqanıstana bu cür yardım 2000-ci illərin əvvəllərindən onunla bağlıdır. Türkiyə hökuməti təkcə mehriban qonşuluq münasibətlərinin qurulmasını deyil, həm də onların nizama salınmasına yardım etməyi nəzərdə tutan “Qonşularla sıfır problem” konsepsiyasına sadiqdir [13, s.73]. Lakin etiraf etmək lazımdır ki, Yaxın Şərqdə və Şimali Afrikada baş verən qlobal siyasi dəyişikliklər respublika rəhbərliyinə yeni xarici siyasət strategiyasının mühüm hissəsini həyata keçirməyə imkan vermir.

Belə bir cəhəti vurğulamaq lazımdır ki, Əfqanıstanda yenidənqurma prosesinin başlıca tərəfdarlarından biri Türkiyə olmuşdur. Türkiyənin sabiq prezidenti Əhməd Necat Sezər bildirmişdi ki, onun ölkəsi Əfqanıstanda uzunmüddətli və möhkəm sabitliyin və yenidənqurmanın təmin edilməsi naminə yardımın davam etdirilməsi qətiyyətindədir. Beynəlxalq əməkdaşlıq üzrə Türkiyə agentliyi nəzdində proqramların əlaqələndirmə bürosunun Kabulda təsis edilməsi haqqında protokolun uzun zamandan bəri gözlənilən imzalanma mərasimi Kərzayın səfəri gedişində ən mühüm hadisə oldu. Bu agentlik məbləği təxminən 11,6 milyon dollar təşkil edən, Əfqanıstana Türkiyə maliyyə yardımının əlaqələndirilməsi ilə məşğul olurdu.

Ancaq Türkiyənin iştirakı özəl sektorda daha çox nəzərə çarpırdı. Əfqanıstanda yenidənqurma prosesində türk firmalarının həyata keçirdikləri layihələrin ümumi dəyəri 1 milyard dollardan çox olmuşdur. Ümumiyyətlə, türk sərmayələrinin həcminin getdikcə artması nəzərdə tutulurdu. Bu maraq xeyli dərəcədə iki ölkə arasındakı tarixi əlaqələrdən irəli gəlirdi, ancaq türklərin artan iştirakı iqtisadi mülahizələrə də malikdir. Türkiyə kompaniyaları artıq Mərkəzi Asiyanın qonşu bazarlarında özlərinin əhəmiyyətli iştirakını təmin etmişdilər. Türk kompaniyaları bir çox qeyri-enerji bölmələrində regionda aparıcı sərmayədarlara çevrilmişlər. Buna görə də bir çox türk firmaları üçün Əfqanıstana gəliş sadəcə olaraq onların fəaliyyət dairələrinin genişləndirilməsi deməkdir.

Türkiyə kompaniyaları başlıca olaraq Kabil-Qəndəhar-Herat magistral şosse yolunun yenidən qurulması daxil olmaqla Birləşmiş Ştatlar və Ümumdünya Bankı tərəfindən maliyyələşdirilən iri layihələrdə Amerika kompaniyalarının başlıca tədarükçüsü kimi dağıdılmış hərbi infrastrukturların bərpa olunmasında mühüm rol oynayırlar. Türkiyə tədarükçüləri Əfqanıstanda öz işlərini genişləndirmək istərdilər. Onlar Həmid Kərzayı vergi qaydalarını sadələşdirməyə inandırmağa və türk banklarının zəmanət məktublarını tanımağa çağırırdılar.

Biznes üzrə Türkiyə-Əfqanıstan Şurasının dərc etdiyi icmalda belə bir proqnoz öz yerini tapmışdı ki, Türkiyə və Əfqanıstan arasında ticarət investisiyaların və podrat işləri üzrə xidmətlərin genişləndirilməsi daha yüksək sürətlə artacaqdır. Biznes üzrə Şuranın İstanbulda təşkil etdiyi görüşdə Həmid Karzay bildirmişdi ki, “mən istəyirəm ki, türk kompaniyaları Əfqanıstana pul əldə etmək üçün gəlsinlər. Əgər siz pul əldə etsəniz, bu o deməkdir ki, əfqanlar da pul əldə edəcəklər” [14]. Talibanın devrilməsindən sonrakı dövrdə Türkiyə tərəfindən Əfqanıstanın müdafiə olunması konvensiya fəaliyyəti ilə məhdudlaşmadı. Türkiyə silahlı qüvvələri Əfqan milli ordusunun bərpa edilməsində mühüm rol oynayırdı. Onlar iki dəfə Beynəlxalq təhlükəsizlik qüvvələrinə başçılıq etmişdilər. Bu ilk dəfə 2002-ci ilin iyun ayında, 2003-cü ilin fevralında, sonra isə 2005-ci ilin fevral-noyabr aylarında baş vermişdi.

Həmid Kərzay ilə görüşü zamanı Türkiyə prezidenti Əhməd Sezər bəyan etmişdi ki, Türkiyə Əfqanıstanda əyalətlərdə bərpa üzrə öz komandasını for-

malaşdırır və Fransa və İtaliyanın köməyi ilə Kabulun təhlükəsizliyini təmin etmək üçün birgə mərkəz yaratmışdır. Orada əlavə olaraq 800 türk hərbi qulluqçusu yerləşdiriləcəkdir. Türkiyənin sabiq xarici işlər naziri Hikmət Çətin Əfqanıstanda NATO-nun mülki nümayəndəliyinin başçısı vəzifəsini tuturdu. H.Çətinin müşahidəsi altında Əfqanıstan demokratiyaya keçid prosesində iki mühüm addım ataraq dinc prezident və parlament seçkiləri keçirməyə nail olmuşdur. Hətta Əfqan hökuməti NATO-dan H.Çətinin səlahiyyət müddətinin artırılmasını xahiş etmişdi.

Qeyd etmək lazımdır ki, hələ 2001-ci ilin noyabrında Türkiyə Respublikasının prezidenti Əhməd Necdət Sezər İİR-in xarici işlər naziri Kamal Hərrazini qəbul edərkən apardıqları müzakirələrdə Əfqanıstanın "xarici müdaxilələrə izn verməyən bir hakimiyyətə qovuşmasının əhəmiyyətini və bu ölkədə bütün etnik qrupların təmsil edilmələrini təmin edəcək bir təşkilatlanma qurulmasının zəruriliyi" vurğulandı. Xüsusilə 11 sentyabr hücumlarından sonra Əfqanıstanda və onun ətrafında yaranmış vəziyyət dəyərləndirildi. Hərrazi də Taliban rejiminin Əfqanıstanda yaratdığı dözülməz vəziyyətə diqqət çəkmiş və belə bir vəziyyətin davamlı olmayacağını qeyd etmişdi. O, həmçinin vurğulamışdı ki, bu ölkədə yaradılacaq yeni rejimin çərçivəsinin müəyyən olunmasının gələcəkdə bir hakimiyyət boşluğuna yol açılmaması yönündən əhəmiyyət daşıdığını, İranın Talibandan sonrakı idarəçiliklə əlaqədar görüşlərini BMT və əlaqədar ölkələrə paylaşdığını, Əfqanıstanda qurulacaq hökumətdə bütün etnik qrupların təmsil edilməsini istədiklərini bildirdi.

2001-ci il noyabrın 6-da İİR-in xarici işlər naziri K.Hərrazi Türkiyənin dövlət və hökumət rəhbərləri tərəfindən qəbul edildi. Türkiyə-İran xarici işlər nazirlərinin görüşündə Əfqanıstan məsələsi də müzakirə obyekti olmuşdu. Türkiyə xarici işlər naziri İsmayıl Cem bildirmişdi ki, "türk əsgəri heç bir zaman Əfqanıstana hücum edən bir güc deyildir, türk əsgəri, əfqan xalqının terrorizmdən qurtulmasında iştirak edəcək bir güc olacaq" [15]. Pakistanla sıx əlaqələrə baxmayaraq, Türkiyə Hindistanı Əfqanıstanın milli barışıq prosesinə daxil etməyə çalışırdı.

İsmayıl Cem bu istiqamətdə görüşmələrin davam etdiriləcəyini bildirdi və bu məsələnin İran və Türkiyə kimi terrorizmdən ziyan çəkmiş ölkələr üçün xüsusi bir önəm daşıdığını qeyd etmişdi. İsmayıl Cem, İranın Əfqanıstana qonşu olmasından dolayı bu problemlə yaxından maraqlanan bir ölkə olduğunu xatırladaraq, Əfqanıstanın Türkiyə üçün də tarixi baxımdan önəmli bir ölkə olduğunu söylədi.

İsmayıl Cem, İİR-in xarici işlər naziri Hərrazinin Türkiyənin Əfqanıstana əsgər göndərmə qərarı ilə əlaqədar olaraq işlətdiyi "xarici müdaxilə problemi daha da ağırlaşdırır" sözlərini dəyərləndirərkən söyləmişdi ki, "bunlar, cənab Hərrazinin öz düşüncələridir" [16, s.48] .

## NƏTİCƏ:

- Nəticə etibarı ilə Türkiyə yerli əfqan əhalisində, Kabildəki Əfqanıstan hökumətində və Talibanda böyük rəğbət və xoş niyyət yaratdı.
- Türkiyə, kimin idarə etməsindən asılı olmayaraq Əfqanıstan xalqının təhlükəsizliyinə, rifahına, tərəqqisinə birinci dərəcəli diqqət yetirirdi.
- Bütün bunların fonunda, onilliklər ərzində Əfqanıstan xalqı üçün inkişafı, təhlükəsizliyi və rifahı prioritet hesab edən Türkiyənin gələcəkdə də mühüm oyunçu kimi qalacağını iddia etmək qanunauyğundur.
- Taliban həm də Türkiyənin 2001-ci ildə Taliban məhbuslarının qətliamında günahlandırdıqları Dostumla münasibətlərinə xoş baxmır.
- Bütün bunların fonunda, onilliklər ərzində Əfqanıstan xalqı üçün inkişafı, təhlükəsizliyi və rifahı prioritet hesab edən Türkiyənin gələcəkdə də mühüm oyunçu kimi qalacağını iddia etmək qanunauyğundur.

## ƏDƏBİYYAT SİYAHISI:

*1. Explaining Turkey's Cultural Diplomacy in Afghanistan during the AKP Era\\ Rahmat Hajimineh, Reza Dehghani, Fariborz Mohammadkhani\ Iranian Review of Foreign Affairs, Vol. 11, No. 1, Winter-Spring 2020, pp. 143-172.*

*2. Аватков В.А., Чулковская Е.Е. Центры турецкой культуры им. Юнуса Эмре – «мягкая сила» Турции // Геополитика и безопасность. 2013. № 2. С. 116–123.*

*3. Explaining Turkey's Cultural Diplomacy in Afghanistan during the AKP Era\\ Rahmat Hajimineh, Reza Dehghani, Fariborz Mohammadkhani\ Iranian Review of Foreign Affairs, Vol. 11, No. 1, Winter-Spring 2020, pp. 143-172.*

*4. Turkey's Transforming Political and Security Relationship with Afghanistan //by Umer Karim// August 12, 2021// https://newlinesinstitute.org/afghanistan/turkeys-transforming-political-and-secu-*

*rity-relationship-with-afghanistan/.*

*5. A history of fraternal Turkish-Afghan relations. Turkey prioritized security, prosperity, progress for Afghanistan people regardless of who ruled// Ahmet Gençtürk, 22.08.2021, https://www.aa.com.tr/en/asia-pacific/a-history-of-fraternal-turkish-afghan-relations/2342587).*

*6. Davutoğlu, 2001:459) Davutoğlu, Ahmet.2001. Stratejik Dreamlike: Türkiye'nin Uluslararası Konumu, İstanbul: Küre yayınları BSV Kitaplığı Stratejik Araştırmalar.*

*7. Резолюция Совета Безопасности ООН от 20 дек. 2001 г. № 1386 [Электронный ресурс] // ООН. URL: http://undocs.org/ru/S/RES/1386(2001).*

*8. bax.: Kinacioglu M., Gürzel A.G. Turkey's Contribution to NATO's Role in Post-Cold War Security Governance: The Use of Force and Security Identity Formation // Global Governance. 2013. No. 19. P. 589–610.*

*9. Alkan Özcan S. Turkish Foreign Policy towards Afghanistan: 2009–2010 // Perceptions. 2010. Autumn – Winter. Vol. XV, no. 3–4. P. 133–146.*

*10. Сафонкина Е.А. Турция как новый актор политики «мягкой силы» // Вестник международных организаций. 2014. Т. 9,№ 2. С. 145–166.*

*11. Алиева А.И. Афганская стратегия Турции: содействие безопасности и развитию // Вестник МГИМО. 2016. № 2 (47). С. 80–90.*

*12. Гурьев А.А. Турция расширяет свое присутствие в Афганистане [Электронный ресурс] // Институт Ближнего Востока. 2005. 9 апр. URL: http://www.iimes.ru/?p=3563 (дата обращения: 16.10.2018).*

*13. Дружиловский С.Б., Аватков В.А. Внешнеполитические идеологемы Турции // Обозреватель (Observer). 2013. № 6 (281). С. 73–89.*

*14. Афганистан рассчитывает на помощь Турции в экономическом развитии // http: // www.afqhanistan.ru (doc).*

*15. Обзор прессы. Турция. 06.11.2001.*

*16. Emre Bayır. Tehdit ve firsat karmaşasında pasif komşu İranın Afqanistan krizindeki durumu"// Stratejik analiz. Sayı 19, qasım 2001, s.47-51.*

*17. A history of fraternal Turkish-Afghan relations//Ahmet Gençtürk //22.08.2021// https: //www.aa.com. tr/en/asia-pacific/a-history-of-fraternal-turkish-afghan-relations/2342587*

**XÜLASƏ**

Məqalədə XXI əsrin əvvəllərində Türkiyənin xarici siyasətində baş vermiş dəyişikliklərdən bəhs olunur. Onun Asiya ölkələri ilə münasibətlərində Əfqanıstana xüsusi əhəmiyyət verməsi vurğulanır. 11 sentyabr hadisələrindən sonra Türkiyənin Əfqanıstanda iştirakını zəruri edən amillər sadalanır. Digər ölkələrdən fərqli olaraq Türkiyə sülhməramlı qüvvələri Əfqanıstanda yalnız dinc yenidənqurma prosesində iştirak edirdilər. Türk kontingenti NATO missiyasının bir hissəsini təşkil etsə də, onlar yalnız qeyri-döyüş əməliyyatlarında iştirak edirdilər.

Əfqanıstanda yenidənqurma prosesinin başlıca tərəfdarlarından biri Türkiyə olmuşdur. Türkiyənin bu missiyası əsasən Əfqanıstanda inzibati, məhkəmə, təhsil və səhiyyə sistemlərində islahatların aparılmasına, əfqan polis qüvvələrinin, ordusunun hazırlanmasına və sair sahələrə yönəldilmişdir. Türkiyə tərəfi Əfqanıstanda dağıdılmış hərbi infrastrukturların bərpa olunmasında mühüm rol oynayırdı.

Ancaq türklərin artan iştirakı iqtisadi mülahizələrə də malikdir. Onun iştirakı özəl sektorda daha çox nəzərə çarpırdı. Türkiyə kompaniyaları dağıdılmış hərbi infrastrukturların bərpa olunmasında mühüm rol oynayırlar. Əfqanıstan rəhbərliyi həyatın bütün sahələrində türk şirkətlərinin iştirakını arzulayırdı. Türkiyə-İran xarici işlər nazirlərinin görüşündə Əfqanıstan məsələsi də müzakirə obyekti olmuşdu. Türkiyənin Əfqanıstanda sülh missiyasını yerinə yetirməsi iki ölkə arasında mədəni əlaqələrin inkişafına da müsbət zəmin yaratdı.

**Açar sözlər:** *Taliban, Əfqanıstan, bərpa işləri, Türkiyə, mədəni əlaqələr.*

**TURKISH-AFGHAN RELATIONS AFTER THE OVERTHROW OF THE TAIBAN**

**Gulnara Mammadzade,**
***Ph.D., S.l., Baku State University,***
***email: gulka1@live.ru,***
***orcid.org/0000-0003-0387-1349***

**SUMMARY**

The article talks about the changes that have taken place in Turkey's foreign policy at the beginning of the 21st century. It is emphasized that he attaches special importance to Afghanistan in relations with Asian countries. After the events of September 11, the factors that necessitated Turkey's

participation in Afghanistan are listed. Unlike other countries, Turkish peacekeeping forces have only participated in the process of peaceful reconstruction of Afghanistan. Although the Turkish contingent was part of the NATO mission, it only participated in non-combat operations.

Turkey has been one of the main supporters of the reconstruction process in Afghanistan. This mission of Turkey is mainly aimed at carrying out reforms in the administrative, judicial, educational and medical systems of Afghanistan, training the Afghan police, army and other fields. The Turkish side has played an important role in the reconstruction of the destroyed military infrastructures in Afghanistan.

However, the growing participation of the Turks also has economic reasons. Its presence was more prominent in the private sector. Turkish companies play an important role in the reconstruction of destroyed military infrastructures. The Afghan leadership wanted the participation of Turkish companies in all spheres of life. The issue of Afghanistan was also discussed at the meeting of the foreign ministers of Turkey and Iran. The implementation of Turkey's peacekeeping mission in Afghanistan has created a positive basis for the development of cultural relations between the two countries.

**Key words:** *Taliban, Afghanistan, restoration work, Turkey, cultural ties.*

## ТУРЕЦКО-АФГАНСКИЕ ОТНОШЕНИЯ ПОСЛЕ СВЕРЖЕНИЯ РЕЖИМА ТАЛИБОВ

**Гюльнара Мамедзаде,**
***Д.ф.п.и., С.П., Бакинского Государственного Университета,***
***email: gulka1@live.ru,***
***orcid.org/0000-0003-0387-1349***

### РЕЗЮМЕ

В статье рассказывается об изменениях, произошедших во внешней политике Турции в начале 21 века. Подчеркивается, что он придает особое значение Афганистану в отношениях с азиатскими странами. После событий 11 сентября перечислены факторы, которые обусловили необходимость участия Турции в Афганистане. В отличие от других стран, турецкие миротворческие силы участвовали только в процессе мирного восстановления Афганистана. Хотя турецкий контингент был частью миссии НАТО, он участвовал только в небоевых операциях.

Турция была одним из главных сторонников процесса восстановления в Афганистане. Эта миссия Турции в основном направлена на проведение реформ в административной, судебной, образовательной и медицинской системах Афганистана, подготовку афганской полиции, армии и в других областях. Турецкая сторона сыграла важную роль в восстановлении разрушенной военной инфраструктуры в Афганистане.

Однако растущее участие турок также имеет экономические причины. Его присутствие было более заметным в частном секторе. Турецкие компании играют важную роль в восстановлении разрушенных военных инфраструктур. Афганское руководство хотело участия турецких компаний во всех сферах жизни. Вопрос Афганистана также обсуждался на встрече министров иностранных дел Турции и Ирана. Осуществление миротворческой миссии Турции в Афганистане создало позитивную основу для развития культурных отношений между двумя странами.

**Ключевые слова:** *Талибан, Афганистан, восстановительные работы, Турция, культурные связи.*

UOT 94

# BİRİNCİ DÜNYA MÜHARİBƏSİ İLLƏRİNDƏ İTALİYANIN TÜRKİYƏYƏ MÜNASİBƏTDƏ SİYASƏTİ

**VÜSALƏ VEYSƏLOVA**
*Gəncə Dövlət Universitetinin*
*Ümumi tarix kafedrasının dosenti*

*E-mail: vusala.veysalova@mail.ru*

Osmanlı dövlətinin torpaqları hesabına yeni ərazilər ələ keçirmək İtaliyanın Birinci dünya müharibəsinə cəlb edilməsinin əsas səbəblərindən biridir. İtaliya "Üçlər" İttifaqına daxil olsa da, 1900-cü ildən İngiltərə və Fransa ilə yaxınlaşmağa başladı. Bu yaxınlaşma ona Afrikada öz işğalçılıq planlarını həyata keçirmək üçün lazım idi. 1900-cü ilin fevralında İtaliya Fransa ilə saziş bağladı. Həmin sazişə görə, İtaliya Fransanın Mərakeşdəki "xüsusi maraqlarını" tanıyırdı, Fransa isə öz növbəsində İtaliyanın Tripolitaniya və Kirenaikada "xüsusi maraqlarını" tanıyırdı. 1902-ci ildə İtaliya İngiltərədən Tripolitaniyada maraqlarının olmaması barədə təminat aldı. İtaliya 1909-cu ildə Rusiya ilə saziş bağladı. Bu sazişə görə, Rusiya İtaliyanın Tripolitaniyada "xüsusi maraqlarını" tanıyırdı, əvəzində İtaliya çar Rusiyasının boğazlarda maraqlarına "xeyirxahlıqla yanaşacağını" öhdəsinə götürürdü. Bu sazişə arxalanan İtaliya 1911-ci il sentyabrın 29-da Türkiyəyə müharibə elan etdi [2, s35].

İtaliya-Türkiyə müharibəsindən əvvəlcə Balkanda vəziyyət çox qaranlıq idi. 1911-ci ilin martında albanlar üsyan qaldırmışdılar. İtalyan Kralının qayınatası olan Qaradağ Kralı alban üsyançılarını dəstəkləyirdi. İtaliya isə Qaradağı dəstəkləyir və onu Osmanlı dövlətinə qarşı çıxmağa təhrik edirdi [3, s65]. İtaliya həm də üsyan qaldıran albanlara Harribaldi təşkilatı vasitəsilə silah göndərirdi. 1911-ci ilin iyununda üsyan yatırıldı və üsyançılar Qaradağa sığındılar [5, s253].

Bu zaman İtaliya Osmanlı dövlətinə qarşı Asirdə (Səudiyyə Ərəbistanında əyalət) üsyan qaldıran Seyid İdrisi də dəstəkləyir və ondan öz mənafeyi üçün istifadə edirdi [6,s309].

1911-1912-ci illərdəki İtaliya-Türkiyə müharibəsi zamanı təcavüzə qurban olan Türkiyə dəfələrlə böyük dövlətlərdən vasitəçilik etmələrini xahiş etsə də onlardan heç biri İtaliya ilə münasibətlərini pozmaq istəmədi. Əksinə, onlardan hər biri şəraitdən istifadə edib daha çox fayda əldə etməyə çalışırdı.

İngiltərə İtaliyanın Tripolitaniyadakı təcavüzünə heç bir maneçilik göstərmədi, əksinə o, Misirdə kapitulyasiya rejiminin dəyişdirilməsi üçün İtaliyanın razılığını almaq istəyirdi.

Türkiyə öz iqtisadi və siyasi maraqlarının olmasına, baxmayaraq, Almaniya ilə "üçlər" ittifaqını canlandırmağa çalışdığına görə italyan planlarına mane olmadı, əksinə Türkiyəyə təzyiq göstərməyə başladı.

İtaliya-Türkiyə müharibəsi zamanı baş nazir olan Ciollitti öz xatirələrində İtaliyanın Tripolitaniyaya getmək haqqında qərarının birdən-birə meydana çıxmadığını, bunun üçün İngiltərə ilə Misir və Fransa ilə Mərakeş məsələsini müzakirə edərək özləri üçün bir sıra hüquqlar əldə etdiklərini və bunu böyük dövlətlərə təsdiq etdirdiklərini açıqca etiraf edir [1, s355]. Parisdəki Rusiya səfiri İzvolski isə 1911-ci il sentyabrın 27-də rus səfiri Neratova yazırdı: "Tittonidən öyrəndiyimə görə İtaliya Türkiyə hökumətinə Tripolitaniyanı işğal etmək istədiyini bildirəcək və 24 saat ərzində cavab istəyəcəkdir. Sözünə görə İtaliyanın bu təşəbbüsü Kiderlenin siyasətinin qaçılması mümkün olmayan qəti nəticəsidir" [2, s35].Təklənmiş Türkiyə İtaliyannn şərtlərini qəbul etməyə məcbur oldu. 1912-ci ilin oktyabrında imzalanan Lozzana sülhünə görə, İtaliyanın Tripolitaniya, və Kiremakanı işğal etməsi Türkiyə tərəfindən tanınırdı. İtaliya müharibənin gedişatında Dodekanez adalarını işğal etmişdir.

Böyük dövlətlər arasında əmiın amanlığın hələ hökm sürdüyü vaxt İtaliya strateji, maliyyə və siyasi cəhətdən bütün diqqətini Kiçik Asiyaya yönəltdi.

İtaliyanın İstanbula göndərdiyi yeni səfir Kamillo Karroninin məqsədi Aralıq dənizinin Qərbində italyan mənafelərinə himayədarlıq etməkdən ibarət idi [4, s16]. Avropa Türkiyəsi dağılmışdı. Kiçik dövlətlər öz talelərini öz əllərinə almışdır. Asiya Türkiyəsi də tezliklə eyni taleyi yaşayacaqdı. Lakin bu halda nəzarətin böyük dövlətlərin əlinə keçməsi ehtimalı böyük idi. Belə olduqda İtaliya özünün böyük dövlətlər arasında olmasını vacib sayırdı. 1913-1914-cü illərdə İtaliya özü üçün Kiçik Asiyada "maraq dairəsi" axtarırdı. İtaliyanın "maraq dairəsi"nə Dodekanez adalarından Adaliyaya qədər uzanan ərazilər daxil edilirdi.

Hələ 1911-ci ilin fevralında İtaliyanın o vaxt Xarici işlər naziri olan Quicciardini parlamerıtdəki çıxışında demişdi: "Osmanlı dövlətinin Aralıq dənizi sahillərindəki vilayətlərinin vəziyyəti bizi italyan torpaqları qədər maraqlandırır..."[1, s355]Bu da aydın idi ki, İtaliya bu "maraq dairəsi"nə Xarici işlər naziri San Culianonun tez- tez təkrar etdiyi "güman ki, Osmanlı imperiyasmm süqutu uzaqda deyil" fikrinin gerçəkləşdirilməsindən sonra sahib ola bilərdi.

Birinci Dünya müharibəsi ərəfəsində İtaliyanın Türkiyənin təsərrüfat həyatında payı çox cüzi idi. Onun Osmanlı borc payı 5% idi.

San Culiano İtaliyanın Aralıq dənizi siyasətini təsbit edən "əsas proqram" hazırladı. Bu proqram Sail Culiano 1913- cü il yanvarın 22-də baş nazir Ciollittiyə təqdim etdiyi memorandumda İtaliyanın Osmanlı dövlətinə qarşı izləyəcəyi yeni siyasətin əsaslarını irəli sürüdü. Memorandumda deyilirdi ki, "Türkiyə gələcəkdə güman ki, daxil olacağı böhranda Avropadakı torpaqlarını itirəcəkdir. İtaliyanın mənafeyi status-kvonun qorunmasındadır. Əgər Osmanlı dövlətinin ləğvi və paylanılması gündəliyə gələrsə, İtaliya da söz sahibi olmalıdır". Başda Antalya olmaqla Cənub-Qərbi Anadolu İtaliyanın Şərq siyasətində əsas yer tuturdu. Balkan müharibələrinin Osmanlı dövləti tərəfindən uduzulması da İtaliyanın bu bölgədə rahat hərəkət etməsinə imkan yaratmışdı.

Anadoluda nüfuz bölgəsi əldə etməyə çalışan İtaliya 1913-cü ilin baharında Antalyada konsulluq açmağa nail oldu və bölgə ilə bağlı layihələr hazırlamağa başladı. 1913-1914-cü illərdə İtaliyanın arxeoloji heyəti bölgədə tədqiqatlar aparırdı. Öz iqtisadi nüfuzunu gücləndirmək məqsədilə İtaliya İzmir və Qüdsdə Banko di Romanın şöbələrini açdı [4, s16]. 1913-cü il oktyabrın 10-da İtaliya Osmanlı dövlətinin bir dəmir yolu inşa etmək barədə imtiyaz aldı. Bu dəmir yolu Adaliya və Makri rayonlarında salınmalı idi [5, s253].

Birinci Dünya müharibəsi başlayanda İtaliya "Üçlər" İttifaqı haqqında müqavilə üzrə öz öhdəliklərini yerinə yetirmək niyyətində deyildi və buna görə 1914-cü il avqustun 3-də bitərəflik haqqında bəyannamə verdi.

Avropada müharibənin başlanması və İtaliyanın öz bitərəfliyini elan etməsindən sonra onun Kiçik Asiyada mövqeyi xeyli zəiflədi. İtaliyanın qüdrətli ordusunun olmaması onun Osmanlı imperiyasına qarşı iddialarına səthilik donu geyindirirdi.

Beləliklə, İtaliya hökuməti Antanta dövlətləri ilə danışıqlara başladı və aydınlaşdırmaga çalışırdı ki, Antanta tərəfdən müharibəyə qoşulmaq müqabilində nə qazana bilərdi. Antanta İtaliyaya bol vəd verməklə onu öz tərəfinə çəkdi. Çünki İtaliyanın iddiaları əsasən Avstriyaya, Albaniyaya və Türkiyəyə qarşı idi. Bu dövlətlər də Antanta ilə düşmən cəbhədə idilər və onların əraziləri ilə alver etməyi Antanta, özü üçün məqbul sayırdı.

İtaliya hər iki tərəflə danışıqlar aparırdı. Antanta, dövlətləri ilə danışıqlara müharibə başlayandan sonra 1914-cü ilində avqustunda başlanıldı. Avstriya-Macarıstan və Almaniya ilə İtaliya arasında danışıqlar Romada aparılırdı. Avstriya-Macarıstanla danışıqlar hətta 1915-ci il aprelin 25-də, yəni London müqaviləsinin bağlanması ərəfəsində aparılırdı [2, s 35].

Osmanlı dövləti İtaliya ilə dinc münasibətləri davam etdirmək niyyətində idi. Türkiyə müharibəyə daxil olduqdan sonra baş nazir rəsmi olaraq İtaliya hökumətinə bildirdi ki, Türkiyə heç vaxt italyan mənafelərinin pozulmasına yol verməz və onunla dinc şəraitdə yaşamaq istəyir [3, s65].

İtaliya hökuməti isə Osmanlı dövlətinin hərəkətlərini həssaslıqla izləyir və bu hərəkətlərə qarşı öz münasibətini bildirməkdən çəkinmirdi. 1914-cü ilin noyabrında şeyxislam tərəfindən cihad elan edildikdən sonra İtaliya hökuməti öz etirazını ifadə etmiş və bildirmişdi ki, müqəddəs müharibə elan edilməsi iki ölkə arasında münasibətlərin kəskinləşməsinə gətirib çıxara bilər. İtaliya hər iki tərəflə danışıqlar aparmaqla bərabər imkan düşdükdə torpaqları ələ keçirməyi də unutmurdu. 1914-cü ilin oktyabrında İtaliya Soseno adasını ələ keçirdi [5, s253]. İtalyan millətçi təbliğatçıları bu adanı Adriatik dənizinin Cəbəltariqi adlandırırdılar. Dekabrda isə İtaliya Albaniyaya məxsus olan Adriatik sahilində yerləşən Valonanı işğal etdi. Marna döyüşündən sonra İtaliyanın baş naziri Salandra öz müttəfiqlərini hədələməyə başladı ki, ictimai əhvali-ruhiyyə onu Antanta tərəfə meyl etməyə məcbur edir. Salandra Avstriya-Macarıstanda İtaliyanın bitərəfliyinə görə Trentino və hətta Triyesti tələb etməyə başladı. Bu zaman İtaliyada mövcud olan milliyyətçi cərəyanın nümayəndələri hesab edirdilər ki, Adriatik dənizində italyan üstünlüyünün davam etdirilməsi üçün müharibəyə Avstriya-Macarıstana qarşı daxil olmaq lazımdır.

İtaliyanın London və Parisdə apardığı yoxlamalar bir nəticə vermədiyindən Salandra 1914-cü ildə sayıq və fəal bitərəflik elan etdi [6, s309].

Birinci Dünya müharibəsinin başlanmasından

vaxt keçdikcə bitərəf dövlətlərin rolu və dəyəri artırdı. İtaliyanın Buxarestdəki nümayəndəsi öz rus həmkarına bu barədə demişdir ki, İtaliyanın müharibəyə daxil olması hər tərəfə üstünlük verə bilər. Ona görə İtaliya çalışırdı ki, öz yardımını "mümkün qədər baha qiymətə satsın" [2, s35].

1915-ci il fevralın 9-da Sazonov Dumada bəyan edir ki, Rusiya yaxın vaxtda açıq dənizə çıxacaqdır. Burjua liberallarının lideri Milyukov digər dövlətlərlə birlikdə Osmanlı paytaxtının və boğazların alınmasını tələb edirdi. Bir neçə gün sonra ingilis-fransız donanması Çanaqqala əməliyyatına başladı. Bu əməliyyat İtaliyanı təşvişə saldı. İtaliya hökuməti hesab edirdi ki, Çanaqqala əməliyyatı isə Osmanlı mülklərindən pay almayacaq. Buna, görə İtaliya müharibəyə qoşulmasa ona Osmanlı mülklərindən pay almayacaq. Bu hadisələrdən bir qədər əvvəl Petroqraddakı Yunanıstanın diplomatik nümayəndəsi bildirmişdi ki, italyan səfiri A.Kariotti "mənə çox qəti ifadə etdi ki, boğazlar və İstanbul məsələsinin təkcə Antanta tərəfindən həll edilməsi bu üç dövləti Aralıq dənizinin şərq hövzəsində müstəsna üstünlüyə nail olması demək olacaq ki, bu da qətiyyən İtaliyanın mənafeyinə cavab vermir" [5, s253]. Bu barədə Kariotti Rumıniyanın diplomatik nümayəndəsinə də demişdir.

Vyanada aparılan danışıqların dayandırılmasında İtaliya hökuməti 1915-ci il martın əvvəllərində Antanta ilə öz alverini gücləndirdi və onun qarşısına yeni tələblər qoydu. Tezliklə İtaliya hökuməti Antantaya təzyiq etmək üçün yeni vasitə tapdı. Belə ki, martın 8- də Vyana güzəştə gedərək hətta Habsburqların evinin şəxsi mülkləri hesabına İtaliyaya ərazi güzəşti etməsi barədə kral şurasında qərar çıxartdı. Lakin Mərkəz dövlətlərinin qoşunlarının Polşa və Qallitisiya ərazisində məğlubiyyətə uğramaları İtaliyanın Antanta tərəfə keçməsini sürətləndirdi.

Antanta dövlətləri arasında İtaliyanın müharibəyə qoşulması məsələsinə fikir ayrılığı vardı. Sazonov İtaliyanın müharibəyə qoşulmasını mənfi mövqedən qiymətləndirirdi. O, hesab edirdi ki, İtaliyanın müharibəyə qoşulması müharibənin sonunda sülh danışıqlarının gərgin keçməsinə səbəb olacaq. Delkkase isə İtaliyanın müharibəyə qoşulması fikrini müdafiə edirdi. O, hesab edirdi ki, İtaliya müharibəyə qoşularsa, təkcə Çanaqqala əməliyyatında iştirak etmədə yox, həm də Avstriyaya qarşı müharibə aparmaqla da fayda gətirəcək.

1915-ci il martın 10-da Londondakı İtaliya səfiri markiz İmperialı Qreyə bildirdi ki, İtaliyaya müharibə üçün hərbi qüvvə təqdim edə bilər. İtaliya Antantaya hərbi ittifaq bağlamaq təklifi ilə müraciət etdi. Bunun əvəzində İtaliya Trentinonun, Cənubi Tirolun, Triyestin, bütün İstriyanı, Dalmasiyanı, Dodakanez adalarını, Albaniya Valonasının ona verilməsini, qalan Albaniya üzərində italyan protektoratlığının yaradılmasını tələb etdi. İtaliya eyni zamanda Türkiyə əyalətləri olan İzmir və Adaliyaya qarşı öz tələblərini irəli sürdü. Rusiyanın təkidi ilə İtaliya Adriatik dənizinin şərq sahillərindəki Cənubi Slovenya torpaqlarına öz iddialarından əl çəkdi. İtaliyanın bütün digər tələbləri 1915-ci il aprelin 26-da Londonda İngiltərə, Fransa, Rusiya və İtaliya arasında imzalanan gizli sazişdə öz əksini tapdı.

Sazişə görə, İtaliyanın 1912-ci ildən bəri işğal etdiyi Dodekanez adaları üzərində suverenliyi müttəfiqlər tərəfindən qəbul edilirdi [3, s65]. Sazişin 9-cu maddəsində deyilirdi: "Fransa, İngiltərə və Rusiya etiraf edirlər ki, İtaliya Aralıq dənizində tarazlığının qorunub saxlanmasında maraqlıdır və Asiya Türkiyəsinin tam bölüşdürüləcəyi təqdirdə İtaliyanın da Antalya ətrafında payına düşəcəyi hissəyə sahib olacağını qəbul edirdilər. Artıq İtaliya burada özü üçün bəzi hüquqlar və mənafelər təmin etmiş və bu da ingilis və italyan konvensiyasının bağlanması üçün zəruri şərait hazırlamışdır. Əgər Fransa, İngiltərə və Rusiya müharibə zamanı Asiya Türkiyəsini ərazisinə işğal etmiş olsalar, Antalya inzibati ərazi bölgüsündən Aralıq dənizini əhatə edən hissəsi buranı almağa hüququ olan İtaliyaya veriləcəkdir".

London sazişi müharibəyə daxil olmaq müqabilində İtaliyaya xeyli ərazi vədləri versə də, millətçi İtalyan tarixçiləri xarici işlər naziri Sonninonu müttəfiqlərdən yaxşı pay almamaqda təqsirləndirirdilər. Onlar Sonninonu və İtaliyanın Londondakı səfiri İmperialını Qrey tərəfindən aldadıqları üçün İtaliyanın Türkiyədə xüsusi maraqlarını elan etməməkdə və bu maraqların Fransa və Rusiya tərəfindən tanınmasına cəhd etməməkdə günahlandırırdılar. İtaliyanın Antanta, tərəfindən müharibəyə qoşulması haqqında Londonda sövdələşmələr gedən bir vaxtda Türkiyə Midhəd paşa başda olmaqla, Romaya nümayəndə heyəti göndərmişdi ki, separat sülh danışıqlarında vasitəçi olmağı İtaliya hökumətindən xahiş etsin. İtaliya hökuməti isə Portanın rəsmi müraciət edəcəyi təqdirdə vasitəçi olmağa hazır olduğunu bildirmişdi [1, s355].

London sazişinə görə İtaliya bir aydan sonra Antanta, tərəfdən müharibəyə girəcəyinə söz verirdi.

Mayın 3-də İtaliya "Üçlər" İttifaqı haqqında müqaviləni ləğv etdi və mayın 23-də Avstriya-Macarıstana müharibə elan etdi. Həmin il avqustun 21-də İtaliya Türkiyəyə müharibə elan etdi.

Sayks-Piko sazişi bağlanarkən Antanta dövlətləri İtaliyaya heç bir məlumat verməmişdilər. 1916-cı ilin mayında İngiltərənin baş naziri Askvit Osmanlı torpaqlarının bölüşdürülməsi haqqında keçirilən müzakirələr barəsində açıqlama verdikdən sonra İtaliya təşvişə düşdü. 1916-cı il iyulun 17-də Parisdəki italyan səfiri Tittoni Fransa Xarici İşlər Nazirliyinə İtaliyanın Antalya bölgəsini tələb etdiyini, eyni zamanda, Kilikiya və Suriya ilə də maraqlandığını bildirdi. İtaliya Sayks-Piko sazişinin mətni ilə deyildi [9, s249]. Fransanın etirazına baxmayaraq, Antanta dövlətləri 1916-cı il oktyabrın 12-də Sayks-Piko sazişinin mətnini İtaliyaya təqdim etdilər. Noyabrın 4-də İtaliya hökuməti Antanta dövlətlərinə öz memorandumunu təqdim etdi. Memoranduma görə İtaliya təkcə Antalya bölgəsini tələb etməklə kifayətlənməyib, eyni zamanda Konya, Aydın, İzmir də daxil olmaqla fransız nüfuz dairəsi olan Adana vilayətini də tələb edirdi [6, s309].

1916-cı il noyabrın 19-20-də Petroqraddakı italyan səfiri Karlotti Rusiya Xarici İşlər Nazirliyinə İtaliya Xarici İşlər Nazirliyinin 1 və 2 nömrəli xatırlatma məktublarını təqdim etdi. Bu xatırlatma məktublarında bir sıra yeni tələblər, o cümlədən, Fələstində italyan maraqlarının təmin edilməsi, İtaliya ilə razılaşma olmadan Kiprin hər hansı dövlətə güzəşt edilməməsi tələb edilirdi. Dekabrın 2-də Sonnino Antanta dövlətlərinin Romadakı səfirlərinə İtaliyanın Kiçik Asiyadakı tələbləri ilə bağlı memorandum təqdim etdi. Bu zaman İngiltərə hökumətində müharibə nəticəsində gücdən düşmüş Rusiyaya qarşı soyuq münasibət formalaşırdı. Əksinə, London İtaliya ilə yaxınlaşmağa üstünlük verirdi. İtaliyanın təkidi ilə İngiltərə xarici işlər naziri Balfur italyan tələbləri ilə bağlı konfrans çağırılmasını 1917-ci il yanvarın 29-na təyin etdi. Dörd dövlətin nümayəndələrinin Londonda çağırılan bu konfransda. Balfur İtaliyanın İzmirlə bağlı tələbinin yerinə yetirilməsinin əleyhinə çıxdı [3, s65]. Konfransda iştirak edən İngiltərənin İstanbuldakı sabiq səfiri Mallet İtaliyanın tələbləri ilə bağlı yeni təklif irəli sürdü. Bu təklifə görə İtaliyanın Anadoludakı nüfuz bölgəsi Quşaadasında başlayaraq düz xətt istiqamətində Erciyaş dağına qədər və sonra isə cənuba dönərək, Amur burnuna qədər davam etməli idi. Bu plana görə, İtaliya İzmir və Mersindən imtina etməli idi. Markiz İmperialı bu yeni planı müzakirə etməkdən imtina etdi. 1917-ci ilin fevralında Sonnino müttəfiq dövlətlərə bildirdi ki, İtaliya ya İzmirdən, ya da Mersindən imtina edə bilər, lakin İtaliya bunların ikisindən də imtina etmək fikrində deyildi [5, s253].

1917-ci ilin martında Sonnino Rusiyanın Romadakı səfiri Girsə bildirmişdi ki, Kiçik Asiya məsələsi ilə bağlı parlamentdə onu günahlandırsalar, o açıq ürəklə etiraf edəcək ki, həqiqətən ölkə qarşısında günahkardır və istefaya gedəcək. Sonnino özünün günahkar olmasını Qreyə inanması ilə əlaqələndirirdi. Qrey Sonnino inandırırdı ki, London müqaviləsi imzalanan gündən İtaliya bütün danışıqlarda bərabər hüquqlu müttəfiq olacaq [ 6, s309].

Martın 6-da konfrans yenidən toplanan zaman italyan səfiri bildirdi ki, İzmirin İtaliyaya veriləcəyi təqdirdə Malletin planı qəbul edilə bilər.[7, s220]

1917-ci il aprelin 11-də İngiltərə və Fransanın baş nazirləri Lyod Corc və Ribo Folestoda görüşdülər və İzmirin İtaliyaya verilməsi barədə razılığa gəldilər. Bir neçə gün sonra aprelin 19-21-də Sen Jan de Moriyendə İngiltərə, Fransa və İtaliyanın nümayəndələri konfrans keçirdilər. Rusiya bu Konfransda iştirak etmədi və konfransın işi barədə ona məlumat verilmədi.

Sen Jan de Moriyendə imzalanan sazişə görə Rusiya hökumətinin razılığı ilə İzmir, İzmirin şimalı, Afyonun cənubu, Qızılırmağın cənubu və ətrafı, Mersinin qərbindən Aralıq dənizinə qədər uzanan zolağın içərisində qalan cənub-qərbi Anadolu da İtaliyaya vəd edilirdi..[1, s355]

Lakin Sen Jan de Moriyen sazişi İtaliya üçün uğurlu olmadı. Uğursuzluğun ən mühüm əlaməti ondan ibarətdir ki, bu saziş Rusiya tərəfindən təsdiq edilməli idi. Rusiya isə bunu etmədi. 1917-ci ilin noyabrında hakimiyyətə gələn bolşeviklər böyük dövlətlərin Osmanlı dövləti ilə bağladıqları gizli sazişləri nəşr etdi. Gizli sazişlər dərc ediləndən sonra məlum oldu ki, İtaliyaya vəd olunan torpaqlar digər dövlətlərə vəd edilənlərlə eynilik təşkil edirdi [8, s57].

1918-ci ilin oktyabrında İngiltərə və Fransa elan etdilər ki, Sen Jan de Moriyen sazişinin şərtləri Rusiya tərəfindən təsdiq edilmədiyi üçün etibarsızdır.

**Açar sözlər:** *Üçlər ittifaqı, Antanta bloku, işğalçılıq planları, gizli London müqaviləsi, Sen Jan de Moriyen sazişi.*

## ƏDƏBİYYAT SİYAHISI


*1. Раздел Азиатской Турции. По секретным документам б. Министерства иностранных дел. Под ред. Е.А.Адамова. М., 1924, с.355.*

*2. Bayur Y.H. Türk inkılabı tarihi. C.II, krsım I. Ankara, 1983, s.35.*

*3. Bosworth R.J.B. Italy and the End of Ottoman Empire. In the book: The Great Powers and the End of the Ottoman Empire. Edited by Marian Kent. London, 1984, p.65.*

*4. Раздел Азиатской Турции... с.16.*

*5. Международные отношения в эпоху империализма: Документы из архивов Царского и Временного правительств. 1878-1917. Серия III, 1914-1917, т. VII, часть II. М.-Л., 1935, с.253.*

*6. Константинополь и проливы. Т .1. М., 1925, с .309.*

*7. Алдрованди Марескотти. Дипломатическая война. Воспитания и отрывки из дневника (1914-1919 гг.). Перевод с итальянского. М., 1944, с. IX.*

*8. Милюков П.Н. Чего ждет Россия от войны? Пгр. 1915, с.57.*

*9. Bayur Y.H. Türk inkılabı tarihi. С.Ш, kisim II, s.249.*

*10. Раздел Азиатской Турции. с.248-249, 250; Anderson M.S. The Eastern Question 17741923. New York, 1966, p.343.*


**Доцент Вусала Вейсалова**

### ПОЛИТИКА ИТАЛИИ В ОТНОШЕНИИ ТУРЦИИ В ГОДЫ ПЕРВОЙ МИРОВОЙ ВОЙНЫ

### РЕЗЮМЕ

Одной из основных причин участия Италии в первой мировой войне было стремление расширения своей территории за счет Османских владений. В 1913-1914 годах Италия занималась приобретением для себя «сфер влияния» в Малой Азии. После начала первой мировой войны Италия начала переговоры с обеими воюющими сторонами о вступлении в войну. 26 апреля 1915 года в Лондоне между Англией, Францией и Россией с одной стороны и Италией с другой было заключено соглашение, по которому Италия взамен вступления в войну должна была получить, кроме всего прочего, свою долю и от Османских владений. В августе 1915 года Италия объявила войну Турции. В апреле 1917 года в Сен Жан де Мариенне Италия заключила соглашение с Англией и Францией, по которому с согласия России, получила новые Малоазиатские земли Османской империи. Но Россия не утвердила это соглашение и после опубликования секретных соглашений об Османской империи стало ясно, что земли? на которые претендовала Италия были обещаны и другим странам.

**Ключевые слова:** *Тройственный союз, блок Антанты, планы инвазии, тайный договор Лондон, договор Сен-Жан-де-Мариенн.*

**Docent Vusala Veysalova**

### ITALIAN POLICY TOWARDS TURKEY IN THE YEARS FIRST WORLD WAR

### RESUME

One of the main reasons for Italy's participation in the First World War was the desire to expand its territory at the expense of Ottoman possessions. In 1913-1914 Italy was busy acquiring "zones of influence" for itself in Asia Minor. After the outbreak of the First World War, Italy began negotiations with both sides to enter the war. On April 26, 1915, an agreement was signed in London between England, France, and Russia on the one hand, Italy on the other, in which, among other things, Italy would get its share from Ottoman possessions in return for entering the war. In August 1915, Italy declared war on Turkey. In April 1917, Italy signed an agreement with Britain and France at Saint Jean de Marienne, in which, with the consent of Russia, the Ottoman Empire received the new territories of Asia Minor. However, Russia did not approve of this agreement, and after the publication of the secret agreements regarding the Ottoman Empire, it was revealed who owned the land that Italy claimed to be promised to other countries.

**Key words:** *Triple allience, the block of Entente, plans of the invension, the secret treaty London, the treaty of Saint Jean de Marienne.*

UOT 930

# ANTİK DÖVR METALLURGİYASININ ÖYRƏNİLMƏSİ ASPEKTLƏRİ

**NƏRGİZ AXUNDOVA**
*AMEA, Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutu, aparıcı elmi işçi, tarix üzrə fəlsəfə doktoru*

*E-mail: nargizaxundova80@gmail.com*

İnsanın metalla ilk tanışlığı necə olub və metallurgiya istehsalı haradan yaranıb? Müasir fikirlərə görə, qədim insanın tanış ola biləcəyi ilk metallar "doğma" adlanan metallardır ki, bunlardan ən çox yayılmışları qızıl və misdir. Gümüş külçələr təbiətdə qızıl və misdən daha az (20-30 dəfə) olur, əlavə olaraq onlar daha az cəlbedici və parlaq parıltıya malikdirlər, bunun nəticəsində gümüş, çətin ki, insanın "ilk" metalı olduğunu iddia edə bilər. Düzdür, bəzi tədqiqatçıların fikrincə, bu rolu qeyri-adi mənşəli bir metal, yəni meteorit dəmir oynaya bilərdi ki, bu da əcdadlarımızın diqqətini təkcə görünüşü ilə deyil, həm də meteoritin düşməsi ilə müşayiət olunan xarakterik hadisələrlə cəlb edə bilərdi. Adıçəkilən metallardan hansının ilk dəfə insanın diqqətini cəlb etməsindən asılı olmayaraq, heç şübhəsiz ki, "yunulmuş daş" dövründə əcdadlarımız metal emalının ibtidai üsullarını mənimsəmək üçün kifayət qədər vaxta malik idilər.

Qədim Azərbaycan dövlətlərindən olan Atropatna və Albaniyanın tarixi-mədəni məsələlərinin tədqiqi Azərbaycan tarixinin öyrənilməsinin ən mühüm məsələlərindən biri olmaqla yanaşı, tədqiqatçıların da diqqət mərkəzindədir. Lakin yazılı məlumat və arxeoloji materialların olmaması səbəbindən onun tarixi və mədəniyyəti ilə bağlı bir çox məsələlərə aydınlıq gətirilə bilinmədi. Bundan əlavə, bu əraziyə daxil olan bəzi rayonlarda əvvəllər heç bir arxeoloji tədqiqat işi aparılmamışdır və ya tədqiqat işləri kiçik və yalnız kəşfiyyat xarakterli olmuşdur. Bundan əlavə, indiyə qədər arxeoloji tapıntılar ölkə tarixinin bütün dövrlərini eyni dərəcədə əhatə etmir. Albaniyada eramızın IV-III əsrlərinə aid abidələr geniş şəkildə öyrənilməmişdir. Bir çox hallarda mətn mənbələri bu problemlərdən çıxış yolu tapmağa kömək edir. Ona görə də mətn mənbələrini öyrənmədən bir çox problemləri həll etmək mümkün deyil (4, s.89).

Müxtəlif xalqlar, ölkələr və bölgələr arasında münasibətlər müxtəlif dövrlərdə tamamilə fərqli formalarda olmuşdur. Hətta iqtisadi, sosial və mədəni səviyyədə müxtəliflik münasibətlərin qurulmasına mane ola bilməz. Bütün bunlar müxtəlif xalqların elmi və mədəni nailiyyətlərinin qarşılıqlı zənginləşməsinə, bu da öz növbəsində hər bir ölkənin mədəni, iqtisadi və kommersiya statusunun inkişafına səbəb olmuş, digər ölkələr və xalqlarla əlaqələrin daha da genişlənməsinə təsir etmişdir. Bu mənada, Cənubi Qafqaz xalqları ilə digər ölkələr və xalqlar arasında əlaqələr diqqətə layiqdir.

Azərbaycanın qədim tarixi yazılı mənbələrdə və arxeoloji yazılarda öz əksini tapmışdır. Ümumiyyətlə, bu dövr haqqında yunan, latın, erməni, gürcü, fars, ərəb və s. mənbələrdə, habelə nisbətən sonrakı dövr tarixçi və coğrafiyaşünaslarin əsərlərində müəyyən qədər məlumat vardır (8, s.106). İki mənbənin, mətn mənbəsinin və arxeoloji materialın qarşılıqlı tədqiqi Azərbaycan tarixinin bu dövrü haqqında təsəvvür yarada bilər. Azərbaycanın qədim tarixinə yunan və Roma yazıçılarının əsərlərində rast gəlinir. Azərbaycanın qədim əhalisi, məşğuliyyətləri, etnik tərkibi, iqtisadiyyatı, sərhədləri, başqa ölkələrlə ticarət əlaqələri, mədəniyyətinin səviyyəsi, siyasi tarixi və metallurgiyası haqqında müəyyən anlayışı qədim yunan və Roma tarixçilərinin əsərlərini öyrənməklə əldə etmək olar. Qədim Azərbaycan dövləti haqqında Strabon, Korneli Tasit, Polibiy, Arian, Yuli Solin, Kvintessens Ruf, Klavdi Elian, Dion Kassi, Ptolemey və başqaları məlumat vermişlər (1, s.98).

Hələlik yazılı mənbələr və Azərbaycan ərazisində aparılan arxeoloji qazıntıların nəticələri Albaniyada əhalinin qədim və incə mədəniyyətə malik olduğunu, qədim zamanlardan qonşu dövlətlərlə ticarət əlaqələrində olduğunu deməyə imkan verir.

Yazılı mənbələrin və sənədlərin tədqiqi yolu ilə belə qənaətə gəlmək olar ki, qədim Azərbaycan xalqı tarix boyu öz müstəqilliyini qoruyub saxlamağa, mədəniyyətini inkişaf etdirməyə çalışıb.

Kalankatlı Albaniyada metallurgiya və dəmir, mis, qızıl, gümüş istehsal edən, əritmə və emal edən sənətkarlar haqqında məlumat verir. Mətn mənbələri və Gədəbəy, Şirvan, Qarabağ, Şəki və b. ərazidəki arxeoloji tapıntılar sübut edir ki, Albaniya qədim metallurgiya mərkəzlərindən biridir. Kambisenada metallurgiya və dəmir emalı xüsusilə vacibdir. Xü-

susi metal emalı texnikası var. Arxeoloqlar bu ərazilərdə metal formalar və xəncər, oraq, qayçı və balta kimi istehsal alətləri tapdılar. Kalankatlı yazır ki, Albaniyada dəmir, mis, qızıl və gümüş hazırlanırdı. Qızıl, gümüş, dəmir filizi, mis mədənlərində çalışan sənətkarlar çoxdur. Zərgərlər də əşyaları qızıl, gümüş və qiymətli daşlarla bəzəyirdilər. Alban zərgərləri qiymətli metallardan hər cür bəzək əşyaları düzəldirlər (2, s.106).

Albaniyada qızıl, gümüş, mis zinət əşyaları - sırğalar, bilərziklər, boyunbağılar, üzüklər, kəmərlər və s. düzəldirlər. Albaniyada zərgərlik sahəsində qiymətli metallardan, o cümlədən misdən stəkan, boşqab, qaşıq və digər məişət əşyalarının istehsalı da xüsusi yer tutur. Tunc və gümüşdən quş, heyvan, insan başı formasında qablar hazırlanırdı. Bu sahədə Alban sənəti Şərqi Asiya, Yunan və Roma mədəniyyətlərinin təsiri altındadır. Strabon yazır ki, albanlar nizə, ox, yay, iri qalxan və dəbilqə kimi silahlardan istifadə edirdilər. Arxeoloji qazıntılar zamanı tunc və dəmir oxların, cidaların və digər qədim silahların tapılması albanların əla silahlar hazırladıqlarını sübut edir. Alban çarlarının və zadəganlarının öz damğaları var. Kalankatlı yazır ki, bu möhürlər halqavarıdır. Aquen kilsə məclisində qəbul edilmiş qanunnamə ilə bağlı mənbədə qeyd edilir ki, çar və onun bütün əyanları bu möhürə öz üzük-möhürlərini qoydular. Arxeoloji tapıntılar bu məlumatı təsdiqləyir. Mingəçevirdə aparılan qazıntılar zamanı çoxlu üzüklər və möhürlər aşkar edilmişdir ki, onlardan bəziləri yerli sənətkarlar tərəfindən hazırlanmışdır.

Qızıl sırğalar Mingəçevir, Yaloylutəpə, Xınıslı, Qalagah, Şatırlı (Bərdə) və başqa yerlərdə aşkar edilmişdir.

Keramika bilərziklərin fərdi nümunələri də məlumdur. Bu bilərziklər həm də qədim albanların dünyagörüşünü əks etdirən ritual əşyalar idi. Boyunbağı əsasən bu dövrə aid erkən dəfn materialındandır. Üzük və sırğalara tez-tez alban kişi və qadınlarının qəbirlərində rast gəlinir və onlar müxtəlif formalarda olur. Qaş halqaları möhür rolunu oynayır və adətən qaşsız üzüklərə nisbətən xronoloji ardıcıllıqla daha yenidir. Mühürlü üzüklərin xarici nümunələri adətən Romadan gəlir. Onlar təsdiq etdilər ki, Qafqaz Albaniyasının Roma ilə geniş əlaqələri var (9, s.110). Maraqlıdır ki, qədim Şatırlı yaşayış yerinin yaxınlığındakı nekropollarda sırğa və digər ornamentlərin hazırlanmasında istifadə olunan daş qəliblər, müxtəlif ornamentlər aşkar edilib. Həmçinin qeyd etmək lazımdır ki, Şatırlı antik məskəni yaxınlığında olan qəbiristanda qazıntı zamanı müxtəlif zərgərlik məmulatı ilə birlikdə tökmə üsulu ilə sırğalar və digər bəzək şeyləri hazırlamaq üçün işlədilən daş qəliblər tapılmışdır

Kırtəpə kəndi yaxınlığındakı torpaq qəbirlərdən iki gümüş kasa tapılıb. Böyük qablarda dəfn etmək adəti Albaniyada geniş yayılmışdır. Barel basdırmaq adəti ən qədim əsrlərə gedib çıxır. Belə dəfnlər müxtəlif dövrlərdə Şərqi Asiyada və Qafqazda geniş yayılmışdır. Bu adət Albaniyada eramızdan əvvəl I minilliyin ikinci yarısından eramızın VIII əsrinə qədər mövcud olmuşdur. Albaniyada məzar daşının digər növü ölülərin gil tabutlarda basdırılmasıdır. Kiçik gil tabut böyükdən nəinki ölçüsünə, həm də formasına görə, bir və ya iki tutacaqlı və deşiksizdir. Çərçivələr qatlanmış vəziyyətdə sola və ya sağa yığılır. Torpaq tabutunun basdırılması adəti əsasən Yalutəpə mədəniyyəti dövrünə təsadüf edir (7, s.76).

Albaniya ərazisində çoxlu sayda dəmir əşyaları tapılıb. Əksəriyyəti yerli sənətkarların məhsullarıdır, lakin xaricdən gətirilən məhsullar da var, əsasən gözəl qab-qacaq və zərgərlik məmulatları. Alban cəmiyyətində zadəgan ailələrinin gümüş və bürüncdən geniş istifadə etməsi də cəmiyyətin heterojenliyindən açıq şəkildə xəbər verir. Metal qablardan başqa, şüşə qablardan da geniş istifadə olunur. Alban şüşə qablar istehsalının eramızın II-III əsrlərinə aid olduğu güman edilir. Əvvəlki dövrdə Şərq ölkələrindən gətirilirdi.

Albaniyada ən məşhur sənət növlərindən biri dulusçuluqdur. Arxeoloji qazıntılar nəticəsində Mingəçevir, Qəbələ, Şamaki, Toprakqala, İsmayıllı və s. Kalankatlı hətta şah üçün qiymətli saxsı qabların hazırlandığını bildirir. Zərgərlər saxsı qablarını qiymətli daşlar, qızıl və gümüşlərlə bəzəyirdilər. Albaniyada dulusçular gözəl qablar düzəldirlər. Tabletlər quşlar, heyvanlar və insan başları şəklində hazırlanırdı. Bu növ mis və gümüş məmulatları da mövcuddur. Dulusçuluq eramızın III əsrinə qədər yüksək inkişaf etmişdir. Lakin eramızın III əsrində dulusçuluq texnikasında tənəzzül baş verdi. Bu, bir tərəfdən müharibələr və köçəri tayfaların basqınlarının güclənməsi, dulusçuların yad ölkələrə sürgün edilməsilə, digər tərəfdən isə Albaniyada bu dövrdə şüşə, ağac və metaldan hazırlanan məişət əşyalarının dulus məmulatlını sıxışdırıb aradan çıxarması ilə izah olunur. III əsrdən etibarən şüşə, metal və ağacdan hazırlanmış saxsı məmulatların istehsalı tənəzzülə

səbəb oldu. Ailələrin aşağı təbəqələrində dulusçuluq tədricən üstünlük təşkil edirdi. Alban dulusçuları şah üçün müxtəlif qiymətli qablar düzəldir, zərgərlər onları qiymətli metallarla bəzəyirdilər. Alban dulusçuları əl ilə işləyirlər və nadir hallarda saxsı çarxlardan istifadə edirlər. Kambisanada dulusçuluq da mühüm rol oynamışdır. Arxeoloji qazıntılar nəticəsində Kampisenada çoxlu gil toplar tapılıb (3, s.45)

Azərbaycan ərazisindən tapılan və elmi dövriyyəyə daxil olan nimizmatik materiallar da tarixi araşdırmalarımız üçün böyük əhəmiyyət kəsb edir. Qazıntılarda tapılan sikkələr e.ə. III əsrin sonlarından pul zərbinin mövcudluğunu sübut edir. Qədim Azərbaycan ərazisində Albaniyada (Qafqaz Albaniyası) və Atropatena vilayətində zərb edilmiş yerli sikkələrin tapılması qədim Azərbaycan dövlət quruculuğu ənənələrinin mövcudluğunu sübut edən amillərdəndir.

Qəbələdən tapılmış möhür izləri və kənarları qırıq olan onlarla iri bullalar, Bərdə, Şamaxı və Ağsu kimi ərazilərdə tapılmış nimizmatik materiallar Albaniya iqtisadiyyatının Ellinizm dövründən başlayaraq inkişafını göstərir. İlk dəfə olaraq çoxlu sayda alban sikkələri Şamaxı yaxınlığında Xınıslı kəndi yaxınlığında aşkar edilmişdir. Yerli alban sikkələri ilə yanaşı, bölgədə tapılan tapıntılar arasında Roma dinarı, Afina, Trakya, Bitiniya, Pontus, Selevkilər tetradrahmları, Arşaki draxmaları və yerli alban tetradrahmları var. Xınıslı dəfinəsi hələ eramızdan əvvəl Azərbaycanda yerli sikkələr kəsildiyini, geniş pul əmtəə tədavülünün olduğunu göstərir. Dəfinədəki gümüş sikkələr arasında Britaniya Kolumbiyası, Pontus Thrash Afina Krallığının tetradrahması da var. Eramızdan əvvəl 175-83-cü illərdə hökmranlıq edən Selevki krallarının 80-ci illərdə Roma sikkələrində zərb edilmiş tetradramaları və nəhayət, 70-dən çox yerli sikkələri var. Albanların Yunan dövləti ilə geniş ticarət əlaqələrinə dəlalət edən xəzinələrin əksəriyyəti tarixi Albaniyanın Bərdə-Beləqan bölgəsində tapılmışdır. Bərdə və eramızdan əvvəl I-II əsrlərə aid Roma sikkələrinin yaxınlığında Bərdə və Orənqalada eramızdan əvvəl II əsrə aid Makedoniya və Selevki tetradrahmları tapılmışdır. Həmin dövrə aid sikkələrə Bərdədə də rast gəlinmişdir. Azərbaycanda bir neçə ellin dövrü xəzinəsi tapılıb. Biri Bərdə xəzinəsidir ki, orada Makedoniyalı İsgəndər və Selevki hökmdarlarının sikkələri var (6, s.89).

Ellinizm dövrünün ən zəngin dəfinəsi Azərbaycan Respublikasının Qəbələ rayonunda Qafqaz Albaniyasının paytaxtı Qəbələ şəhəri xarabalığının yaxınlığında tapılmış Makedoniyalı İskəndərin draxması və Trakiya krallığının kvadrahması aşkar edilmişdir. Onun eramızın 187-129-cu illərinə aid 700-dən çox gümüş sikkəsi var. Xəzinədə Parfiya sikkələri bir neçə draxma ilə təmsil olunur. Qəbələ xəzinəsindən yerli sikkə, orta çəkisi 15,31 qram olan dörd draxma tapılmışdır, onun üz tərəfində şir dərisində Heraklin başı, arxa tərəfində isə Zevsin başı olan İsgəndərin sikkəsinə bənzəyir. Bu sikkələr Makedoniyalı İskəndərin sikkələrindən yalnız özlüyündə fərqlənir. Xəzinədə həmçinin beş yunan əkiz və parfiya sikkəsi var. Azərbaycanın yaxınlığındakı Ağsu rayonunun Nuidu kəndində Makedoniyalı İsgəndərin ellinizm draxmasını xatırladan yerli sikkələr kolleksiyası tapılıb. Bu tapıntılar Makedoniyalı İskəndərin dövründən bəri materik Albaniyada daxili sosial-iqtisadi inkişafa və geniş beynəlxalq ticarətə işarə edir. Sikkə xəzinələrinin izləri, Qəbələdən keçən karvan yolları göstərir ki, eramızdan əvvəl III əsr - eramızın III əsrlərində Qəbələ Şərq və Qərbin bir çox ölkələri, xüsusilə də Sasani imperiyasının Roma, Parfiya və vilayəti ilə geniş ticarət əlaqələri qurmuşdur.

Qara dənizə gedən ticarət yolunda Bərdə-Beyləqan bölgəsində tapılan nimizmatik artefaktlar da Albaniyanın Ellin dünyası və Şərq ölkələri ilə ticarət əlaqələrindən xəbər verir. Makedoniya və Bərdə yaxınlığındakı Selevkilər Tetradrahması, eramızdan əvvəl II əsr və Beyləqan ərazisi e.ə. Eramızın I əsrinə (Respublika və İmperator dövrlərinə) aid Roma sikkələri də tapılmışdır. Bu dövrə aid sikkələr Bərdədə də tapılmışdır. Bu tapıntılar sübut edir ki, İpək Yolunun qollarından biri bu bölgədən keçib.

Arxeoloji məlumatlar sübut edir ki, e.ə. Eramızın I əsrinin ortalarından etibarən Roma sikkələri Alban bazarında, xüsusən də e.ə. Eramızın 1-ci əsrinin sonu - eramızın I əsrinin əvvəllərində gümüş sikkələr avqustun 1-də geniş şəkildə dövriyyəyə buraxıldı. Roma sikkələri, xüsusən Mingəçevirdə e.ə. 1-3 əsrlər. Avqustdan sonrakı imperatorlar tərəfindən zərb edilən Roma sikkələrinin tək nümunələri Albaniya imperiyasında da tapılmışdır. Parfiya sikkələri, xüsusən də Arşaki sikkələri eramızdan əvvəl I əsrdə və eramızın I əsrlərində Albaniyanın pul dövriyyəsində mühüm rol oynamışdır. Qədim Albaniyada aparılan arxeoloji qazıntılar zamanı demək olar ki, bütün Parfiya çarlarının sikkələri tapılıb (5, s.89).

Beləliklə, yazılı və arxeoloji mənbələr III-IV əsrlərdə Albaniyada incəsənətin və onun müxtəlif sahələrinin yüksək inkişaf etdiyini göstərir.

## ƏDƏBİYYAT SİYAHISI:


1. *Azərbaycan tarixi.7 cilddə I cild. Bakı, 2007*
2. *Bünyadov Ziya "Azərbaycan VII-IX əsrlərdə" Bakı, 2007. 424 səh*
3. *Əliyarlı S. Azərbaycan tarixi. Bakı, "Çıraq". 2009.*
4. *Əliyev K., Əliyeva F. Azərbaycan antik dövrdə. Bakı, 1997; 89-121 s.*
5. *Erix Fayql. İpək yolu üzərində Qədim Odlar Yurdu – Azərbaycan tarixi, Bakı, 2009*
6. *Məmmədova F. Qafqaz Albaniyasının siyasi tarixi və tarixi coğrafiyası, Bakı, 1993*
7. *Мамедова Ф. Кавказская Албания и албаны. Баку, 2005; 78 с.*
8. *Бархударянц М. Арцах. Баку, 1895, части 1-II Баку, 1949- НАИИ АНА, инд. № 1622, 2010*
9. *Халилов Мубариз. Антропоморфные каменные изваяния Карабаха. – В журнале: "Азербайджанская археология", № 1–4, 2004, с. 100–104.*


## XÜLASƏ


Bir çox tarixi, sosial və mədəni dəyişikliklərin əsas səbəbi ətraf mühit haqqında insan biliklərinin tədricən toplanmasıdır. İnsanlar öz ehtiyaclarını ödəmək üçün ətraf mühitdəki materiallardan, o cümlədən metallardan istifadə edir. Metal emalı texniki inkişaf üçün metallurgiyaya söykənir. Tarixən metallurgiya əsasən metalların istehsalına diqqət yetirmişdir.



**Açar sözlər:** *metallurgiya və metal emalı, daş alətlər, eksperimental iz tədqiqatları.*


## РЕЗЮМЕ


Основной причиной многих исторических, социальных и культурных изменений является постепенное накопление знаний человека об окружающей среде. Люди используют материалы из окружающей среды, в том числе металлы, для удовлетворения своих потребностей. Металлообработка опирается на металлургию для технического развития. Исторически металлургия была сосредоточена в основном на производстве металлов.



**Ключевые слова:** *металлургия и металлообработка, каменные орудия, экспериментальные трасологические исследования.*


## SUMMARY


The main reason for many historical, social and cultural changes is the gradual accumulation of human knowledge about the environment. Humans use materials from the environment, including metals, to meet their needs. Metal processing relies on metallurgy for technical development. Historically, metallurgy has focused mainly on the production of metals.



**Keywords:** *metallurgy and metalworking, stone tools, experimental trace studies.*

UOT 94 (479.24)

# NADİR XAN ƏFŞARIN SƏFƏVİ İMPERİYASI ƏRAZİLƏRİNİ OSMANLI İŞĞALINDAN AZAD ETMƏK UĞRUNDA MÜBARİZƏSİ TÜRKİYƏ TARİXŞÜNASLIĞINDA

**NƏRMİN ATAYEVA**
*AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun magistrantı*
*E-mail: nerminatayeva99@gmail.com*

## Giriş

Xarici ölkə tarixşünaslığında olduğu kimi, Türkiyədə də son illərdə Səfəvi dövlətinin, eləcə də Nadir şah Əfşar imperiyasının yaranması və Osmanlı imperiyası ilə qarşılıqlı əlaqələrin tarixi barədə müxtəlif tədqiqat əsərləri və elmi məqalələr yazılmışdır. Bu tədqiqatlar arasında XVIII əsrin əvvəllərində Səfəvi dövlətinin Osmanlı imperiyası ilə münasibətlərinə, Nadir şah Əfşar imperiyasının yaranması və Osmanlı imperiyası ilə qarşılıqlı əlaqələr xüsusi diqqət yetirilmişdir. Bu məqaləmizdə məhz Osmanlı imperiyasının Səfəvi dövlətinin ərazilərini işğal etməsi və işğal olunmuş ərazilərin azad edilməsi uğrunda Nadir şah Əfşarın apardığı mübarizənin Türkiyə tarixçilərinin əsərlərində tədqiqi səviyyəsinin öyrənilməsi və təhlil edilməsi nəzərdə tutulur.

XVII əsrin sonu – XVIII əsrin əvvəllərində Yaxın Şərqin böyük imperiyalarından biri olan Azərbaycan Səfəvi dövləti iqtisadi böhran və siyasi tənəzzül dövrünə qədəm qoydu. Türkiyə tarixçilərinin qənaətinə görə, I Şah İsmayılın yaratdığı dövlətin teokratik özülünün məhv edilməsi, ordu quruluşu pozulduğu üçün ordunun məsrəflərinin ödənilməməsi, qulamlarla qızılbaş zümrələr arasında rəqabətin kəskinləşməsi nəticəsində onlar arasındakı tarazlığın pozulması, I Şah Abbasdan sonra hakimiyyətə keçən şahların ətraf aləmdən təcrid olunmuş halda tərbiyə alması, şahzadələrin dövlət işlərindən uzaq tutulması, saray xanımları ilə hərəm ağalarının dövlətin idarə olunmasına müdaxiləsi Səfəvi dövlətinin zəifləməsinə və süqutuna səbəb oldu [4,52-53; 9,49-59].

XVIII əsrin əvvəllərində Səfəvi dövlətinin siyasi böhranını dərinləşdirən və onun ərazilərinin parçalanmasını sürətləndirən digər amillərdən biri də Səfəvi – Osmanlı münasibətləri idi. Bölgədə formalaşmış olan beynəlxalq münasibətlər Osmanlı dövlətindən müəyyən qarşılayıcı tədbirlərin həyata keçirilməsini tələb edirdi ki, bu da zəifləməkdə olan Səfəvi dövlətinin vəziyyətini daha da mürəkkəbləşdirirdi [20,106; 17,362].

## İşğal ərəfəsində Səfəvi-Osmanlı münasibətlərinin vəziyyəti

Türkiyə tarixçilərinin əsərlərində 1720-1724-cü illərdə Osmanlı hökumətinin dağılmaqda olan Səfəvi dövlətinə münasibətini, Azərbaycan torpaqlarını ələ keçirmək siyasətini, Osmanlı-Avstriya arasındakı ticarət razılaşmasını Səfəvi dövləti ilə müzakirə etmək ehtiyacını, hər iki dövlət arasındakı diplomatik münasibətlərin gedişini izləmək mümkündür. Türkiyə tarixçilərindən Münir Aktepe Kəmani Mustafa Ağanın “Rəvan fəthnaməsi” əsərinə yazdığı geniş həcmli müqəddimədə 1720-1724-cü illərdə Osmanlı hökumətinin dağılmaqda olan Səfəvi dövlətinə münasibətini, Azərbaycan torpaqlarını ilhaq etməyə yönəlmiş siyasətini ilk mənbələr əsasında təhlil etmişdir. O, Osmanlı dövləti ilə Avstriya arasında ticarətin inkişafı ilə bağlı əldə edilən razılaşmanı Səfəvi dövləti ilə də müzakirə etməyə ehtiyac olduğunu yazırdı [2,4; 17,363-364].

Belə bir vəziyyətdə, Osmanlı sultanı III Əhməd Səfəvi dövlətində baş verən siyasi hadisələrlə yaxından tanış olmaq və müfəssəl məlumat əldə etmək məqsədilə Dürri Əhməd əfəndini Səfəvi sarayına göndərdi [2,3; 7,245]. Osmanlı elçisi qarşısında qoyulan tələblər gizli saxlanıldı, onun iqtisadi məsələləri müzakirə etmək üçün göndərildiyi barədə məlumatlar yayıldı. Dürri əfəndi Səfəvi dövlətinin daxili vəziyyətini öyrənməklə bərabər, ölkədə istehsal olunan ipəyin daşınmasında yenidən Osmanlı marşrutuna üstünlük verilməsinə nail olmağa çalışmalı idi [20,107].

Osmanlı elçisi 1720-ci ilin avqustunda Şah Sultan Hüseynə və baş vəzirə yazılmış məktublarla Bağdada hərəkət etdi. Bağdad valisi Həsən paşa ilə müəyyən müzakirələrdən sonra yola düşən Dürrü Əhməd əfəndi noyabrın 11-də Səfəvi sərhədinə yetişdi və Kirman valisi tərəfindən qarşılanaraq Dərgəzin-Həmədan-Qəzvin yolu ilə 1721-ci ilin yanvarında Tehrana gətirildi [2,5-6]. O, ilk danışıqları şahın baş vəziri ilə apardı. M.Aktepe yazır ki, bu danışıqlar zamanı Səfəvi dövlət adamları çox narahat görünürdülər. Onlar Damad Şəhid Əli paşa dövründə tələb edilən istəklərin İbrahim paşa tərəfindən təkrarlanacağından

qorxurdular. Heç kim Osmanlı elçi heyətinin ticarətlə bağlı məsələni müzakirə etmək üçün gəldiyinə inanmırdı. Buna görə də, Dürri əfəndinin gətirdiyi məktublarla tanış olmaq və məsələnin məğzini öyrənmək istəyirdilər. Dürri əfəndinin verdiyi təminat və gəlişinin ticarət məsələsi ilə bağlı izahatı qarşı tərəfi sakitləşdirdi [2,6; 17,365]. Osmanlı hökuməti öz səfirinə şahdan Rusiya ilə ticarəti dayandırmağı, Avropa ölkələri ilə ticarəti Osmanlı ərazisi vasitəsilə aparmağı, İrəvan vilayətinə iddiaları bir daha Şaha təqdim etməyi, onu Rusiya ilə lüzumsuz dostluğa, xüsusilə də ona öz ərazisində Niyazabad qalasını tikməyə razılıq verdiyinə görə Osmanlı tərəfinin narazılığını çatdırmağı tapşırmışdı [16,23; 9,90].

1721-ci ilin aprelində Dürri Əhməd əfəndi danışıqları başa çatdıraraq vətənə yola düşdü. Osmanlı elçisi hökumətə Səfəvi dövlətinin iqtisadi və siyasi cəhətdən zəifləyərək bərbad hala düşdüyü haqda məlumat verərək, bir zamanlar çiçəklənməkdə olan dövlətin süqut ərəfəsində olduğunu bildirdi [9,90]. S.M.Bilge yazır ki, Səfəvi dövlətinin vəziyyəti o qədər ağır idi ki, Dürri Əhməd əfəndi “bacarıqsız şahın yerinə ağıllı bir hökmdar gətirilməsə dövlətin süqut edəcəyini” bildirirdi [6,175-176].

Dürri Əhməd əfəndi sultana: “Səfəvi dövlətində hərbi hazırlığın zəifliyi, ölkədə top və tüfəngin hazırlanmadığı, Qəndəhar, İrəvan və Dərbənddən savayı digər qalaların olmadığı və ordu komandanlığının aşağı səviyyədə olduğu” haqqında məlumat verdi [6,176].

1721-ci ilin sonunda Şah Sultan Hüseyn yüksək təhsil və mədəniyyət sahibi Naxçıvan hakimi Murtuzaqulu xanı Dürri əfəndi missiyasına cavab olaraq İstanbula səfir göndərdi [4,82-83]. Murtuzaqulu xan ölkədə hökumət əleyhinə yönələn və geniş əraziləri əhatə edən çıxışların qarşısını almaq üçün Osmanlı sarayından kömək göstərməyi xahiş etdi, lakin müsbət cavab almadı [13,215-216; 16,24]. Səfəvi elçisi 1722-ci ilin aprelində vətəninə yola salındı. Bununla da Səfəvi-Osmanlı ilə siyasi əlaqələri rəsmən kəsilmiş oldu [2,13].

Türkiyə tarixçilərinin qənaətinə görə, 1722-ci ilin yazında əfqanların İsfahan yaxınlığında Şah Sultan Hüseynin qoşunlarını ağır məğlubiyyətə uğratması Osmanlı hökumətini qəti tədbirlər görməyə sövq etdi. Belə ki, baş vəzir İbrahim paşa həmin il mayın 15-də Ali divanda Səfəvi dövləti ilə bağlı məsələni müzakirəyə çıxararaq şərq sərhədlərindəki İrəvan, Təbriz, Gəncə və Tiflis kimi bəzi şəhər və qalaların yenidən Osmanlı sərhədləri daxilinə alınmasını və dövlətin şərq sərhədlərinin mühafizəsinin təmin edilməsini qərara aldı [2,13-14; 4,85].

III Sultan Əhməd bu qərara uyğun olaraq Bağdad, Bəsrə, Mosul, Van və Ərzurum valilərinə müharibəyə hazır olmaları barədə əmrlər göndərdi. Türkiyə tarixçilərinin fikrincə, Səfəvi dövləti ilə müharibəyə qərar verilməsinə baxmayaraq sultan hərbi əməliyyatlara başlamaqda ehtiyatlı hərəkət edirdi. 1722-ci ilin oktyabrında Osmanlı sultanı Ərzurum valisi İbrahim paşanı Tiflis üzərinə göndərdiyi kimi, dekabr ayında Dərviş Mehmed Ağa vasitəsilə Hacı Davuda sultanın məktubu çatdırıldı. O, Şirvan xanı kimi tanındı və Osmanlı dövlətinin himayəsi altına alındığı elçi qapıçıbaşı Nişli Mehmed Ağa vasitəsilə çar I Pyotra bildirdi [2,16-17; 21,176-177].

S.Bige yazır ki, bu dövrdə Səfəvi dövlətində siyasi vəziyyət daha da kəskinləşdi. 1722-ci il oktyabrın 23-də səkkiz aylıq mühasirədən sonra əfqanların başçısı Mir Mahmud İsfahanı ələ keçirdi. Şah Sultan Hüseyn onun xeyrinə hakimiyyətdən əl çəkdi. Səfəvi dövləti ilə uzun müddət sülh münasibətlərini qoruyub saxlayan Osmanlı imperiyası yaranmış vəziyyətdən istifadə edərək Qərbdəki uğursuzluqlarının əvəzini Şərqdə çıxmağa çalışdı [5,106; 9,108].

**Osmanlı ordusunun Səfəvi torpaqlarını işğal etməsi**

Səfəvi dövlətinin zəifləməsi və əfqanların zərbələri altında süqut etməsi Osmanlı və Rusiya dövlətlərinin Səfəvi torpaqlarına müdaxiləsinə səbəb oldu [21,78]. Türkiyə tarixçilərinin qənaətinə görə, Rusiyanın Xəzərsahili vilayətlərdəki uğurlarına diqqətsiz qala bilməyən Osmanlı sultanı müzakirə masası arxasında əldə edə bilmədiyini silah gücünə əldə etmək istəyirdi. Buna görə də 1723-cü ilin yazında öz ordusunu Cənubi Qafqaza göndərdi. İyul ayında İbrahim paşa Tiflisə daxil olaraq orada Osmanlı qarnizonunu yerləşdirdi [22,177; 2,18]. Osmanlı ordusunun Cənubi Qafqazda hərbi əməliyyatlara başlaması Osmanlı-Rusiya münasibətlərini xeyli gərginləşdirdi.

1723-cü il iyulun sonlarında Bakının ruslar tərəfindən ələ keçirilməsi Osmanlı hakim dairələrinin qəzəbinə səbəb oldu. Osmanlı hökuməti Azərbaycan torpaqlarını ələ keçirmək üçün maksimum qüvvə sərf edərək ilk zərbəni Gəncəyə yönəltdi. 1723-cü ilin oktyabrında Ərzurumlu İbrahim paşanın komandanlığı altında Osmanlı ordusunun Gəncə üzərinə yürüşü başlandı. Osmanlı ordusunun ön dəstələri şəhərə

daxil olsa da, məğlubiyyətə uğradı [16,52; 17,376]. İ.H.Uzunçarşılının fikrincə, Ərzurum valisi və sərəsgər Silahdar İbrahim paşanın ləng hərəkət etməsi, Şirvan hakimi Hacı Davuda yardım etməyərək Bakının ruslar tərəfindən tutulmasına şərait yaratması dövlətin nüfuzuna ağır zərbə vurduğuna görə sərəsgər vəzifəsindən azad edildi və yerinə Arifi Əhməd paşa təyin edildi [22,178].

1722-ci ildə Səfəvi mirasının bölüşdürülməsi uğrunda başlayan Osmanlı-Rusiya diplomatik danışıqları rusların Dağıstana hücumu ilə bağlı dayandırılsa da, 1723-cü ildə Fransanın İstanbuldakı səfiri de Bonakın vasitəçiliyi ilə yenidən davam etdirildi. S.M.Bilgenin fikrincə, rus elçi İ.İ.Nepliyuyevlə Ali divanda aparılan danışıqlar nəticəsində Səfəvi mirasının bölüşdürülməsi ilə bağlı 1724-cü il iyunun 24-də İstanbul müqaviləsi bağlandı [6,184; 23,522-523].

Altı maddə və bir əlavədən ibarət olan müqaviləyə görə, Səfəvi imperiyası, o cümlədən Azərbaycan torpaqları iki dövlət arasında bölüşdürüldü, Kür çayı sərhəd elan olundu. Bakı və Dərbəndlə yanaşı digər Xəzərsahili ərazilər – Gilan, Mazandaran və Astrabad Rusiyaya verildi. Şərqi Gürcüstan, Şirvan, Gəncə, İrəvan, Qarabağ, Naxçıvan, İraqi-Əcəm Osmanlı dövlətinə çatdı [Bax: 18,29-37; 22,193; 23,523; 6,184-185]. M.Aktepe yazır ki, bu müqavilədən ən çox zərər çəkən şübhəsiz ki, danışıqlara dəvət edilmədən haqqında qərar verilən Səfəvilər və onu təmsil edən II Təhmasib idi. Buna görə də Osmanlı və Rusiya dövlətləri arasında imzalanmış müqaviləyə haqlı olaraq etiraz etdi və İstanbul müqaviləsini tanımadığını bildirdi [2,32-33; 17,380].

İstanbul müqaviləsi ilə Səfəvi dövlətinin şimal-qərb hissəsini ilhaq etməyə Rusiyanın razılığını alan Osmanlı hökuməti müqavilənin şərtlərini həyata keçirməyə girişdi. S.M.Bilge yazır ki, 1724-cü ilin aprelində Van sərəsgəri Abdulla paşa 60 min nəfərlik ordu ilə Vandan Azərbaycanın içərilərinə yürüş etdi. May ayında Şərq cəbhəsi sərəsgəri Arifi Əhməd paşa 60 minlik ordu ilə Tiflisdən İrəvana doğru hərəkət etdi [6,185-186]. İyunun 24-də mühasirəyə alınan İrəvan qalası sentyabrın 28-ə kimi müqavimət göstərdi. Yalnız oktyabrın 7-də Osmanlı əsgərləri iç qalaya daxil ola bildilər. Qala müdafiəçiləri 10 min nəfər itki verdilər, 15 min nəfərə yaxın qadın və uşaq əsir alındı [Bax: 2,47; 22,178; 6,185; 16,65-66].

İ.H.Uzunçarşılının fikrincə, Osmanlı hökuməti Təbrizin tutulmasına böyük əhəmiyyət verirdi. Buna görə də 1724-cü ilin yayında Köprülü Abdulla paşanın rəhbərliyi altında Osmanlı ordusu Salmas, Xoy, Çors, Tasuc və Mərəndi ələ keçirərək Təbriz üzərinə hərəkət etdi [22,179]. Osmanlı ordusu Şorsu adlı yerdə Təbriz hakimi Alay-qoçunun başçılığı altında təbrizlilərlə ilk döyüşə girdi. Lakin təbrizlilər düşmənin 25 minlik ordusu qarşısında duruş gətirməyərək, döyüşdə 10 min əsgər itirdikdən sonra şəhərə doğru geri çəkildilər [9,113]. Lakin 1724-cü il kampaniyası ərzində ciddi tələfat verən Osmanlı ordusu Təbriz əməliyyatını başa çatdıra bilmədi. Təbriz sakinlərinin sona qədər mübarizə aparmaq qətiyyəti, mühasirəyə ciddi hazırlıq görməsi öz müsbət nəticəsini verdi. Buna baxmayaraq, Xoyu və ardınca da Mərəndi ələ keçirən Abdulla paşa 1725-ci il iyulun 17-də Təbrizi mühasirəyə aldı. Ciddi müqavimətə baxmayaraq, avqustun 3-də Təbriz ələ keçirildi [6,186]. Beləliklə, 1723-1725-ci illərdə Osmanlı imperiyası Luristan dağ silsilələrindən İrəvana, Gəncə və Muğan düzünə qədər ərazini işğal etdi. M.Ərəndilin fikrincə, Osmanlılar keçmiş Səfəvi imperiyasının 300 min $km^2$ ərazisini ələ keçirdilər [8,115; 16,928].

U.Kurtaran yazır ki, 1723-cü ildən 1730-cu ilə qədər müharibədə üstünlüyə nail olan Osmanlı dövləti üçün hər şey yolunda gedirdi. Hətta, Səfəvi şahının sülh danışıqları üçün göndərdiyi elçiləri belə qəbul edilmədi [11,182; 17,385].

İ.H.Uzunçarşılının fikrincə, Əşrəf şahdan İsfahanı azad etməyə çalışan II Şah Təhmasib Osmanlı dövləti ilə barışıq imzalamaq niyyətində olduğunu, osmanlıların işğal etdikləri ərazilərə təcavüz etməmək şərti ilə üç illik bir saziş bağlamaq təklifini Təbriz sərəsgəri Köprülü Abdulla paşa vasitəsilə Osmanlı hökumətinə bildirdi [22, 186-187]. İ.Külbilgənin fikrincə, İstanbula gələn II Şah Təhmasibin elçisi Osmanlı dövlətinin nəzarətində olan Səfəvi torpaqlarının sultanın hakimiyyəti altında qalacağı şərti ilə üç illik atəşkəsin əldə olunmasına çalışdı. Səfəvi elçisi Şah Təhmasibin atası Şah Sultan Hüseyn dövründə olduğu kimi Osmanlı dövləti ilə sülh müqaviləsi bağlamağa hazır olduğunu bildirdi [12,191; 17,386]. 1726-cı ilin iyun ayında II Təhmasibin nümayəndəsi ilə danışıqlar aparmaq üçün Təbrizə gələn Mustafa Əfəndinin, iyul ayında isə Raqıb Əfəndinin apardığı danışıqlar bir nəticə vermədi [12,192].

**Nadir xan Əfşarın Səfəvi torpaqlarını işğaldan azad etmək uğrunda mabarizəsi**

Türkiyə tarixçilərinin əsərlərində Nadir şah Əfşarın işğal olunmuş Səfəvi torpaqlarını azad etmək

uğrunda apardığı mübarizə geniş işıqlandırılmışdır. İ.H.Uzunçarşılı qeyd edir ki, şah ordusunun baş komandanı təyin edilən Nadir şah 1726-cı ildə Məlik Mahmudu məğlub edərək Məşhədi əfqanlardan azad etdi, ardınca da Herat tutuldu [22,197]. İ.Külbilgənin fikrincə, 1726-1728-ci illərdə II Şah Təhmasib Nadirlə birlikdə Xorasan uğrunda əfqanlara qarşı mübarizə apardığı üçün Osmanlı dövləti ilə hər hansı diplomatik əlaqə saxlamadı [12,208]. 1728-ci ilin iyulunda II Şah Təhmasibin elçisi Vəli Məhəmməd xan Beydili Təbrizə gəldi. İ.Külbilgə yazır ki, Osmanlı dövləti əldə etdiyi uğurları Əşrəf şaha qəbul etdirdiyi üçün II Şah Təhmasibin elçisinə xüsusi əhəmiyyət vermədi. Lakin Nadirin Əşrəf şaha qarşı mübarizəyə başlaması xəbəri alındıqdan sonra Osmanlı sultanı fikrini dəyişərək Səfəvi elçisinin İstanbula gəlməsinə icazə verdi. Noyabr ayında İstanbula çatan Vəli Məhəmməd xan Beydili şahın məktubunu sultana təqdim etdi [12,209].

1729-cu il sentyabrın 29-da Nadir Mehmandustə Əşrəf şahı məğlub edərək Damğana gəldi və oktyabrın əvvəllərində öz elçisini Osmanlı sarayına göndərdi. Elçi Azərbaycan torpaqlarının qaytarılmasını sultandan tələb edəcəkdi. Elçi Təbrizdə vəfat etdiyindən bu tələblər İstanbula çatdırılmadı [12,210; 20,163]. Y.Öztuna yazır ki, Səfəviləri müdafiə etmək bəhanəsi ilə səhnəyə çıxan və Təhmasibqulu xan adını alan Nadir xan Əfşar – türk dünyasının yetişdirdiyi sonuncu cahangir tezliklə əfqanların hökmranlığına son qoydu [19,28].

Nadir xan Şiraz yaxınlığında Əşrəf şahın ordusunu məğlub edərək onu İsfahana qaçmağa vadar etdi. 1729-cu ilin noyabrında Səfəvi ordusunun İsfahana yaxınlaşdığını görən Əşrəf şah Qəndəhara qaçmağa məcbur qaldı. Çox keçmədən Əşrəf şah yaxın adamları tərəfindən öldürüldü [15,929-930]. İsfahanın qapıları Nadirin üzünə açıldı. Nadirin İsfahanı almasından iki həftə sonra, 1729-cu il noyabrın 29-da II Təhmasib böyük təntənə ilə şəhərə daxil oldu. Nadir öz əlləri ilə onun başına tac qoydu. Onun adına xütbə oxundu və sikkə zərb olundu. İsfahan azad edildikdən və II Şah Təhmasib taxta çıxdıqdan sonra onun tapşırığı ilə Rzaqulu xan Şamlı Osmanlı sarayına elçi göndərildi [20,175].

Türkiyə tarixçilərinin qənaətinə görə, 1730-cu il iyunun əvvəllərində Rzaqulu xan Şamlı İstanbula gəldi və təmtəraqla qarşılandı. O, iyunun 18-də III Sultan Əhməd tərəfindən qəbul olundu. Maliyyə çatışmazlığı sədr-əzəmi Səfəvilərlə məsələni danışıqlar yolu ilə həll etməyə məcbur edən başlıca səbəblərdən biri idi. Əldə olunmuş razılığa görə, Kirmanşah, Həmədan, Ərdəhan, Luristan, Huveyzə və Təbriz Səfəvi dövlətinə qaytarılır, Tiflis, İrəvan və Kaxetiya Osmanlı dövlətində qalırdı. Tiflis və Şirvan xanlığı Krım xanlığı kimi yarımüstəqil şəkildə idarə olunacaqdı [22,201-203; 11,183; 23,1459; 12,216; 4,128,129].

Qısa müddət ərzində Osmanlı qoşunlarının bir sıra şəhərləri tərk etməyə məcbur edilməsi Səfəvi dövlətinin cənub-qərb sərhədlərinin bərpa edilməsini təmin etdi. Bir-birinin ardınca şəhərlərin və məntəqələrin azad edilməsi Osmanlı sarayının bölgədə olan qüvvələrinin nigarançılığını artırdı. 1730-cu il iyulun 7-də Nadir xan Həmədanı, iyulun 15-də isə Kirmanşahı azad etdi. O, Nihavənd döyüşündə əsir alınan Osman ağanı xüsusi məktubla iyulun 12-də Bağdad valisi Əhməd paşanın yanına göndərdi [12,219-220].

İ.Külbilgə yazır ki, Nadir xan bir həmlə ilə iki həftə ərzində Osmanlı ordusunu bütün Əcəm İraqından vurub çıxardı. Nadir Həmədanda olan zaman elçisi Rzaqulu xan Şamlının göndərdiyi məlumata görə, Həmədan, Kirmanşah, Təbriz Səfəvi dövlətində, İrəvan, Gəncə və Tiflisin Osmanlı dövlətində qalması şərti ilə müəyyən razılıq əldə olundu. Nadirin əldə olunan belə bir razılığı qəbul etməsi üçün heç bir əsas yox idi. Çünki, Həmədan və Kirmanşah artıq onun əlində idi və asanlıqla ala biləcəyi İrəvan, Gəncə, Tiflisi hansısa razılaşma əsasında Osmanlı dövlətinə verməyəcəkdi [12,220].

İ.H.Uzunçarşılının fikrincə, Nadir xan Köprülü Abdulla paşanı məğlub edərək Həmədanı və Kirmanşahı ələ keçirdiyi üçün əldə olunmuş razılıq pozuldu və Səfəvi elçisi Rzaqulu xan Şamlı 1730-cu ilin iyulunda Limnos adasına sürgün edildi [22,198-199]. Təbrizi Osmanlı qüvvələrindən azad etmək üçün Həmədandan hərəkət edən Nadir iyulun 17-də Sənəndicə gəldi, ardınca da Savucbulaq, Urmiya, Marağa, Dehqarqan Səfəvi qüvvələrinin nəzarətinə keçdi. Təbriz üzərinə yürüş edən Nadir Osmanlı qüvvələrini məğlub edərək avqustun 12-də şəhərə daxil oldu [12,221; 20,189]. 1731-ci ilin yanvarında Osmanlı ordusunun tərk etdiyi Ərdəbil şəhəri Səfəvilərin nəzarətinə keçdi.

Osmanlı imperiyasından bütün Cənubi Azərbaycanı və Səfəvilər dövlətinin digər qərb torpaqlarını geri alan Nadir xan, osmanlıların Cənubi Qafqazdakı dayaq nöqtələrindən biri olan İrəvan istiqamətində yürüşə hazırlaşırdı. Lakin hadisələrin sonrakı gedişi

Osmanlı işğalçılarına qarşı uğurlu mübarizə aparmağa imkan vermədi. Əfqanların üsyan qaldırması xəbərini eşidən Nadir onu yatırmaq üçün Xorasana getməyə məcbur oldu [17,396].

1731-ci ilin martında Nadir Xorasan qiyamının yatırılması ilə məşğul olduğu zaman II Təhmasib öz nüfuzunu qaldırmaqdan ötrü İrəvan üzərinə yürüş etdi. Şəhər mühasirəyə alındı. 1731-ci il martın 23-də Həkimoğlu Əli paşa ilə Teymur Mehmed paşanın rəhbərliyi altında Osmanlı ordusu İrəvana çatdı və Üçkilsə yaxınlığında II Təhmasibin qoşununu məğlub etdi. Səfəvi ordusunun bütün silah-sursatı osmanlıların əlinə keçdi. II Təhmasib Xoy və Salmas üzərindən Təbrizə çəkildi [11,184; 17,397]. II Təhmasib az sonra Həkimoğlu Əli paşanın hücum xəbərini alaraq Qəzvinə çəkildi. Osmanlı ordusu iyulun 30-da Kirmanşahı, noyabrın 15-də 65 günlük müqavimətdən sonra Urmiya qalasını, dekabrın 4-də isə Təbrizi yenidən ələ keçirdi [22, 221; 11,184; 15,930-931; 16,120-121]. II Təhmasib Osmanlı dövləti ilə sülh danışıqlarına başlamağa məcbur qaldı. 1731-ci ilin dekabrında II Təhmasibin elçiləri Məhəmməd Rzaqulu xan Qorçubaşı, Mustafa xan Bekdilli və Şahqulu Becan bəy Əhməd paşanın Həmədan yaxınlığındakı qərargahına gəldi [11,185; 12,235, 15,931]. Aparılan danışıqlar nəticəsində 1732-ci ilin yanvarında tərəflər arasında Kirmanşah sülhü imzalandı. Sülhə görə, Araz çayı sərhəd qəbul edildi, Şirvan, İrəvan, Naxçıvan, Dağıstan, Kartli və Kaxeti kimi müharibədən əvvəl Səfəvilərə aid olan ərazilər Osmanlılarda qaldı. Təbriz, Ərdəbil, Kirmanşah, Həmədan, Erdelan, Luristan və Huveyzə ərazisi Səfəvilərə qaytarıldı [22,23; 6,192].

Nadir özünün Herat kampaniyası zamanı Osmanlı dövləti ilə bağlanan ağır sülh şərtləri haqqında xəbər tutdu və elə Heratda olarkən Osmanlı sarayının Məşhəddə olan Məhəmməd ağa adlı elçisini yanına çağırdı. O, imzalanmış sülh şərtlərini ilə razı olmadığını, vaxtı ilə Səfəvi dövləti sərhədləri daxilində olan və hazırda Osmanlı nəzarəti altına düşmüş bütün ərazilərin qeyri-şərtsiz geri qaytarılmasını tələb etdi. Türkiyə tarixçilərinin fikrincə, Xorasandan qayıdan Nadir, şah hökuməti ilə Əhməd paşa arasında bağlanmış müqaviləni tanımaqdan imtina etdi. O, Əhməd paşaya II Təhmasiblə imzaladığı sülhü tanımadığını, müharibəni davam etdirəcəyini bildirdi [3,160; 11,187; 12,237-238]. İ.Külbilgənin fikrincə, Nadirin bütün səylərinə baxmayaraq, II Şah Təhmasib Osmanlı dövləti ilə bağlanmış sülhü təsdiq etdi. O, sülhün şərtlərini müdafiə etmək istədiyini Bağdad valisi Əhməd paşaya bildirdi [12,238].

Bu dövrdə Səfəvi dövlətində hərbi-siyasi vəziyyət kəskin şəkildə dəyişdi və Nadirlə II Şah Təhmasib arasında hakimiyyət uğrunda mübarizə daha da kəskinləşdi. 1732-ci il sentyabrın 2-də Nadir xan İsfahanda II Təhmasibi həbs etdi və onun səkkiz aylıq oğlunu III Abbas adı altında şah, özünü isə vəkil elan etdi [22,223; 15,933; 16,127]. Nadir öz mövqeyini möhkəmləndirmək məqsədilə Osmanlı imperiyasına qarşı hərbi əməliyyatları genişləndirdi. O, Uğurlu xanı Gəncəyə göndərdi, özü isə yüz min nəfərlik ordu ilə İraqa tərəf hərəkət etdi. 1732-ci ilin dekabrında Nadir Kirmanşahı, ardınca isə Ərbil və Kərkük şəhərlərini azad edərək Bağdad üçün böyük təhlükə yaratdı. Osmanlı ordusu Şəhrizor və Dərnə ətrafında məğlub oldu. 1733-cü il yanvarın 12-də Nadir tərəfindən Bağdad mühasirəyə alındı [3,160; 19,349; 22,223-224; 11,187; 6,193]. Bağdad valisi Əhməd paşa Nadirin yüz minlik ordusuna qarşı mübarizə apara bilməyəcəyini bildiyi üçün yardım gəlincəyə qədər vaxt qazanmaq məqsədi ilə Mehmed Ragıp Əfəndini və Mehmed ağanı danışıqlar aparmaq üçün onun düşərgəsinə göndərdi [13,23; 11,188]. 1733-cü ilin fevralında Nadirlə Əhməd paşa arasında hərbi əməliyyatların müvəqqəti dayandırılması haqqında barışıq imzalandı [9,157]. 1733-cü il iyulun 20-də Bağdaddan iki saatlıq məsafədə olan Duçum adlı yerdə Səfəvi və Osmanlı ordusu arasında doqquz saatdan artıq davam edən döyüşdə Nadir məğlub oldu, ordunun bütün döyüş sursatı Osmanlıların əlinə keçdi. Bağdadı 6-7 ay ərzində mühasirədə saxlayan Səfəvi qoşunları da Nadirin məğlubiyyətini eşitdikdən sonra geri çəkilməyə məcbur oldular [22,224; 11,188; 6,193; 12, 251; 9,158]. Öz məğlubiyyəti ilə barışmayan Nadir, oktyabr ayında Mosul yaxınlığında Mehmed paşanın, noyabrın 9-da isə Kərkük yaxınlığında Leylan adlı yerdə Osmanlı ordusunu məğlub etdi və Topal Osman paşa öldürüldü [11,189; 12,257].

1733-cü il dekabrın 4-də Nadirin ordusu yenidən Bağdadı mühasirəyə aldı və Əhməd paşaya elçi göndərərək İrəvan, Gəncə, Şirvan, Tiflis və Kaxeti əyalətlərinin verilməsini istədi. Çıxılmaz vəziyyətdə olan Əhməd paşa danışıqlara razılıq verdi və tərəflər arasında ilkin razılıq əldə olundu. Əhməd paşa söz verdi ki, razılaşma İstanbula göndəriləcək və iki ay ərzində Osmanlı sultanı tərəfindən imzalanacaqdır [13,92; 20,251]. Lakin Osmanlı sarayı Əhməd paşanı vəzifəsindən azad etdi. Onun Gəncə, Şirvan, İrəvan

və Tiflis paşalarına göndərmiş olduğu əmri də ləğv edildi.

Nadir xan Osmanlı nümayəndəsi ilə danışıqlarda mühüm nəticə əldə ediləcəyinə ümid bəsləmədiyi üçün İsfahandan Azərbaycana və Qafqaza doğru yürüşə başlamaq haqqında əmr verdi. S.M.Bilge yazır ki, 1734-cü ilin yayında Nadir I Mahmuda göndərdiyi məktubunda Osmanlı dövlətinin işğalı altında saxlanılan ərazilərin geri qaytarılmasını, Şirvan və Dağıstan bəylərbəyi təyin olunmuş Surxay xanın Şirvanı tərk etməsini tələb etdi. Osmanlı dövlətinin bu tələbləri rədd etməsi Nadirin Şirvana yürüş etməsinə səbəb oldu [6,196]. Türkiyə tarixçilərinin qənaətinə görə, 1734-cü il avqustun 24-də Nadir ordusu Kürü keçdi, Surxay xanın Dağıstana çəkilməsindən istifadə edərək Şamaxı əhalisinin yardımı ilə avqustun 29-da şəhəri ələ keçirdi [22, 228; 11,190; 6,196; 12,263].

İ.Külbilgənin fikrincə, Nadirin Şamaxını alması, Tiflis və Qars tərəflərinə də hücum edəcəyi barədə xəbərlər ətrafa yayıldığı üçün xalq arasında böyük təşvişə səbəb oldu, hətta Ərzurum kəndlərinin əhalisi qərbə doğru köç etməyə başladı [12, 263]. Nadir xan oktyabrın 13-də Qəbələyə gəldi və oktyabrın 22-də Gəncə üzərinə hərəkət etdi. Nadirin Gəncə qalasındakı Osmanlı qarnizonunun dinc yolla qalanı boşaltmaq üçün Gəncəli paşaya göndərdiyi məktuba müsbət cavab verilmədi. Gəncə qalası mühasirəyə alındı və dörd tərəfdən qala üzərinə hücum bir nəticə vermədi [12,265; 14,568; 20,268]. İ.Külbilgə yazır ki, Gəncəli paşa Nadirə göndərdiyi məktubunda Abdulla paşanın Gəncəyə yardıma gəldiyini xəbər verdi [12,265-266]. 1735-ci il mayın 24-də Nadir Baba xanın rəhbərliyi altında dəstəni mühasirəsini davam etdirmək üçün Gəncədə qoyaraq öz qoşunu ilə Qarsa doğru hərəkət etdi. 1735-ci il iyunun 19-da İrəvan yaxınlığında baş verən döyüş Nadirin yeni bir tarixi qələbəsi ilə başa çatdı. Abdulla paşa öldürüldü. Osmanlı qüvvələrinə ağır zərbə endirildi və bu qələbə ilə əslində Nadir cənubi Qafqazın nəzarət altına alınmasını təmin etdi. İ. Külbilgənin fikrincə, Abdulla paşanın məğlub olması Gəncə, İrəvan və Tiflisdəki Osmanlı qüvvələrinin taleyini həll etdi [12,271]. Qars qalasının bir aylıq mühasirəsi Osmanlı sarayını Gəncə, İrəvan və Tiflis qalalarını təhvil verməyə razı saldığı üçün Nadir mühasirəni dayandırdı. 1735-ci il iyulun 9-da Gəncə, sentyabrın 17-də Tiflis və oktyabrın 3-də İrəvan Osmanlı qüvvələri tərəfindən tərk edildi [13,24; 12,273; 6,198; 20,277].

**Nəticə**

Türkiyə tarixçilərinin bir çoxu öz əsərlərində Nadir xanı "türk dünyasının yetişdirdiyi sonuncu cahangir", "iki həftə ərzində bir həmlə ilə Osmanlı ordusunu bütün Əcəm İraqından vurub çıxaran" sərkərdə adlandırılmış, onun sərkərdəlik fəaliyyətini yüksək qiymətləndirmişlər. Nadir xanın İsfahanı azad etməsi ilə Osmanlı dövlətinin Kirmanşah, Həmədan, Ərdəlan, Luristan, Huveyzə və Təbriz kimi mühüm şəhər və məntəqələri Səfəvi dövlətinə qaytardığını, onun Gəncə, Tiflis, İrəvan kimi şəhərləri qan tökmədən azad etdiyini etiraf etmişlər.

Beləliklə, Nadir xanın Səfəvi torpaqlarını azad etmək uğrunda Osmanlı dövləti ilə apardığı müharibə uğurla başa çatdı. Əldə olunan bu uğur Nadir xana Cənubi Qafqazı yenidən nəzarət altına almağa imkan verdi. Osmanlı ordusuna qarşı aparılan döyüşlərin nəticələri Nadir xan Əfşarın Tiflisdə Osmanlı nümayəndələri ilə imzaladığı anlaşmada təsbit olundu. Nadir öz sərkərdəlik istedadı ilə Şərqin böyük imperiyalarından olan Osmanlı dövlətinin qoşunlarını geri çəkilməyə məcbur etdi, iradəsi və əzmkarlığı ilə fatehlik tarixinin daha bir zirvəsini fəth etdi.

**Açar sözlər:** *Azərbaycan, II Şah Təhmasib, Osmanlı sultanı, Nadir xan Əfşar.*

**ƏDƏBİYYAT SİYAHISI:**


1. *Aktepe M. Dürri Ahmed efendinin İran Sefareti. //Belgelerle Türk Tarihi Dergisi, İstanbul: 1967-68, sayı 1, s. 56-84.*
2. *Aktepe M. 1720-1724 Osmanlı-İran münasebetleri. İÜ Edebiyat Fakultesi Matbaası, İstanbul: 1970.*
3. *Aktepe M. Mahmud I. //İslam Ansiklopedisi, c. VII. İstanbul: 1993, s. 158-165.*
4. *Ateş A. Osmanlı-İran siyasi ilişkileri. (1720-1747). Altınpost Yayınları, İstanbul: 2012.*
5. *Bilge S.M. Osmanlı devleti ve Kafkasya. Eren Yayınçılık, İstanbul: 2005.*
6. *Bilge S.M. Osmanlı çağında Kafkasya 1454-1829. (Tarih-Toplum-Ekonomi). İstanbul: 2012.*
7. *Dadaşova R. Səfəvilərin son dövrü. Bakı: Nurlan, 2003.*
8. *Erendil M. Tarihte Türk-İran ilişkileri. Ankara: 1976.*
9. *Əlizadə O. XVIII əsrin birinci yarısında Osmanlı-Səfəvi münasibətləri. Bakı: Elm, 2009.*
10. *Karadeniz Y. İran tarihi (1700-1925). İstanbul: Selenge, 2012.*

*11. Kurtaran U. Yeni kaynakların ışığında Sultan I. Mahmud dönemi Osmanlı-İran ilişkileri (1731-1747). //History Studies, Volume 3/3, 2011, s.177-213.*

*12. Külbilge İ. 18. Yüzyılın ilk yarısında Osmanlı-İran siyasi ilişkileri (1703-1747). Yayınlanmamış doktora tezi. İzmir: 2010.*

*13. Minorski V. Nadir. //İslam Ansiklopedisi, cilt 9. MEB, İstanbul: 1988, s. 12-31.*

*14. Mustafazade T.T. XVIII. Yüzyılın İlk Yarısında Kafkaslarda Osmanlı-Rus İlişkileri. / Osmanlı, c. I. Ankara: 1999, s.561-569.*

*15. Mustafazade T.T. Safevi Hanedanının son yılları. //Türkler, c. 6. Yeni Türkiye Yayınları, Ankara: 2002, s. 925-935*

*16. Mustafazadə T.T. XVIII yüzillik – XIX yüzilliyin əvvəllərində Osmanlı-Azərbaycan münasibətləri. Bakı: Elm, 2002.*

*17. Nəcəfli T.H. Səfəvi-Osmanlı münasibətləri. Bakı: Turxan NPB, 2014.*

*18. Osmanlı Belgelerinde Karabağ. İstanbul: 2009.*

*19. Öztuna Y. Başlanğıcından zamanımıza kadar Türkiye tarihi. c.11. Hayat Yayınları, Ankara: 1967.*

*20. Süleymanov M. Nadir şah. Tehran: 2010.*

*21. Şabani R. Efşariye ve Zendiye döneminde (h. 1135-1210/M.1723-1796) İran-Osmanlı ilişkileri. // Tarihten günümüze Türk-İran Sempozyumu, 16-17 aralık 2002, Konya. Konya: 2002, s.78-87.*

*22. Uzunçarşılı İ.H. Osmanlı tarixi, IV c. I Bölüm, İstanbul: 1988.*

*23. Uzunçarşılı İ.H. XVIII. Asırda Osmanlı-İran münasebetleri. /Türkler, c. XII, Yeni Türkiye Yayınları, Ankara: 2002, s. 512-524.*

**N.Atayeva**

**Nadir Khan Afshar's struggle to free the territories of the Safavid Empire from Ottoman occupation in Turkish historiography**

**SUMMARY**

The weakening of the Safavid Empire's central government and the decline of the state at the beginning of the eighteenth century had an impact on its international relations. This situation had created favorable conditions for the implementation of the conquest plans of neighboring states. During this period, certainly, plans to seize the Safavi lands appeared in the ruling circles of the Ottoman Empire.

Such Turkish historians as I.H.Uzuncharshili, Y.Oztuna, S.M.Bilge, M.Aktepe, U.Kurtaran, A. Atesh, I.Kulbilge have investigated the Safavi-Ottoman relations in the first half of the eighteenth century in their works.

In the article the open aggression of the Ottoman Empire against the Safavi state, the level of studying of the relations between the two countries in the Turkish historiography were studied and analyzed based on the sources of the period. Also the liberation of the occupied territories of the Safavid Empire and the restoration of the territorial integrity of the empire under the leadership of Nadir Khan Afshar were investigated.

**Key words:** *Azerbaijan, Shah Tahmasib II, Sultan Ottoman, Nadir xan Afshar.*

**Н.Атаева**

**Борьба Надир-хана Афшара за освобождение территорий империи Сефевидов от османской оккупации в турецкой историографии**

**РЕЗЮМЕ**

В начале XVIII века в государстве Сефевидов ослабла центральная власть, государство переживало период упадка, что в свою очередь оказало негативное влияние на внешнюю политику Сефевидской державы. Данная ситуация создала благоприятные условия для реализации захватнических планов соседних государств. Естественно, в этот период у правящих кругов Османской империи возникли планы по завоеванию владений Сефевидов.

Османо-сефевидские отношения в первой половине XVIII века стали объектом исследования в трудах таких исследователей, как И.Х.Узунчаршылы, Й.Озтуна, С.М.Билген, М.Актепе, У.Куртаран, А.Атеш, И.Кюлбилген.

В представленной статье на основе источников изучаемого периода была исследована и проанализирована открытая агрессия Османской империи в отношении Сефевидского государства, а также определена степень изученности в турецкой историографии взаимоотношений двух государств. Также было изучено освобождение оккупированных территорий империи Сефевидов под руководством Надир-хана Афшара в турецкой историографии.

**Ключевые слова:** *Азербайджан, Шах Тахмасиб II, Османский султан, Надир хан Афшар.*

**UOT 33; 330**

*https://orcid.org/2254-2365-8159-975X Annotation*

# GEOSİYASİ TƏRƏQQİ, MAKROİQTİSADİ SABİTLİK VƏ MÜLKİ HÜQUQ MÜDAFİƏSİ

**DAĞBƏYİ ALLAHVERDİYEV**
*AMEA-nın İqtisadiyyat İnstitutu,*
*aparıcı elmi işçi,*
*iqtisad üzrə fəlsəfə doktoru, dosent*
*E-mail: dagbeycahani@gmail.com*

## Giriş

Bəşəriyyətdə hüquqi bərabərlik, ayrı-seçkilik və fərqləndirmək, insanın fərdi təkrarolunmazlığını, sosial-iqtisadi bərabərliyi isə vətəndaş rifahının təminatı mövzusunun aktuallığını əks etdirir. Belə ki, sosial-iqtisadi rifah və mülki hüquq müdafiəsi bütün insanların bərabərliyini, bu meyarları yaradan səbəb və nəticə əlaqəsini şərtləndirir. Siyasi-hüquqi bərabərlik və "ayrı-seçkilik" anlayışları tarixən müəyyən keçid dövrləri üçün xarakterik mərhələ hesab edilmişdir. Bu səbəbdən də insanlar əsrlər boyu sosial-iqtisadi bərabərlik uğrunda rəqabət aparmışlar.

Məlum olur ki, siyasi-hüquqi bərabərlik insan hüquqlarının ali prinsipi kimi obyektiv zərurətdən irəli gəlmişdir. Məhz bu prinsiplərə əməl olunmaması həmişə hüquq və azadlıqların pozulması üçün bəhanələr olmuşdur. Bərabərliyin pozulmasının daha geniş forması ayrı-seçkilikdir. Buna görə də ayrı-seçkiliyin ləğv edilməsi, hüquq və sosial-iqtisadi bərabərliyin tam reallaşması ən mühüm meyarlar hesab edilir. Ayrı-seçkiliyin bütün formaları insanların siyasi, sosial-iqtisadi rifahının və hüquqlarının pozulması kimi səciyyələnir.

Bununla əlaqədar BMT-nin "İnsan hüquqları haqqında Ümumi Bəyannamə"sinin ikinci maddəsində qeyd edilir: "İnsanlar dininə, siyasi və digər əqidəsinə, milli, yaxud sosial mənşəyinə, mülki, yaxud başqa vəziyyətinə görə heç bir fərq olmadan təbii hüquqlara və sosial-iqtisadi azadlıqlara malikdirlər". Bu prinsip əsasən Azərbaycan Konstitusiyası mülki vəziyyətə, qulluq mövqeyinə, əqidəsinə, həmkarlar ittifaqlarına və digər ictimai birliklərdə mənsubiyyətindən asılı olmayaraq hər kəsin hüquq və azadlıqlarının bərabərliyinə təminat verir.

Bununla yanaşı Konstitusiyada iqtisadi inkişaf və dövlət prinsipində qeyd edilir ki, Azərbaycan Respublikasında iqtisadiyyatın inkişafı müxtəlif mülkiyyət növlərinə əsaslanaraq xalqın rifahının yüksəldilməsinə xidmət edir. Azərbaycan dövləti bazar münasibətləri əsasında sosialyönümlü iqtisadiyyatın inkişafına şərait yaradır, azad sahibkarlığa təminat verir, iqtisadi münasibətlərdə inhisarçılığa və haqsız rəqabətə yol vermir.

Həmçinin sosial inkişaf və dövlət prinsipində qeyd edilir ki, Azərbaycan dövləti xalqın və hər bir vətəndaşın rifahının yüksəldilməsi, onun sosial mudafiəsi və layiqli həyat səviyyəsi qayğısına qalır. Azərbaycan dövləti mədəniyyətin, təhsilin, elmin, incəsənətin inkişafına yardım göstərir, ölkənin təbiətini, xalqın maddi və mənəvi irsini qoruyur (1).

Dövlətin innovasiya siyasətinin əsas istiqaməti kimi makroiqtisadi sabitlikdə mülkiyyət vətəndaş cəmiyyətinin və onun sosial-iqtisadi rifah meyarlarının mühüm faktorlarından biridir. Belə ki, makroiqtisadi sabitlikdə mülkiyyət şəxsiyyətin və bütün cəmiyyətin azadlığının ilkin şərti kimi xarakterizə olunur.

Makroiqtisadi sabitlik innovasiya siyasətində sosial-iqtisadi təminatın təşkilatlanan sistem meyarıdır. Lakin makroiqtisadi sabitlikdə rəqib subyektlər arasında maraqlar balansının yaradılması sosial-iqtisadi bərabərliyi şərtləndirir. Dövlət innovasiyalı iqtisadi tərəqqini və sosial-iqtisadi münasibətləri formalaşdıran və qoruyan mühüm faktordur.

Beləliklə, makroiqtisadi sabitliyin əsaslarından biri kimi mülkiyət həm də iqtisadi nəticə kimi səciyyələnir. Makroiqtisadi effekt və sosial-iqtisadi artım meyarı, innovativ dəstəyin qarşılıqlı səmərəli əlaqələrinin tənzimlənməsi mülki hüquq müdafiəsini zəruri edir. Belə ki, makroiqtisadi sabitliyin tənzimlənməsində mülkiyyətin əsas formalarında olan yaradıcılıq, yəni əqli mülkiyyət, əqli fəaliyyət və əqli fəaliyyətin nəticələri kimi mülkiyət siyasi-iqtisadi, fəlsəfi və hüquqi məzmunu, forma və əhəmiyyəti vardır.

Beləliklə, müasir dünya ölkələrinin geoiqtisadi əlaqələrində dövlətlərin sosial-iqtisadi tərəqqi istiqamətləri davamlı rifah, iqtisadiyyatın hüququ tənzimlənməsi sahəsində liberal prinsiplərinin tətbiqi əsas meyarlar kimi səciyyələnir.

Dünya ölkələrində diplomatik və iqtisadi əlaqələr inkişaf etdikcə xarici iqtisadi əlaqələrin yeni formalarının yaranması obyektiv zərurətə çevrilir. Hər bir ölkənin iqtisadi tərəqqisinin əhəmiyyətli dərəcəsi

onun xarici iqtisadi əlaqələri ilə səciyyələnir (5).

Beləliklə, Ümumdünya İqtisadi Forumunun (WEF) proqnozlarına əsasən, makroiqtisadi sahədə inflyasiya, mövcud iqtisadi reallıqlar və yaşayış məsrəfləri ilə əlaqəli problemlər G20 ölkələrində yaxın illər ərzində iqtisadi fəaliyyət üçün əlverişli şəraitli olacağı ilə proqnozlaşır (1). Belə ki, WEF yeni iqtisadi şəraiti şərh edərək bildirir ki, inflyasiya onilliklər ərzində proqnozlaşdırılmayan səviyyədədir və bu, G20 ölkələrinin müəyyən təbəqəsində iqtisadi rifah meyarında natamamlıq yaradır və bu proseslər ölkələrə qarşı ayrı-seçkilik kimi səciyyələnir.

Qeyd etmək lazımdır ki, dünyanın mərkəzi banklarının aqressiv proqnozlarında beynəlxalq maliyyə inflyasiyasının riskini tənzimləmək cəhdləri qlobal iqtisadiyyatda tənəzzül meyarının həyəcanı kimi qiymətləndirilir. Belə ki, Misirdə və İndoneziyada keçiriləcək G20 sammitində müzakirə olunan əsas prinsiplər, sosial-iqtisadi məsələlər və ekoloji problemlər aktuallaşmışdır. Beləliklə, beynəlxalq təşkilatlar geosiyasətdə artan texnoloji təhlükəsizlik təhdidlərinə, kiber hücumlara qarşı nəticə etibarı ilə sosial-iqtisadi təminat tədbirinin tənzimlənməsini balanslaşdırmalı və bu problemlərin aradan qaldırılmasına nail olmalıdır. Bu kimi meyarlar dövlətlərin siyasi-iqtisadi tərəqqisini, insanlara yeni iş yerlərinin yaradılması və təmin edilməsini, ölkədə sosial-iqtisadi vəziyyətin yaxşılaşmasını zəruri şərtlərdən hesab edir (5).

Belə ki, geosiyasi və sosial-iqtisadi sistemin etibarlılığı, qarşılıqlı əməkdaşlıq və milli suverenliyin qorunmasının zəruriliyi aktuallaşmalıdır. Geosiyasi tərəqqi, makroiqtisadi sabitlik və mülki hüquq müdafiəsi dünya miqyasında mövcud olan sistemin yeniləşməsi prosesi XXI əsrin əvvəllərindən etibarən sosial-iqtisadi tərəqqi tempini şərtləndirir. Belə yanaşmada da sosial-iqtisadi rifah təminatının nəzəriyyəsinin formalaşması aktuallaşmışdır.

**Makroiqtisadi sabitlik və mülki hüquq müdafiəsi**




Müxtəlif mənbələrə əsasən müəllif tərəfindən hazırlanmış sosial konsepsiya dünyanın siyasi-iqtisadi mənzərəsini özündə əks etdirir. Belə ki, siyasi-iqtisadi şəraitdə dəyişən iqtisadi reallıqları, qlobal miqyasda bu və ya digər formada sosial-iqtisadi təminatın tənzimlənməsini zəruri edən meyarlar Birləşmiş Millətlər Təşkilatı tərəfindən təqdirə layiq hesab edilmişdir.

Beynəlxalq müqayisəli nəzəriyyəyə əsasən siyasi təhlükəsizlik iqtisadi tənzimlənməni, makroiqtisadi sabitlik isə sosial-iqtisadi rifah təminatını zəruri edir. Belə ki, hər bir siyasi-iqtisadi təhlükəsizliyin təminatı yalnız və yalnız dövlət dəstəyi və proqramı ilə tənzimlənir. Beləliklə, makroiqtisadi sabitlik formalaşır və sosial-iqtisadi rifah təminatında qeyri-bərabərliklərin bərabərlik istiqamətində tənzimlənməsi real iqtisadi meyarları əks etdirir. Bu səbəbdən də mövcud iqtisadi şəraitdə qiymətlər tənzimlənir (tələb və təklif qanunlarına əsasən), inflyasiya balanslaşdırılır, vətəndaşın sosial-iqtisadi rifah təminatı davamlı olur və yeni iş yerlərinin yaranmasına əlverişli şərait yaradılır.

Qeyd edilən iqtisadi idarəetmə və tənzimlənmə meyarı, Prezdentimizin qeyd etdiyi kimi ölkəmizin ərzaq təminatının mühüm hissəsini, ölkənin kənd təsərrüfatının istehsal ilə ərzaq təhlükəsizliyini təmin etməlidir. Beləliklə, iqtisadi idarəetmədə makroiqtisadi sabitlik və sosial-iqtisadi rifah təminatı dövlətin əsas hədəfi hesab edilir. Bu hədəflərin reallaşması, sosial-iqtisadi tədbirlərin davamlı olmasını üçün müvafiq iqtisadi tədbirlərin davamlı həyata keçirilməsi ölkənin makroiqtisadi sabitliyini və mülkü hüquq müdafiəsinin əsaslarını şərtləndirir.

**Makroiqtisadi səmərəlilik və sosial-iqtisadi bərabərliyin müqayisəsi**

Makroiqtisadi səmərəlilik və sosial-iqtisadi tərəqqi, siyasi təhlükəsizliyin nəzəri əsaslarının elmi təhlili geosiyasi reallıqların zərurətidir. Belələ ki, sosial-iqtisadi təhlükəsizlik əsasən zaman və məkan kontekstində cəmiyyətin davamlı inkişafını təmin edən ictimai münasibətlər sisteminin daxili və xarici innovativ təhdidlərindən qorunmasıdır. Bu səbəbdən də sosial-iqtisadi təhlükəsizliyin əsas meyarı makroiqtisadi sabitlik və işsizliyin aradan qaldırılması, yeni iş yerlərinin yaradılmasını zəruri edir.

Bu meyarlar makroiqtisadi sabitliyin formalaşmasında real, maliyyə-pul siyasətində balanslaşmanı və bütün təsərrüfat sisteminin sosial-iqtisadi ri-

fah tərəqqisinə fokuslanmasını aktuallaşdırır. Belə ki, makroiqtisadi sabitliyin müəyyənləşdirilməsi metodikası sosio-iqtisadi rifah təminatını əhatə etməlidir. Lakin bu meyarın normativlərini müəyyənləşdirmək üçün iqtisadi reallığı və makroiqtisadi sabitliyin təminatı, sosial-ictimai münasibətlərin siyasi şəraitə inamını artıran meyar hesab edilir. Bizim fikrimizcə, sosial-iqtisadi təminatın tənzimlənməsi real iqtisadi şəraitdə qeyri-bərabərliyin bərabərliklə uzlaşdırılması nəticə etibarı ilə ölkənin siyasi-iqtisadi və makrosituasiyanın sabitliyinin zəruri meyarıdır.

Beləliklə, xarici borcun həcminə görə ölkələrin təsnifləşdirilməsi zamanı Dünya Bankının ümumi meyar kimi borcun məbləği yüksək və orta olan ölkələrlə müqayisə edilir. Bu səbəbdən də, ölkəmizin iqtisadi təhlükəsizlik meyarının normativ qiymətləndirilməsinə əsasən xarici dövlət borcunun ÜDM-də əsas çəkisi 57%-dən çox olmaması ilə səciyyələnir. Bu meyarlar iqtisadi riyazi metodlarla dəqiq hesablamanın məntiqi nəticəsidir (5).

Lakin bu prinsipləri dünya ölkələri ilə müqayisə etdikdə məlum olur ki, ABŞ-ın xarici dövlət borcu ÜDM-in 105,9%-ni (22 trln. dol.), Yaponiyada isə 221%-ni təşkil edir. Bu müqayisədə ABŞ və Yaponiyanın büdcə gəlirləri və istehsal prosesi, idxal və ixracdan gələn xarici dövlət borcunun % dərəcəsinin artım və azalmalarda mövcud olan iqtisadi riskləri tənzimləyir.

Beləliklə, müasir dünya ölkələrində geoiqtisadi təhlükəsizlik meyarı siyasi-iqtisadi cəhətdən fərqli məkan və zaman prinsipi ilə ölçülür. Bu meyarların əsas xüsusiyyəti ondan ibarətdir ki, sosial-iqtisadi rifah təminatı xarici faktorlarla deyil, daxili dəstəklə tənzimlənir. Bu səbəbdən də geosiyasi meyarların geoiqtisadi strategiya ilə tənzimlənməsi gələcəkdə davamlı iqtisadi tərəqqi və təhlükəsizlik baxımından zəruridir.

Bu meyarlar səbəbindən ölkənin mövcud iqtisadi təhlili (DSK-nın məlumatlarına əsasən) 2022-ci ildə istehlakçılar tərəfindən göstərilmiş xidmətlərin dəyəri 44,9 milyard manat olmaqla 2021-ci ilə nisbətən müqayisəli qiymətlər 4,7% artımlı təşkil etmişdir. Lakin 2022-ci ildə ölkə əhalisinin nominal gəlirləri 20,2% artımla 50159,5 milyon manat və ya hər nəfərə hesablanan orta hesabla 5059,5 manat təşkil etməlidir.

Bununla yanaşı (DGK-nın məlumatlarına əsasən) 2022-ci il xarici ticarət dövriyyəsinin həcmi 39814,4 milyon ABŞ dolları, o cümlədən idxalın həcmi 34521,1 milyon ABŞ dolları və istehsalın həcmi isə 10459,5 milyon ABŞ dolları təşkil etmişdir.

Beləliklə, XX əsrin sonlarından Azərbaycan siyasi-iqtisadi və sosial-mədəni həyatında tərəqqi dövrünü inamla irəliləyək makroiqtisadi sabitliyi, təhlükəsiz həyat səviyyəsini təmin etmiş ölkə kimi dünyada tanınır. Belə ki, siyasi-iqtisadi tərəqqi və maliyyə təminatı uzun illər makroiqtisadi sabitliyi və davamlı sosial-iqtisadi rifah artımı təhlükəsizliyinin təmini üçün mühüm töhfə hesab edilir.

Beləliklə, dünyanın müasir siyasi-iqtisadi şəraitdə inkişaf etmiş ölkələri ilə müqayisədə ABŞ iqtisadiyyatı nominal ÜDM və xalis sərvətə görə dünyanın ən böyük ölkəsi və yenə də alıcılıq qabiliyyətinə görə ən böyük gəlirli iqtisadiyyat hesab edilir. Belə ki, ABŞ 2019-cu ilin məlumatlarına əsasən dünyada hər nəfərə hesablanan gəlirdə yeddinci ölkə olmuşdur. Bunun əsas səbəbi ABŞ-ın dünyanın güclü innovative iqtisadiyyatı malik ölkə olmasıdır. Bununla yanaşı, ABŞ-ın ən böyük iqtisadi əlaqələri Çin, Meksika, Yaponiya, Almaniya, Cənubi Koreya, Birləşmiş Krallıq, Fransa, Hindistan, Tayvand, Türkiyə və Azərbaycandır. ABŞ dünya ölkələrində ən böyük idxalçı və ikinci ən böyük ixracatçı ölkə hesab edilir.

Beləliklə, dünya ölkələrinin geosiyasi və makroiqtisadi tərəqqi təcrübələrinin elmi təhlilindən də məlum olur ki, ABŞ dünyanın ən məhsuldar makroiqtisadi tərəqqisinə nail olmuş ölkədir. Bu səbəbdən də Nyu-York Fond Birjası və NASDA ticarət həcminə görə dünyanın ən böyük birjası kimi səciyyələnir və dünyanın ən böyük neft və təbii ehtiyatlar istehsalçısı hesab edilmişdir (7).

Bununla yanaşı, ABŞ-ın ümumi iqtisadi ticarəti 2018-ci ildə 4.4 trilyon dollar təşkil etmişdir. Bunun da səbəbi odur ki, dünyanın iqtisadi və maliyyə təşkilatlarının mərkəzi, yəni dünyanın 444 ən böyük şirkətindən 121-nin qərargahı ABŞ-da yerləşir. Belə ki, ABŞ-da xarici sərmayələrin həcmi təxminən 4.4 trilyon dollar, xarici ölkələrdə Amerika sərmayələri isə ümumilikdə 5.19 trilyon dollara bərabərdir. Beləliklə, ABŞ-ın real iqtisadi meyarı aşağıdakı kimi təsvir edilir:

| ABŞ-ın real iqtisadi mənzərəsi | |
|---|---|
| Nominal ÜDM | 20.44 trilyon $(Q3 2018) |
| Real ÜDM artımı | 3,7% (Q3 2018)<br>2,1% (2019) |
| İQİ inflyasiyası | 2,2% (noyabr 2018) |
| İşsizlik | 3,3% (noyabr 2018) |
| İşçi qüvvəsi | 72,9% (noyabr 2018) |
| Ümumi dövlət borcu | 21,85 trilyon $ (noyabr 2018) |
| Milli sərvətinin xalis gəliri | 109,5 trilyon $ (Q3 2021) |

*Mənbə: müxtəlif məlumatlar əsasında müəllif tərəfindən hazırlanmışdır.*

Beləliklə, müqayisə üçün qeyd edək ki, cari ildə Federal Ehtiyat Sistemi (FED) və Dünya Bankı, İngiltərə Bankı uçot dərəcələrinə yenidən tənzimlənməni zəruri hesab etmişlər. Təhlillərdən məlum olur ki, ABŞ və dünyada ölkələrində qiymət artımı son 20 ilin ən yüksək mərhələsindədir. Belə ki, Federal Ehtiyat Sistemi (FED) və Dünya Bankı, İngiltərə Bankı iqtisadiyyatda tənzimləyici proqnozlarında əsas meyarı mövcud inflyasiyanı əsas hesab etsələr də bunun tənzimlənməsi barədə siyasi-iqtisadi tədbirlər müəyyən etməmişlər. Bununla yanaşı ABŞ-ın Mərkəzi Bankının fəaliyyətini tənzimləyən Federal Ehtiyat Sistemi (FED) bir neçə dəfə, yəni 0,78 % uçot dərəcəsinin artımını proqnozlaşdırır.

ABŞ iqtisadi siyasətində monetarizm strategiyası Reyqanın hakimiyyəti illərində mövcud olmuşdur. Reyqan siyasi-iqtisadi proqramı vergiləri azaltmaqla əhalinin aztəminatlı təbəqəsinin sosial-iqtisadi rifah təminatını tənzimləyirdi. Belə ki, 1981-82-ci illərdə Konqres korporasiyaların mənfəəti naminə vergiləri azaltdı və 1960-cı ildə bu sahədə gəlirlər büdcə gəlirinin 19,5%-i idisə, 1980-də 15,9%, 1983-də 5,19% təşkil etmişdir.

Bu səbəbdən də sosial-iqtisadi proqramın təminatında makroiqtisadi sabitliyi tənzimləmişdir. Beləliklə, 1960-cı ilin 15,9% ümumi büdcə gəlirində xüsusi çəkisi idisə, 1980-ci ildə 30,5%, 1983-cü ildə 35,5% təşkil etmişdir. Lakin 1978-ci ildə isə 104,5 milyard dollardan 1985-ci ildə 227,8 milyard dollara qədər olmuşdur. Bu siyasi-iqtisadi metodlar büdcədə nisbi natamamlıq yaratsa da makroiqtisadi tarazlığı tənzimlədi. Bir çox beynəlxalq iqtisadçılar Reyqan iqtisadi siyasətini Amerikanın tərəqqi templi olduğu kimi səciyyələndirmişlər. Bununla yanaşı müasir geosiyasi şəraitdə ABŞ-ın makroiqtisadi sabitliyinin təminatçısı kimi C.Bayden siyasətinin sosial-iqtisadi rifah təminatını artım templi proqramını və Federal Ehtiyat Sisteminin pul kütləsinin artımında inflyasiyanı tənzimləyən meyarlar kimi səciyyələndirmişlər.

Beləliklə, Monetaristlər iqtisadi artımı pul kütləsinin artımı ilə əlaqələndirirlər. Bununla yanaşı Neoliberalistlər isə iqtisadi artımın qlobal tənzimlənməsini təmin edirlər. Müasir neoliberalistlər planlaşdırmanı əhəmiyyətli və qlobal sosial-iqtisadi təminatın tənzimlənməni mühüm siyasi-iqtisadi proqram hesab edirlər.

Beləliklə, dünyanın bir çox ölkələrində sosial-iqtisadi şəraitdə mövcud olan bir sıra nöqsanlar olduğu halda Rusiyada qlobal iqtisadi meyarlar normal səciyyələnmişdir. Belə ki, bəzi tədqiqatçılar tərəfindən Rusiyanın ərazisi, təbii ehtiyatları, coğrafi quruluşu, siyasi-iqtisadi vəziyyəti və sosial rifah mənzərəsi mühüm hesab edilir. Bunlar, ilk öncə, real əməkhaqqı və istehlak artımı - Rusiya iqtisadiyyatının tərəqqi meyarı kimi səciyyələnir. Bununla yanaşı müharibə aparan ölkə olsa da inflyasiya və məşğulluq dərəcəsi aşağı və normada olan meyarlar kimi səciyyələnir.

Beləliklə, makroiqtisadi, məşğulluq sosial rifah və gəlir meyarına görə ölkələr hər nəfərə hesablanan ÜMG-ə görə təsnifləşdirilir. Belə ki, Dünya Bankının 2001-ci ilin hesablamalarına görə, hər nəfərin illik gəliri 747 ABŞ dollar müəyyən edilir ki, bu ölçülərdən az olan ölkələr aşağı gəlirli ölkələr, əhalinin hər nəfərinə düşən gəliri 747 və ya 2875 ABŞ dolları məbləğində olan ölkələr orta səviyyədən aşağı gəlirli ölkələr hesab edilirlər. Gəliri 2875 və ya 9105 ABŞ dolları olan ölkələr isə orta səviyyədən yuxarı gəlirli ölkələr, vətəndaşlarının orta illik gəliri 9507 ABŞ dollarından yuxarı olan ölkələr isə yüksək gəlirli ölkələr sırasına aid edilir.

Beləliklə, çoxlu sayda ölkələr arasında müqayisə aparmaq olar, lakin regional inteqrasiya prosesləri intensivləşdikcə milli suverenliyin hissə-hissə fövqəl-hökumət qurumlarına adekvat keçidlə əvəzlənir. Belə ki, ölkənin daxili iqtisadi meyarları və milli hüquq-siyasəti, onun ənənələrinin təsir dairəsi

azalır və daxili proseslər qloballaşır. İnsan haqları və onun sosial-iqtisadi rifah təminatı ölkənin daxili məsələsi və siyasi-iqtisadi şəraiti tənzimlənmədikdə bu meyarlar qlobal miqyasada geosiyasi təhlükə yaradır. Belə şəraitdə sosial-iqtisadi tərəqqi təminatının məhdudlaşdırılması geosiyasi mənzərədə xaosa səbəb olur ki, bu meyarlarda milli siyasi-iqtisadi mənafelərə təhlükə hesab edilir. Belə fikirlərə misal üçün "Ərəb baharı" və digər dünya ölkələrində mövcud olmuş real sosial-iqtisadi, siyasi hadisələri qeyd etmək olar. Bu şəraitdə siyasi-iqtisadi meyarlar tədricən modifikasiyaya uğrayır.

Bu fikirlərin təhlilindən məlum olur ki, siyasi-iqtisadi tərəqqi mühüm mərhələlərdən keçmişdir, təhlükəsizlik sosial-iqtisadi təminatla əlaqəli müxtəlif məzmunlu konseptual yanaşmalara və istinadlara görə üç qrupda təsnifləşdirilmişdir. Belə ki, modernizmə qədərki dövrün siyasi-iqtisadi vəziyyəti, imperiyalar dövrün sosial-iqtisadi təminatı, dini ideologiyanın hökmranlığı dövründə sosial-iqtisadi təminat və s. Bu meyarlar mövcud geoiqtisadi şəraitdə sosial-iqtisadi rifah təminatının ideallaşmasını şərtləndirir.

Siyasi-iqtisadi təhrik fikri birmənalı olaraq Azərbaycan və dünya ölkələrinin Konstitusiyasında insan hüquq və azadlığına, onun sosial-iqtisadi rifah təminatına qəsd kimi qəbul edilən termindir. Əvvəla, bu terminologiyada rasionallıq sosial-iqtisadi məsələdə qeyri-müəyyənlik təşkil edir və bütün təfərrüatı, yaxud xarici siyasi-iqtisadi təzyiq kimi səciyyələnir.

**İqtisadi innovasiya və makroiqtisadi sabitlik**, müasir şəraitdə elmi cəhətdən siyasi-iqtisadi və innovativ təhlükəsizlik sosio-iqtisadi rifah təminatı sisteminin məqsədi, əsas hədəfi kimi səciyyələnir. Bu səbəbdən də Ümummilli Lider Heydər Əliyev qeyd edirdi ki, siyasi-iqtisadi təhlükəsizlik, sosial-iqtisadi rifah təminatının bərpası müasir dövrün zəruri şərtlərindəndir. Belə prinsiplər iqtisadi sistemdə, yəni profilaktikanı və bərpa olunan enerji immunitetinin təminat fəaliyyətinin əsaslarını səciyyələndirir(5). Digər kontekstdən yanaşdıqda sosio-iqtisadi rifah təminatına iqtisadi sistem təhlükə mənbəyi olmamalıdır, dünya təcrübəsində belə hallar geosiyasi-iqtisadi xaosla nəticələnir.

Geosiyasi təhlükə yaradan meyar, siyasi-iqtisadi sistemi formalaşdırsa bu normal sosial-iqtisadi və ictimai münasibətlərdə, fəaliyyətdə bilavasitə təhlükə mənbəyi hesab edilir. Geosiyasi və ictimai münasibətlərdə, söhbət yalnız sosio-iqtisadi sistemə xas olan münasibətlərdən deyil, bütövlükdə ümumcəmiyyət mənafeləri kimi səciyyələnir. Beləliklə, ümumi fikirlərdən bu nəticə yaranır ki, sosio-iqtisadi, siyasi sistemin məqsədi davamlı iqtisadi tərəqqi təminatını və innovativ təhlükəsizliyin əsasları hesab edilir. Bu mənada, iqtisadi təhlükəsizliyi və ümumi təhlükəsizlik anlayışı ilə eyniləşdirmək olmaz. Heydər Əliyev qeyd edirdi ki, siyasi-iqtisadi təhlükəsizlik, davamlı sosial-iqtisadi tərəqqi təminatında təhlükəsizliyin və makroiqtisadi sabitliyin əsas təminatçısı olmalıdır. Yəni, geosiyasi və iqtisadi təhlükəsizliyə aid olan əsas meyarlar innovasiya, bərpa olunan enerji, ərzaq və s. bu kimi zəruri prinsiplər iqtisadi təhlükəsizliyin real mahiyyətini dərk edilməsində hüquqi-siyasi məzmunun nəzəri konsepsiyasının tənzimlənməsini zəruri edir. Belə ki, iqtisadi təhlükəsizlik və işsizlik geosiyasi, makroiqtisadi sabitlik, sosial-iqtisadi təhlükədir, məhz bu kontekstdə rasionallığın təhlilini və yeni iş yerlərinin təminatını şərtləndirir.

Beləliklə, sosial-iqtisadi rifah təminatı davamlı artımı, tərəqqili cəmiyyət elmi əsaslı biznesi və dövlət həmrəyliyi isə uğurlu makroiqtisadi sabitliyin möhkəmləndirilməsinin əsas şərti hesab edilir. Bununla yanaşı, dövlətin makroiqtisadi sabitliyin tənzimlənməsi meyarı sərbəst iqtisadiyyat səmərəli idarə olunması, elmi yönümlü institutların gücləndirilməsi və sosial-iqtisadi rejimlərin daha da liberallaşdırılması geoiqtisadi tərəqqinn əsas meyarları hesab edilir. Beləliklə, innovativ sosial-iqtisadi rifah təminatı mövcud geosiyasi və geoiqtisadi şəraitdə makroiqtisadi sabitliyi mülki müdafiənin şərtlərindəndir. Bu meyarların reallaşdırılması davamlı makroiqtisadi sabitliyə xidmət edən effektiv geoiqtisadi siyasəti və mülki müdafiədə iqtisadi tərəqqini formalaşdırır.

Beləliklə, proqnozlaşdırılan geosiyasi tərəqqi və makroiqtisadi sabitlikdə mülki müdafiə gələcək illərdə (onillikdə) ölkənin sosial-iqtisadi inkişafına dair aşağıdakı meyarların reallaşdırılmasını səciyyələndirir;

**Sosial-iqtisadi müdafiədə məşğulluq siyasəti**

Ölkənin innovasiyalı makroiqtisadi sabitlik meyarı həm də, sosio-iqtisadi rifah təminatının əsasları kimi dövlətin məşğulluq siyasəti və iqtisadi gəlirlərin formalaşdırılmasıdır. Belə ki, makroiqtisadi sabitlikdə məşğulluq siyasəti ölkənin davamlı iqti-

sadi tərəqqi təminatında mühüm əhəmiyyəti, onun cəmiyyətdə sosial həmrəyliyi, sosial əməkdaşlığı, sosial-mədəni istiqamətin əsas şərti məşğulluq təminatıdır. Belə şəraitdə sosial-iqtisadi və insan rifahının təminatı üçün əlverişli iqtisadi mühitin formalaşdırılması mühüm meyarlar hesab edilir.

Məşğulluq siyasətində əhalinin gəlirinin diferensasiyası sosial-iqtisadi rifah təminatının öyrənilməsi üçün ÜDM-n əmsalı ilə tənzimlənməsi səciyyəvi hesab edilir. Belə ki, məşğulluq siyasəti aşağıdakı meyarlarla təsnifləşir:

- Sosial qruplar,
- ÜDM-a hərnəfərə hesablanan gəlirin bərabərliyi,
- Ərzaq məhsullar məsrəfləri,
- Qeyri-ərzaq məhsulların məsrəfləri,
- Cari məsrəflər.

Dünya təcrübəsində məşğulluq siyasəti hər bir şəxsin sosial-iqtisadi rifahı və BMT tərəfindən təklif edilən insan inkişafı konsepsiyasının baza prinsipləri ilə tənzimlənir. Makroiqtisadi sabitlikdə məhsuldarlıq şəxsin sosial-iqtisadi fəaliyyətində məhsuldarlığın artımının, gəlirin davamlı innovativ tənzimlənən meyarların fəallaşdırılmasıdır.

**Sosial-iqtisadi bərabərlik**, siyasi-iqtisadi şəraitdə və real həyatda insanlara bilik və bacarığından maksimum səmərəli fəaliyyətinə mühitin yaradılmasıdır.

**Davamlı makroiqtisadi tərəqqi**, sosial və təbii ehtiyatların səmərəli fəaliyyəti bərpa olunan enerji, mülkü hüquq müdafiəsi, gənc nəslin rifahı naminə təbii ehtiyatların mühafizəsi və bərpa fəaliyyətidir.

Əhalinin elm və təhsilli sosial təminat, alıcılıq qabiliyyəti insan rifahı, əhalinin gəlir fərqləri əsasən vətəndaşın iqtisadi fəallıq meyarı ilə müəyyən edilir.

**Məşğulluq,**

Məşğul əhalinin ümumi tərkibi,

Məşğul əhalinin sosial-iqtisadi quruluşu,

Məşğulluğun səviyyəsi,

Mülkiyyət formalarına görə,

Əlavə işlə məşğul əhali qrupu.

Beləliklə, əhalinin mülkü təminatı dövlət tərəfindən dəstəklənir və onun gəlir, xərclərin tənzimlənməsi isə istehlak olunan sosial-iqtisadi rifah meyarı hesab edilir.

Makroiqtisadi sabitliyin təminatında məşğullun artırılması, sosial-iqtisadi sahədə qeyri-bərabərliyin tənzimlənməsini səciyyələndirir. Monetarist konsepsiyalar müxtəlif ölkələrdə iqtisadi problemlərin həllində mühüm meyar kimi uğurla istifadə olunmuşdur. Müasir şəraitdə respublikamızda aparılan antiinflyasion pul siyasəti monetarist siyasətinin əsas istiqaməti kimi səciyyələnir(7).

Beləliklə, elmi-tədqiqat nəticəsində ölkənin ÜDM-un mövcud məqsəd və vəzifələri, bilik və təhsil sahəsində informasiya texnologiyalarının tətbiqi və davamlı iqtisadi tərəqqinin təminatı ilə əlaqəlidir. Belə ki, sosial-iqtisadi rifah artımı və yeni iş yerlərinin yaradılması əhalinin etibarlı sosial-iqtisadi müdafiəsinin təşkili istiqamətində məqsədyönlü tədbirlərin proqramlaşdırılması ilə şərtlənir.

Belə ki, bütün geosiyasi proqramların həyata keçirilməsi üçün əsas meyar sosial-iqtisadi rifah artım, ilə şərtlənir. Bu səbəbdən də mövcud şəraitdə Azərbaycanda dövlətin siyasi-iqtisadi fəaliyyətinin əsas istiqaməti "güclü iqtisadiyyat və güclü dövlət" prinsipləri ilə şərtlənir. Beləliklə, geosiyasi mənzərədə iqtisadi diplomatiyanın əsas prinsipi də sosial-iqtisadi rifahın davamlı artım proqramının reallaşdırılmasıdır.

Bununla əlaqədar Heydər Əliyevin 1994-cü ildə "Əhalinin sosial müdafiəsinin gücləndirilməsi və maliyyə vəziyyətinin sabitləşdirilməsi tədbirləri haqqında" ilk genişmiqyaslı sərəncamı makroiqtisadi sabitliyin əsaslarını yaratmışdır. Beləliklə, makroiqtisadi sabitliyin təminatında məqsəd və vəzifələri, orta və uzunmüddətli dövr üçün sosial-iqtisadi rifah istiqamətli olması ilə səciyyələnir. Belə ki, makroiqtisadi sabitliyin müxtəlif sahələr üzrə fəaliyyət proqramı hazırlanmalı həyata keçirilən siyasi-iqtisadi tədbir ölkənin sosial-iqtisadi həyatında öz əksin tapmalıdır ilə şərtlənir.

Belə ki, Prezident İlham Əliyevin 2003-2017-ci illər ərzində məqsədyönlü, ölkənin siyasi-iqtisadi və sosial-iqtisadi rifahı ilə əlaqədar fəaliyyəti problemlərin həllinə sistemli və kompleks yanaşmanı təmin etmişdir. Bununla yanaşı, hər bir ölkənin ərzaq təhlükəsizliyi milli iqtisadi təhlükəsizliyin əsas şərtlərindən və makroiqtisadi sabitliyində həlledici meyar hesab edilir. Beləliklə, ərzaq təhlükəsizliyi və ölkənin ərzaq təminatı makroiqtisadi sabitliyin əsas təminatı, dövlətin siyasi-iqtisadi və sosial rifah meyarının möhkəm olmasını xarakterizə edir. Belə ki, ərzaq təhlükəsizliyi əsasən sosial-iqtisadi və siyasi-iqtisadi meyarlarla müəyyən edilir.

Sosial-iqtisadi meyara əsasən hər bir dövlət öz vətəndaşların əsas qida məhsulunun istehlakında qəbul edilmiş normalara uyğun təmin etməlidir. Bu prinsiplər əsasən öhdəlik kimi "Ümumdünya Ər-

zaq Təhlükəsizliyinə dair" Roma Bəyannaməsində öz əksini tapmışdır. Bununla yanaşı, ərzaq təhlükəsizliyinin siyasi-iqtisadi meyarı vətəndaşın ərzaqla təminatının yerli istehsala əsaslanmasını və ölkənin ərzaq ehtiyacının tənzimlənməsini şərtləndirir. Ərzaq təhlükəsizliyi artıq dünya təcrübəsində qəbul edilmiş və hazırda geniş istifadə olunan termindir.

## Nəticə

Beləliklə, makroiqtisadi sabitlik və onun təhlükəsizliyi meyarları gələcək onilliklər ərzində davamlı sosial-iqtisadi rifah təminatının tərəqqisini şərtləndirir. Belə ki, mülki müdafiə, makroiqtisadi sabitliyin texnogen modelin əsas istiqaməti siyasi-iqtisadi meyar və məzmunu davamlı iqtisadi tərəqqiyə yönəlməlidir. Bu prinsiplər sosial-iqtisadi rifah təminatı və makroiqtisadi sabitliyin tərəqqisi əsasında şərtlənir.

Belə ki, ticarət rejiminin liberallaşdırılması əsasında ölkə əhalisini idxal məhsulları ilə təmin edəcək və makroiqtisadi sabitlikdə idxalın strukturunda ərzaq məhsullarının payının əhəmiyyətli dərəcədə artımına səbəb olacaqdır. Dünya təcrübəsinə əsasən ərzaq təhlükəsizliyi, ərzaq təminatı sahəsində ölkənin nə dərəcədə müstəqil olması ilə qiymətləndirilən əsas meyar kimi səciyyələnir.

Nəzərə alaq ki, makroiqtisadi sabitlik və mülki hüquq müdafiəsi, geosiyasi sosial-iqtisadi rifah təminatı təhlükəsizliyin zəruri formalarından biridir. Beləliklə, iqtisadi təhlükəsizlik mahiyyət etibarı ilə davamlı tərəqqinin yaratdığı zərurətin məntiqi nəticənin əsasları kimi səciyyələnir.

Müqayisə üçün qeyd etmək zəruridir ki, keçmiş postsovet ölkələri və o cümlədən Azərbaycan makroiqtisadi sabitliyi, ərzaq təhlükəsizliyini və milli siyasi-iqtisadi təhlükəsizliyi normal formada təmin edirdilər. Belə ki, ölkənin geosiyasi tərəqqisi, makroiqtisadi sabitliyi və mülki hüquq müdafiəsi sosial-iqtisadi tərəqqinin əsaslı təminatı kimi şərtlənir. Bu isə sosial-iqtisadi təhlükəsizliyin zaman və məkan kontekstində cəmiyyətin davamlı inkişafını təmin edən ictimai münasibətlər sisteminin daxili və xarici innovativ təhdidlərindən qorunmasıdır. Bu səbəbdən də sosial-iqtisadi təhlükəsizliyin əsas meyarı makroiqtisadi sabitlik və işsizliyin aradan qaldırılması, yeni iş yerlərinin yaradılmasını zəruri edir.

## ƏDƏBİYYAT SİYAHISI:


*1. İlham Əliyev "İnkişaf – məqsədimizdir", 9-cu kitab, Azərnəşr, Bakı 2012.*

*2. N.Məmmədov, "Geosiyasətə giriş" Bakı, "Azərbaycan nəşriyyatı", Bakı. 2018,*

*3. İ.Alıyev "Milli iqtisadi tərəqqi modelinin formalaşması və prinsipləri", Bakı 2015.*

*4. Ə. Əlirzayev, "Sosial-iqtisadi rifah və idarəetmənin əsas prinsipləri". Bakı, 2014.*

*5. D.İ.Allahverdiyev, "Dünya iqtisadiyyatı: İqtisadi mənafelər, mövcud reallıqlar və perspektivlər". Bakı, 2020.*

*6. F.Ə.Əliyev "Azərbaycan elminin inkişaf perspektivləri", Bakı: 2012*

*7. R.Mehdiyev,"Yeni dünya nizamı: tərəqqiyə doğru" kitab, Azərbaycan nəşriyyatı, Bakı 2014.*


## XÜLASƏ


Məqalədə, dünya ölkələri ilə geosiyasi əlaqələrdə Azərbaycanın davamlı sosial-iqtisadi tərəqqisi, makroiqtisadi sabitlik meyarı barədə fikirlər və siyasi-iqtisadi perspektiv imkanları şərh edilmişdir. Azərbaycanın məcmu iqtisadi potensialı, milli iqtisadi tərəqqisi və onun davamlı olmasına dair dövlət dəstəyinin artırılması istiqamətləri təhlil edilmişdir. Beləliklə də dövlətin siyasi-iqtisadi əlaqələri və sosial-iqtisadi tərəqqisi, makroiqtisadi sabitliyi, mülki hüquq müdafiəsi və vətəndaş rifahı sahələrində dünya ölkələrinin təcrübəsi və müasir vəziyyəti araşdırılmışdır.



**Açar sözlər:** *geoiqtisadi perspektiv, iqtisadi reallıqlar, insan rifahı, davamlı iqtisadi tərəqqi, iqtisadi diplomatiya.*

UOT: 339.33

# AZƏRBAYCANDA TRANZİT-NƏQLİYYAT XİDMƏTLƏRİNİN İNKİŞAFINA İNVESTİSİYA QOYULUŞUNUN ƏHƏMİYYƏTİ

**GÜNAY ƏLİYEVA**
*Azərbaycan Texniki Universiteti,*
*"İqtisadiyyat və statistika kafedrası"*
*iqtisad üzrə fəlsəfə doktoru, baş müəllim*

*E-mail: gunay.aliyeva@aztu.edu.az*

**HAVAXANIM SOLTANOVA**
*Azərbaycan Texniki Universiteti,*
*"İqtisadiyyat və statistika kafedrası"*
*assistent*

*E-mail: havaxanim.soltanova@aztu.edu.az*

Nəqliyyat sisteminin inkişafı Azərbaycan Respublikası üçün böyük əhəmiyyət kəsb edir. Ölkə iqtisadiyyatının infrastruktur sahələri olan enerji, rabitə, təhsil, səhiyyə ilə yanaşı, nəqliyyat cəmiyyətin həyat fəaliyyətinin ilkin tələbatını təmin etməklə sosial, iqtisadi, xarici siyasət və digər dövlət prioritetlərinə nail olmaq üçün mühüm rol oynayır.

Son illər ölkəmizdə ictimai həyatın bütün sahələrində əldə edilən dinamik inkişaf respublikamızın geosiyasi əhəmiyyətini xeyli artırmışdır. Bütün bunlarla yanaşı, qlobal iqtisadi məkanda cərəyan edən sosial-iqtisadi proseslərdə fəal iştirak etmək, xarici bazarlara səmərəli çıxış, rəqabət qabiliyyətli milli sənayeyə sahib olmaq kimi vacib vəzifələrin icrası zərurətə çevrilmişdir. Müasir dövrdə dünya gündəmini zəbt edən qloballaşma, sürətli inteqrasiya, davamlı inkişaf və s. məsələlər ölkəmiz üçün də xüsusi aktuallıq kəsb edir.

Bu gün ölkə iqtisadiyyatının sürətli və hərtərəfli inkişafında nəqliyyat sektorunun xüsusi yeri var. Bu sektor məhsul və xidmətlərin istehsalı, paylanması və istehlakı sahəsində fəaliyyət növlərini əhatə edir və bütün iqtisadi fəaliyyətlər məcmusunda inkaredilməz rola malikdir.

Dünya ölkələri arasında iqtisadi əlaqələrin genişlənməsi və inteqrativ proseslərin sürətlənməsi nəqliyyat sisteminin hər bir ölkənin milli iqtisadiyyatının əsas sütunlarından olduğunu təsdiqləmişdir. Nəqliyyat xidmətlərinin sosial-iqtisadi mahiyyətini aydınlaşdıran tədqiqatçılar bu sistemin geniş təkrar istehsalın mühüm şərti olduğunu çoxdan sübut ediblər. Bu baxımdan iqtisadiyyatda genişmiqyaslı köklü islahatların aparıldığı indiki şəraitdə nəqliyyatın xüsusiyyətlərini, iqtisadi və sosial proseslərin gedişində onun rolunu dəqiqliklə nəzərə alan siyasətin formalaşdırılması və həyata keçirilməsi çox vacibdir. Ona görə də nəqliyyat sisteminin davamlı inkişafı böyük həcmli kapital qoyuluşunu, çoxlu sayda iri nəqliyyat qovşaqlarının tikintisini və yenidən qurulmasını tələb edir [3 səh 56-58].

Azərbaycan dünyada strateji yeri olan ölkələrdən biridir. Ölkədə tranzit-nəqliyyat xidmətlərinə dəmir yolu, avtomobil, aviasiya və dəniz nəqliyyatı daxildir. 2003-cü ildə Azərbaycan hökuməti tərəfindən Azərbaycan Respublikası Nəqliyyat Nazirliyi yaradılmış və ölkə Vyana konvensiyasının yol hərəkəti üzrə üzvü olmuşdur. Bu baxımdan nəqliyyat şəbəkəsinin təkmilləşdirilməsi ölkə üçün xüsusi əhəmiyyət daşımaqdadır. 2009-2019-cu illərdə ölkənin nəqliyyat sektoruna cəlb edilmiş investisiyaların həcmi iqtisadiyyatın bütün sahələrinə yönəldilmiş investisiyaların 20 %-ni təşkil etmişdir.

Bildiyimiz kimi, Azərbaycan Cənubi Qafqazda orta gəlirli bir ölkədir. Ölkə iqtisadiyyatının əsasını neft yanacaq hasilatı təşkil etməkdədir: neft məhsulları Azərbaycan ixracatının 90%-dən çoxunu təşkil edir. Neft sənayesi qiymətlərdən asılı olaraq ÜDM-nin 33-50% -ni təşkil edir.

Son 10 ildə Azərbaycanda yerli və xarici şirkətlərin fəaliyyət göstərməsi investisiya mühitini xeyli yaxşılaşdırmışdır. 57-ci sırada yer alan ölkə 2019-cu ildən etibarən 25-ci yerdə qərarlaşmışdır. Artıq ölkənin iqtisadiyyat siyasətinin başlıca məqsədi xarici birbaşa investisiyaları neft-qaz sektorundan qeyri-neft sektoruna yönəltməkdir. 2003 və 2019-cu illər arasında xarici investisiyaların 50%-i infrastruktura və sənayeyə, xüsusilə (mədənçilik, metallurgiya, sement) yönəldilmişdir.

Xüsusilə qeyd edilməlidir ki, son illər ərzində nəqliyyat-yol kompleksi üzrə əsas iqtisadi göstəricilər tam yerinə yetirilir, əhalinin və ölkə iqtisadiyyatının daşımalara olan tələbatı bütövlükdə ödənilir. Yük və sərnişin daşımalarına, nəqliyyat-yol kompleksinə yönəldilmiş investisiyaların həcmini əks

etdirən rəqəmlərdə ilbəil artım müşahidə olunur.

2018-ci ildə ölkə iqtisadiyyatında nəqliyyata yönəlmiş investisiyaların həcmi cəmi 1,92 milyon manata çatmışdır. Bunlardan 7,1 milyon manat dəmir yol nəqliyyatına, 115,4 milyon manat su nəqliyyatının, 39,4 milyon manat isə hava nəqliyyatının payına düşür. Su nəqliyyatına qoyulan investisiyaların həcmində artım müşahidə olunmuşdur, yəni, 63,7 milyon manatdan 115,4 milyon manata investisiya qoyuluşu artmışdır. İnvestisiya qoyuluşunun həcminin artması anbar təsərrüfatı və yardımçı nəqliyyat fəaliyyətində də müşahidə olunmuşdur [1].

**Nəqliyyata yönəldilmiş investisiyalar, milyon manat**

**Cədvəl 1.**

| | 2012 | 2013 | 2014 | 2015 | 2016 | 2017 | 2018 |
|---|---|---|---|---|---|---|---|
| Cəmi | 2,610.3 | 3,559.7 | 2,432.4 | 2,195.3 | 1,391.0 | 1,774.3 | 1,922.8 |
| Yerüstü və boru kəməri nəqliyyatının fəaliyyəti | 610.6 | 677.3 | 416.2 | 553.1 | 345.8 | 127.1 | 305.2 |
| Dəmir yolu nəqliyyatı | 2.8 | 5.9 | 4.3 | 1.6 | 1.9 | 2.1 | 7.1 |
| Digər quru yol nəqliyyatı | 433.3 | 453.1 | 358.2 | 237.6 | 194.1 | 38.5 | 129.8 |
| Boru kəməri | 174.5 | 218.3 | 53.7 | 313.9 | 149.8 | 86.5 | 168.3 |
| Su nəqliyyatı | 67.3 | 9.7 | 142.6 | 112.7 | 53.1 | 112.2 | 115.4 |
| Hava nəqliyyatı | 280.5 | 281.9 | 82.2 | 397.2 | 10.2 | 402.2 | 39.4 |
| Anbar təsərrüfatı və yardımçı nəqliyyat fəaliyyəti | 1,651.9 | 2,590.8 | 1,791.4 | 1,132.3 | 981.9 | 1,132.8 | 1,462.8 |

*Mənbə: Cədvəl müəllif tərəfindən hazırlanmışdır. Azərbaycan nəqliyyatı*

Dəmir yolu nəqliyyatında aparılan yenidənqurma işləri davam etdirilir. Belə ki, Şərq-Qərb istiqamətində yol təsərrüfatının yenidən qurulması, enerji və rabitə sisteminin tam dəyişdirilməsi, yeni lokomotiv və vaqonların alınması, mərkəzi idarəetmə sisteminin yaradılması işləri həyata keçirilir.

Avtomobil nəqliyyatı sahəsində daşımaların tənzimlənməsi, avtonəqliyyat vasitələri parkının yeniləşdirilməsi və xidmət səviyyəsinin yüksəldilməsi üzrə tədbirlər çərçivəsində həm Bakıya, həm də respublikamızın digər şəhərlərinə yeni sərnişin avtobusların gətiriləərək istismara verilməsi prosesi insanların rahatlığını təmin edir, bölgələrdə yeni avtovağzalların tikintisi və sərnişinlərin istifadəsinə verilməsi davam etdirilir.

Qeyri-neft sektoruna yönəlmiş investisiyalardan önəmlisi nəqliyyat sektoruna qoyulmuş investisiyalardır. Bildiyimiz kimi, Azərbaycanda nəqliyyat xərcləri yüksəkdir. Azərbaycanın avtomobil yolu və dəmir yolu şəbəkələri İran, Rusiya Federasiyası və Türkiyə kimi böyük bazarlara yaxın olmaqdan istifadə etmək üçün modernləşdirilməyə və istismar xərclərini artırmağa ehtiyac duyur. Yol sektorunda hökumətin əsas inkişaf strategiyası olan (Azərbaycan - 2020: gələcəyə baxış) iki dəhlizin inkişafına üstünlük verməkdədir: biri paytaxt Bakıdan Gürcüstana şərq-qərb, digəri isə Rusiya Federasiyasından İrana şimal-cənub dəhlizi.

Azərbaycanın Xəzər dənizi liman kompleksi ölkənin ən vacib nəqliyyat infrastrukturudur və hökumət tərəfindən həmin liman investisiyaların artırılması yolu ilə daha da inkişaf etmişdir. Bakının Ələt rayonundakı yeni, müasir limanı ölkənin regional nəqliyyata keçid strategiyası kimi görülür. Eyni zamanda Böyük Kəsik (Gürcüstan sərhədində) və Yalama (Rusiya sərhədində) arasında dəmir yolu əlaqələrinin qurulması da prioritet layihələr siyahısındadır.

Azərbaycanın planlaşdırılan və hazırkı nəqliyyat infrastrukturu layihələri təxminən 7,5 milyard ABŞ dolları təşkil edir. Həmin vəsaitdən 40%-i yəni 3 milyard ABŞ dolları avtomobil yollarının payına, 27%, yəni 2 milyard ABŞ dolları dəmir yolunun inkişafının payına düşür. Qalan investisiyalar limanlar və dəmir yolları arasında bölüşdürülür.

Ən əhəmiyyətli layihələr arasında daha çox bölgədaxili ticarət yolu ilə iştirakçı ölkələrin iqtisadi inteqrasiyasını artırmağı hədəfləyən 2 milyard dollarlıq bir layihə olan Əfqanıstan-Türkmənistan-Azərbaycan-Gürcüstan-Türkiyə nəqliyyat dəhlizidir. Hindistan, İran, Azərbaycan və Rusiyanı gəmi, dəmir yolu və avtomobil yolu ilə birləşdirən 7 200 km-lik yük marşrutu kimi layihə də mövcuddur və həmin layihə gələcəkdə nəqliyyat xərclərini azaltmağı hədəfləyir. Digər bir nümunə, İran və Azərbaycan arasında ikinci dəmir yolu bağlantısı olacağı gözlənilən 1 milyard dollarlıq bir layihə olan Astara Dəmir Yolu layihəsidir.

Adları qeyd olunan layihələrin əsas məqsədi ölkəni regional əhəmiyyətli logistika və ticarət qovşağına çevirmək, özəl investisiya qoyuluşlarına şərait yaratmaqdır. Nəzəri baxımdan, Azərbaycanın Şərq-Qərb və Şimal-Cənub dəhlizlərindən istifadə etməklə əldə edə biləcəyi əlavə ticarət həcmi quru və maye yük,

konteyner daşımaları ilə birlikdə 230 milyon tondur. Ən gəlirli marşrutların əksəriyyətinə, yuxarıda da təsvir edildiyi kimi, rəqabətin güclü olduğu Çinlə ticarət daxildir ki, Azərbaycanın da bu marşrutlarda iştirakı, ticarət həcminin artımı baxımından böyük imkanlar aça bilər.

Azərbaycanda da dəniz daşımalarının inkişafına Bakı Beynəlxalq Dəniz Ticarət Limanı öz töhfəsini verir. Avrasiya məkanında mühüm geostrateji mövqedə yerləşən, zəngin iqtisadi və ticari əlaqələri olan Azərbaycan bu liman açılandan sonra dəniz nəqliyyatının inkişafının yeni, müasir mərhələsinə qədəm qoyub. Çinin təşəbbüsü ilə başlanmış "Bir kəmər, bir yol" meqalayihəsinin əsas layihələrindən biri hesab edilən Bakı Beynəlxalq Dəniz Ticarət Limanı XXI əsrdə dünya ticarətinin və ölkələr arasında qarşılıqlı münasibətlərin inkişafına çox böyük təsir göstərəcək.

Azərbaycanı regionun mühüm nəqliyyat və logistika mərkəzinə çevirmək strategiyasının tərkib hissəsi olan, "Şərq-Qərb", "Şimal-Cənub" nəqliyyat dəhlizlərinin kəsişməsində yerləşən Bakı Beynəlxalq Dəniz Ticarət Limanı ölkənin tranzit imkanlarının genişləndirilməsində həlledici rol oynayır. Bakı Beynəlxalq Dəniz Ticarət Limanı Bakı-Tbilisi-Qars dəmir yolu xətti üçün birbaşa yüktoplama məntəqəsi funksiyasını yerinə yetirir. Bu liman şimal, cənub, şərq və qərb istiqamətlərindən dəhlizlər üzrə ölkəmizə daxil olan yüklərin toplanmasını, onların BTQ üzrə Avropa istiqamətində və ya gəmilərlə şərq istiqamətində daşınmasını təmin edən səmərəli və davamlı logistika zəncirinin formalaşması üçün əsas amildir.

Hazırda ölkə həyatının bütün sahələri ilə yanaşı, yol təsərrüfatının sistemli və hərtərəfli inkişafına xüsusi diqqət göstərilir. Bunun nəticəsidir ki, bu gün respublikamızın yol təsərrüfatında yeniləşmə və müasirləşmə getdikcə dərinləşir, dövlətimizin gücünün və qüdrətinin artırılmasına, xalqımızın rifahının yüksəldilməsinə xidmət edən quruculuq proqramları uğurla reallaşdırılır.

Ötən illər ərzində Azərbaycanda nəzərdə tutulan bütün infrastruktur layihələri, sosial proqramlar yüksək səviyyədə reallaşdırılıb, o cümlədən sosial infrastrukturun mühüm sahələrindən sayılan yol təsərrüfatının yenidən qurulması, yeni yolların salınması, mövcud yolların isə əsaslı şəkildə təmiri ilə bağlı layihələr uğurla davam etdirilib. Paytaxtda və regionlarda çoxsaylı yol ötürücüləri, körpülər, tunellər, yeraltı və yerüstü piyada keçidləri inşa olunub.

Dünya İqtisadi Forumunun avtomobil yollarının vəziyyətinə dair hesabatına əsasən, Azərbaycan MDB məkanında 1-ci yer olmaqla ən yüksək nəticə göstərib. Asiya qitəsində 10-cu, ümumilikdə, 141 ölkə arasında isə 24-cü yerdə qərarlaşıb (2021).

Hazırda Azərbaycan "Şimal-Cənub" və "Şərq-Qərb" beynəlxalq nəqliyyat dəhlizinin yaradılması istiqamətində infrastruktur layihələri həyata keçirir. Azərbaycanın beynəlxalq nəqliyyat qovşağına çevrilməsi istiqamətində aşağıdakı mühüm layihələrin icrası üzrə işlər aparılır.

Hazırda İşğaldan azad edilmiş ərazilərdə yol infrastrukturunun qurulması istiqamətində işlər davam etdirilir. 2020-ci il noyabr ayının 16-da təməli qoyulmuş "Zəfər yolu" başlanğıcını Hacıqabul-Mincivan-Zəngəzur dəhlizi magistral avtomobil yolundan götürməklə Şuşa şəhərinə qədər uzanır. Layihələndirilən yolun uzunluğu 101 kilometrdir. Strateji əhəmiyyəti ilə seçilən digər bir layihə, Zəngilan-Horadiz avtomobil yolunun tikintisi ilə bağlı işlər davam edir. Bu yolun ümumi uzunluğu 124 kilometrdir və 4-6 zolaqdan ibarətdir. Başlanğıcını Xocavənd rayonunun Hadrut qəsəbəsindən götürən və Cəbrayıl rayonundan keçməklə Şükürbəyli kəndində Hacıqabul-Mincivan-Zəngəzur dəhlizi magistral avtomobil yoluna birləşən Hadrut-Cəbrayıl-Şükürbəyli avtomobil yolunun da tikintisinin icrasına başlanılmışdır. Layihələndirilən yolun uzunluğu 43 kilometrdir. İşğaldan azad edilmiş ərazilərdə icra olunan yol infrastrukturu layihələrindən biri Bərdə-Ağdam avtomobil yoludur. Başlanğıcını Bərdə şəhərindən götürən Bərdə-Ağdam avtomobil yolunun uzunluğu 44,5 kilometrdir. Azad edilmiş ərazilərdə icra olunan yol infrastrukturu layihələrindən biri Xudafərin-Qubadlı-Laçın və Xanlıq-Qubadlı avtomobil yollarıdır.

Xudafərin-Qubadlı-Laçın avtomobil yolunun uzunluğu 66 kilometr təşkil edəcək. Sözügedən yolun Xanlıq yaşayış məntəqəsindən ayrılaraq Qubadlı şəhərinə qədər 17 kilometr uzunluğunda yeni avtomobil yolunun da inşası nəzərdə tutulub. Layihələndirilən yolların ümumi uzunluğu 83 kilometrdir.

Tranzit-nəqliyyat xidmətlərinin GZİT təhlilini aparan zaman bir sıra zəif tərəflər və təhlükələr aşkar olunmuşdur. Misal olaraq logistika sahəsi üzrə ixtisaslı kadr potensialının az olması; əmək məhsuldarlığının yüksək olmaması; maliyyə çatışmazlığı, avadanlığın köhnə olması; marketinq, satış və paylama xidmətlərinin qənaətbəxş səviyyədə olmaması;

müəssisələrdə müasir biznes modelinin qurulmaması; innovativ fəaliyyətlərin azlığı; maliyyə bazarlarında durğunluğun olması; neftin qiymətində kəskin azalma nəticəsində investisiya fəallığının zəifləməsi ehtimalı; ətraf mühitin qorunması ilə bağlı tələblərin artması; xarici investorlar üçün əsas amillərdən biri olan valyuta məzənnəsinin sabitliyi problemi; infrastruktur layihələrinin tikilib başa çatdırılmasında ləngimələrin olması kimi məsələləri xüsusu ilə qeyd etmək olar [2].

Azərbaycanın 44 günlük Vətən müharibəsindəki Qələbəsi nəqliyyat-logistika sahəsində də yeni reallıqlar yaratdı. Təbii ki, söhbət Zəngəzur dəhlizindən gedir. Bu dəhliz vasitəsilə Azərbaycandan Türkiyəyə daşınan yükləri qısa müddətdə Avropa və Yaxın Şərq ölkələrinə çatdırmaq imkanı yaranacaq. Zəngəzur dəhlizi Azərbaycanın tranzit imkanlarını daha da genişləndirəcək.

İşğaldan azad edilən ərazilərdə dəmir yolu infrastrukturunun yenidən qurulmasına və yeni xətlərin çəkilməsinə artıq start verilib. Hazırda Bərdə-Ağdam, Horadiz-Ağbənd dəmir yolu xətlərinin yenidən qurulması və Füzuli-Şuşa yeni dəmir yolu xəttinin inşası istiqamətində işlər davam edir.

Prezident İlham Əliyev tərəfindən təməli qoyulmuş Horadiz-Ağbənd dəmir yolu xəttinin uzunluğu 110,4 kilometrdir. Qeyd edək ki, bu xətlərin çəkilməsi Zəngəzur dəhlizinin fəaliyyətə başlaması üçün ilkin şərtdir. Bu səbəbdən də Horadiz-Ağbənd dəmir yolunda işlərin sürətlə həyata keçirilməsinə xüsusi önəm verilir. Birxətli dəmir yolu üzərində 8 stansiya tikiləcək. Bununla bərabər, layihə çərçivəsində ümumilikdə 300-ə yaxın süni mühəndis qurğusunun tikintisi planlaşdırılıb.

Zəngəzur dəhlizinin açılmasına Ermənistan mane olmaq istəsə də, dünyada söz sahibi olan ölkələr buna böyük maraq göstərir. Çin, Rusiya və Türkiyə bu dəhlizin açılmasında israrlıdır. Üstəlik, Avropa ölkələri də bu dəhlizin açılmasını dəstəkləyir. Ermənistan bu vasitə ilə Azərbaycana təsir etməyi düşünsə də, bu istəyi də ürəyində qaldı. Belə ki, bu il martın 11-də Bakıda Azərbaycan ilə İran arasında iqtisadi, ticarət və humanitar sahələr üzrə Dövlət Komissiyasının 15-ci iclasında iki ölkə arasında əlaqələrin daha da genişləndirilməsi barədə razılığa gəlinib. Tədbirdən sonra Azərbaycan Respublikasının Şərqi Zəngəzur iqtisadi rayonu ilə Naxçıvan Muxtar Respublikası arasında yeni kommunikasiya bağlantılarının yaradılması haqqında memorandum imzalanıb.

Memorandumun məqsədi Azərbaycan Respublikasının Şərqi Zəngəzur iqtisadi rayonu ilə İran İslam Respublikasının ərazisindən keçməklə Naxçıvan Muxtar Respublikası arasında yeni dəmir və avtomobil yollarının açılması, eləcə də rabitə və enerji xətlərinin yaradılmasından ibarətdir. Bu məqsədə nail olmaq üçün Araz çayı üzərində iki avtomobil (piyada keçidi ilə) və iki dəmir yolu olmaqla ümumilikdə dörd körpünün, eləcə də rabitə və enerji təminatı infrastrukturunun tikintisi nəzərdə tutulur.

Qonşu ölkə ilə imzalanan memorandum həmçinin "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizinin imkanlarını genişləndirəcək. Belə ki, Rusiya üzərindən ölkəmizə daxil olan yükləri İran üzərindən körfəz ilə yanaşı, yeni dəhliz vasitəsilə Türkiyəyə, Şərq ölkələrinə və Avropaya daşımaq mümkün olacaq.

Azərbaycan hava nəqliyyatı infrastrukturunun yaxşılaşdırılması, hava limanlarının ən yüksək səviyyəyə çatdırılması, eləcə də hava məkanından istifadənin liberallaşdırılması istiqamətində ardıcıl işlər görür. Heydər Əliyev Beynəlxalq Aeroportu yükdaşımalarının və yük terminalının buraxılış gücünə görə regionun ən böyük aeroportudur. Bu ilin 5 ayında Azərbaycanda hava nəqliyyatı ilə 26 min 257 ton yük daşınıb ki, bu yüklərin dəyəri 610 milyon 166 min dollardır.

İşğaldan azad edilmiş ərazilərdə tikilən hava limanları Qarabağın Azərbaycan iqtisadiyyatına reinteqrasiyasından əlavə ölkəmizin hava nəqliyyatı ilə yükdaşımalardakı rolunu da artıracaq. Azad olunmuş ərazilərdə inşa edilən ilk hava limanı – Füzuli Beynəlxalq Aeroportu Qarabağ iqtisadiyyatının region bazarları üzrə şaxələnməsinə xüsusi töhfə verəcək. Bu hava limanı yükdaşımalar, xüsusən də beynəlxalq yükdaşımalar üçün vacib əhəmiyyət kəsb edir. İşğaldan azad edilmiş ərazilərimizin sənaye potensialını nəzərə alsaq, Füzulidə açılan hava limanı, həm də həmin yerlərdə istehsal olunacaq sənaye məhsullarının dünya bazarına çıxarılması və bütövlükdə regionun ixrac imkanlarının genişləndirilməsi baxımından vacibdir.

Qeyd edək ki, nəqliyyat sektoru inkişafdadır. Bu sahəyə investisiyaların yönəldilməsi, qəbul edilən dövlət proqramlarında əks olunan tədbirlərin həyata keçirilməsi sahənin inkişafına öz müsbət təsirini göstərəcəkdir.

### ƏDƏBİYYAT SİYAHISI:

*1. www.azstat.org*

*2. "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası*

*3. F.Bağırov "Ölkənin sosial-iqtisadi inkişafında nəqliyyatın rolunun yüksəldilməsi istiqamətləri" Bakı, 2009*

### XÜLASƏ

Nəqliyyat sisteminin inkişafı Azərbaycan Respublikası üçün böyük əhəmiyyət kəsb edir. Ölkə iqtisadiyyatının infrastruktur sahələri olan enerji, rabitə, təhsil, səhiyyə ilə yanaşı, nəqliyyat cəmiyyətin həyat fəaliyyətinin ilkin tələbatını təmin etməklə sosial, iqtisadi, xarici siyasət və digər dövlət prioritetlərinə nail olmaq üçün mühüm rol oynayır. Azərbaycan Respublikası müstəqillik qazandıqdan sonra nəqliyyat sistemi inkişafının yeni mərhələsinə qədəm qoymuşdur.

Ölkə iqtisadiyyatı sürətli inkişafın növbəti mərhələsinə keçmiş, bazar iqtisadiyyatı şəraitində nəqliyyatın işinin hüquqi bazasının yaradılmasına, tələbə yönəlik, bazar iqtisadiyyatının tələblərini əks etdirən güclü fəaliyyətlərə üz tutmağa səbəb olmuşdur. Bütün bunlarla yanaşı, qlobal iqtisadi məkanda cərəyan edən sosial-iqtisadi proseslərdə fəal iştirak etmək, xarici bazarlara səmərəli çıxış, rəqabət qabiliyyətli milli sənayeyə sahib olmaq kimi vacib vəzifələrin icrası zərurətə çevrilmişdir.

**Açar sözlər:** *tranzit daşımaları, nəqliyyat infrastrukturu, investisiya qoyuluşu*

### SUMMARY

The development of the transport system is the great importance for the Republic of Azerbaijan. Along with energy, communications, education, and health, which are the infrastructural areas of the country's economy, transport plays an important role in achieving social, economic, foreign policy, and other state priorities by meeting the basic needs of society. After gaining independence, Azerbaijan Republic has entered a new stage of development of the transport system.

The country's economy has moved to the next stage of rapid development, which has led to the creation of a legal framework for transport in a market economy, strong student-oriented activities that reflect the requirements of a market economy. It has become necessary to fulfill such important tasks as effective access to markets and having a competitive national industry.

**Keywords:** *transit transportation, transport infrastructure, investment*

### РЕЗЮМЕ

Развитие транспортной системы имеет большое значение для Азербайджанской Республики. Наряду с энергетикой, коммуникациями, образованием и здравоохранением, которые являются инфраструктурными областями экономики страны, транспорт играет важную роль в достижении социальных, экономических, внешнеполитических и других государственных приоритетов путем удовлетворения основных потребностей общества. После обретения независимости Азербайджанская Республика вступила в новый этап развития транспортной системы.

Экономика страны перешла на следующий этап стремительного развития, что привело к созданию правовой основы для транспорта в рыночной экономике, сильной ориентированной на студентов деятельности, отражающей требования рыночной экономики. Возникла необходимость в решении таких важных задач, как эффективный доступ к рынкам и создание конкурентоспособной национальной промышленности.

**Ключевые слова:** *транзитные перевозки, транспортная инфраструктура, инвестиции.*

UOT 330.3(1-664)"713"; 339.97(1-664)"713"

# ERMƏNİSTANDA İQTİSADİ İNKİŞAF VƏ ONUN DEMOQRAFİK VƏZİYYƏTƏ TƏSİRİ

**SƏFTƏR VƏLİZADƏ**
*AMEA İqtisadiyyat İnstitutunun doktorantı*
*E-mail: seftervelizade@gmail.com*

## Giriş

Ermənistan 90-cı illərin əvvəllərində müstəqillik əldə etdikdən sonra azad iqtisadi siyasət yürütməyə başlamışdır. Müstəqilliyinin ilk illərində Ermənistan Sovet dövründə mövcud olmuş planlı iqtisadiyyatdan bazar iqtisadiyyatına keçid etməyə başlamışdır. Bu keçid iqtisadiyyatın liberallaşmasına yol açmaqla əhalinin müxtəlif məhsul və xidmətlərə əlçatanlığını artırmış və əhalinin yığımlarının formalaşmasına imkan yaratmışdır. Eyni zamanda yeni sistemdə sahibkarlıq fəaliyyəti imkanları əsaslı şəkildə artmış və yeni sahibkarlar ortaya çıxmışdır. Bazar iqtisadiyyatına keçid, qeyd edilən üstünlükləri yaratsa da bu dövrdə Ermənistan post-sovet ölkələrinin əksəriyyətinə xas olan iqtisadi problemlər ilə qarşılaşmışdır. Bu dövrdə istehsal imkanları zəifləmiş, özəlləşdirmə prosesinin başlaması bir çox müəssisələrin fəaliyyətində fasilələrin yaranmasına yol açılmış, ölkədə mövcud olan siyasi böhran iqtisadiyyatın inkişafına mane olmuş, xarici ölkələr ilə iqtisadi əlaqələr qurmaq və yerli məhsulların xarici bazarlara çıxarılması ilə bağlı ciddi maneələr formalaşmışdır. Bundan başqa, o dövrdə Ermənistan hökumətinin işğalçılıq siyasəti yürüdərək Azərbaycanla müharibə etməsi də iqtisadi inkişaf imkanlarını məhdudlaşdırmış və Ermənistanın xarici investorlar üçün cəlbediciliyini azaltmışdır. Qeyd edilən problemlərin təsiri ilə 1993-cü ildə Ermənistanda Ümumi Daxili Məhsul (ÜDM) 1991-ci il ilə müqayisədə 47% azalmışdır. Bu isə işsizliyin və yoxsulluğun kəskin artmasına səbəb olmuşdur. Ermənistanda yoxsul əhalinin payı 1988-ci ildəki 20% səviyyəsindən 1996-cı ildə 55% səviyyəsinə qədər artmışdır. 1996-cı ildən sonra Ermənistanda iqtisadi vəziyyət sabitləşsə də, 1999-cu ilə qədər inflyasiya səviyyəsi 175%-dən 1%-ə qədər azalsa da zəruri islahatların aparılmaması sürətli artım üçün imkan yaratmamışdır. 2000-ci ildən hal-hazıradək Ermənistanda iqtisadi vəziyyət 90-cı illər ilə müqayisədə yaxşılaşsa da yoxsulluq, yüksək ticarət kəsri, yüksək dövlət borcu kimi problemlər hələ də əsas problemlər kimi qalmaqda davam edir. Bundan başqa, Ermənistanın işğalçılıq siyasəti nəticəsində iqtisadi blokadaya düşməsi də onun iqtisadi inkişaf imkanlarını məhdudlaşdırmışdır [1].

Ermənistanda müstəqillik əldə edildikdən sonra müşahidə edilən iqtisadi problemlər ölkənin demoqrafiyasına da əsaslı şəkildə təsir etmişdir. Yoxsulluq və işsizlik kimi problemlərin mövcudluğu əhalinin artımını zəiflətmiş və əhali sayının azalmasına səbəb olmuşdur. Eyni zamanda mövcud olan iqtisadi problemlərdən qaçmaq üçün əhalinin emiqrasiyasının sürətlənməsi də əhalinin sayını azaltmaqla demoqrafik geriləməni sürətləndirmişdir. Bu məqalənin əsas məqsədi də son on ildə Ermənistanın iqtisadi inkişaf səviyyəsini, bu inkişafın əsas xüsusiyyətlərini təhlil etmək və bunun Ermənistandakı demoqrafik vəziyyətə necə təsir etdiyini müəyyən etməkdir. Bu məqsədlə də son on ildə Ermənistanda ÜDM-in səviyyəsi, onun artım dinamikası, əhalinin sayının dinamikası və əhalinin müxtəlif kateqoriyalar üzrə strukturu nəzərdən keçirilir.

## 1. İqtisadi inkişaf

Ermənistanda iqtisadi inkişafın əsas göstəricisi olan ÜDM səviyyəsi son on ildə sabit dəyişməmiş, bəzi illərdə yüksəlmiş və bəzi illərdə isə azalmışdır. 2011-2014-cü illərdə ÜDM səviyyəsi ABŞ dolları (bundan sonra dollar) ifadəsində 14.5% artaraq 10.14 milyard dollardan 11.61 milyard dollara qədər yüksəlmişdir (Qrafik 1) [5]. 2015 və 2016-cı illərdə isə ÜDM səviyyəsi azalmış və 2016-ci ildə 10.57 milyard dollara bərabər olmuşdur. Növbəti üç ildə ÜDM səviyyəsi daha sürətlə, yəni 28.8% artmışdır [4]. Nəticədə, 2019-cu ildə ÜDM 13.62 milyard dollar səviyyəsinə çatmışdır (Qrafik 1). Bu həmin ildə Ermənistan tarixində ÜDM-in rekord səviyyəsi olmuşdur. Bundan sonra, 2020-ci ildə ÜDM səviyyəsində əsaslı azalma müşahidə edilmişdir. İstər pandemiyanın iqtisadiyyata ciddi təsir etməsi, istərsə də İkinci Qarabağ müharibəsində Ermənistanın məğlub olaraq böyük itkilərlə qarşılaşması bu azalmanın formalaşmasına təsir edən əsas amillər olmuşdur. 2020-ci ildə ÜDM səviyyəsi dollar ifadəsində əvvəlki il ilə müqayisədə 980 milyon dollar azalmışdır (Qrafik

1). 2021-ci ildə isə ÜDM yenidən artaraq son on ilin ən yüksək səviyyəsinə, yəni 13.86 milyard dollara çatmışdır. Ümumilikdə, 2011 və 2021-ci illəri müqayisə etsək, ÜDM səviyyəsi 3.72 milyard dollar artmışdır [3].

Baxılan dövrdə ÜDM-in artım tempinə nəzər saldıqda (milli valyuta ilə) isə görərik ki, ÜDM-in ən yüksək artım tempi 2017 və 2019-cu illərdə müşahidə edilmişdir ki, bu illərdə artım səviyyəsi müvafiq olaraq 7.5% və 7.6% olmuşdur [3].

**Qrafik 1. Ermənistanın Ümumi Daxili Məhsulu və onun artım dinamikası**




*Mənbə: Ermənistan Respublikasının Statistika Komitəsi*

Yüksək artım həm də 2012-ci ildə qeydə alınmışdır və həmin il ÜDM-in həcmi 7.2% artmışdır. Daha sonrakı üç il ərzində ÜDM-in artım tempi 3% ətrafında dəyişmişdir. Ən aşağı artım tempi isə 2020-ci ildə müşahidə edilmişdir ki, nəticədə həmin il ÜDM 7.2% azalmışdır. Bu da son on ildə ən yüksək azalma kimi tarixə düşmüşdür. 2021-ci ildə isə iqtisadi vəziyyət əvvəlki il ilə müqayisədə yaxşılaşdığından iqtisadi artım 5.7%-ə qədər yüksəlmişdir. Ümumilikdə isə son on ildə Ermənistanda orta illik iqtisadi artım tempi 3.7% səviyyəsində olmuşdur[3,5].

Ermənistanda ÜDM-in səviyyəsi və artım tempi ilə bağlı qeyd etdiyimiz göstəricilər onu deməyə əsas verir ki, son on ildə Ermənistanda orta iqtisadi artım hər zaman müsbət olsa da müxtəlif illərdə ÜDM-in artım tempi göstəriciləri bir-birindən əsaslı şəkildə fərqlənmişdir. ÜDM-in artımının zəiflədiyi illərə fikir verdikdə aydın olur ki, dünya iqtisadiyyatında baş verən neqativ proseslər Ermənistan iqtisadiyyatına da mənfi təsir etmişdir. Xüsusilə də İkinci Qarabağ müharibəsi Ermənistanın iqtisadi inkişafına ciddi təsir etmiş və 90-cı illərin böhranlı dövrlərində müşahidə edilən səviyyədə azalma qeydə alınmışdır.

Ölkədə iqtisadi artım tempinin səmərəliliyini müəyyən etmək üçün adambaşına düşən ÜDM göstəricisindən də istifadə edilir. Son on ildə Ermənistanın adambaşına düşən ÜDM göstəricisinə dollar ifadəsində nəzər saldıqda məlum olur ki, 2015 və 2020-ci illəri çıxmaq şərti ilə qalan illərdə adambaşına düşən ÜDM-in həcmi artmışdır. Əgər 2011-ci ildə bu göstərici 3102 dollar səviyyəsində idisə 2014-cü ildə 3852 dollar səviyyəsinə qədər artmışdır (Qrafik 2) [5]. 2015-ci ildə isə 9.7% azalaraq 3512 dollar səviyyəsinə düşmüşdür. 2015-2019-cu illərdə adambaşına düşən ÜDM-in səviyyəsi dollar ifadəsində əvvəlki illər ilə müqayisədə daha çox artmış (30.1%) və 4597 dollar səviyyəsinə çatmışdır [4]. Sonrakı illərdə də əsasən bu göstərici artmışdır. Yalnız, 2020-ci ildə pandemiya və İkinci Qarabağ müharibəsinin təsiri ilə yaşanan iqtisadi böhran və geriləmə adambaşına düşən ÜDM-in azalmasına səbəb olmuşdur. Belə ki, 2020-ci ildə bu göstərici 4269 dollar səviyyəsinə düşmüşdür (Qrafik 2). 2021-ci ildə isə yenidən artaraq son on ilin ən yüksək həddinə, 4679 dollara çatmışdır [3].

**Qrafik 2. Ermənistanda adambaşına düşən ÜDM və onun artım dinamikası**




*Mənbə: Ermənistan Respublikasının Statistika Komitəsi*

Ermənistan Respublikasının Statistika Komitəsinin adambaşına düşən ÜDM-in artım dinamikası ilə bağlı dərc etdiyi məlumatlara əsasən milli valyuta ilə ifadədə bu göstəricinin ən yüksək həddi 2017-ci ildə qeydə alınmışdır və 8% səviyyəsində olmuşdur. Bu göstəricinin yüksək səviyyəsinin qeydə alındığı digər illərə 2012-ci il (6.9%), 2018 (5.6%), 2019 (7.9%) və 2021 (5.7%) illər aid olmuşdur. Son on ildə yalnız 2020-ci ildə adambaşına düşən ÜDM mənfi artıma malik olmuşdur (-7.1%). Qalan illərin hər birində müsbət artım dinamikası qeydə alınmışdır. Artım dinamikasının ən aşağı səviyyəsi isə 2016-cı ildə qey-

də alınmışdır və 0.6% səviyyəsində olmuşdur.

İnsanların davranışına və məhsul seçiminə onun yaşı, yəni həyat dövranının hansı mərhələsində olması da təsir edir. Belə ki, insanlar yaşa dolduqca onların zövqləri və müxtəlif məhsullara münasibəti dəyişir. Məsələn, insanların böyük əksəriyyəti cavan yaşlarında dəbə uyğun geyinməyə, asudə vaxtlarını dostları, tanışları ilə birgə keçirməyə üstünlük verirsə, qoca yaşlarında sağlamlıqlarına daha çox diqqət yetirir, həkimlərin xidmətindən daha çox istifadə edir və geyimlərinə isə əvvəlki kimi yanaşmırlar.

Alıcının qərarları, xüsusən də yaş, peşəsi, iqtisadi vəziyyət, şəxsiyyət tipi və özünün imici kimi xarici xüsusiyyətlərdən də təsirlənir. Şəxsin yaşına və ailənin yaşam dövrünə baxsaq, yaşla birlikdə insanların satın aldığı mal və xidmətlərin müxtəlifliyi də baş verir. Doğuşdan sonrakı ilk illərdə körpə qidası kimi məhsullara ehtiyacı yaranır, illər keçdikcə ehtiyacların siyahısı artmağa davam edir. Yaşlılıqda isə onlara xüsusi pəhriz qidaları lazım olur. Buna görə də illər keçdikcə insanların geyimləri, mebelləri, əyləncələri və digər zövqləri də dəyişir (6, s.56).

Yemək, geyim, mebel və s. zövqlər yaşa bağlı olsa da, amma ailə vəziyyəti yaşa bağlı deyildir. Alış-verişə üstünlük verən amillərdən birisi peşədir. Mavi yaxa və ağ yaxalıqlı işçi geyimi üstünlükləri alış-veriş seçimlərində peşənin əhəmiyyətli bir faktor olmasına verilə biləcək nümunələrdən biridir.

Gəlir, var-dövlət və iş saatları kimi amillər alıcı davranışına təsir göstərir. Həyat tərzi, biznes, hobbi, alış-veriş, idman və ictimai fəaliyyətlər, o cümlədən yemək, moda, ailə üzvlərinin fikirləri, sosial məsələlər, biznes və məhsullar, ailə əyləncəsi və maraqları kimi sahələr də şəxsin alış-verişinə təsir edən sahələrdəndir.

Müəssisələr satmaq istədikləri məhsulun qablaşdırılması, markası, satış sonrası xidmətləri, istifadə rahatlığı və faydalarını ön plana çıxararaq istehlakçıların seçimi olmağa çalışırlar. Sadalanan məhsul xüsusiyyətlərini qiymətlə birlikdə vermək və qiymət-keyfiyyət əlaqəsi qurmaqla müştərinin məhsul üçün qəbul etdiyi dəyərin yüksək olmasına çalışılır. İstehlakçıların asanlıqla ala biləcəyi yerlərə məhsulun paylanması və ya çatdırılmaması istehlakçının məhsula üstünlük verib-verməməsinə səbəb ola bilər (2, s.28).

Mədəni, sosial, psixoloji və şəxsi amillər istehlak xərclərini formalaşdırır və qərarvermə prosesinin gedişatını müəyyən edərək müxtəlif amilləri ortaya qoyur. Məsələn, əgər şəxs müəyyən sosial təbəqədədirsə brendi vacib edə bilər. Eynilə, mədəni dəyərlər qablaşdırmanın rəngi, qablaşdırmanın dizaynı və məhsulun dizaynında təsirli amil ola bilər. Məhsulun qiyməti, keyfiyyət, istifadə müddəti, məhsulun mənşəyi, istifadə şərtləri, zəmanət müddəti, xidmət imkanları, şirkət imici və istehlakçıların reputasiya səviyyəsi kimi bir çox faktor istehlakçıların şüurlu seçimi və seçmə üstünlüklərində mühüm dəyişənlər hesab edilir (7, s.76).

Yuxarıda qeyd etdiyimiz kimi, istehlakçıların davranışına təsir edən əsas şəxsi keyfiyyət amillərindən biri, bəlkə də, ən vacibi psixoloji amillərdir, istehlakçının psixoloji durumudur. Hətta belə deyirlər ki, istehsalçılar məhsul yaradır, psixoloqlar isə istehlakçıların psixoloji durumuna təsir etməklə həmin məhsula tələbat formalaşdırır, istehlakçıları həmin məhsulu almağa təhrik edirlər. İstehlakçıların psixoloji durumu onların ticarət markasına düşünülmüş və ya instinktiv münasibətini (müsbət və ya mənfi) formalaşdırır.

## ƏDƏBİYYAT SİYAHISI:


*1. BERKUN, M., E-ticarette Corona virüs (Covid-19) etkisi, https://www.techinside.com/e-ticarette- corona-virus-covid-19-etkisi*

*2. DEMİREL, D., Eriş, V., (2019). Innovation trends in e-commerce applications: gittigidiyor.com case. PressAcademia Procedia (PAP), (9),192-196. DOI: 10,17261 / Pressacademia.2019. 1091, s.195*

*3. GÜVEN, H., "Covid 19 Pandemik Krizi Sürecinde E-Ticarette Meydana Gelen Değişimler", Avrasya Sosyal ve Ekonomi Araştırmaları Dergisi, ASEAD Cilt 7 Sayı 5 Yıl 2020, S 251*

*4. BROWN, Irwin; RUWANGA, Jayakody, (2008),"B2C E-Commerce Success: A Test and Validation of a Revised Conceptual Model." The Electronic Journal Information Systems Evaluation, Vol: 1, Issue: 3, 2008, pp.167-184.*

*5. CHUNLİNG, Wen, (2015), "Research on Economic Growth and Information Exchange Based on B2B E-Commerce", The Open Cybernetics & Systemics Journal, Vol: 9, pp. 2065-2069.*

*6. YOUSEFI, Ayoub, (2015), "The Impact Of Cross-Border E-Commerce On Internatıonal Trade", 16th International Academic Conference, Ams-*

*terdam, pp.616.*

*7. ZHOU, Li,(2014), "Internal And External Value Evaluation Of E-Business Strategy İn Enterprise", Journal of Chemical and Pharmaceutical Research, Vol: 6, Issue: 6, pp.693-697.*

*8. AHMAD Nurul Najwa (2013), "Analysis of E-Commerce and M- Commerce: Advantages, Limitations and Security issues". International Journal of Advanced Research in Computer and Communication Engineering Vol. 2, Issue 6*

**XÜLASƏ**

Bütün dünya ölkələrində olduğu kimi Azərbaycanda da etnik quruluş, dini inanc fərqləri və s. amillərə görə formalaşan müxtəlif submədəniyyətlər vardır. Mədəniyyət kimi submədəniyyət istehlakçıların satınalma davranışına təsir edən ən mühüm amillərdən biridir. Məqalədə qeyd edilir ki, bəzi submədəniyyətlərdəki istehlakçılar digər mədəniyyətləri təqlid edir və bu mədəniyyətdəki insanların istehlak nümunələrinə uyğunlaşa bildiyi halda digərləri bu mədəniyyətdəki istehlak nümunələrindən uzaqlaşmağa çalışaraq müxtəlif məhsullara maraq göstərə bilərlər.

**Açar sözlər:** *elektron ticarət, mədəniyyət, cəmiyyət, şəxsiyyət.*

**РЕЗЮМЕ**

Как и во всех странах мира, в Азербайджане существуют различия в этническом составе, религиозных убеждениях и т.д. В зависимости от факторов формируются различные субкультуры. Субкультура, как и культура, является одним из важнейших факторов, влияющих на покупательское поведение потребителей. В статье утверждается, что потребители в одних субкультурах подражают другим культурам и могут приспосабливаться к моделям потребления людей в этой культуре, в то время как другие могут пытаться дистанцироваться от моделей потребления в этой культуре и проявлять интерес к другим продуктам.

**Ключевые слова:** *электронная коммерция, культура, общество, идентичность.*

**SUMMARY**

As in all countries of the world, in Azerbaijan there are differences in ethnic structure, religious beliefs, etc. There are different subcultures formed according to factors. Subculture, like culture, is one of the most important factors influencing consumer buying behavior. The article states that consumers in some subcultures imitate other cultures and may adapt to the consumption patterns of people in this culture, while others may try to distance themselves from the consumption patterns in this culture and show interest in different products.

**Keywords:** *e-commerce, culture, society, identity.*

UOT: 338.45: 658.01

# MÜASİR ÇAĞIRIŞLAR DÖVRÜNDƏ AZƏRBAYCANDA YÜNGÜL SƏNAYENİN YÜKSƏK TEXNOLOGİYALAR ƏSASINDA İNKİŞAF ETDİRİLMƏSİ PRİORİTETLƏRİ

**ŞƏHRİYAR KƏRİMOV**
*Azərbaycan Texnologiya Universitetinin doktorantı*
*E-mail: sehriyarkerimov00@gmail.com*

Məlumdur ki, istehlak malları bazarının sabit artımı ayrı-ayrı ölkələrin və regionların iqtisadiyyatının formalaşmasına və inkişafına mühüm təsir göstərir. İstehlak malları bazarının yerli istehsal hesabına doyması ölkə sənayesinin inkişafının istiqamətlərindən biridir. Yüngül sənaye istehlak malları istehsal edən sənaye kompleksinə daxildir. Yüngül sənaye çoxşaxəli istehsal kompleksi və zəngin əmək ənənələri üçün böyük potensiala malik sənaye istehsalının ən qədim sahəsidir. Yüngül sənaye məhsulları əsasən insanların tələbatını ödəmək məqsədilə, digər sənaye sahələrində isə xammal və köməkçi materiallar şəklində istifadə olunur. Sənayenin səmərəliliyi onun müəssisələrinin rasional yerləşməsindən asılıdır.

Yüngül sənaye əsasən toxuculuq, trikotaj, gön-dəri, xəz-dəri, xalçaçılıq, ayaqqabı istehsalı və s. sahələrdən ibarətdir. Yüngül sənaye ona bitki, heyvandarlıq xammalı, süni və sintetik liftlər verən kimya sənayesi ilə sıx qarşılıqlı əlaqədə fəaliyyət göstərir. Sənayenin əsas məhsulları əhalinin tələbatını ödəmək üçün istifadə olunan və geyim, ayaqqabı, yeyinti sənayesində, maşınqayırma və digər sənaye sahələrində xammal və köməkçi material kimi istifadə olunan parçalardır. Əsas material tərkibi, xüsusiyyətləri və quruluşu ilə fərqlənən liflərdir. Liflər alınma üsuluna və kimyəvi tərkibinə görə fərqlənir. İstehsal olunacaq məhsulun xüsusiyyətləri onlardan asılıdır [1, s.509].

Ümumiyyətlə, yüngül sənaye həm daxili bazarın onun məhsulları ilə doyması, həm də bu məhsulların ixracının artımı nöqteyi-nəzərindən strateji əhəmiyyətli sənayedir. Belə ki, iqtisadiyyatın sürətlə inkişaf edən sahələrindən biri olan yüngül sənaye bir çox ölkələrin ixracyönümlü inkişaf strategiyasında prioritet istiqamətə çevrilir. Azərbaycan üçün də yüngül sənaye dövlətin iqtisadi fəaliyyətinin strateji əhəmiyyətli sahəsi hesab olunur. Bu səbəbdən bu sahə ilə məşğul olan şirkətlərə faktiki olaraq dövlət tərəfindən hər cür maliyyə və qeyri-maliyyə yardımı göstərilir. Yüngül sənaye sektorundakı şirkətlərə fəaliyyətlərinin müxtəlif mərhələlərində dəstək verən təşkilat və fondların olmasına baxmayaraq, bu sahədə hələ də həllini tapmamış problemlər qalmaqdadır. Yuxarıda deyilənlərin nəticəsi olaraq belə qənaətə gəlmək olar ki, bu gün təkcə yüngül sənayedə deyil, onu müxtəlif növ resurslar və xammalla təmin edən bütün digər sahələrdə yaranmış problemlərin həllinə də kompleks yanaşmaya ehtiyac var.

Yüngül sənayenin inkişafına aşağıdakılar töhfə verə bilər: ölkədə mövcud olan yüngül sənaye müəssisələrinin yenidən qurulması və dəstəklənməsi; müasir texnologiyalar əsasında yeni müəssisələrin yaradılması; yeni yüngül sənaye müəssisələrinin yaradılmasında xarici təcrübənin öyrənilməsi və tətbiqi; modernləşdirmə istiqamətində müəssisələrə zəruri dövlət dəstəyinin göstərilməsi; yüngül sənayedə fəaliyyət göstərən müəssisələrə güzəştli kreditlərin verilməsi; investisiyaların cəlb edilməsi və investisiya layihələrinin dəstəklənməsi üçün əlverişli mühitin yaradılması; yüksək texnologiyalara əsaslanan investisiya layihələrinin işlənməsi və reallaşdırılması; keyfiyyətcə yüksək və ekoloji cəhətdən təmiz məhsul istehsal etməyə imkan verən yeni texnologiyalardan və nou-haudan istifadə və s [2, s.126].

Qeyd edilənlər baxımından yüngül sənayenin inkişafında aşağıdakılara xüsusi diqqət yetirilməlidir: 1) sənayenin investisiya cəlbediciliyinin artırılması; 2) daxili bazarın yüngül sənaye mallarının qeyri-qanuni dövriyyəsindən qorunması; 3) müəssisələrin texniki cəhətdən yenidən təchiz edilməsi; 4) sənayenin xammalla təminatının yaxşılaşdırılması üçün əlverişli şəraitin yaradılması və 5) sənayenin inkişafı tədbirlərinin həyata keçirilməsi üçün məqsədli dövlət proqramlarından istifadə edilməsi.

Məlumdur ki, rəqabət, məhsulun keyfiyyətinin yüksəldilməsi, ETT-nin sürətləndirilməsi, istehsal xərclərinin azaldılması və qiymətlərin aşağı salınması şəraitində iqtisadi artımın stimullaşdırıcı amillərindən biridir. Yüngül sənayenin səmərəli inkişafı üçün zəruri şərtlərdən biri məhz əlverişli rəqabət mühitinin yaradılması və rəqabət üstünlüklərinin müəyyənləşdirilməsidir. Rəqabət üstünlüyü bazarda layiqli yer tutmaqda zəruri şərtlərdən biridir [3, s.19]. Rəqabət üstünlüyünü yüksək texnologiyaların

tətbiqi hesabına əldə etmək mümkündür. Yüngül sənayenin ən mühüm vəzifələrindən biri satış bazarlarının genişləndirilməsinin həllinə yönəldilməlidir. Buna isə aşağıdakı amillər kömək edə bilər: maddi-texniki bazanın modernləşdirilməsi, çeşidin daim yenilənməsi, innovativ məhsullara diqqət yetirilməsi. Yüngül sənaye müəssisələrinin maddi-texniki bazasının modernləşdirilməsi, rəqəmsal istehsala keçid, innovasiya infrastrukturu subyektləri ilə tərəfdaşlıq əsasında həyata keçirilir.

Azərbaycanın yüngül sənaye müəssisələrinin öz məhsulları ilə dünya bazarında öz layiqli yerini tutmağa ehtiyacı vardır. Yüksək innovativ texnologiyaların tətbiqi onların uğurlu fəaliyyətinin real təminatı ola bilər. Bu problemin öyrənilməsinin gələcək perspektivləri yeni idarəetmə texnologiyalarının tətbiqi əsasında yüngül sənaye müəssisələrinin innovativ fəaliyyətinin idarə edilməsi mexanizmlərinin təkmilləşdirilməsidir. Müasir çağırışlar dövründə ölkənin qarşısında qoyulan əsas vəzifələrdən biri yüksək texnologiyalar əsasında iqtisadi inkişafı təmin etməkdir. Yüksək texnologiyalar dedikdə, məhsuldar işlərdə istifadə olunan müasir texnologiyalar, fundamental və tətbiqi tədqiqatların beynəlxalq səviyyəsini müəyyən edən unikal texnoloji proseslər, cihazlar və materiallar başa düşülür [4, s.7]. Yüksək texnologiyalı yüngül sənaye müəssisələrinin yaradılması təsərrüfat subyektlərinin inkişafı strategiyasının işlənib hazırlanmasına və biznes proseslərinin idarə edilməsinə kompleks yanaşma tələb edən mürəkkəb məsələdir [5, s. 353]. Yüksək texnologiyalar ölkəmizin təbii resurslarından daha dolğun istifadə etməklə yüngül sənayenin inkişafına təkan vermək imkanına da malikdir.

Ümumiyyətlə, yüngül sənaye müəssisələrinin innovativ əsasını uzunmüddətli perspektivdə rəqabətqabiliyyətliliyini qorumaq və genişləndirmək üçün yüksək texnologiyaların tətbiqi təşkil edir. Həmin müəssisələrə intellektual texniki sistemlərdən istifadə etməklə qabaqcıl texnologiyalara çıxış lazımdır. İnnovativ texnologiyaların ötürülməsi və tətbiqi, yüksək texnologiyalı avadanlıqların və intellektual istehsal sistemlərinin inkişafı yüngül sənaye müəssisələrinə dəyişən iş şəraitinə çevik reaksiya verməyə və biznes proseslərini yeni çağırışlara və imkanlara vaxtında uyğunlaşdırmağa imkan verir. Qabaqcıl nəzarət, riyazi optimallaşdırma kimi özünütənzimləməyə innovativ yanaşmalar müəssisələrə biznes proseslərinin uğurla yenidən qurulmasına imkan verir. Yüksək texnologiyalar yüngül sənayedə istehsalın optimallaşdırılmasına kömək edir.

İqtisadiyyatın qloballaşdığı müasir çağırışlar dövründə dünyanın qabaqcıl ölkələrinin ÜDM-nin artımı əsasən yeni biliklər və innovasiyalar hesabına əldə edilir. Bunun nəticəsidir ki, innovasiyaların işlənməsi və tətbiqi həmin ölkələrin sosial-iqtisadi inkişafın dəstəklənməsi üzrə dövlət siyasətinin əsasını təşkil edir. Hazırda dünya iqtisadiyyatının inkişafının əsas tendensiyaları struktur dəyişikliklərini və yeni yüksək texnologiyalı məhsulların buraxılmasını stimullaşdıran qabaqcıl innovativ inkişafların nailiyyətlərindən geniş istifadə edilməsidir. İnnovasiya müştəri dəyərini yaratmaq, maliyyə nəticələrini yaxşılaşdırmaq və məhsuldarlığı artırmaq üçün yeni və ya təkmilləşdirilmiş məhsul və xidmətlərin, proseslərin, sistemlərin, təşkilati strukturların və ya biznes modellərinin hazırlanması və tətbiqi kimi müəyyən edilə bilər. Müəssisələrdə innovasiyaların böyük əksəriyyətinin son məqsədi daha yaxşı maliyyə nəticələrinə nail olmaq, yeni sosial dəyər yaratmaq və istehsal xərclərini azaltmaqdır. İnnovasiyaların nəticələri onların yenilik dərəcəsinə görə fərqlənə bilər. Bir çox yeni və təkmilləşdirilmiş məhsullar yalnız istehsal prosesini optimallaşdıran müəssisələr üçündür. Bütün sənaye miqyasında innovasiya daha yüksək məhsuldarlığa, o cümlədən daha yaxşı istehlak keyfiyyətlərinə malik məhsul və xidmətlərin istehsalına səbəb olur.

İKT-dən istifadənin artması yüngül sənayedə daha mürəkkəb məhsulların və istehsal sistemlərinin yaranmasına gətirib çıxarır. Bu, müasir maddi-texniki bazanın yaradılması üçün yeni tələblərə gətirib çıxarır və operatorla intellektual texniki sistemlər arasında qarşılıqlı əlaqənin yeni üsullarını tələb edir. Subyektlərin qarşılıqlı əlaqəsi üçün innovativ texnologiyaların intensiv inkişafı istehsal imkanları üçün yeni üfüqlər açır [6, s. 59]. Bu, yüksək keyfiyyət və etibarlılıq standartlarının işlənib hazırlanmasını və tətbiqini tələb edir. Azərbaycanda yüngül sənayenin yüksək texnologiyalar əsasında inkişafı getdikcə daha çox digər ölkələrin intellektual məhsullarından asılıdır. Çünki avadanlıqlar, maşınlar, texnoloji üsullar ən çox inkişaf etmiş ölkələrdən alınır. Yüngül sənaye müəssisələri yalnız yeni biliklər və yeni texnologiyalar yaradan innovativ əqli əməyin tətbiqi yolu ilə bu asılılıqlardan xilas ola bilərlər. Buna görə də yüngül sənaye müəssisələrinin rəqabətqabiliyyətliliyini təmin etmək yolu kimi innovativ texnologi-

yalardan istifadə perspektivlərinin dərindən öyrənilməsi, məqsədə çatmaq üçün düzgün strategiyanın işlənib hazırlanması və reallaşdırılmasıdır.

Yüngül sənaye müəssisələri hazır məhsul istehsal etmək üçün istehsalda mürəkkəb texnoloji proseslər kompleksindən fəal şəkildə istifadə edirlər. Yüngül sənayenin işinin bu xüsusiyyəti həmin sənaye müəssisələrində istehsal prosesinin avtomatlaşdırılmasını müxtəlif və funksional cəhətdən çox mürəkkəb edir. Məsələn, intellektual texniki sistemlərin tətbiqi qrafik istifadəçi interfeysindən istifadə etməklə yüngül sənayedə istehsal prosesinin bütün komponentlərini nümayiş etdirməyə imkan verir. Sensor ekranı işçilərə müəssisədə müəyyən iş növünün düzgün yerinə yetirilməsi haqqında məlumatı çatdıran şəkillər və videoların yayımlanması üçün istifadə olunur. İntellektual texniki dəstək sisteminin arxitekturası standartlaşdırılmış proses modellərinə əsaslanır və müəssisənin informasiya texnologiyalarının digər səviyyələri ilə əlaqələndirilə bilər. İntellektual texniki sistemi yeniləmək və dinamik şəkildə genişləndirmək də mümkündür.

Yüngül sənayenin inkişafında rəqəmsallaşmanın rolunu da qeyd etmək olar. Belə ki, son illərdə cəmiyyətdə qlobal və köklü dəyişikliklər baş vermişdir. Post-sənaye dövrü rəqəmsallaşma dövrü ilə əvəz olunur. Bu gün iqtisadi fəaliyyətdə əhəmiyyətli keyfiyyət dəyişikliklərinə nail olunması məqsədilə rəqəmsal proseslərin və texnologiyaların istifadəsi zərurətə çevrilmişdir. Rəqəmsallaşma riskləri azaltmağa və məhsuldarlığı artırmağa imkan verir. Bu da öz növbəsində istehsalın maya dəyərini azaldır, məhsulun keyfiyyətini və rəqabət qabiliyyətini artırır. Rəqəmsallaşma yüngül sənaye istehsalçılarının lazımi məlumatlarla təmin edilməsinə, məhsulların istehlakçıya çatdırılması zəncirini sadələşdirməyə imkan verir. Yüngül sənaye istehsalçıları tərəfindən peyk görüntülərindən, yüksək texnologiyalı sensorlardan, mobil proqramlardan və GPS sistemlərindən istifadə düzgün idarəetmə qərarlarının qəbulu üçün zərurətə çevrilir. Optimal həllər məhz müasir informasiya texnologiyalarından, mobil və ya onlayn proqramlardan, dronlardan, peyklərdən və digər xarici proqramlardan istifadə etməklə əldə edilə bilər [7, s.74].

Yüngül sənayenin yüksək texnologiyalı inkişafında elm-istehsal-texnoloji təyinatlı AİZ-lərin rolunu xüsusilə vurğulamaq lazımdır. Belə zonalarda istehsal proseslərinin təşkili üçün müəssisələrin yaradılması, texnoloji parkların təşkili və bu sahələrdə bazarların tələbatlarına uyğun sənaye məhsullarının, avadanlıqların istehsalı və bununla da yüksək texnoloji məhsulların çeşidinin artırılması mümkündür. Elm-istehsal-texnoloji təyinatlı AİZ-lər elmi-texniki yeniliklərin işlənib hazırlanması, tətbiqi və onların istehsalı sahələrinin təşkilindən ibarətdir. Bu tip zonalar əsasən müasir texnologiyaların nailiyyətləri ilə müşahidə olunur və burada elmi-texniki layihələrin gerçəkləşdirilməsi üzrə zəruri funksional infrastruktur, müəssisələr, laboratoriyalar, sınaq mərkəzləri, istehsal sahələri təşkil olunur [8, s.30].

Yüngül sənayedə uzunmüddətli inkişaf məqsədlərinə nail olunması üçün həmin sahə məhsullarının keyfiyyətini yüksəltmək və idxal olunanla müqayisədə rəqabət qabiliyyətli etmək vacibdir. Bu, həmin sahə istehsalının modernləşdirilməsini və elmi-texniki inkişaf səviyyəsinin yüksəldilməsini tələb edir. Yüngül sənayeni modernləşdirərkən yüksək texnologiyalı istehsalların yaradılması vacib şərtlərdəndir. Çünki, məhsul çeşidinin genişləndirilməsi, keyfiyyətinin yüksəldilməsi və rəqabət qabiliyyətinin artırılması baxımından yüksək texnologiyalar böyük üstünlüklərə malikdir.

Azərbaycanda yüngül sənaye müəssisələrinin modernləşdirilməsinin əsas istiqamətləri bir sıra fəaliyyətlərdən ibarət ola bilər: texniki avadanlıqların modernləşdirilməsi; istehsal texnologiyalarının təkmilləşdirilməsi və onların modernləşdirilməsi; marketinq və satış prosesinin müasir standartlarının tətbiqi. Sonuncu istiqamətin əsas aspektləri məhsulların marketinqi və satışı ilə bağlı qeyri-ənənəvi həllərin axtarışıdır.

Bütövlükdə, bir qrup tədbirlər yüngül sənayenin investisiya mühitinin yaxşılaşdırılmasına kömək edə bilər:

- investisiyaların cəlb edilməsi üçün dəqiq müəyyənləşdirilmiş milli konsepsiyanın və onun əsasında dövlətin iqtisadi strategiyasının formalaşdırılması;
- yüngül sənayenin səmərəli idarə edilməsi sisteminin yaradılması;
- investorlar üçün ümumi əlverişli rejimin formalaşdırılması;
- yüngül sənayedə elmi-tədqiqat işlərinin maliyyələşdirilməsinə ayrılan büdcə xərclərinin payının artırılması;
- rəqabətqabiliyyətli texnoloji infrastrukturun formalaşdırılması;
- investisiya fəaliyyətinin təmin edilməsi üçün

kadr hazırlığı sisteminin formalaşdırılması;

- mütərəqqi texnologiyaların tətbiqi və yüngül sənaye fəaliyyətinin bütün növlərinin səmərəli innovativ inkişafı və s.

Qeyd edək ki, yüngül sənayenin yüksək texnologiyalar əsasında inkişafını təmin etmək üçün aktiv investisiya, sənaye, struktur, elmi-texniki siyasət həyata keçirmək lazımdır ki, bütün bunlar ölkənin davamlı inkişafı üçün real ilkin şərtlər yarada bilər. Odur ki, yüngül sənayenin investisiya potensialından səmərəli istifadəyə əsaslanaraq onun inkişafı üçün elmi əsaslandırılmış dövlət proqramının işlənib hazırlanması zərurətidir. Belə bir proqram hazırlanarkən bir qrup hallar nəzərə alınmalıdır: 1) dövlət yüngül sənayedə investisiya fəaliyyətinin canlanması üçün zəruri institusional və iqtisadi şərait yaratmalıdır və 2) dövlət özü investisiya prosesində birbaşa iştirakdan çəkinməməlidir. Yüngül sənaye müəssisələri üçün elə bir şərait yaradılmalıdır ki, sahibkarlar həmin sahəyə investisiya qoymaqda maraqlı olsunlar. Bunlarla bərabər, yüngül sənaye ilə bağlı dövlətin maliyyə siyasəti təkmilləşdirilməlidir.

## YEKUN

Beləliklə, yüksək texnologiyalı yüngül sənaye istehsalının inkişafının perspektiv istiqamətləri kimi bunları qeyd edə bilərik:

- İstehsalın texniki cəhətdən yenidən təchiz edilməsi və modernləşdirilməsi, qabaqcıl texnologiyaların tətbiqi və yeni yüksək məhsuldar sənaye sahələrinin yaradılması əsasında yüngül sənayenin istehsal potensialının artırılması, müəssisələrin innovativ fəaliyyətinin intensivləşdirilməsinin təmin edilməsi, idxalın əvəzlənməsi, texnoloji ehtiyatların azaldılması sənayenin xarici ölkələrdən əmtəə asılılığının azaldılması;

- Əmək məhsuldarlığının əhəmiyyətli dərəcədə yüksəldilməsi, istehsalın iqtisadi səmərəliliyinin, texnoloji proseslərin və məhsulların ekoloji təhlükəsizliyinin təmin edilməsi, resurslara qənaət edilməsi, istehsal mədəniyyətinin yüksəldilməsi;

- Sənayenin mövcud uğurlu seqmentlərinin qorunub saxlanılması və inkişafı, o cümlədən dəri məmulatlarının istehsalı üçün texnoloji zəncirin yaradılması;

- Əmək ehtiyatlarının təkrar istehsalı, açıq bazarda istehsalı və biznesi məharətlə aparmağa qadir olan işçilərin, menecerlərin və inzibati kadrların hazırlanması və yenidən hazırlanması sisteminin inkişafı;

- Yerli istehsalçıların daxili bazarda dayanıqlı mövqe tutmasının qanunvericiliklə təminatı, gömrük və kredit siyasətinin təkmilləşdirilməsi yolu ilə yüngül sənaye məhsullarının ixracının stimullaşdırılması;

- Yüngül sənayenin inkişafı strategiyasının həyata keçirilməsinin idarə edilməsinin səmərəli forma və üsullarının və prioritet tədbirlər planının hazırlanması.

Təklif olunan tədbirlərin təcrübi olaraq reallaşdırılması yüngül sənaye müəssisələrinin yüksək texnologiyalar əsasında qurulması və rəqabət qabiliyyətinin artırılması proseslərinin stimullaşdırılmasına, sənayedə investisiya mühitinin yaxşılaşdırılmasına, onun davamlı inkişafı dinamikasına nail olunmasına, bazarlarda öz layiqli yerini tutmasına imkan verə bilər və s.

**Açar sözlər:** *yüngül sənaye, yüksək texnologiya, yüngül sənaye sahəsinin problemləri, , yüngül sənaye sahəsinin perspektivləri, yüksək texnologiyalar bazarı, yüksək texnologiyaların tətbiqi perspektivləri.*

## ƏDƏBİYYAT SİYAHISI:

*1. Ильинская, С.Д. Характеристика легкой промышленности/ С.Д. Ильинская// Инновационный потенциал развития общества: взгляд молодых ученых, Курск, 01 декабря 2020 года / сборник научных статей Всероссийской научной конференции перспективных разработок, в 2-х томах. – Курск: Юго-Западный государственный университет, 2020. – С. 508-510.*

*2. Abbasov İ.M., Əliyev T.N. Qeyri-neft sənayesinin iqtisadiyyatı. Dərslik. Bakı, 2018, 267 s.*

*3. Məmmədova X.F. Azərbaycan Respublikasında toxuculuq sənayesi müəssisələrinin rəqabət qabiliyyətinin yüksəldilməsi yolları. İ.f.d. üzrə dissertasiya işinin avtoreferatı, Bakı, 2021, 28 s.*

*4. Süleymanov A.Ş., Əhmədova M.İ. Universitet texnoparkının yaradılmasının elmi əsasları// İnnovasiyalı iqtisadiyyat və menecment, Gəncə, 2018, № 1, s.5-13.*

*5. Квинт В.Л. Стратегическое управление и экономика на глобальном формирующемся рынке. – М.: Бизнес-Атлас, 2012. – 627 с.*

*6. Саиди Д.Р., Махмудова Ф. М. Преимущества цифровизации легкой промышленности // Universum: технические науки. – 2020. – № 1(70). – С. 58–60.*

*7. Rüstəmov, F. Müasir iqtisadi şəraitdə aqrar sahədə rəqəmsallaşmanın əsas xüsusiyyətləri. Geostrategiya jurnalı. Bakı:2022, № 02 (68), s.74-83.*

*8. Əliyev, Ş.T. Azad iqtisadi zonalar. Dərslik. Sumqayıt Dövlət Universiteti, 2013, 280 s.*

*9. Azərbaycan sənayesi. Statistik məcmuə. Bakı, 2021, 243 s.*

**РЕЗЮМЕ**

**ПРИОРИТЕТЫ РАЗВИТИЯ ЛЕГКОЙ ПРОМЫШЛЕННОСТИ В АЗЕРБАЙДЖАНЕ НА ОСНОВЕ ВЫСОКИХ ТЕХНОЛОГИЙ В ПЕРИОД СОВРЕМЕННЫХ ВЫЗОВОВ**

В статье исследуются приоритеты развития легкой промышленности в Азербайджане на основе высоких технологий. Раскрыта сущность проблем и перспектив развития легкой промышленности с учетом активного применения высоких технологий. Рассмотрены возможности расширения рынка сбыта и связей со специализированными текстильными компаниями, которые функционируют преимущественно на основе высоких технологий. Обоснована необходимость разработки концепции развития бизнес-процессов. Подготовлены предложения и рекомендации по интенсификации развития легкой промышленности Азербайджана в контексте активного применения высоких технологий.

**Ключевые слова:** *легкая промышленность, высокие технология, проблемы сферы легкой промышленности, перспективы сферы легкой промышленности, рынок высоких технологий, перспективы применения высоких технологий.*

**SUMMARY**

**PRIORITIES FOR THE DEVELOPMENT OF LIGHT INDUSTRY IN AZERBAIJAN BASED ON HIGH TECHNOLOGIES DURING THE PERIOD OF MODERN CHALLENGES**

The priorities for the development of light industry in Azerbaijan based on high technologies are investigated in the article. The essence of problems and perspectives for the development of light industry, taking into account the active use of high technologies is disclosed. The possibilities of expanding the sales market and relations with specialized textile companies, which operate mainly on the basis of high technologies are considered. The need to develop a concept for the development of business processes is justified. Proposals and recommendations to intensify the development of Azerbaijan's light industry in the context of the active use of high technologies are given in the end of the article.

**Keywords:** *light industry, high technology, problems of light industry sphere, perspectives of light industry sphere, high technology market, perspectives of application of high technologies.*

UOT: 332.1:336.71

# REGİONLARDA BANK-KREDİT MÜƏSSİSƏLƏRİNİN FƏALİYYƏTİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ

**RÜFƏT BAXŞƏLİYEV**
*Sumqayıt Dövlət Universitetinin doktorantı*
*E-mail: rufat.bakhshaliyev@bk.ru*

Müasir şəraitdə iqtisadiyyatın regional seqmentini bank xidmətlərinin tam çeşidi, xüsusən də real müştərilər üçün uzunmüddətli kredit resursları ilə təmin etməyə qadir olan sabit və tam fəaliyyət göstərən regional bank-kredit təşkilatları şəbəkəsi böyük əhəmiyyət kəsb edir. Bu gün regional bank-kredit sistemi region iqtisadiyyatına uzunmüddətli maliyyə resurslarının cəlb edilməsi üçün ən prioritet mexanizmlərdən biri hesab olunur. Bu problemin uğurlu həlli bütövlükdə ölkə iqtisadiyyatının səmərəliliyini böyük ölçüdə müəyyən edir. Bu baxımdan, bizə elə gəlir ki, regional sistemin iqtisadi və sosial inkişafı üçün yeni vəzifələrin axtarışına, regional iqtisadi siyasətin aktivləşdirilməsinə diqqət yetirilməlidir. Regional iqtisadi siyasətin ən mühüm istiqamətlərindən biri də regionda investisiya və bank sektorunun inkişafı siyasətidir. Ölkənin sosial-iqtisadi inkişafının ən mühüm strateji vəzifələrindən biri regionlarda sabit bank-kredit müəssisələrinin formalaşdırılması və onların fəaliyyətinin təkmilləşdirilməsidir. Bu vəziyyət kommersiya banklarının və bütövlükdə bütün bank-kredit sisteminin fəaliyyət prinsiplərinə yenidən baxılmasını tələb edir. Regional bank-kredit sisteminin formalaşması bank resurslarının formalaşmasının ərazi prinsipi ilə bağlıdır.

Regionların inkişaf etdirilməsi ölkənin iqtisadi inkişafının prioritet istiqamətlərindəndir. Regionların inkişafı həmin ərazilərdə təşkil olunan bazarların inkişaf səviyyəsindən asılıdır. Regional bazarlar sistemi kapitalın nağd və əmtəə şəklində hərəkətini təşviq edir. Bu bazarlar vasitəsilə region iqtisadiyyatı əmək resursları ilə təmin edilir, iqtisadi informasiya mübadiləsi aparılır. Regional bazarlar sistemində qurulmuş iqtisadi münasibətlərlə əlaqədar olaraq aşağıdakı bazarlar fərqləndirilir: maliyyə, kredit, əmək, informasiya, istehsal vasitələri, istehlak, habelə daşınmaz əmlak bazarları. Hazırda kredit bazarı müxtəlif dövlət orqanları tərəfindən tənzimlənən, onların hüquqi fəaliyyət sahəsindəki fərqləri və əməliyyatların xüsusiyyətlərini müəyyən edən müxtəlif qurumları özündə birləşdirən maliyyə bazarının heterogen seqmentidir. Kredit iqtisadiyyatda, istehsalın səmərəliliyinin yüksəldilməsində, innovativ inkişafda vacib rol oynayır, əsas kapitala investisiya qoyuluşunun mühüm mənbəyi kimi çıxış edir. Bank krediti iqtisadiyyatda kredit münasibətlərinin ən geniş yayılmış formalarından biridir, onun obyekti pul vəsaitlərinin kreditə təcili, geri qaytarılma və ödəniş şərtləri ilə köçürülməsi prosesidir. Bank krediti hüquqi və fiziki şəxslər ola bilən kreditorlar (banklar) və kredit təşkilatları (borcalanlar) arasında iqtisadi münasibətləri ifadə edir. Kreditin bank forması ən çox yayılmış formadır, çünki müvəqqəti maliyyə yardımına ehtiyacı olan təşkilatlara ən çox kredit verən banklardır. Bank krediti yalnız bu cür əməliyyatları aparmaq üçün lisenziyası olan maliyyə institutları tərəfindən verilir. Bank kreditləri regionlardakı müəssisələrin fəaliyyətində mühüm rol oynayır [1, s.408]. Əsas fondların təkrar istehsalı prosesində kreditin rolu böyükdür. Müəssisələr amortizasiya toplamadan və investisiyanın qaytarılmasından əvvəl çox vaxt vəsaitə ehtiyac duyurlar.

Borc vəsaitlərinin istifadəsi istehsal texnologiyasını təkmilləşdirməyə, yeni məhsul növlərini tez bir zamanda tətbiq etməyə və nəticədə bazarda satılan məhsulların payını genişləndirməyə və ya sabit saxlamağa imkan verir. Müəssisələrin öz resurslarının borc vəsaitləri ilə birləşməsi əsas fondların səmərəli istismarına və rəqabətqabiliyyətli məhsulların həcminin artırılmasına imkan verir. Hazırda bank krediti normal şəraitdə inkişaf etmiş ölkələrdə pul kütləsinin artımının əsas səbəblərindən birinə çevrilmişdir. Ölkədə verilən kreditin həcmi nə qədər sürətlə artırsa, pul kütləsi də bir o qədər sürətlə artır.

Qərb iqtisadçıları bank kreditini pul kütləsinin ən mühüm ekvivalenti və müvafiq olaraq onun artım mənbəyi hesab edirlər. İqtisadiyyatın kreditləşdirilməsi zamanı banklar borcalanlara olan tələblərini müasirləşdirirlər. Müasir pul dövriyyəsində bank krediti mühüm rol oynayır, nağdsız pullar getdikcə daha çox nağd pulu sıxışdırır. Bank krediti hesabına

sürətlənmə təkrar istehsalın hər bir mərhələsi üçün xarakterikdir. İnkişaf etmiş ölkələrin iqtisadiyyatının fəaliyyəti və onların pul dövriyyəsi məhz bank kreditinə əsaslanır. Məhz kredit vəsaitlərin dövriyyəsini sürətləndirən amildir, onları xalq təsərrüfatında yenidən bölüşdürür. Kommersiya bankları bank sisteminin bir hissəsi olmaqla ölkənin bütün kredit sisteminin səmərəliliyinə təsir göstərir.

Regional təkrar istehsal maliyyə və maddi resursların qarşılıqlı əlaqəsi ilə xarakterizə olunur. Regionda maliyyə resurslarının bölüşdürülməsi strukturu əmtəə axınlarının hərəkətini müəyyən edir. Regional bazarlar sistemində səmərəli inkişaf rəqabət sferasının formalaşması, inkişaf etmiş kredit-maliyyə sisteminin olması, etibarlı pul dövriyyəsinin təmin edilməsi, regionlararası və beynəlxalq iqtisadi əlaqələrin inkişafı ilə mümkündür.

Bank-kredit müəssisələri regional maliyyə bazarlarının formalaşmasında və inkişafında mühüm rol oynayır. Onlar regionun maliyyə-kredit sisteminin mərkəzini təmsil edir, əhalinin, dövlət və qeyri-dövlət müəssisələrinin pul vəsaitlərini özündə cəmləşdirir. İstehsalçılardan və maliyyə fəaliyyətlərindən istehlakçılara mal və xidmətlərin hərəkəti bank-kredit müəssisələrinin investisiya və kredit əməliyyatları ilə təmin edilir. Bank-kredit müəssisələrinin əsas vəzifələrindən biri iqtisadi səmərəlilik göstəricisinin yüksəlməsinə töhfə verən maliyyələşdirmə və kreditləşdirmə əsasında təsərrüfat subyektlərinin inkişafını stimullaşdırmaqdır.

Ümumiyyətlə, region iqtisadiyyatında bank-kredit sektoru ən dinamik inkişaf edən sahələrdən biridir. Bank-kredit müəssisələri maliyyə vasitəçiləri kimi çıxış edirlər. Onlar regionlarda bəzi təsərrüfat subyektlərinin müvəqqəti sərbəst pul ehtiyatlarını toplayır və onları müvəqqəti istifadə üçün başqa təsərrüfat subyektlərinə verirlər. Bank-kredit xidmətləri bazarında əsas fəaliyyət növləri depozit və kredit əməliyyatlarıdır.

Kredit fəaliyyəti bank anlayışını formalaşdıran ən mühüm xüsusiyyətlərdən biridir. Ölkədə və onun regionlarında iqtisadi vəziyyətin hazırkı şəraitində bank kreditləri kommersiya bankları üçün əsas mənfəət mənbələrindən və iqtisadi inkişaf üçün əsas daxili stimullardan biridir. Bank-kredit müəssisələri olmadan iqtisadi, o cümlədən maliyyə dövriyyəsini təsəvvür etmək mümkün deyil. Bank-kredit müəssisələri kredit vəsaitlərinin (digər borc vəsaitlərinin) bir müəssisədən digərinə, bir sənayedən digərinə hərəkətinin təmin edilməsi problemini həll edir [2, s.214]. Müasir dövrdə Azərbaycanın regionlarında bank-kredit müəssisələrinin inkişaf etdirilməsi istiqamətində müəyyən tədbirlərin görülməsi tələb olunur. Bu tədbirlərə ilk olaraq bank-kredit müəssisələri üzrə kapitallaşma proseslərinin artımının stimullaşdırılması, həmin müəssisələrin maliyyə mənbələrinə çıxış imkanlarının genişləndirilməsi, onların kreditləşdirmə və investisiyalaşdırma üzrə fəaliyyətlərinin ünvanlılığının artırılması və digərlərini aid etmək olar. Bu tədbirlərin uğurla reallaşdırılması bir sıra amillərə əsaslanır [3, s.20].

Regionların bank-kredit müəssisələrinin təkmilləşdirilməsi baxımından onların fəaliyyətinin dövlət tənzimlənməsi tələb olunur. Bank-kredit müəssisələrinin fəaliyyətinin dövlət tənzimlənməsi əsasən ölkə səviyyəsində həyata keçirilir. Regional hakimiyyət orqanlarının regionlarda bank-kredit müəssisələrinin fəaliyyətinə ciddi təsir göstərmək imkanı yoxdur. Əhali arasında bank xidmətlərinə artan tələbat bank-kredit sektorunda rəqabət səviyyəsinin artması ilə birlikdə həm ölkə daxilində, həm də bank sektorunda kredit risklərinin toplanmasına səbəb olur. Bu baxımdan, kommersiya banklarının fəaliyyətinin dövlət tənzimlənməsinin təkmilləşdirilməsi Azərbaycanın hər bir subyekti, hər bir region səviyyəsində xüsusi əhəmiyyət kəsb edir. Hazırda bütün regionların bank sistemində kredit və investisiya fəaliyyətinin həyata keçirilməsi üçün zəruri olan özünün və borc vəsaitlərinin çoxlu sayda etibarlı mənbələri yoxdur. Bank-kredit müəssisələrinin fəaliyyətinin dövlət tənzimlənməsinin əsas məqsədi regionlarda iqtisadi artıma şərait yaratmaqdan ibarət olmalıdır. Bu problemin həlli ehtiyat tələblərinə, məcburi iqtisadi normativlərə, habelə dövlət tənzimləməsinin digər alətlərinə düzəlişlər etməklə mümkündür.

Deməli, bank-kredit müəssisələrinin fəaliyyətinin dövlət tənzimlənməsinin təkmilləşdirilməsi istiqamətlərinin hazırlanması mürəkkəb problemdir. Bu problemin uğurlu həlli onun təkmilləşdirilməsi istiqamətlərini müəyyənləşdirən amillərin və şərtlərin hərtərəfli təhlilini tələb edir. Bank-kredit müəssisələrinin fəaliyyətinin təkmilləşdirilməsi üçün aşağıdakı məsələlər həll edilməlidir:

- borcalanların kredit qabiliyyətinin qiymətləndirilməsi üçün müasir qaydalara və prosedurlara ciddi riayət olunmasına töhfə verən səmərəli daxili

nəzarət sisteminin və kadrların həvəsləndirilməsi sistemlərinin təkmilləşdirilməsi;

- bank-kredit müəssisələrinin fəaliyyəti ilə bağlı qərarların qəbulunun müstəqilliyinin təmin edilməsi;

- kreditin məbləğindən, girovun növündən, kredit müddətindən, fəaliyyət yerindən asılı olaraq qərarların qəbulu sürətinin artırılması;

- kredit riskinin həcmindən asılı olaraq müasir informasiya emalı alqoritmlərindən istifadə etməklə avtomatlaşdırılmış qərar qəbuletmə sistemlərinin tətbiqi;

- ilkin, cari və sonrakı nəzarətin səmərəliliyinin artırılması. Bu problemin həllinin səmərəli yolları kredit prosesinin və bank fəaliyyətinin digər sahələrinin avtomatlaşdırılmasının, daxili nəzarətin, bütün bank müştəriləri üçün risklərin qiymətləndirilməsi prosedurlarının təkmilləşdirilməsi və digərləridir.

Nəzarət funksiyalarının yerinə yetirilməsi baxımından avtomatlaşdırılmış sistem bank müştəriləri haqqında məlumatların toplanmasını, əlaqəli şəxslərin müəyyənləşdirilməsini, kreditləşmə prosesinin uzaqdan və gizli diaqnostikasının mümkünlüyünü təmin etməlidir. Eyni zamanda, təsvir olunan informasiya-analitik sistemdən təkcə kreditləşmə prosesində deyil, həm də digər biznes proseslərində, məsələn, qiymətli kağızlarla əməliyyatların aparılmasında, nağd pulun idarə edilməsi xidmətlərində, qanunsuz əldə edilmiş vəsaitlərlə əməliyyatlara qarşı mübarizədə və s. istifadə olunmalıdır [5, s.47] .

Bank-kredit fəaliyyətinin dövlət tənzimlənməsi mexanizmində nəzarət və yoxlama üsullarının təkmilləşdirilməsinə xüsusi yer verilir. Eyni zamanda, pul siyasətinin aşağıdakı mühüm alətlərindən istifadə olunur: Mərkəzi Bankın əməliyyatları üçün aşağı faiz dərəcələri; məcburi ehtiyat normaları; fond bazarında əməliyyatlar; valyuta əməliyyatları və valyuta tənzimlənməsi; kommersiya banklarının yenidən maliyyələşdirilməsi və s. Hazırda regional bank-kredit sisteminin dövlət idarəçiliyi əsasən dövlət səviyyəsində həyata keçirilir. Regional hakimiyyət orqanları bank sektorunun fəaliyyətinə yalnız vergitutma və nizamnamə kapitalında iştirak yolu ilə təsir göstərə bilirr.

Bank-kredit müəssisələrinin fəaliyyətinin vergitutma yolu ilə tənzimlənməsi regional səviyyədə tam həcmdə deyil, yalnız ərazinin büdcəsinə daxil olan hissədə həyata keçirilir. Səlahiyyətlərin belə bölüşdürülməsi regional bank-kredit sisteminin fəaliyyətinin vaxtında və keyfiyyətli tənzimlənməsinə imkan vermir. Odur ki, bank-kredit sisteminin dövlət tənzimlənməsinin forma və üsulları kifayət qədər inkişaf etdirilməlidir. Bunlar, bir qayda olaraq, birbaşa nəzarət və iqtisadi üsullardır [6, s.65]. Birinci üsul dövlət orqanlarının kredit təşkilatlarının fəaliyyətinə müdaxiləsini, ikincisi isə iqtisadiyyatın bank sektorunun fəaliyyəti üçün dövlət tərəfindən ən əlverişli təşkilati-hüquqi formaların yaradılmasını nəzərdə tutur. Eyni zamanda, müvafiq dövlət orqanları (Mərkəzi Bank, Maliyyə Nazirliyi, vergi və digər xidmətlər) kommersiya banklarının fəaliyyətini tənzimləmək üçün müxtəlif standartlardan, təlimatlardan, qaydalardan istifadə edirlər. Belə sistemə regional bank sistemlərinin xüsusiyyətləri nəzərə alınmaqla ümumi qaydaların yaradılması və onların icrasına nəzarət daxildir.

Məlumdur ki, bir çox tələbələr təhsillə işi birləşdirməyə üstünlük verirlər ki, bu da onlara əlavə gəlir mənbəyi gətirir. Bankın modifikasiyasına təsir edən müəyyən göstəricilərin vəziyyəti haqqında məlumatın sürətli alınması sayəsində bank-kredit müəssisələri öz istehsal resurslarından rasional istifadə edə biləcək. Avtomatlaşdırılmış işin köməyi ilə bank işçilərinin yükü, bir əməliyyatın yerinə yetirilməsinə sərf olunan vaxt azalır və sənədləşmə minimum sayda səhvlə aparılır (insan faktorunun rolu, demək olar ki, tamamilə azalır). Bank-kredit müəssisələrinin fəaliyyətində innovativ texnologiyalardan istifadə onların ümumi fəaliyyətini yaxşılaşdıra bilər, lakin bu aspekti tam tənzimləyəcək kifayət qədər normativ sənədlərin olmaması səbəbindən informasiya texnologiyalarından tam istifadə o qədər də sürətli deyil. Odur ki, ən son informasiya texnologiyalarından istifadəni gücləndirmək üçün bu sənədlər işlənib hazırlanmalıdır [7, s.74].

İndiki mərhələdə regionların iqtisadiyyatının normal fəaliyyətini təmin etmək üçün bank-kredit sisteminin bütün səviyyələrində likvidliyin səmərəli və vaxtında idarə edilməsi məsələsi kifayət qədər aktualdır. Bunu nəzərə alaraq, regional səviyyədə bank-kredit sisteminin likvidliyinin idarə edilməsi problemlərinin, o cümlədən onun saxlanılması, qiymətləndirilməsi və nəzarəti probleminin öyrənilməsi əsas vəzifələrdəndir [8, s.22].

Kredit - bank-kredit müəssisələrinin likvidliyinin tənzimlənməsində, eləcə də dövlət xərclərinin maliyyələşdirilməsinin səmərəli mexanizminin yaradılmasında mühüm rol oynayır. Kredit və pul

sferası ayrılmaz vəhdət təşkil edir və kredit pulların meydana çıxması ilə bu əlaqə xüsusilə sıxlaşır [9, s.176]. Bank təcrübəsində müxtəlif likvidliyin idarə olunması strategiyalarından istifadə olunur və onları aşağıdakı kimi qruplaşdırmaq olar: aktivlərin idarə edilməsi strategiyaları; öhdəliklərin idarə edilməsi strategiyaları və inteqrasiya olunmuş aktiv və öhdəliklərin idarə edilməsi strategiyaları [10, s.87].

## YEKUN

Beləliklə, bank-kredit müəssisələrinin likvidliyinin tələb olunan səviyyəsini saxlamağın ən səmərəli yolu onların aktiv və öhdəliklərinin əlaqələndirilmiş şəkildə idarə edilməsidir.

Regionların daha yüksək səviyyəyə çatması üçün son dərəcə zəruri şərt real və bank-kredit sektoru arasında əməkdaşlıqdır. Onların uğurlu işləməsi üçün aşağıdakı problemlər həll edilməlidir:

- bank-kredit müəssisələri tərəfindən müştəri bazasının cəlb edilməsi üçün əlverişli şəraitin yaradılması;
- müvafiq strateji tədbirlərin görülməsi hesabına kredit risklərinin azaldılması;
- məhkəmə sisteminin səmərəliliyinin və kreditorların müdafiəsi üçün hüquqi bazanın təkmilləşdirilməsi;
- ölkənin və onun regionlarının bank-kredit sektorunun mövcud vəziyyətinin xüsusiyyətləri, onun ətraf mühit amillərindən asılılığı, bankdaxili ziddiyyətlərin mövcudluğu, maliyyə böhranı şəraitində regional bank-kredit müəssisələrinin fəaliyyət xüsusiyyətləri onların qeyri-sabitlik vəziyyətlərinə həssaslığını müəyyən edir;
- rəqabətli mövqeləri qorumaq və etibarlılığı artırmaq məqsədilə bank-kredit müəssisələrinin inkişafını idarə etmək üçün yaxşı qurulmuş mexanizm, o cümlədən maliyyə sektorunu böhrandan çıxarmaq və iqtisadiyyata mənfi təsirin qarşısını almaq üçün kompleks tədbirlərin təşkili və reallaşdırılması lazımdır;
- belə bir mexanizmin əhəmiyyətli elementi maliyyə münasibətlərinin müxtəlif səviyyələri arasında əlaqə rolunu oynayan regional kredit təşkilatlarının fəaliyyətinin stimullaşdırılmasıdır və s.

**Açar sözlər:** *bank müəssisələri, bank-kredit sistemi, regionlar, bank-kredit müəssisələri, kredit portfeli, real iqtisadiyyatın kreditləşdirilməsi, regional banklar.*

## ƏDƏBİYYAT SİYAHISI:

*1. Мясникова, М.Д. Роль банковского кредита в развитии экономики / М.Д.Мясникова // Синергия Наук. – 2019. – № 32. – С. 407-416.*

*2. Шойбул, Д.М. Роль банковского кредита в условиях рыночной экономики / Д.М.Шойбул, А.А.Хомушку // Экономика и бизнес: теория и практика. – 2022. – № 5-3(87). – С. 214-216.*

*3. Baxşəliyev, R.M. Rəqəmsal transformasiyalar şəraitində regionlarda bank-kredit müəssisələrinin fəaliyyətinin gücləndirilməsi yolları. "Azərbaycan və Türkiyənin iqtisadi əməkdaşlığının strateji istiqamətləri" mövzusunda Beynəlxalq elmi konfransın materialları, Sumqayıt Dövlət Universiteti, 26-27 may 2022, s.18-21.*

*4. Azərbaycan Mərkəzi Bankının statistik bülleteni. Bakı, 12/2021, №12 (261),77 s.*

*5. Ковальчук, В.М. Роль банковского кредитования в развитии экономики страны и его проблемы / В.М.Ковальчук // Вестник Московского университета им. С.Ю.Витте. Серия 1: Экономика и управление. – 2017. – № 2(21). – С. 44-49.*

*6. Мишина, М.Ю. Активы коммерческих банков: проблемы управления / М.Ю.Мишина, О.А. Денисенко// Экономика. Социология. Право. – 2019. – № 2(14). – С. 64-68.*

*7. Озерова, Э.К. Пути повышения эффективности функционирования коммерческого банка / Э.К.Озерова, У.М.Абдылдаева // Известия Иссык-Кульского форума бухгалтеров и аудиторов стран Центральной Азии. – 2020. – № 4(31). – С. 70-74.*

*8. Гусева, А.А. Региональная банковская ликвидность: содержание, функции и значение для развития региональной банковской системы/ А.А.Гусева, О.В.Горюкова// Известия высших учебных заведений. Серия: Экономика, финансы и управление производством. – 2014. – № 1(19). – С. 22-25.*

*9. Казимагомедов, А.А. Роль банковского кредита в развитии социально-экономических отношений/ А.А.Казимагомедов, А.А.Абдулсаламова// Актуальные проблемы функционирования финансового механизма регионов: материалы Всероссийской научно-практической конференции, Махачкала, 15 декабря, 2016. – С. 175-178.*

*10. Сулейманова, М.Р. Ликвидность коммерческого банка: оценка, состояние и методы поддержания/ М.Р.Сулейманова// Тенденции*

*развития науки и образования. – 2020. – № 63-4. – С. 86-89.*

**РЕЗЮМЕ**
**СОВЕРШЕНСТВОВАНИЕ ДЕЯТЕЛЬНОСТИ БАНКОВСКО-КРЕДИТНЫХ ПРЕДПРИЯТИЙ В РЕГИОНАХ**

В статье исследуется совершенствование деятельности банковско-кредитных предприятий регионов в современных условиях. Рассмотрена стратегическая роль банковско-кредитных предприятий в интенсификации социально-экономического развития регионов и в решении региональных программ. Обоснована необходимость глубокого совершенствования действующих механизмов организации и регулирования банковско-кредитных предприятий в регионах. Отмечена важность комплексного и системного решения уменьшения кредитных рисков и повышения привлекательности банковско-кредитных услуг. Предложены рекомендации по совершенствованию деятельности банковско-кредитных предприятий в регионах страны с учетом целей и задач их развития.

**Ключевые слова:** *банковские предприятия, банковско-кредитная система, регионы, банковско-кредитные предприятия, кредитный портфель, кредитование реальной экономики, региональные банки.*

**SUMMARY**
**IMPROVEMENT OF BANKING AND CREDIT ENTERPRISES IN THE REGIONS**

The improvement of the activities of banking and credit enterprises in the regions in modern conditions is considered. The strategic role of banking and credit enterprises in intensifying the socio-economic development of the regions and in solving regional programs is investigated. The need to deeply improve the existing mechanisms for organizing and regulating banking and credit enterprises in the regions is justified. The importance of a comprehensive and systematic solution to reduce credit risks and increase the attractiveness of banking and credit services is noted. Recommendations to improve the activities of banking and credit enterprises in the regions of the country, taking into account the goals and objectives of their development are given in the end of the article.

**Key words:** *banking enterprises, banking-credit system, regions, banking-credit enterprises, loan portfolio, lending to real economy, regional banks.*

# Fəlsəfə və Sosiologiya

UOT 316

## DAVAMLI İNKİŞAF ŞƏRAİTİNDƏ MÜXTƏLİF MƏDƏNİYYƏTLƏRİN MÜNASİBƏTİ

**ADİL SADIXOV**
*Azərbaycan Milli Elmlər Akademiyası Fəlsəfə və Sosiologiya İnstitutu, fəlsəfə üzrə fəlsəfə doktoru, dosent*
*E-mail: a_sadixov@mail.ru*

**FAİQ ƏLİYEV**
*Azərbaycan Dövlət Neft və Sənaye Universiteti, tarix üzrə fəlsəfə doktoru, dosent*
*E-mail: faiq_aliyev@mail.ru*

Müasir dünyada gedən qloballaşma kevfiyyətlər və perspektivlərlə yanaşı, bir sıra problemlərin də ortaya qoyulması ilə şərtlənir. Qlobal problemlərin aradan qaldırılması üçün beynəlxalq əməkdaşlıq və inkişaf strategiyası lazımdır.

Davamlı inkişaf hər bir fərdin həyat səviyyəsini yaxşılaşdırmalı, ümumi iqtisadi inkişafı təmin etməli, sosial müdafiə və ətraf mühitin qorunmasını təmin etməli, insanların hüquq və azadlıqlarına, mədəniyyətlərarası münasibətlərin tərəqqisinə kömək etməlidir.

Davamlı inkişafın təmin edilməsi, ilk növbədə, insan potensialının formalaşmasına və onun daima davam etməsinə əsaslanmalıdır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "insan amili bizim bütün təşəbbüslərimizin və qəbul etdiyimiz qərarların əsasında durur" sözləri olduqca vacib və əhəmiyyətlidir. Bu mənada, mədəniyyətlərarası münasibətdə insan hüquqlarının qorunması ilə yanaşı, mədəni hüquqlarının təmin olunması böyük əhəmiyyətə malikdir. Mədəniyyət siyasətinin qarşısında mədəni müxtəlifliyin dəstəklənməsi, mədəni irs nümunələrinin və milli identikliyin qorunması, yaradıcılıq fəaliyyəti üçün lazımi şəraitin yaradılması mədəniyyətlərarası dialoq və tolerantlıq mühitinin yaradılması, milli mədəniyyətin tədqiqinə və yayılmasına xidmət edən tədbirlərin təşkil edilməsi məqsədlərini qoyur.

Azərbaycan Respublikasının suverenliyi haqqında Konstitusiya aktı Azərbaycan Respublikasının bütün vətəndaşlarının Qanun qarşısında bərabər olduğunu təsdiq edir. Qeyd olunan prinsip Azərbaycan dövlətçiliyinin əsaslarından biridir. Respublikamızda mövcud qanunvericilik aşağıdakı əsas fəaliyyət istiqamətlərini və vəzifələrini müəyyən edir: Azərbaycan Respublikasının ərazisində yaşayan milli azlıq, azsaylı xalq və etnik qrupların nümayəndələrinin Azərbaycan Respublikasının Konstitusiyasında müəyyən edilən siyasi, iqtisadi, sosial, mədəni hüquqlarının və azadlıqlarının qorunması, onların həyata keçirilməsinə yaxından köməklik göstərilməsi; təhsil almaq məsələlərində heç bir ayrı-seçkiliyə məruz qalmadan bərabər hüquqlara malik olması; mədəni, dil və dini özünəməxsusluğunun qorunub saxlanması və inkişaf etdirilməsi; ibadət yerlərinin qorunub saxlanılması və onlardan istifadə olunması; milli sənətkarlığın, peşəkarlıq və özfəaliyyət yaradıcılığı və xalq sənətlərinin sərbəst inkişaf etdirilməsi; bütün millətlərin tarix və mədəniyyət abidələrinin qorunması və s.

Davamlı inkişaf kontekstində YUNESKO-nun 1999-cu ildə qəbul etdiyi mədəniyyət sahəsində beynəlxalq mübadilə prinsiplərinə görə dini, etnik, linqvistik qruplar bərabərhüquqlu mədəniyyətlərarası dialoqa hörmətlə yanaşmalı, miqrasiya və urbanizasiya proseslərində etnik qrupların mədəni irsinin qorunmasını nəzərə almalıdırlar. Müxtəlif məsələlərin həllində dünya dövlətləri qarşılıqlı mədəni transformasiyanı təmin etməlidirlər.

Bu gün Qərbdən fərqli olaraq müasir Azərbaycan multikultural bir cəmiyyətə çevrilmişdir. Sosial-iqtisadi inkişaf səviyyəsinə görə regionda liderə çevrilmiş Azərbaycanda stabil mənəvi durum mövcuddur. Təbii ki, mədəni və demokratik dünyanın bir tərkib hissəsi halına gəlmiş Azərbaycan cəmiyyəti də onu əhatə edən dünyadan təcrid oluna bilməz. Çünki qapalı ölkələrin acı təcrübələri bunu deməyə əsas verir ki, yalnız özü haqqında düşünən, dünya ilə əlaqələrini kəsən cəmiyyətlər dünya birliyi ilə heç bir razılaşmaya gedə bilməz. Bu mənada Azərbaycan Respublikasının dövlət mədəniyyət siyasətinin strateji istiqamətlərindən biri də Qərb və Şərqin aparıcı ölkələri ilə münasibətlərin tənzimlənməsi, həmçinin bu ölkələrlə əməkdaşlıq və tərəfdaşlıq prinsiplərinə

əsaslanan qarşılıqlı əlaqələrin qurulmasıdır.

Mədəni inteqrasiya mühitində xüsusi aktuallıq kəsb edən mədəniyyətlərarası əlaqələr və mədəni müxtəliflik sahəsində də Azərbaycan dövləti dünyaya bir sıra mesajları ilə yaddaqalan tədbirlərə ev sahibliyi etmişdir. Bu gün demək olar ki, bütün dünya həm sosial-iqtisadi, həm də mədəni-mənəvi problemlərlə üzləşir. Mədəni dünya belə bir tendensiya ilə razılaşır ki, həmin proseslər üçün səciyyəvi olan mədəniyyətlərarası əlaqələr konfliktlərin aradan qaldırılması və onların həlli yollarının tapılmasına yeni töhfələr verə bilər.

Dövlət mədəniyyət siyasətinin əsas istiqamətləri çərçivəsində Azərbaycanın müvafiq qurumları Avropa Birliyi, TÜRKSOY, MDB və digər nüfuzlu beynəlxalq təşkilatlarla əməkdaşlıq edir.

Ümumiyyətlə, multikultural cəmiyyətlərdə mədəniyyətlərarası münasibətlər hər bir fərdə azad mədəni seçki hüququ verir. Mədəni müxtəliflik heç də etnik məxfiliklik demək deyildir, o həm də yaşayış tərzinin müxtəlifliyidir. Mədəniyyətlərarası anlaşıqlı əlaqələr cəmiyyətin inteqrativ inkişafı üçün zəmin yaradaraq rasizmə qarşı çıxır.

Multikultural cəmiyyətin formalaşmasında müstəqillik, demokratiya mühüm şərtdir. Multikulturalizm nədir? Multikulturalizm demokratik dövlət strategiyasıdır və mədəniyyətlərin qarşılıqlı inteqrasiyasıdır. Multikulturalizm həm də dövlət siyasətidir. Multikulturalizm "...ayrıca götürülmüş ölkədə və bütövlükdə dünyada müxtəlif millətlərə və məzhəblərə məxsus insanların mədəni müxtəlifliklərinin qorunması, inkişafı və harmonizasiyasına, azsaylı xalqların, dövlətlərin milli mədəniyyətlərinin inteqrasiyasına yönəldilmişdir. Davamlı inkişaf şəraitində multikulturalizmin prinsipi müxtəlif mədəniyyətlərin bir arada yaşaması, var ola bilməsi və birgə yaşama qaydasıdır. Azərbaycan Respublikası multikulturalizm ideyalarına sadiq, tolerant dövlət kimi tanınmaqdadır. Azərbaycan tarixən müxtəlif xalqların bir ailə kimi yaşadığı, heç bir ayrı-seçkiliyə yol verilmədən, dini baxışlara dözümlü münasibət göstərən bir ölkədir. Multikulturalizm Azərbaycan Respublikasının dövlət siyasətidir və xalqımızın tolerantlığının nümunəsidir.

Zaman və məkan daxilində mədəniyyətlərarası əlaqələrin yenidən nəzərdən keçirilməsi, bütün incə məqamların da dialoq üçün açıq ola biləcəyini, inteqrativ yanaşmada nələrin nəzərə alınacağı da vacib sayılır. Ona görə də mültikultural dəyərlərin inteqrasiyası informasiya əsrinin tələbləri səviyyəsində aparılarsa, uyğunlaşma mexanizmi daha möhkəm qurula bilər. Davamlı inkişaf, qloballaşma və müasir sivilizasiyanın çağırışları dünyada baş verən dəyişikliklərə adekvat cavab tələb edir ki, bu da daimi elmi təhlillərin zəruriliyini gündəmə gətirir. Mədəniyyətlərin əlaqəsi, multikulturalizm assimilyasiya bir mədəniyyəti digər mədəniyyətin kölgəsi altında itmək demək deyildir, əksinə müxtəlif mədəniyyətlərə və etnoslara mənsub insanların milli mədəniyyət ətrafında toplanması deməkdir. Davamlı inkişaf kontekstində mədəniyyətlərarası əlaqəyə, münasibətlərin dialoji aspektdə inkişafına hazırda böyük önəm verilməsi və bu prosesin yüksək beynəlxalq səviyyədə təşkilatlanması istiqamətində ciddi fəaliyyət göstərilməsi təsdiq edir ki, dünya birliyinin qlobal sivilizasiya məkanında qərarlaşmasının optimal variantları həqiqətə çevrilməkdədir. Çox mürəkkəb və dəyişkən dünyanın qarşılıqlı əlaqə və təsirlənmələrlə təşəkkülü və harmonikləşməsi zərurətindən doğan qlobal sivilizasiya özünün lokal (regional) sivilizasiya və mədəniyyət komponentləri arasında dialoji münasibətlərin hazırkı ilkin fazasında həmin münasibətlərin yeni təməl prinsiplərini yaratmaqdadır.

Müxtəlif mədəniyyətlərin əlaqələrinin multikulturalizm modellərinin mürəkkəbləşməsi müasir dövr üçün səciyyəvidir. Hazırda bu modellərin mürəkkəbləşməsi mədəni dəyərlərin inteqrasiyası və onlara hər bir ölkənin uyğunluq dərəcəsi və adaptasiya olunması zərurəti vacib sayılır, belə olan halda hər bir konseptual xarakterli yanaşmaların araşdırılması tələb olunur.

Qeyd etməliyik ki, davamlı inkişaf zamanı dövrümüzün çağırışları və beynəlxalq münasibətlərdə baş verən köklü dəyişikliklər milli mədəniyyətlər qarşısında bir sıra yeni həlli vacib məsələlər qoyur. Qloballaşma prosesləri təkcə mədəniyyətlərin qarşılıqlı uzlaşması və qarşılıqlı zənginləşməsi ilə müşayiət olunmur, xalqların və ölkələrin mədəni özünəməxsusluğuna ciddi təhlükələr yaradır. Milli mədəniyyətlərin, milli- mənəvi dəyərlərin gələcək taleyi indi bütün bəşəriyyəti düşündürən problemlərdən birinə çevrilmişdir. Belə şəraitdə beynəlxalq səviyyədə mədəni münasibətlərin qurulması qlobal gündəliyin əsas məsələsini təşkil edir.

Hazırda insanların həyat fəaliyyətinin müxtəlif cəhətləri qloballaşır. İqtisadi, siyasi, sosial-mədəni və bir sıra başqa cəhətlərdən diferensiasiya edilmiş dünyadan vahid qlobal dünyaya doğru qarşısıalın-

maz irəliləmə baş verir. Bu halda cəmiyyətdə cərəyan edən dəyişikliklər o qədər ciddidir ki, onlar bu keçidə, yəni bəşəriyyətin tarixdən əvvəlki dövründən onun həqiqi tarixinə doğru hərəkət etməsinə əsas verir. Digər tərəfdən, dünya əlaqələrinin yaxınlaşması bizim iradəmizdən asılı olmayaraq inkişaf edən bir prosesdir. Buna qarşı etiraz etmək demək olar ki, mümkün deyildir. Lakin vahid iqtisadiyyatın və mədəniyyətin formalaşması prosesi öz-özlüyündə bir çox xalqlarda mədəni özünəməxsusluğun qismən və ya tam itirilməsinə real təhlükələr yaradır.

Davamlı inkişaf kontekstində qloballaşma mədəniyyətlərin qarşılıqlı münasibətinə öz təsirini göstərərək qarşılıqlı fəaliyyət müxtəlifliyi yaradır. Müxtəlif mədəniyyətlər arasında qarşılıqlı əlaqənin əsas forması kimi mədəni müdaxilə çıxış edir ki, onun əsas göstəricisi bir mədəni dəyərlər sisteminə digər mədəni dəyərlərin nüfuz etməsidir. Əslində milli mədəniyyətin dünya mədəniyyətinə inteqrasiyası müasir dünyada baş verən dəyişikliklərin əsas mənbəyinə çevrilmişdir. Belə prosesdə milli-mədəni dəyərləri, xüsusən də ayrı-ayrı xalqların tolerantlıq xüsusiyyətlərini müasir dünyaya çatdırmaq çox vacib məsələdir və böyük əhəmiyyət kəsb edir. Bu mənada Azərbaycan xalqının adı xüsusi qeyd olunmalıdır. Uzun illər Azərbaycanın totalitar Sovet rejimində yaşaması, imperiyanın tərkib hissəsi olması, milli şüurla qarşı-qarşıya qalması kimi faktorlar milli özünəməxsusluq axtarışlarını bir zərurətə çevirirdi. “Formaca milli, məzmunca sosialist” mədəniyyət prinsipinə söykənən adət-ənənələrin əvəzinə “Formaca da, məzmunca da milli” mədəniyyətin bərqərar olmasına ehtiyac duyulurdu. Ona görə də Azərbaycan milli dəyərlərinin dünya mədəniyyətinin ayrılmaz bir tərkib hissəsi olduğunun sübutu istiqamətində çoxyönlü fəaliyyətlərə başladı. Artıq bu gün inamla deyə bilərik ki, Azərbaycanın milli-mənəvi dəyərləri dünyada bəşər mədəniyyətinin ən qədim və zəngin nümunələri kimi təqdim edilir. Ümumiyyətlə, filosoflar və digər tədqiqatçılar müasir mədəniyyətlərin əlaqələrini qiymətləndirərkən bəzən çoxölçülü, çoxrəngli dünya anlayışından istifadə edirlər. Yeni mərhələdə inkişaf xüsusiyyətlərini ümumiləşdirən bu qiymət ictimai inkişafın sürətlənməsi, cəmiyyətin maddi və mənəvi əsaslarında dərin keyfiyyət dəyişikliklərinin baş verməsi, sosial quruluşların və siyasi sistemlərin humanistləşdirilməsi, millət və xalqların tale ümumiliyinin və ümumiyyətlə, müasir dünyamızın bir-birindən asılılığının dərk edilməsi və s. bu kimi keyfiyyət dəyişiklikləri ilə səciyyələnir. Lakin hədsiz inkişaf və tərəqqi ilə yanaşı, dəhşətli səfalət, orta əsr geriliyi də müasir dövrün təzadlarındandır. Bəzən inkişaf etmiş Qərb və hələ də problemlər içərisində çırpınan Şərq anlayışları götürülür və tərəqqi edən müasir sivilizasiyada qarşı-qarşıya qoyulan xətlər kimi təqdim edilir. Əlbəttə, müasir dünyada spesifik milli mənafe və geosiyasi maraqlar, fərqli inkişaf səviyyələri hələ də qalır. Bu, həm dövlətlərarası, həm də millətlərarası münasibətlərdə özünü açıq şəkildə büruzə verir. Bununla yanaşı, etiraf etmək lazımdır ki, müxtəlif mədəniyyətlər və onların nümayəndələri arasında qarşılıqlı anlaşma, ünsiyyət vərdişlərinin inkişafı texniki tərəqqidən və xalqlararası təmasların formalarının inkişafından geridə qalır. Məhz bu amil mədəniyyətlərin yaxınlaşmasının və qarşılıqlı əlaqəsinin aktuallığını bir daha təsdiq edir.

Qloballaşmanın dərəcəsindən asılı olmayaraq, biz öz kökümüzə bağlılığımızı itirməməliyik. Çünki kökündən qopandan sonra qloballaşmanın gətirdiyi xeyirin daha böyük fəsadı olacaq. Mənəviyyatından, dinindən, imanından qopmamaq şərtilə qloballaşmaq lazımdır. Qloballaşma və inteqrasiya prosesləri məhz texnoloji istiqamətlər üzrə getməlidir. Mədəniyyət və mənəviyyat məsələlərində mümkün qədər mühafizəkar olmaq lazımdır. Gənclərin bədii-estetik tərbiyəsində, zövqündə, mənəviyyatında bir çox deformasiyalar özünü göstərməkdədir. Bazar iqtisadiyyatının və informasiya texnologiyalarının sürətlə inkişafı dünya dövlətləri sistemində müxtəlif maddi və mənəvi dəyərlərə, o cümlədən mədəni düşüncələrə malik xalqlar arasında əlaqələrin harmonik uzlaşmasını və inkişafını tələb edir. Əgər bu gün dünyada mövcud münaqişələri ədalətli şəkildə həll edib bəşəriyyətə sabitlik və sülh gətirmək istəyi varsa, ilk növbədə, başqa mədəniyyətlərə və düşüncələrə sahib xalqların özünəməxsusluğuna hörmətlə yanaşmalı, etnomədəniyyətin xüsusiyyətləri nəzərə alınmaqla onun bəşəri dəyərlərlə uzlaşmasına nail olmalıyıq. Hər hansı bir dövlət iqtisadi və mədəni inkişafa nail olmaq istəyirsə, o, artıq bu baxımdan yüksəliş əldə etmiş dövlətlərin tarixi sınaqlarından uğurla çıxmış qanunları tətbiq etməlidir. Bu qanunlar bütün xalqlar və mədəniyyətlər üçün eyni olmasa da, oxşardır. İqtisadiyyatda inkişafın əldə olunması cəmiyyətdə mədəniyyətin bir forması kimi iqtisadi mədəniyyətin təşəkkülünə təkan vermiş olur. Digər mədəniyyət formalarından fərqli olaraq iqtisadi mədəniyyət qa-

nunlarının ümumiliyi nəticəsində məzmununa görə eyniliyi şərtləndirir. Bu baxımdan, dünya dövlətləri sistemində vahid iqtisadi mədəniyyətin formalaşdırılması iqtisadi qanunların tətbiqi ilə mümkündürsə, bu, artıq iqtisadi mədəniyyət fonunda mənəvi mədəniyyətlərin uzlaşmasına və mübadiləsinə real imkanlar açmış olur. İqtisadi inkişafa nail olmaq yolu ilə mədəni dəyərlərin uzlaşmasına və harmoniyasına nail olmaq vacib şərtdir. Dövlətlər arasında iqtisadi əlaqələrin inkişafının qloballaşması və tədricən vahid dünya iqtisadi məkanının formalaşması dünya dövlətləri sistemində yaşayan xalqların mədəniyyətlərinin, mədəni düşüncələrinin və davranışlarının bu reallığın tələblərinə uyğun olaraq formalaşması zərurətini yaratmışdır. Lakin bu formalaşma prosesi digər xarici mədəni dəyərlərin kortəbii şəkildə mənimsənilməsindən ibarət olmayıb, öz etnomədəniyyətinin başqa mədəniyyət nümayəndələrinə təbliğ edilməsini və mədəni dəyərlərin qarşılıqlı mübadiləsini tələb edir. Mədəni dəyərlərin qarşılıqlı mübadiləsinin və sintezinin ana xəttini bəşəriyyətin çiçəklənməsinə, onun düzgün və ədalətli inkişafına xidmət edən vahid dünya mədəniyyətini formalaşdırmaq, sosial-mədəni münasibətlərin harmonik inkişafına nail olmaq təşkil etməlidir. Dünya mədəniyyətinin vahidliyinə nail olmaq, günümüzün reallıqları fonunda çətin görünsə də, sabahın tələbi və bəşəriyyətin gələcək inkişafı üçün başlıca təminat olacaqdır. Biz bu həqiqəti bu gün söyləməsək, sabah həmin həqiqət özü-özünü söylətməyə vadar edəcəkdir. Bu baxımdan, mədəniyyətlərin qloballaşması və bu sahədə mövcud problemlərin nəzəri təhlilinin araşdırılması olduqca əhəmiyyətlidir.

Ümumiyyətlə, mədəniyyətlərarası münasibətlərin inkişaf fəlsəfəsi insan amili ilə məntiqi bağlılığa malikdir. Ətraf aləmdə baş verən istənilən hadisə insan tərəfindən qəbul edilmək üçün onun şüurunun süzgəcindən keçir. İnsan şüurunda baş verən dəyişikliklər ilk növbədə onun həyatının məqsədi və dəyərləri ilə əlaqəlidir. Digər tərəfdən, inkişaf müxtəlif mərhələlərdə olan və ən əhəmiyyətlisi, bəzən unikal tarixi taleyə malik olan ölkələrin və xalqların sosial-iqtisadi və mədəni səviyyəsinə həddən artıq sərt tələblər qoyur. Beləliklə, inkişafda qloballaşma iqtisadi, texnoloji, ideya-siyasi və sivilizasiya asılılığının yeni formalarının yaranmasının əsas səbəblərindən birinə çevrilir, bır sıra hallarda isə qloballaşma nəticəsində milli ənənələr pozulur, mədəniyyətlər arasında mövcud münaqişələr kəskinləşir və yeni münaqişələr yaranır.

Mədəni qloballaşmanın müsbət tərəfləri ilə yanaşı, ən mənfi nəticəsi bütün kiçik mədəniyyətlətin kökünə, adətlərinə, təməl strukturlarına güclü zərbə vurulması və onların gələcək inkişaflarına mane olmaqdır. Bu mənada milli mədəniyyətlərin mədəni müxtəlifliyinin qorunub saxlanılması bəşəriyyətin mütərəqqi inkişafın (belə baxış davamlı inkişaf konsepsiyasının əsas prinsipləridir) əsas şərti olmalıdır. Bu vəzifənin həyata keçirilməsi üçün insanlar öz səyini əsirgəməməlidir.

Hazırda mədəniyyətlərarası dialoq genişlənməkdədir. Onun məqsədi çoxmədəniyyətli bir dünyada dinc və konstruktiv şəkildə yaşamağı öyrənmək, cəmiyyət və mənsubiyyət hisslərini inkişaf etdirməkdir. Mədəniyyətlərarası dialoq həmçinin insan hüquqları, demokratiya və qanunun aliliyinə hörmətin artırılması yolu ilə münaqişələrin qarşısının alınması və həlli üçün vasitə ola bilər. Bu baxımdan, mədəniyyətlərarası dialoq çərçivəsində bəzi məqsədlər müəyyən edilmişdir:

- dünyagörüşlərini paylaşmaq və eyni fikirlərə sahib olmayan insanların fikrinə hörmətlə yanaşaraq onları dərk etmək;
- müxtəlif mədəni ənənələr və anlayışlar arasında oxşarlıqları və fərqləri müəyyən etmək;
- mübahisələrin şiddətlə həll edilməməsi barədə razılığa gəlmək;
- mədəni müxtəlifliyin demokratik şəkildə idarə edilməsində yaxından iştirak və mövcud sosial-siyasi tənzimləmələrin bütün növlərinə lazımi düzəlişlər etmək;
- müxtəlifliyi təhdid olaraq görən və müxtəlifliyin zənginlik olduğunu düşünən fərdlər və ya qruplar arasında körpü qurmaq və s.

Dialoqlar münaqişələr zamanı və ya münaqişələrin yaranmasına zəmin olduqda münasibətləri yumşaltmağa və gərginliyin azaldılaraq tərəflərarası uzlaşmalara gətirib çıxarır. Həmçinin hazırda yüksələn nifrət, ekstremizm, milli kimliklərarası münaqişələr sivil toplumun ən böyük hədələrindən biridir. Mədəniyyətlərarası dialoq bu kimi təhdidlərin ortadan qaldırılması üçün siyasi liderlər tərəfindən xüsusilə vurğulanan ən önəmli çağırışlardandır. Qlobal səviyyədə mədəniyyətlərarası dialoq ziddiyyət və ikili standartlar məntiqindən uzaq olmalı, hegemoniya, zülm və ədalətsizliyin önünə keçməlidir. Mədəniyyətlərarası dialoq fikir azadlıqlarını və tənqidlərə qarşı tolerant olmağı da özündə ehtiva edir.

Mədəniyyətlərarası dialoq məsələsində üzərində işlənilən və həll yolları axtarılan ortaq problemlərə baxdıqda görünür ki, bu dialoqu təmin etməyə çalışan aktorlar qəlibləşmiş düşüncələr, etnik diskriminasiya və mədəni fanatizmə qarşı fərqli baxış bucağı yaratmağa çalışırlar. Mədəniyyətlərarası dialoqun əsas məqsədi digər mədəniyyətləri tanımaq, anlamaq və müxtəlif mədəniyyətlərin üzvləri ilə həqiqi dialoqa daxil olmaqdır. Mədəniyyətlərarası dialoq ümumi anlaşma, bir yerdə sülh şəraitində yaşamaq, demokratik cəmiyyət qurmaq və insan hüquqlarının təminatına əsaslanan bərabər və liberal dünya dizaynını inkişaf etdirmək üçün mühüm nəzəri əsasdır. Həmçinin o, müxtəlif mədəniyyətləri təmsil edən fərdlər arasındakı münasibətlərdə eyni mədəniyyətə mənsub olan insanlar arasında olduğu kimi insanların bi-birinə qarşı fikirlərini, hisslərini, biliklərini və s. mübadilə etdiyi bir prosesdir. Bununla yanaşı dialoq prosesində iştirak edən insanların fərqli mədəniyyətlərə mənsub olmaları, eyni dəyər və davranış qaydalarını sərgiləməmələri dialoq prosesini daha çətin və qarışıq hala sala bilər. Ancaq bu prosesdə iştirak edən insanların fərqli mədəniyyətləri təmsil etdiklərinə görə üzləşdikləri problemlərin hamısını dialoq problemi olaraq qiymətləndirmək də mümkün deyil.

Qeyd etmək lazımdır ki, insanın, cəmiyyətin və bəşəriyyətin gələcəyə əsl yol və ümidləri yalnız müxtəlif mədəniyyətlərin əlaqəsindən, ünsiyyətdən, münasibətlərdən, yüksək etimaddan, təhsil və savaddan, insanpərvərlikdən keçir. Həmçinin mədəniyyət böyük imkanlara malik olaraq insanın ayrı-ayrı tərəflərini və xarakter xüsusiyyətlərini müəyyənləşdirməyə imkan yaradır, bəşəriyyətin gələcəyinə yol açır.

**Açar sözlər:** *mədəniyyət, münasibət, tolerantlıq, multikulturalizm, insan, cəmiyyət, inkişaf.*

## ƏDƏBİYYAT SİYAHISI:

*1. Davamlı inkişafın sosial və fəlsəfi problemləri (kollektiv monoqrafiya) (I kitab) "Elm və təhsil". Bakı, 2020.*

*2. Əkbərov U. Davamlı insan inkişafı. Bakı, 2006.*

*3. Rüstəmov Y. Sivilizasiyaların qarşılıqlı münasibəti. Bakı, "Səda", 2007.*

*4. Xəlilov S. Sizivilizasiyalararası dialoq. Bakı, "Adiloğlu, 2009.*

*5. Heydərov N. Mədəniyyət və mənəviyyat münaqişələrinin həlli. Bakı, 2015*

*6. Hürriyət qəzeti, 2019-cu il.*

*7. Əhmədov C. Millətlərarası dialoq və azərbaycançılıq. "Geostrategiya" jurnalı №02 (50)*

**Адил Садыхов**
**Фаиг Алиев**

**Отношения разных культур в условиях устойчивого развития**

## РЕЗЮМЕ

В условиях устойчивого развития отношения разных культур не могут быть объяснены в стороне от человека и его прав. Коренные изменения, происходящие в мире, ставят перед национальными культурами ряд важных задач. Связь разных культур и общение создают потребность для устранения психологических факторов и противоречий, а также более глубокого изучения этих проблем.

**Ключевые слова:** *культура, отношение, толерантность, мультикультурализм, человек, общество, развитие.*

**Adil Sadiqov**
**Faiq Aliyev**

**Relationships of different cultures in the context of sustainable development**

## SUMMARY

In the context of sustainable development, the relationships of different cultures cannot be explained apart from the human and his rights. The fundamental changes taking place in the world pose a number of important tasks for national cultures. The connection of different cultures and communication create a need to eliminate psychological factors and contradictions, as well as a deeper study of these problems.

**Keywords:** *culture, relationship, tolerance, multiculturalism, human, society, development.*

UOT 101.1::316

# POSTİNDUSTRİAL CƏMİYYƏTDƏ AZƏRBAYCANDA TƏHSİLİN İNKİŞAFININ ƏSAS İSTİQAMƏTLƏRİ

**MÜSLÜM NƏZƏROV**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
*fəlsəfə elmləri doktoru, dosent*

*E-mail: muslimnazarov@mail.ru*

Son illərdə filosofların, sosioloqların, psixoloqların və pedaqoqların, eləcə də alimlərin, siyasətçilərin və ziyalıların çıxışlarında, nəşrlərində təhsil problemi xüsusi bir aktuallığı ortaya qoydu. Bu, sadəcə bir təsadüf və ya yeni bir intellektual dəb kimi qəbul edilə bilməz, əksinə, bunun arxasında qlobal sivilizasiya prosesinin bəzi yeni meyilləri dayanır. Eyni zamanda, təhsillə bağlı hər bir müzakirədə həm klassik təhsil paradiqmaların, konsepsiyaların, modellərin, həm də müasir mədəni vəziyyətə daha adekvat olan yeni obrazların axtarılmasına kifayət qədər sərt bir tənqidi qiymət verilməsinə xüsusi diqqət yetirilir. Bildiyimiz ənənəvi təhsil modeli demək olar ki, həmişə sadə bir mədəniyyət yayımıdır, üstəlik, bir qayda olaraq, bəzi mono-mədəniyyətin, müəyyən zamanda müəyyən cəmiyyətdə dominantdır.

Təhsil sistemində ciddi dəyişikliklərə səbəb olan dünya inkişafının ümumi meyilləri nəzərə alınmadan müasir təhsili xarakterizə etmək mümkün deyil.

Təhsil sektoruna təsir edən aparıcı amillər informasiya axınının həcminin və intensivliyinin artması, innovativ proseslərin genişlənməsi, sürətli elmi-texnoloji tərəqqi, dinamik dəyişən həyat şəraiti ilə xarakterizə olunur. Bu gün insan davamlı olaraq inkişaf edən və müasir təhsil sistemi üçün yeni tələblərin ortaya çıxmasına səbəb olan yüksək dərəcədə qeyri-müəyyən bir dünyada yaşayır. Təhsil insanları sürətlə dəyişən mühitdə həyata uyğunlaşdırma, hərəkətlilik, konstruktivlik, yaradıcılıq, məhdud mənbələrdən istifadə edərək sürətli qərar qəbuletmə qabiliyyəti və artan informasiya axınında hərəkət etmə bacarığı kimi keyfiyyətləri inkişaf etdirir.

İqtisadiyyatın dinamik inkişafı qlobal, milli və regional bazarlarda rəqabətin artmasına, ixtisassız və aşağı ixtisaslı işçi qüvvəsinin azalmasına, məşğulluq strukturundakı dərin dəyişikliklərə gətirib çıxarır ki, bu da işçilərin peşə inkişafına və yenidənhazırlanmasına daim ehtiyacı müəyyənləşdirir və onların peşəkar hərəkətliliyinin artmasına səbəb olur.

İnformasiya və bilik günümüzdə getdikcə iqtisadiyyatın əsas hərəkətverici qüvvəsinə çevrilən məhsuldar bir mənbəyə çevrilir. Bütün bunlar müasir cəmiyyətin inkişafında yeni bir mərhələ - postindustrial cəmiyyətə keçidi xarakterizə edir.

"Postindustrial" termini 20-ci əsrin əvvəllərində Asiya ölkələrinin sənayedən əvvəlki inkişafında ixtisaslaşmış alim A.Kumarasvami tərəfindən elmi dövriyyəyə daxil edilmişdir. Post-sənaye cəmiyyəti konsepsiyası, Harvard Universitetinin professoru Daniel Bellin xüsusən 1973-cü ildə "Gələcək Post-Sənaye Cəmiyyəti"(3) kitabının nəşrindən sonra geniş qəbul edilmişdir.

**Postindustrial cəmiyyət** - iqtisadiyyatda yüksək məhsuldar sənaye, bilik sənayesi, yüksək texnologiyalı və innovativ xidmətlərin ÜDM-də yüksək payı olan, bütün iqtisadi və digər fəaliyyət növlərində rəqabət olan, habelə bu sahədə məşğul olan əhalinin daha yüksək paya sahib innovativ sektorun üstünlük təşkil etdiyi cəmiyyətdir (8).

Belə bir cəmiyyətin formalaşması ilə eyni vaxtda inkişafın əsas amilinin dəyəri hər il artan bilik və insan kapitalı olduğu yenilikçi iqtisadiyyata və ya bilik iqtisadiyyatına keçid yarandı.

İnkişaf etmiş ölkələrdə insan kapitalı yeni texnologiyaların yaradılmasını, sənaye sahələrinin inkişafını, səmərəliliyinin artmasını, elm, mədəniyyət, səhiyyə və sosial sahələrin geridə qalmış inkişafını təmin edən əsas amil kimi tanınır.

İnsan kapitalı geniş mənada iqtisadiyyatın və cəmiyyətin inkişafı, o cümlədən əmək resursları, intellektual biliklər, idarəetmə, təhsilli mühit və əmək fəaliyyətinin savadlı hissəsi daxil olmaqla məhsuldar inkişaf istiqaməti kimi insan kapitalının səmərəli və rasional fəaliyyətini təmin edən intensiv istehsal amilidir.

İnkişaf etmiş ölkələrdə insan kapitalı yeni texnologiyaların yaradılması, istehsalın inkişafı, səmərəliliyin artması, elm, mədəniyyət, səhiyyə, təhlükəsizlik və sosial sahələrin geridə qalmış inkişafını təmin edən əsas istehsal amili kimi tanınır.

Müasir dünyada təhsilin inkişafında aşağıdakı əsas tendensiyaları ayırmaq olar:

**Təhsilin qloballaşması.** XXI əsrin əvvəlləri

dünya birliyinin həyatının bütün sahələrində qloballaşma proseslərinin intensivləşməsi ilə xarakterizə olunur.

Qloballaşma - xüsusi intensivliyi ilə səciyyələnən beynəlxalq münasibətlərin, iqtisadi, siyasi və sosial-mədəni proseslərin beynəlmiləlləşməsinin müasir mərhələsidir. Qloballaşmanın ən bariz təzahürləri vahid dünya bazarının konsolidasiyası, dövlətlərarası, maliyyə, ticarət istehsal əlaqələrinin aktiv inkişafı, pul, əmtəə və insan axınlarının genişlənməsi, sosial strukturların dinamik iqtisadi proseslərə sürətlənərək uyğunlaşması, mədəni universallaşma, ən son kompüter texnologiyalarına əsaslanan universal informasiya məkanının formalaşmasıdır (6,s.169).

Qloballaşma prosesi təhsil üçün əhəmiyyətlidir. Bəşəriyyətin sosial tərəqqisi və sivilizasiyanın qorunub saxlanmasının bağlı olduğu sosial və təbii problemlərin ortaya çıxması və inkişafı yeni nəsillər arasında müasir düşüncənin formalaşmasını tələb edən fərdi və təşkilatçılıqdan milli və beynəlxalq səviyyələrə qədər bütün səviyyələrdə əməkdaşlığın zəruriliyinə gətirib çıxarır. Qlobal problemlərin uğurlu həlli yalnız ümumdünya bəşəri dəyərlərə vurğu edilməklə, sosial sistemlər, siyasi, ideoloji və digər inanclardakı fərqlərə baxmayaraq bütün ölkələrin və xalqların konstruktiv və qarşılıqlı məqbul əməkdaşlığının genişlənməsi ilə mümkündür.

Azərbaycan təhsil sistemi dünyanın qabaqcıl ölkələri sırasındakı yerini, hər zaman yüksək mədəniyyət, elm və təhsili ilə seçilən bir ölkə kimi beynəlxalq nüfuzunu dəstəkləmək üçün hazırlanmışdır. Bu, öz ifadəsini yalnız xalqın tanınmasında deyil, həm də təhsil xidmətlərinin fəal ixracında tapmalıdır.

Azərbaycan təhsili dünyanın əksər təhsil sistemləri kimi, dövrün çağırışlarına cavab verir və inkişafın aşağıdakı xarakterik istiqamətlərini nümayiş etdirir: humanistləşdirmə, demokratikləşmə, inteqrasiya, informasiyalaşdırma, təhsilin texnolojiləşdirilməsi və davamlılığı.

**Təhsilin humanistləşdirilməsi** - təhsil cəmiyyətin və istehsalın mənafeyindən tələbələrin şəxsiyyətinin maraq və imkanlarına yönəldilməli və şəxsiyyətin hərtərəfli inkişafı üçün optimal şəraitin yaradılması deməkdir. Təhsil sisteminin və bütün təhsil prosesinin hər bir insanın hüquqlarına hörmətə əsaslanaraq şagirdlər və müəllimlər arasında qarşılıqlı hörmət münasibətlərinin inkişafına və formalaşmasına yönəlməsidir: sağlamlıqlarını qorumaq və gücləndirmək, özünə hörmət etmək və şəxsi potensialını inkişaf etdirməkdir. Şagirdlərə fərdi inkişaf yolu seçmək hüququnu təmin edən bu cür təhsildir.

Təhsildə humanistləşmənin mahiyyəti, tələbələrin öz aralarında və müəllimlərlə münasibətlərini, insan dəyərlərinin texnokratik, istehsalat, iqtisadi və inzibati dəyərlərdən üstün tutmalarıdır.

Təhsilin humanistləşdirilməsi ictimai istehsalın və ictimai münasibətlərin humanistləşdirilməsinin obyektiv prosesləri ilə əlaqədardır və fərdlə cəmiyyətin qarşılıqlı təsirinin optimallaşdırılması probleminin həllinə yönəldilmişdir. Azərbaycanda ali təhsilin humanistləşdirilməsinə gəldikdə, aşağıdakılar ilə xarakterizə olunur:

- Yaxşılıq, həssaslıq, səmimiyyət, qarşılıqlı qayğı, nəciblik, ədalət, şərəfə əsaslanan əxlaqi və psixoloji bir mühitin yaradılması;
- Avtoritar pedaqogikadan əməkdaşlıq və yaradıcılıq pedaqogikasına keçid;
- Tələbənin təhsil, elmi və istehsalat fəaliyyətinin ciddi tənzimlənməsindən seçim azadlığına keçid;
- Tədrisin bütün mərhələlərində pedaqoji metod kimi fərdi yanaşmanın həyata keçirilməsi;
- Tələbələrin humanitar hazırlığının təkmilləşdirilməsi.

Təhsilin humanistləşdirilməsi, həm bütün əhalinin, həm də ayrı-ayrı üzvlərinin müxtəlif ehtiyaclarının ən yüksək səviyyədə ödənilməsinə yönəldilmiş təhsilin demokratikləşməsi, ümumbəşəri şəkildə təmin edilməsi və bərabərsizliyin azaldılması ilə sıx əlaqədardır.

**Təhsilin demokratikləşməsi** fərdin təhsil formasını sərbəst seçməsinə, bir təhsil səviyyəsindən digərinə problemsiz şəkildə keçməsinə imkan verir, müəllim və şagirdlərə yaradıcılıq fəaliyyətinin sərbəstliyini təmin edir, fərdi potensiallarını üzə çıxarmaq üçün sosial təminatları və imkanları genişləndirir. Təhsilin demokratikləşdirilməsi vasitəsi hər bir insanın ömür boyu öyrənməsinə və inkişaf etməsinə imkan verəcək ömürlük təhsil sisteminin yaradılmasıdır. Demokratikləşmə, sosial vəziyyətindən, cinsindən, milli, dini və ya irqi mənsubiyyətindən asılı olmayaraq hər bir insanın təhsil hüququnun həyata keçirilməsinə kömək etməlidir.

Azərbaycan Respublikasının Konstitusiyasına görə, hər kəsin təhsil almaq hüququ vardır və təhsil sistemi bir insanın bu hüquqdan istifadə etməsi

üçün lazımi şərait yaratmağa borcludur. Bu gün təhsilin mərkəzsizləşdirilməsi, dövlət idarəetmə sisteminin yaradılması, təhsilin özlərinə geniş hüquq və azadlıqlar təmin edilməsi, eyni zamanda təhsilin demokratikləşməsinin tərəflərindən biri kimi çıxış etmək, təhsil sistemlərinin açıqlığının artmasını təmin etmək, təhsil xidmətləri istehlakçısı təhsil müəssisəsini sərbəst seçmək hüququnu həyata keçirməklə əldə edilir.

**Təhsilin inteqrasiyası.** İnteqrasiya olunmuş təhsilin əsas vəzifəsi şagirdləri əsas fenomenlərlə, müvafiq elmlərin həqiqətləri ilə tanış etmək, bacarıqların formalaşdırılması, öyrənilən hadisələrin təsnifatı və ölçülməsi, elmi intuisiyanın inkişafıdır. Daxili ilə yanaşı, müxtəlif ölkələrin təhsil sistemlərini bir-birinə yaxınlaşdırmağa və vahid dünya təhsil məkanını formalaşdırmağa yönəlmiş xarici inteqrasiya da həyata keçirilir. Mahiyyət etibarilə təhsilin inteqrasiyası təbiət və cəmiyyət haqqında vahid bir təsəvvürün əsasını qoymağa və inkişaf qanunlarına öz münasibətini formalaşdırmağa imkan verir.

Bu gün, əsasən qloballaşma ilə əlaqədar olaraq müxtəlif ölkələrin təhsil sahələrinin inteqrasiya prosesi mövcuddur. 1999-cu ildən bəri Bolonya prosesi Avropadakı ali təhsil sistemlərinin yaxınlaşması və uyğunlaşdırılması, ortaq Avropa təhsil məkanının yaradılması mexanizmi kimi fəaliyyətə başladı. Bu prosesin Avropa təhsil məkanına inteqrasiya mexanizmləri olaraq Avropa Universitetləri Birliyi, Avropa Tələbələrin Milli Birliyi, Avropa Ali Təhsil Müəssisələri Birliyi və Avropa Ali Təhsildə Keyfiyyət Təminatı Assosiasiyası formalaşmışdır. 2005-ci il may ayının 19-da Norveçin Berqen şəhərində keçirilən konfransda Azərbaycan Bolonya prosesinə qoşulmuş və həqiqi üzvü seçilmişdir (4,s.9). Azərbaycanın bu prosesə qoşulmaqda əsas məqsədi Avropa təhsil məkanına inteqrasiya olunmaqla kredit sisteminə keçməsini, müasir attestasiya və akkreditasiya sisteminin qurulmasının təmin olunmasıdır. Bu, şübhəsiz ki, təhsil sahəsində beynəlxalq əməkdaşlığın güclənməsinə səbəb oldu: həm tələbələrin, həm də müəllimlərin akademik hərəkətliliyi artdı Azərbaycan universitetləri ilə yanaşı xarici təhsil müəssisələrinin də iştirak etdiyi ortaq təhsil proqramları həyata keçirilir. Bu cür proseslər təhsilin xarici inteqrasiyası olaraq təyin edilə bilər. Qeyd etmək lazımdır ki, bu, birbaşa geosiyasi vəziyyətdən asılıdır və hazırkı şəraitdə Avropadan Asiyaya inteqrasiya vektorunda dəyişiklik gözləmək olduqca mümkündür.

İnteqrasiya prosesləri təhsil sistemi daxilində də müşahidə olunur (daxili inteqrasiya). Yeni nəslin müasir təhsil standartları təhsil təşkilatlarının əmək bazarı, sosial mühit ilə sıx qarşılıqlı fəaliyyətinə, təhsil prosesləri arasındakı əlaqəyə, fənlərarası əlaqələrin gücləndirilməsinə, inteqrasiya olunmuş dərslərin və bütün kursların inkişafına yönəlmişdir.

**Təhsilin informasiyalaşdırılması.** İnformasiya cəmiyyətinin formalaşması təhsilin informasiyalaşdırılması və kompüterləşdirilməsi prosesinə səbəb oldu. Müasir informasiya texnologiyalarının inkişafı və sürətli rabitə kanallarının meydana çıxması bu texnologiyaların imkanlarından tədris və tədqiqat işlərində istifadəni aktuallaşdırdı.

İnsanın özünü tapdığı nəhəng bir informasiya axınının ortaya çıxması, əsasən hər hansı bir istifadəçi üçün əlçatan olan kompüterlər və internet sistemindən qaynaqlanır. Müvafiq olaraq, informasiya və kommunikasiya texnologiyaları tədris prosesinə fəal şəkildə tətbiq olunmağa başladı. Təhsildə kompüter özü yalnız bir öyrənmə obyekti və öyrətdikləri bir vasitə deyil, həm də pedaqoji fəaliyyətin və tədqiqat işinin səmərəliliyinin artırılması üçün bir vasitə və eyni zamanda təhsil idarəetmə sisteminin bir hissəsi olmuşdur. Kompüter texnologiyaları şagirdlərin intellektual qabiliyyətlərini inkişaf etdirir, materialı daha dərindən anlamağa kömək edir və öyrənmə motivasiyasını artırır (5,s.395)

Eyni zamanda, qeyd etmək lazımdır ki, təhsilin informasiyalaşdırılması artıq bir neçə mərhələni keçmişdir. Bu gün əldə edilən əhəmiyyətli nəticələrdən danışa bilərik:

- bütün təhsil müəssisələrinin internet sisteminə 100% çıxış;
- kompüter və multimedia avadanlığı ilə təchiz olunmuş kompüter siniflərinin və sinif otaqlarının mövcudluğu;
- informasiya texnologiyalarının bütün səviyyələrdə tədris prosesi ilə inteqrasiyası tələbi yeni nəslin təhsil standartlarına daxil edilmişdir.

Eyni zamanda, Azərbaycan müasir texnologiyalarla təminat səviyyəsi və onların təhsil prosesinə cəlb olunma dərəcəsi digər ölkələrlə müqayisədə hələ də çox şey arzu edir.

**Təhsilin texnolojiləşdirilməsi.** Kompüterlərin yaranması və cəmiyyətin sürətli kompüterləşdirilməsi sosial-iqtisadi həyatda, təhsil fəaliyyətinin texnologiyalarında əsaslı dəyişikliklərə səbəb oldu.

Təhsilin texnolojiləşdirilməsi meyili qlobaldır. Təhsilin texnolojiləşdirilməsi ideyasının mahiyyəti eyni zamanda təhsil sistemlərinin səmərəliliyinin artırılması və istənilən nəticələrin əldə edilməsinə sərf olunan xərclərin azaldılmasıdır. Bununla birlikdə, kifayət qədər instrumental və texnoloji dəstək olmadan təhsil sistemlərinin səmərəliliyini artırmaq üçün çoxsaylı cəhdlər çıxılmaz vəziyyətə gətirib çıxarır, çünki maddi və mənəvi istehsal sahələrində insan fəaliyyətinin yaxşılaşdırılması həmişə daha inkişaf etmiş istehsal vasitələrinə əsaslanır.

Texnolojiləşdirmə təhsilin inkişafındakı ən vacib tendensiyadır, bu ilk təhsil standartlarının tətbiqi və yeni təhsil xidmətləri bazarında çox sayda "pedaqoji texnologiyalar"ın meydana çıxması və kompüter informasiya texnologiyalarının yaradılması ilə təsdiqlənir.

Ənənəvi və ən yeni texnoloji nailiyyətlərdən istifadə edərək fərdi şəxsiyyətin ümumi mədəniyyətinin bir elementi, ətraf aləmi daha yaxşıya çevirmək bacarığı, gələcəyi qabaqcadan görmə qabiliyyəti, orada yaşamaq və işləmək istəyi kimi təyin olunan yeni bir termin - "texnoloji mədəniyyət " ortaya çıxdı. Müasir bir insan texnoloji daxil olmaqla yüksək bir mədəniyyətə sahib olmalıdır.

**Təhsildə davamlılıq** - insanın inkişafının müəyyən mərhələlərində vahid fasiləsiz bir təhsil prosesi yaratmaq üçün təlim və tərbiyənin əsas vəzifələri, məzmunu və metodlarının qarşılıqlı əlaqəsini təmin edən əlaqələr sistemidir . Davamlılıq təkcə yeniyə hazırlıq deyil, həm də daha vacib olanı, zəruri və məqsədəuyğun köhnənin qorunub saxlanılması və inkişafı, prosesin mütərəqqi inkişafı üçün əsas kimi yenisi ilə köhnəsi arasındakı əlaqədir.

Davamlılıq bütün səviyyələr üçün ümumi olan əsas ideyanın qəbul edilməsini, təhsilin məzmunu, metodları, təlim və tədrisin təşkilati formaları, effektivliyin müəyyənləşdirilməsi üsullarını nəzərdə tutur.

Təhsildə davamlılığın mahiyyəti, biliklərin tədricən inkişafını və dərinləşməsini, zehni fəaliyyət üçün tələblərin mürəkkəbləşdirilməsini, gələcək tələbənin şəxsi və sosial davranışının formalaşmasını təmin etməkdən ibarətdir.

## ƏDƏBİYYAT SİYAHISI:

*1. Azərbaycan Respublikasının Konstitusiyası. https://az.wikipedia.org/wiki/ Azərbaycan_Respublikasının Konstitusiyası*

*2. "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası. "Azərbaycan" qəzeti 30 dekabr 2012-ci il.*

*3. Белл Д. Будущее постиндустриальное общество: опыт социального прогнозирования. / пер. с англ. под ред. В. Л. Иноземцева М .: Академия, 1999. М.: Academia, 2004 . 783 с*

*4. Mahmudov M.C. Bolonya prosesi: problemlər, perspektivlər, reallıqlar. Bakı, "Elm və Təhsil" 2010,504 s.*

*5. Nəzərov M.H., Quliyev N.Z., Nəzərova X.M. Pedaqoji texnologiyalar. (Dərs vəsaiti) Bakı. ADPU-2020. 496 s.*

*6. Nəzərov M.H. Müasir dövrdə təhsilin sosial-mədəni problemləri. Monoqrafiya. Bakı - Mütərcim – 2018,296 s.*

*7. Nəzərov M.H. Təhsil fəlsəfəsi. Dərs vəsaiti. Bakı, ADPU - 2022, 496 s.*

*8. https://ru.wikipedia.org›wiki›Постиндустриальное.*

**M H.Nəzərov**

**Postindustrial cəmiyyətdə təhsilin inkişafının əsas istiqamətləri**

**XÜLASƏ**

Məqalədə təhsil sahəsinə təsir göstərən aparıcı amillər, informasiya axınlarının həcmi və intensivliyinin artması, innovativ proseslərin genişlənməsi, sürətli elmi-texnoloji tərəqqi, dinamik dəyişən həyat şəraiti təsvir edilmişdir. Post-sənaye cəmiyyətinin xüsusiyyətləri və funksiyaları göstərilir.

Azərbaycan təhsili, dünyanın əksər təhsil sistemləri kimi, dövrün çağırışlarına cavab verir, onun inkişafının xarakterik istiqamətləri humanistləşdirmə, demokratikləşmə, inteqrasiya, informasiyalaşdırma ilə sıx bağlıdır.

İnkişaf etmiş ölkələrdə insan kapitalı yeni texnologiyaların yaradılması, sənayenin inkişafı, elm, mədəniyyət, səhiyyə, təhlükəsizlik və sosial sahələrdə səmərəliliyin artırılma məqsədilə təhlil olunur.

**Acar sözlər:** *təhsil, postindustrial cəmiyyət, qloballaşma, humanistləşdirmə, demokratikləşmə, inteqrasiya.*

**Назаров М. Г.**
**Основные направления развития образования в постиндустриальном обществе**
**РЕЗЮМЕ**

В статье описаны ведущие факторы, влияющие на сферу образования, увеличение объема и интенсивности информационных потоков, расширение инновационных процессов, стремительный научно-технический прогресс, динамично меняющиеся условия жизни. Показаны особенности и функции постиндустриального общества.

Образование в Азербайджане, как и большинство мировых систем образования, отвечает требованиям времени, и его развитие характеризуется гуманизацией, демократизацией, интеграцией, информатизацией, технологической и образовательной устойчивостью.

В развитых странах человеческий капитал анализируется с целью повышения эффективности в создании новых технологий, промышленном развитии, науке, культуре, здравоохранении, безопасности и социальной сфере.

**Ключевые слова:** *образование, постиндустриальное общество, глобализация, гуманизация, демократизация, интеграция.*

**M. H. Nazarov**
**The main directions of development of education in postindustrial society**
**SUMMARY**

The article describes the leading factors affecting the field of education, increasing the volume and intensity of information flows, the expansion of innovative processes, rapid scientific and technological progress, dynamically changing living conditions. Features and functions of a post-industrial society are shown.

Azerbaijan's education, like most of the world's education systems, meets the challenges of the time, and its development is characterized by humanization, democratization,integration, informatization, technological and educational sustainability.

In developed countries, human capital is analyzed to increase efficiency in the creation of new technologies, industrial development, science, culture, health, security and social spheres.

**Keywords:** *education, post-industrial society, globalization, humanization, democratization, integration.*

UOT 1.101

# DƏYƏR KATEQORİYASININ FƏLSƏFİ MAHİYYƏTİ VƏ TİPOLOGİYASI

**NURAY QİBLƏLİYEVA**
*BDU-nun Fəlsəfə kafedrasının doktorantı*
*E-mail: nuray_qibleliyeva@mail.ru*

Dəyərlər və onların təbiəti haqqında fəlsəfi doktrina aksiologiya adlanır (yunan dilindən axios - dəyər və logos - təlim). "Aksiologiya XX əsrdən müstəqil elmi istiqamət kimi inkişaf etməyə başlamışdır və bir çox elmlərin qarışığını özündə cəmləşdirir. Burada təlimlər olaraq fəlsəfə, etika, estetika, sosiologiya cəmləşir" [1]. Lakin bu nəzəriyyə müasir formada formalaşmasına qədər tarixi inkişaf yolu keçmişdir. Dəyərlər insanın fəaliyyətini və davranışını normativ planda, yəni necə olmalı sfera kimi təsəvvür edir və şəxsiyyətin məqsəd və ideallarının özəyi rolunu oynayır. Şəxsiyyətin mövcüdluğu və mahiyyəti onlarsız öz mənasını itirir. Məhz dəyərlər onun real həyat ilə çoxtərəfli və rəngarəng münasibətləri strukturuna son dərəcə müxtəlif təzahür formaları (sosioloji, psixoloji, etnoloji və başqa formalar) kimi daxil olur. Buradan aydındır ki, fəlsəfi antropologiyanı aksioloji problematikadan kənarda təsəvvür etmək ağlasığmazdır. Aksiologiya, ümumi dəyərlər nəzəriyyəsi, dəyərlərin fəlsəfi əsaslarını öyrənən elmdir. "O, imperativləri, idealları, etalonları, requlyativləri, prinsipləri və normaları ifadə edir. Bu təlimdə insan fəaliyyətinin təbiəti, xarakteri, üsulları, həyati məna kəsb edən reqlamentlər, oriyentasiyalar və motivlər əsas yer tutur. Dəyər şüuru real varlıq ilə arzu olunan varlığın qovuşuğunda, mövcud olan ilə olmalı olan, fəaliyyət göstərən ilə tələb olunan tərəflərin arasında yerləşir" [3,c.177]. Aksiologiyanın sistemyaradıcı funksiyaları insan idrakının bütün sfera və tərəflərində çox mühüm əhəmiyyət kəsb edir. İnsan – dünya münasibətlərinin ən ümumi nəzəri cəhətlərini öyrənən fəlsəfə elmində isə o xüsusilə böyük rol oynayır. Fəlsəfi biliklər sistemində aksiologiyanın yeri hər şeydən əvvəl bununla müəyyən olunur ki, o, insan varlığının dəyərli istiqamətlənmiş cəhətini ifadə edir. Bu cəhət çox mühüm olub, insanın sosial praktikasının yaratdığı problemlərin adekvat şəkildə irəli sürülməsinə və həllinə çox kömək edir. Ümumilikdə götürdükdə, fəlsəfə insanın xüsusi növlü intellektual fəaliyyət sahəsi olmaqla, onun təbii-elmi idrakının hüdudlarından kənarda yerləşən və ona tabe olmayan tərəfləri də öyrənir.

"Buradan da aksioloji baxımdan götürülən fəlsəfi biliklər sisteminin başlıca məqsədi irəli gəlir. Həmin məqsəd dünyanı humanist baxımdan mənalandırmaq, yəni varlığı təkcə təbiət qanunlarının fəaliyyət sahəsi kimi götürməklə məhdudlaşmayaraq, onu insaniləşmiş dünya, başqa sözlə deyilsə, insanın sərvətlər (dəyərlər) dünyası kimi dərk etməkdir"[6,s.343]. Qeyd etmək lazımdır ki, əslində dəyərlər problemi bilavasitə insanın dünyanı dərk etməyə və dəyişdirməyə yönələn, onu insaniləşmiş varlığa çevirməyə istiqamətlənən fəaliyyətindən irəli gəlir. Çünki dəyərləndirmə və qiymətləndirmə şəxsiyyətin daxili atributiv keyfiyyəti olmaqla, onun şüuru ilə real gerçəklik arasında əlaqələrin bütün tərəflərini əhatə edir. İnsan üçün ondan bir növ kənar olan reallığı öz daxili varlığının dünyasına çevirmək müstəsna dərəcədə böyük əhəmiyyət kəsb edir. Əslində bu, insan tərəfindən dünyanın dəyərlər baxımından mənimsənilməsi və dəyişdirilərək öz dünyası şəklinə salınması prosesinin məğzini təşkil edir. İnsan dünyası isə özünəməxsus təbiətə malikdir, burada hər şey real mövcüd olan ilə olmalı olan münasibətlər baxımından mənalandırılır. Bu münasibətlərin ikinci tərəfinə, yəni olmalı olanlara xüsusi diqqət yetirilməsi, insan fəaliyyətinin determinasiyası əlaqələrini üzə çıxarmaq üçün çox zəruridir. Lakin onun rolu bununla bitmir. O, həm də insanın mənəvi aləmini səciyyələndirən aşağıdakı hadisələri – azadlıq, xeyirxahlıq, mənəvi borc, həyatın mənası və s. araşdırmağın ilkin şərti kimi çıxış edir. Həm də nəzərdə tutulmalıdır ki, sözügedən problem fəlsəfədə o qədər də təzə məsələ deyildir, onun kökləri dərin olub, tarixin ilkin qatlarına gedib çıxır, zəngin ənənələrə malikdir.

Müxtəlif tarixi dövrlərdə ayrı-ayrı fəlsəfi sistemlər dəyərlərin dərk edilməsində mühüm rol oynamışdır. Müasir dövrdə elmin inkişafı və yeni ictimai münasibətlər hadisələrə dəyər kimi baxmağa şərait yaradır. Dəyərlər həmişə insani dəyərlərdir və ictimai xarakter daşıyır. Onlar sosial praktika, fərdi insan fəaliyyəti əsasında və müəyyən konkret tarixi ictimai münasibətlər və insanlar arasında ünsiyyət formaları çərçivəsində formalaşır. Dəyərlər insanın sosiallaşması prosesin-

də yaranır və dinamik xarakter daşıyır. Bu baxımdan demək lazımdır ki, insanın bütün həyat təcrübəsi və onun bilik sistemi onun dəyərlərinin təbiətinə birbaşa təsir göstərir. Müasir fəlsəfi ədəbiyyatda dəyərlərin mahiyyəti və məzmunu haqqında müxtəlif fikirlər söylənilir. Onları əsasən aşağıdakı kimi üç cür qruplaşdırmaq olar: "1. Dəyəri müəyyən fayda verən və insanın hər hansı tələbatını ödəyə bilən predmet kimi götürənlər; 2. Dəyərə norma və ideal kimi yanaşanlar; 3. Dəyəri ümumillikdə insan və ya sosial qrup üçün əhəmiyyətlilik kimi təsəvvür edənlər"[8, c.479]. Qeyd olunmalıdır ki, bu baxışların hamısı dəyərlərin müəyyən bir tərəfini əsas götürür, buna görə də onlar bir-birini istisna etmir, əksinə bir-birini tamamlayır. Ona görə də onların hamısını doğru hesab etmək olar. Dəyərlərin ən ümumiləşmiş anlamı isə aşağıdakı kimidir: Dəyər gerçəklik hadisələrinin və faktlarının mədəni, ictimai və şəxsiyyət baxımından əhəmiyyətliliyini ifadə edən anlayışdır " [8, c.480]. Buradan aydın olur ki, dəyərlər fenomeni ayrıca bir insanın və sosial birliklərin real həyat prosesi və sosial praktikası ilə ayrılmaz əlaqədə çıxış edir. Mövcüd olan ilə olmalı olanı bir-birindən fərqləndirmək və sonuncuya can atmaq yalnız insana məxsus keyfiyyətdir. Beləliklə, dəyər şüuru öz təbiətinə görə ruhi keyfiyyət olmaqla, bir tərəfdən mədəniyyətdə humanitar potensialın artması, digər tərəfdən təbii seçmə prosesinin sürətləndirdiyi altruist xislətin möhkəmləndirilməsi ilə bağlıdır. Ümumiyyətlə götürdükdə insanın dərketmə prosesi dəyərlilik amilindən ayrılmazdır. Belə ki, o, həmişə müəyyən qiymətləndirmə ilə əlaqədardır. Hətta hissi mərhələnin özündə də insan öyrəndiyi obyektləri bir-birilə qarşılaşdırır, müqayisə edir, onların ümumi və fərqli cəhətlərini üzə çıxarır, onları qiymətləndirir. İdrakın yüksək pilləsində – mücərrəd təfəkkürdə isə bu əməliyyatlar daha geniş yer tutur. Burada fərd, predmet və proseslərə xas olan xassə və əlamətləri daha dərindən və dəqiq araşdırır, onlara qiymətverici münasibət bildirir. Bu çür qiymətləndirmə təsadüfü olmayıb, fərdin tələbatları, mənafeləri və mənəvi maraqları ilə şərtlənir. Dəyər insanın ictimai-tarixi fəaliyyəti sistemində bu və digər hadisənin müsbət qiyməti və ya funksiyası deməkdir. Belə yanaşma dəyərlərin sferasını məhdudlaşdırır və konkretləşdirir, onu əhəmiyyətliliyin bir forması kimi anlayır. Sonra, predmet dəyərlərini, məsələn əmək məhsullarını əsas ilkin dəyərlər sırasına, insanın amalı haqqında təsəvvürləri isə subyekt dəyərlərinə, yəni törəmə dəyərlər qrupuna aid etmək müəyyən mübahisələr doğurur. Buna görə insanın həyat planı ilə bağlı dəyəri ön planda vermək və maddi dəyərləri ikinci, törəmə hesab etmək daha doğru olardı. Bu məqamı qeyd etməklə İ.Narski göstərirdi ki, maddi nemətlər insanın əsl dəyərlərə doğru yolunda bir vasitə rolunu oynayır. Əsas dəyərlər insanın həyatı, onun xoşbəxtliyi, azadlıq və xeyirxahlıq və sairdir. "İkimənalı surətdə maddi dəyərlər adlandırılan hər şey, əslində aksioloji dəyərlər demək deyildir. Onlar yalnız sözün əsl mənasında götürülən dəyərlərin reallaşdırılması vasitələridir, lakin tamamilə aydındır ki, onların insanlar tərəfindən qiymətləndirilməsi insanların yaşadığı əsl dəyərlərin xarakteri ilə müəyyən olunur"[4,c.214]. Cəmiyyətdəki hər bir obyekt insanlar üçün ictimai məna kəsb etdikdə, dəyər statusu alır. Başqa sözlə deyilsə, dəyərlilik maddi və mənəvi mədəniyyət hadisələrinin ictimai mahiyyətindən ayrılmazdır. Dəyər hesab olunan hadisə və obyektlər ictimai həyata cəlb edilmiş olur, müəyyən sosial funksiya yerinə yetirirlər. Qeyd etmək lazımdır ki, son dövrlərin fəlsəfi-sosioloji ədəbiyyatında dəyərlər probleminin tədqiqinə diqqətin artması müşahidə olunur. Nəticədə bu anlayışın məzmununun geniş mənada götürülməsi özünü göstərir. Belə ki, indi dəyərin məzmununa təkcə olmalı olanlar, əxlaqi və estetik ideallar daxil edilmir. Burada ayrıca bir subyekt və yaxud bütövlükdə cəmiyyət üçün az-çox dünyagörüşü və normativ əhəmiyyət kəsb edən bütün şüur fenomenləri və obyektlər də əhatə olunur. Sözügedən meyil müəyyən mənada alqışlanmağa layiqdir, çünki sosial hadisələrin öyrənilməsində aksioloji problematikanın genişləndiyini sübut edir, dəyərlərin aksioloji məzmununda çoxtərəfliliyi göstərir. Bunu yəqin etmək üçün fəlsəfi ədəbiyyatda xeyli yayılmış olan belə bir mülahizəyə diqqət yetirmək məqsədəuyğundur. Y.A.Mikeşinaya görə dəyərlər aşağıdakı üç keyfiyyəti ilə səciyyələnir: 1. Onlar subyektdə obyektə qarşı dəyər şüurunun (əxlaqi, fəlsəfi, dini və s.) və bütövlükdə sosial mədəni amillərin təsiri altında formalaşan emosional bəzək vurulmuş mənafeləri, prioritetləri, yanaşmaları ifadə edən münasibəti bildirir; 2. İdrakın öz daxilindəki dəyər oriyentasiyalarıdır, yəni elə sırf məntiqi-metodoloji, o cümlədən də dünyagörüşü donu geymiş parametrlərdir ki, onlara əsaslanmaqla qiymətlər verilir, təsviretmənin, izahetmənin, sübutetmənin, biliyi təşkil etmənin forma və üsulları seçilir (məsələn, elmliyin meyarı, tədqiqatın idealı və normaları); 3. Dəyərlər idrakda obyektiv həqiqi predmet biliyi (fakt, qanun, hipotez, nəzəriyyə və s.) və səmərəli operasional bi-

lik (elmi metodlar, tənzimləyici prinsiplər) deməkdir. Məhz sonuncular öz həqiqiliyi, doğruluğu və informativ baxımdan zənginliyi sayəsində cəmiyyət üçün əhəmiyyət və dəyərlilik kəsb edir [2,p.39]. Gerçəklikdəki hadisələr (maddi və ya mənəvi) bu və ya digər üsulla şəxsiyyətin fəaliyyətinə cəlb olunduqda, dəyər mənası alır. Hər hansı predmet insanın praktikası üçün əhəmiyyət kəsb etməsi baxımından faydalı və dəyərli hesab olunur. Dəyərlər öz ifadə formasına görə subyektiv olmalarına baxmayaraq, obyektiv amillərlə (aid olduğu obyektlə, şəxsiyyət və sosial amillərlə) şərtlənir. Onlar nisbi müstəqil xarakterli subyektdən, onun iradə və şüurundan asılı olmayaraq, aprior kimi təsəvvür olunur. Bu, onunla izah edilir ki, dəyərlərdə subyektiv və obyektiv tərəflər bir-birilə çulğalaşmış şəkildə çıxış edir. Deyilənlərdən aydın olur ki, insan ilə dünya, şəxsiyyət ilə cəmiyyət arasında əlaqələrin aksioloji aspektdən tədqiqi, onu sosiallaşma və individuallaşma meyillərinin vəhdəti kimi götürür. Məlum səbəblər üzündən marksist idealogiyanın hökmranlığı dövründə fəlsəfi biliklər sisteminin müstəqil cəhəti kimi aksiologiyanın rolu lazımi qiymətləndirilmirdi. Buna görə də dəyərlərin öyrənilməsi, mənalandırılması və inkişafı ilə bağlı problemlər əksər hallarda diqqət mərkəzindən kənarda qalırdı. Zaman keçdikcə bu mövqenin məhdudluğu aşkara çıxdı və məlum oldu ki, aksiologiya fəlsəfi biliklər sisteminin nisbi müstəqil sahəsi kimi artmaqda olan rol oynayır. Getdikcə daha aydın görünməkdədir ki, dəyərlər fenomeni insan şəxsiyyətinin bütün fəaliyyət növlərində özünü güclü şəkildə göstərir. O, insanın varlığı ilə bilavasitə və ayrılmaz münasibətdədir və böyük dünyagörüşü potensialına malikdir.

Göründüyü kimi, dəyər - obyektləri, hadisələri, onların xassələrini, habelə sosial və mədəni idealları təcəssüm etdirən mücərrəd ideyaları ifadə edən və buna görə də lazımi etalon kimi çıxış edən fəlsəfi kateqoriyadır. Dəyər insan üçün mühüm əhəmiyyət kəsb edən, şəxsi, sosial və ya mədəni mənası olan hər şeydir. Bu hissin kəmiyyət xarakteristikası qiymətləndirmədir. Qiymətləndirmə insanın dünyaya və özünə dəyərli münasibətini ifadə edir və fərdin dəyər yönümlərinə gətirib çıxarır. Yetkin şəxsiyyət adətən kifayət qədər sabit dəyər yönümləri ilə xarakterizə olunur. Sabit dəyər istiqamətləri normaya çevrilir, müəyyən bir cəmiyyətin üzvlərinin davranış formalarını müəyyənləşdirir. Şəxsiyyətin özünə və dünyaya dəyər münasibəti duyğularda, iradədə, qətiyyətdə, məqsəd qoymada, ideal yaradıcılıqda əks olunur. “Dəyər fəlsəfəsinə görə, dəyər-insan həyatı üçün əhəmiyyətli olan təbii və mədəni predmetlərdir, hansılar ki, onlar insanların dünyaya etdikləri təsirlərdən meydana gəlir, eləcə də öz-özünə təbii olaraq ortaya çıxır. Yüksək dəyər digərləri ilə müqayisədə, əks olan tərəflə müqayisədə meydana gəlir. İnsanlar yaxşıya can atırlar; çünki pislik var, həqiqətə can atırlar; çünki yalan var, insanlar gözəlliyə məftun olurlar; çünki eybəcərlik var. Qiymətləndirmə qabiliyyəti dərketmə ilə əlaqəlidir. Dəyərlər oriyentasiyasının özünəxas birləşməsi (maraqlar, təqdimatlar, inamlar, inanclar, baxışlar, hislər, əxlaq-davranış prinsipləri) hər bir insanın daxili aləminin unikallığını meydana gətirir, onun təkrarolunmaz şəxsiyyətinin və individuallığının bazasında qərarlaşır” [9]. Elmi baxışa əsasən, dəyər insanlıqla bağlıdır. Onun tarixi də insanlığın tarixini əks etdirir. Bütün mövcud problemlər dəyər problemidir.

Dəyər (dəyər vermək, dəyərləndirmək) anlayış və ifadə olaraq dolğun bir məzmundur və istənilən bir şeyə (konkret və mücərrəd olan bir şeyə) verilən fərqləndirici müsbət (yəni dolğun və yüksək tərkibli) qiymətdir. “Dəyər müəyyən bir elementə təsirdə, qarşılıqlı təsirlərdə faydalılığın müəyyən olunmasıdır. Faydalılığın əsasıdır. Faydalılıq da müəyyən məqama və şərtə əsaslanır. Dəyərlərin dərəcələnməsi müqayisə predmetinə və kriteriyasına əsaslanır. Faydalılığın dərəcəsi dəyərlərin dərəcəsini meydana gətirir. Dəyər müəyyən bir şeyin lazımlılığı və vacibliyidir. Buna görə də hüquq lazımdır və insanların bir-biriləri ilə münasibətlərini tənzim edir. Hüquq tənzim vasitəsinə çevrilir və bir etalon (ölçü, qiymətləndirici müqayisə kateqoriyası) rolunu ifadə edir. Tənzimləmə dəyərdir, bu baxımdan da hüququn dəyərinin bazasında dayanır”[5,s.57]. Tənzimləmə normaları hüquq normalarını meydana gətirir. Tənzimləmə də əlaqələr və ümumilikdə həyat üçün çox vacibdir və həyat demək olar ki, tənzimləmə olmadan strukturlu və sistemli qaydada təmin oluna bilməz. Dəyərlər həm obyektlərdə, həm də obyektlərdən asılı olmayaraq ayrı-ayrılıqda mövcud ola bilər. Dəyərlər haqqında bilik sevgi və ya nifrət hissinə əsaslanır. Onlar əhəmiyyətli və davamlıdırlar. Dində ən yüksək dəyər Allah sevgisidir. Beləliklə, müasir fəlsəfənin müxtəlif cərəyanlarında dəyərlərin mahiyyəti birmənalı başa düşülmür. Burada müxtəlif nöqteyi-nəzərdən fikirlər mövcuddur: a) dəyər dedikdə müəyyən faydaya malik olan və insanın bu və ya digər tələbatını ödəməyə qadir olan obyekt; b) dəyər ideal kimi (fransızca - nümunə, mükəmməl bir şey, istəklərin ali məqsədi); c)

dəyər - norma kimi (lat. norma - rəhbər prinsip, qayda, nümunə) başa düşülür. Bütün dəyərlər 1) daşıyıcıya görə; 2) varlıq formasına görə iki böyük sinfə bölünür. Subyektə, yəni, daşıyıcıya görə dəyərlərin iki növü ola bilər: a) fərdüstü (qrup, milli, sinif, peşəkar, demoqrafik, spesifik və s.); b) fərdi, subyektiv-şəxsi. Fəlsəfənin əsl sualı fərdi və fərdi dəyərlər arasındakı əlaqəni aydınlaşdırmaqdır. Birincisi, ilk növbədə nə gəlir - fərdi, yoxsa sosial dəyərlər? İkincisi, nədən çıxır - fərd ictimaidən, yoxsa ictimai fərddən? Bununla belə, əksər filosoflar bu sualların çox uzaq olduğunu düşünürlər. Sosial dəyərlər fərdin şüuruna əvvəlcədən müəyyən edilir: "a) onlar doğulmamışdan əvvəl formalaşır və mövcuddur, b) ölümündən sonra da varlığını davam etdirir. Bu mənada onlar şəxsiyyət üçün şəxsiyyətə təsir edən və onun özəyini təşkil edən obyektiv reallıq kimi çıxış edirlər. Ona görə də şəxsiyyətüstü dəyərlər şəxsiyyətin formalaşmasında birinci yerdədir, onun sosial mühitə uyğunlaşmasına, cəmiyyətdə müəyyən yer tutmasına kömək edir" [7]. Beləliklə, sosial dəyərlər insan tərəfindən sosiallaşma prosesində əldə edilir. İdeallar, normalar, vasitələr və məqsədlər fərdin dəyərləri kimi çıxış edərək, onun dəyər yönümləri sistemini, şüurunun nüvəsini təşkil edir və hərəkətlərinin və əməllərinin təkanını təşkil edir. Lakin şəxsiyyətin formalaşması sosial qruplar, onların özünəməxsus dəyərlər toplusu olan icmalar çərçivəsində baş verir. Ona görə də insan öz ideallarını və dəyərlərini bölüşməyə, yaxud güzəştə getməyə məcbur olur. Nəticə etibarı ilə, fərdi dəyərlər fərdin fərdi və həyat təcrübəsinin təsiri altında formalaşır. Müəyyən hadisələrin dəyər kimi qəbul edilib-edilməməsindən asılı olmayaraq, fərdüstü dəyərlər həmişə fərdin davranışına təsir göstərir. Dəyər sistemi haqqında fikirlər fərdin dəyər yönümlərini təşkil edir. Dəyər yönümləri gücləndirilir və fərdin həyat təcrübəsi və təcrübələrinin məcmusu ilə xarakterizə olunur.

Varlıq formasına görə bütün dəyərlər iki növ ola bilər: a) maddi (məqsəd); b) ideal (mənəvi) dəyərlər. Maddi (obyektiv) dəyərlərə insan cəmiyyətində konkret şeylər, hadisələr şəklində mövcud olan təbii, sosial nemətlər, mədəni irs, dini ibadət obyektləri və s. aiddir. Obyektiv dəyərlər cəmiyyət üzvlərinin kamillik ideyalarına uyğun gələn məqsədyönlü fəaliyyətinin məhsuludur. Onlar həmişə insanın ehtiyac və maraqlarının obyekti kimi çıxış edirlər. İdeal (mənəvi) dəyərlər xeyir və şər, gözəl və eybəcər, ədalətli və ədalətsiz haqqında normativ fikirlər şəklində ifadə olunan sosial ideallar, münasibət və qiymətləndirmələr, norma və qadağalar, məqsəd və layihələr, standartlar, qanuni və qeyri-qanuni və s. fəaliyyət prinsipləridir. Mənəvi dəyərlər həmişə ikili funksiyanı yerinə yetirir: birincisi, onlar müstəqil dəyərlər sahəsidir; ikincisi, onlar subyekt dəyərlərini qiymətləndirmək üçün meyar kimi çıxış edirlər. Mənəvi dəyərlər: " a) məzmunca; b) yerinə yetirilən funksiyalara görə; c) onların həyata keçirilməsinə olan tələblərin xarakterinə görə fərqlənən dəyərlər ola bilər: birincisi, insanların fəaliyyətinin sərt kodlaşdırma məqsədləri və metodları (standartlar, qaydalar, qanunlar və s.), ikincisi, daha çevik, mədəniyyət alqoritmi şəklində fəaliyyət göstərən, dəyərlərin həyata keçirilməsində azadlığı təmsil edən normalar, zövqlər, ideallar və s. mövcuddur. Norma, vahid və sabit şərtlərlə diktə edilmiş optimal və məqsədəuyğun fəaliyyət ideyasıdır. Normalara aşağıdakılar daxildir: 1) hərəkətlərin vahidliyi forması; 2) digər davranışlara qadağa; 3) verilmiş sosial şəraitdə hərəkət üçün ən yaxşı variant (nümunə); 4) fərdlərin davranışının qiymətləndirilməsi, normadan mümkün kənara çıxmalara qarşı xəbərdarlıq"[7]. Normativ tənzimləmə insan fəaliyyətinin və münasibətlərinin bütün sisteminə nüfuz edir. Normaların həyata keçirilməsinin şərti aktın ictimai təsdiqini və ya pislənməsini nəzərdə tutan onların gücləndirilməsi sistemidir. İdeal mükəmməlliyin ən yüksək standartı ideyasıdır. Strateji məqsədlərin müəyyən edilməsində vektor rolunu oynayan tənzimləyici funksiyanı yerinə yetirir, bunun həyata keçirilməsi üçün bir insanın bütün həyatını həsr etməyə hazırdır. İdeal fərdin şüurunda formalaşır və mənəvi dəyərlərin cəmləşmiş ifadəsidir.

İnsan fəaliyyətinin maddi və mənəvi motivləri arasında olan fərqlilik, başqa sözlə deyilsə, sonuncunun spesifik və özünəməxsus xarakteri onu dəyər şüurunun bilavasitə meyarına çevirir. Həmin fərqlilik əsas etibarilə aşağıdakılarda təzahür edir: 1. Öz həcminə görə maddi nemətlər məhduddur, müəyyən qismi, hissəni əhatə edir. Mənəvi dəyərlər isə hüdudsuzdur, əhatə dairəsinə görə isə ümumidir; 2. Maddi mənbələr istehlak olunduqda tükənir, mənəvi mənbələr isə daha da inkişaf edir; 3. həyata keçirilməsi üsullarına görə maddi istehsal şəxssiz xarakter daşıyır, mənəvi istehsal isə personifikasiyalıdır; 4. Öz təyinatına görə maddi fəaliyyət bilavasitə nəticə əldə etməyə yönəlmişdir, mənəvi fəaliyyət ilə son nəticə arasında bu cür sıx bağlılıq yoxdur; 5. Öz nəticələrinə görə maddi istehsal sırf istehsal naminə həyata keçirilir və ona görə də reproduktivdir, mənəvi istehsalda produktivlik,

yaradıcı xarakter daha güclüdür; 6. Fəaliyyətin tərkib hissələrinin roluna görə maddi fəaliyyətdə maddi nemətlərə sahib olmaq əsasdır, mənəvi fəaliyyətdə isə yaradıcılıq daha üstündür; 7. Öz kəmiyyətinə (miqdarına) görə maddi nemətlər toplanılır, yığım funksiyası yerinə yetirir, mənəvi nemətlər toplanılmır, daha çox mədəniyyət səviyyəsində təcəssüm edir; 8. Öz keyfiyyətinə görə maddi nemətlər istehlakçıdan özgələşir, mənəvi nemətlər isə istehlakdan özgələşir, maddi sferada əmək sərfi mənəvidəkinə nisbətən daha çox məcburi xarakterlidir [10,c.58]. İnsanların sosiallığının və onunla birlikdə həyatlarının dəyərlərlə tənzim olunmasının mənşəyini, onların aqressiv təbiətinin azalması və insanın zoologizmi ilə izah etmək olmaz. Belə mövqe məntiqi cəhətdən özünü doğrultmur, başlıcası isə cəmiyyətin və dəyərlərin anlaşılmasında heç bir irəliləyiş yaratmır. Əsas məsələ heyvanlardan fərqli olaraq insanlarda dəyərləndirici – humanitar keyfiyyətlərin, vicdan hissinin olmasıdır.

Müasir mərhələdə fəlsəfi fikrin dəyərlər problematikasına dərindən nüfuz etməsi nəticəsində onun yeni-yeni evristik və dünyagörüşü xarakterli məqamları aşkar edilir. Dəyərlər kateqoriyası son dövrlərdə aparılan fəlsəfi, etik və sosioloji tədqiqatlarda geniş yer tutmaqdadır. Bununla yanaşı göstərilməlidir ki, dəyərlərin nəzəri mənalandırılması ilə bağlı bir sıra problemlər hələ də həll olunmamış qalır. Onların sırasında aşağıdakılar xüsusi yer tutur: fəlsəfi kateqoriyalar sistemində dəyərin elmi statusunun müəyyən edilməsi; şəxsiyyətin fəaliyyət və davranışında aksioloji səpginin ifadə olunması mexanizmi; şəxsiyyətin təbiətinin dərk olunmasında dəyərlərin rolunun araşdırılması; şəxsiyyətin çoxpilləli aksioloji funksiyalar sistemi kimi anlaşılması; şəxsiyyətin formalaşmasının və aksioloji baxımdan təkmilləşməsinin sosioloji və psixoloji mexanizmlərinin aşkara çıxarılması və s. Yuxarıda göstərilən mülahizələrdən çıxış etməkdə qarşıda bir-birilə sıx əlaqəli iki əsas vəzifə durur: a) genetik və struktur – funksional baxımdan şəxsiyyətin aksiologiyası ilə bağlı əsas problemləri təhlil etmək; b) şəxsiyyəti öz mahiyyətinə və onun təzahür formalarına görə aksioloji fenomen kimi araşdırmaq. Qeyd etmək lazımdır ki, şəxsiyyəti aksioloji varlıq kimi araşdırmaq, onun hərtərəfli və dərin elmi nəzəri modelini yaratmaq üçün son dərəcə vacibdir. Bununla əlaqədar olaraq ilk növbədə aksiologiyada mərkəzi yer tutan dəyər anlayışının mahiyyət və məzmununu açmaq tələb olunur. Bu fikri bir qədər də konkretləşdirsək, onda deyə bilərik ki, söhbət aşağıdakı məsələlərdən gedir: varlığın real, ontoloji təbiətli fenomeni kimi dəyərlərin təbiəti və mənşəyinin araşdırılması, dəyər anlayışının məzmununa dair elmi-fəlsəfi ədəbiyyatda söylənilən müddəaların təhlil edilib dəqiqləşdirilməsi, onun strukturunun və şəxsiyyətin anlaşılmasında oynadığı rolun tam dolğunluğu ilə aşkar edilməsi, dəyərlərin real varlıqda fəaliyyətinin sosioloji və psixoloji ilkin şərtlərinin müəyyənləşdirilməsi. Yuxarıda qeyd olunduğu kimi, dəyərlər iki növə ayrılır: predmet dəyərləri və subyekt dəyərləri. Birincilər ətraf aləmdəki obyektləri xeyir və şər, həqiqət və yalan, gözəl və eybəcər, ədalətli və ədalətsiz kimi qiymətləndirir. İnsanların maddi və mənəvi fəaliyyətinin bütün predmetləri, ictimai münasibətlər və onlarla əlaqəli olan təbiət hadisələri bu qrupa aiddir. Burada əsas meyar həmin obyektlərin insan üçün müsbət əhəmiyyət kəsb etməsi və onun tələbatlarını ödəməsidir. Subyekt dəyərləri isə insanların fəaliyyəti və davranışının orientləri və meyarları rolunu oynayır. Dəyərləri - məqsəd dəyərlərə (yüksək mütləq dəyərlər) və vasitə dəyərlərinə (ikinci dərəcəli, alət rolunu oynayan dəyərlər), habelə maddi və mənəvi növlərə bölən təsnifatlar da mövcuddur. Bundan əlavə, qnoseoloji dəyərləri (həqiqət, elmilik), etik dəyərləri (xeyirxahlıq, ədalət), estetik dəyərləri (gözəllik, ülvilik) və dini dəyərləri də bir-birindən fərqləndirirlər. Qeyd etmək lazımdır ki, dəyərlərin yuxarıda göstərilən tipologiyası xeyli dərəcədə nisbi xarakter daşıyır. Çünki onlar bu və ya digər meyar, əlamət üzrə aparılır. Odur ki, onları bir-birindən ayrılıqda deyil, sıx əlaqədə götürmək tələb olunur. Deyilənlərlə yanaşı, nisbi xarakter daşımayan, mütləq mahiyyət kəsb edən dəyər də vardır. İnsan və onun həyatı belə dəyərdir. Müasir cəmiyyətin həyat fəaliyyətində dəyərlərin rolu aşağıdakı funksiyalarda çıxış edir: oriyentasiyaedici, motivləşdirici və tənzimləyici. Dəyərlərin təşəkkülü prosesində insanların mənafeləri çox böyük rol oynayır. Deyilənlərdən aydın olur ki, dəyərlərin təbiəti və mahiyyətinin özəyində belə bir fikir dayanır: hər bir insan dünyaya dəyərləndirici münasibət bəsləyir ki, o da iki tərəfdən (predmet dəyərləri və subyekt dəyərləri) ibarətdir. Dəyərlərin mahiyyəti və ontoloji əsaslarının təhlili aşağıdakı nəticələrə gətirir çıxarır:“1. Şəxsiyyətin kompleks və hərtərəfli fəlsəfi təhlili onu aksioloji baxımdan araşdırmağı zəruri edir, çünki onun idraki və dəyişdirici fəaliyyəti qiymətləndirmədən ayrılmazdır. Ətraf aləmin bütün obyektləri və hadisələri şəxsiyyət üçün həm də dəyərlər dünyası kimi çıxış edir. Dəyərlilik maddi və mənəvi mədəniyyət

hadisələrinin ictimai mahiyyətini, onların cəmiyyətdə yerinə yetirdiyi sosial funksiyaların çox mühüm göstəricisidir. 2. Dəyərlər müəyyən konkret ictimai münasibətlər və ünsiyyət formaları çərçivəsində insanların ictimai praktikası və fərdi fəaliyyəti əsasında yaranır və dinamik xarakter daşıyır. Onların formalaşmasına və inkişafına konkret şəxsiyyətin həyat təcrübəsi və malik olduğu biliklər səviyyəsi güclü təsir göstərir. 3. Bütövlükdə götürdükdə dəyərlər insanın mövcudluğunu əhatə edən bioloji, sosial və psixoloji amillərin məhsulu kimi çıxış edir. Hər bir şəxsiyyətdə bu tərəflərin əlaqəsi fərdi qaydada, başqalarında olduğundan fərqli şəkildə olur. Bu məqam dəyərlərə özünəməxsusluq, şəxsiyyət xarakteri verir. Əlbəttə, deyilənlər dəyərlərin ümumbəşəri məzmununu inkar etmir. Əksinə, ümumbəşəri və fərdi dəyərlər bir-birilə sıx əlaqədə və qarşılıqlı təsirdədir. 4. Dəyərlər insan varlığının spesifik fenomenləridir [6, s.360]. Bu mənada bəşəriyyətin inkişafına dəyərlər dünyasının tarixi təkamülü prosesi kimi baxmaq olar. Cəmiyyət inkişaf edib dəyişdikcə, ona müvafiq olaraq dəyərlər də özünün mütəhərrik və dinamik xarakterini üzə çıxarır. Bu fikir, demək olar ki, bütün dəyərlərə (xeyirxahlıq, həqiqət, gözəllik və s) aiddir. Lakin dəyərlərin dəyişkən xarakteri onların məzmununda stabil və nisbi sabit tərəfin olduğunu inkar etmir.

**Açar sözlər:** *dəyər kateqoriyası, aksiologiya, fəlsəfi aspekt, dəyərləndirmə, qiymətləndirmə, sosiallaşma, dəyər oriyentasiyası, dəyərlərin daşıyıcılıq və varlıq formaları.*

## ƏDƏBİYYAT SİYAHISI:


*1. Archie J.Bahm. Axiology: The Science of Values. Editions Rodopi B.V., Amsterdam-Atlanta,GA1003. books.google.az/books?id =bl&ots=j85c*

*2. Barett Irational Man. A. Study in existensial Philosophu N.V. 1989, 314 p.*

*3. Ильин И.А. О сущности правосознания. Подготовка текста и вступительная статья И. Н. Смирнова. - Москва: «Рарогъ», 1993.*

*4. Нахчиванлы А. Этика и политика: история и современность. - Баку: Азербайджан Милли Энциклопедиясы, 2000. -304 с.*

*5. Nəsibov E.M.. "İnsan hüquqları" anlayışının dərk olunmasında fəlsəfi-məntiqi (formal (ənənəvi-klassik) və dialektik məntiq) metodlar. Dərketmənin aksioloji və epistemoloji əsasları. III kitab.- Bakı, "Elm və Təhsil" nəşriyyatı - 2014, - 144 səh.*

*6. Rzayev M.Müasir şəxsiyyət (sosial-fəlsəfi təhlil).- Bakı: MBM, 2015, -534 s.*

*7. Философия ценностей// https://www.ektu.kz › files › Resource*

*8. Философская энциклопедия. Главный редактор: Ф. В. Константинов..В 5-ти томах. т.3,- Москва: Советская энциклопедия, 1964, -584с.*

*9. Ценность. Философский словарь/статья/3-философия-ценностей/48- ценность // http://www.harc.ru/slovar/2412.html*

*10. Четвернин В.А. Демократическое конституционное государство: введение в теорию. / Четвернин В.А. - Москва.: Изд-во ИГиП РАН, 1993. - 141 с.*


**Nuray Qiblalieva**

**PHILOSOPHICAL NATURE AND TYPOLOGY OF THE VALUE CATEGORY**

**Summary**

In the article, the nature and typology of the category of value was investigated from the axiological-philosophical aspect. At the same time, values were studied in the context of mutual relations of evaluation, assessment, and socialization. Approaches to values, value orientation, the classification of values in terms of their carrier and existence forms have become the object of research.

**Keywords:** *value category, axiology, philosophical aspect, evaluation, assessment, socialization, value orientation, forms of value carrier and existence.*

**Нурай Гиблалиева**

**ФИЛОСОФСКАЯ ПРИРОДА И ТИПОЛОГИЯ ЦЕННОСТНОЙ КАТЕГОРИИ**

**Резюме**

В статье природа и типология категории ценности исследованы с аксиолого-философского аспекта. При этом ценности изучались в контексте взаимоотношений оценивания и социализации. Предметом исследования стали подходы к ценностям, ценностная ориентация, классификация ценностей по их носителю и формам существования.

**Ключевые слова:** *ценностная категория, аксиология, философский аспект, оценка, оценивание, социализация, ценностная ориентация, формы ценностного носителя и существования.*

UOT 18

# QEYRİ-KLASSİK ESTETİKA VƏ ESTETİK İDEAL

**RAHİLƏ CƏFƏROVA**
*ADPU-nun Sosial elmlər kafedrasının müəllimi*
*rahila.60@mail.ru*

Bədii yaradıcılıqda və onun fəlsəfi-estetik dərkində başlanan bu yeni mərhələnin mənbəyində bəşəriyyətin ictimai-sosial varlığında gedən inqilabi dəyişikliklər durur. Zahirən elm və texnika əsri təsiri bağışlayan XIX əsrin ortalarından zəkanın qüdrətinə şübhə yaranmağa başlayır, fəlsəfədə köklü dəyişikliklər baş verir, xüsusən qnoseologiya insan idrakına yeni-irrasionalizm mövqeyindən yanaşmağa başlayır. Bu baxışa görə insanın davranışını və cəmiyyətin inkişafını zəka deyil, iradə, inam, hisslər, instinktlər müəyyən edir.

Estetika və sənətşünaslıqda bu Aristoteldən qaynaqlanan, Yeni dövrdə Bualo-Lessinq estetik təlimində müdafiə və təbliğ olunan klassik estetik idealdan uzaqlaşmaqda, yeni ictimai və mənəvi varlığın daha adekvat dərki tələbində özünü göstərir, müxtəlif bədii-estetik cərəyanların yaranmasında əksini tapırdı.

XIX əsrin ortalarında həm real bədii praktikada, həm də onun nəzəri-estetik dərkində bədii yaradıcılığın yeni estetik prinsiplərinin formalaşması açıq-aşkar hiss olunmağa başlayır. Yeni bədii praktikanın özünəməxsusluğu bundadır ki, onun subyektləri-yazıçılar, şairlər, rəssamlar, heykəltəraşlar, bəstəkarlar daha estetik biliklərin daxili vəhdətə malik fenomen kimi universal sistemlərdə təcəssümünə üstünlük vermirlər. Məsələn, gözəllik anlayışı onların nəzərində artıq incəsənətin sinonimi deyil. Halbuki antik dövrdə, Renessans (intibah) estetikasında, alman klassik fəlsəfəsində gözəllik kateqoriyası bədii yaradıcılığın başlıca və yeganə meyarı idi.

Təbii ki, bu bizdə heç də belə təsəvvür yaratmamalıdır ki, qeyri-klassik estetikanın nümayəndələri incəsənətdə gözəllik idealından tamamilə uzaqlaşırdılar. Onlar sadəcə olaraq real həyatda hər şeyi yalnız xalis gözəllik qiyafəsində görməyi sənət üçün qəbuledilməz sayır, hesab edirdilər ki, həyatı tam rasional ölçülərdə, sırf məntiqi parametrlərdə dərk etmək düzgün deyil, hətta klassik estetikadan xeyli dərəcədə uzaqlaşan romantik və ya sentimental ideal da gerçəkliyi olduğu kimi əks etdirmir, odur ki, bədii yaradıcılıq insan varlığının konkret reallıqlarına diqqət yetirməlidir. Bu axtarışların məntiqi nəticəsi olaraq, estetik təfəkkürdə və bədii yaradıcılıq prosesində ciddi transformasiya baş verir: bədii yaradıcılığın metod və metodologiyası dəyişilir, idrak prosesində rasionalizmə əsaslanan klassisizm qeyri-klassik estetika tərəfindən sıxışdırılmağa başlayır.

Klassisizmdən fərqli olaraq qeyri-klassik estetika artıq zəkaya deyil, irrasionallığa, iradəyə, həyati instinktlərə üz tutur, sənət sahibləri klassisizmdə olduğu kimi obyektivliyə deyil, daha çox subyektivliyə əsaslanmağa çalışırlar. Klassik fəlsəfənin mövqelərinin sarsılması, qeyri-klassik adı altında ümumiləşdirilən müxtəlif fəlsəfi təlimlərin yaranması bədii yaradıcılığın metodologiyası və metodlarının, üslublarının da əsaslı surətdə dəyişməsinə geniş meydan açır, bir-birinin ardınca realizm, naturalizm, impressionizm, simvolizm, modernizm, postmodernizm, sürrealizm, ekspres-sionizm, ekzistensializm və s. estetik məktəblər, bədii cərəyanlar, onların nəzəri sistemləri yaranır, bədii yaradıcılıqda plüralizm bərqərar olur, hər birinin öz estetik idealı formalaşır.

Bu sırada ənənəvi klassisizmə, onu sıxışdıran romantizmə və sentimentalizmə alternativ bədii cərəyan kimi realizm metodu dünya bədii mədəniyyəti tarixində müstəsna yer tutur. Romantizmin subyektivliyinin əksinə olaraq, realizmdə obyektivləşmə əsas qəbul edilir, bədii yaradıcılığın belə bir prinsipi əsas götürülür ki, estetik ideal özünü real gerçəklikdə axtarmalıdır, sənətkar gerçəkliyin səsini dinləməli, necə dəyərlər, "ilkin mənbəni" əsas götürməlidir. Bununla belə, yeni bədii şüurun xarakteristikasını, XIX əsrin birinci yarısında bədii yaradıcılığın estetik ölçülərinin mahiyyətini dərk etmək üçün romantizmlə realizmin ümumi cəhətlərini də görmək lazımdır. Bu ümumiliyi isə reallığın məna və qanunlarının müəllifin dünyaqavrayışına uyğun bədii şərhində tapa bilərik.

Realizm bədii idrak metodu kimi XIX əsrin 20-30-cu illərində formalaşmağa başlamış, xüsusən tənqidi realizm adlanan istiqaməti sürətlə inkişaf etmişdir. Bu, Stendal (Anri Mari Beyl), Onore de Balzak, Qustav Flober, Emil Zolya və b. yaradıcılığında özünü daha qabarıq göstərir: onlar sosial inkişafın ziddiyyətlərini cəsarətlə açıb göstərmişlər.

Fransız tənqidi realizmi Stendalla başlayır, onun

ilk mərhələsini təşkil edir. Əsasən musiqiçilərə həsr etdiyi ilk əsərlərində idealist estetikaya, bədii ehkamlara, epiqonçu klassisizmə qarşı çıxmış, incəsənətin ictimai vəzifəsini, realizmi, təbiiliyi və həyatiliyi müdafiə etmiş, həyata müstəqil baxışın, onu olduğu kimi, boyasız ifadə etməyin tərəfdarı olmuşdur. Stendalın estetik idealı onun "İtaliya rəssamlığının tarixi" (1817) əsərində maraqlı, özünəməxsus şəkildə ifadəsini tapmışdır. O yazırdı ki, dünyanı inqilab bürümüşdür, dünyamız bir daha nə antik respublikaya, nə də XIV Lüdovik monarxiyasına qayıdacaqdır. Bu siyasi amal onun sənətdə də estetik mübarizəsinin çox mühüm ilkin şərti olmuşdur. Əgər dünyanı inqilab bürüyübsə, əgər daha keçmişə qayıdış yoxdursa, onda gözəlliyin başa düşülməsində, incəsənətin sosial qayəsinin müəyyənləşdirilməsində də yeni tarixi şəraitdən çıxış etmək lazımdır. Bu səbəbdən o, incəsənətin tarixiliyi metoduna bədii yaradıcılığın mühüm prinsipi kimi yanaşırdı. Onun fikrincə, hər bir yeni tarixi dövrdə həm gözəllik anlayışı, həm də sənətkar mövqeyi dəyişir, onun fəaliyyəti yeni sosial əhəmiyyət kəsb edir, onun dəyəri ictimai həyatda iştirakı ilə ölçülür. Fransız yazıçısı klassisizmin böyük nöqsanını bunda görürdü ki, bu cərəyanın tərəfdarları bizə yenidən inqilabdan əvvəlki incəsənətin köhnəlmiş estetik prinsiplərini təqdim edirlər, ona görə də vaxtını keçirmiş estetik zövqlər labüd olaraq məhv olmalı idi. Özünün estetik təlimində Stendal həqiqəti mühüm bədii-estetik meyar saymışdır. Sonrakı əsərlərində, xüsusən "Qırmızı və qara" romanında (1831) Stendal müasiri olduğu cəmiyyətin mənəvi çürüklüyünü, yenilik uğrunda mübarizəni əks etdirməklə humanist ideallara rəğbətini bildirir. Fransız və dünya realizminin görkəmli nümayəndəsi Balzak onun yaradıcılığını yüksək qiymətləndirmiş, estetik məktəbini davam etdirərək daha yüksək səviyyəyə qaldırmış, bədii ədəbiyyatı əsl cəmiyyətşünaslığa çevirə bilmişdir.

Balzak sözün əsl mənasında dövrünün reallıqlarını sosioloq kimi dərk etmək qabiliyyətini nümayiş etdirmişdir. O, hesab edirdi ki, burjuaziyanın gündəlik həyat idealları maskalanmışdır, ifrat şəkil almış təmənna və fərdiyyətçilik riyakar hisslərlə pərdələnmişdir, buna görə bədii yaradıcılıqda real həyatın obyektiv təsvirinə imkan vermir. Gerçək ictimai ideal axtarışı Balzakı tənqidi realizmə gətirib çıxarır, 1841-ci ildə "Bəşəri komediya" adı altında cəmləşdirdiyi 90 əsərində Fransa cəmiyyətinin mənəvi-estetik idealının obyektiv mənzərəsini verməyə çalışır, "yuxarılar" və "aşağılar" arasında uçurumu təsvir etməklə sosiumda hökm sürən ziddiyyətli harmoniyanı, insan idealının təzadlarını aşkara çıxarır. Bu, klassisizmi inkar edən Yeni dövrün, bədii sənətin yeni ictimai idealı idi. Bədii yaradıcılığın sosial təbiətini xüsusi qeyd edən Balzakın fikrincə, incəsənət insana, bəşəriyyətə xidmət etməlidir, bütün dövrlərdə insanpərvərlik səviyyəsində durmalıdır.

Realizmin vətəni olan Fransanın heç də bütün realist sənətkarları bu bədii-estetik metoda birbaşa keçməmiş, bir müddət həmin dövrdə hələ güclü təsirini saxlayan romantizm üslubu ilə başlamışlar. Floberin estetik idealının formalaşması buna bariz nümunədir. Floberin fikrincə, yaradıcılıqda estetik idealın mühüm funksiyası bədii obrazın maksimum həyatiliyinə və həqiqiliyinə nail olmaqdır; incəsənətin, bədii yaradıcılığın yüksək nailiyyəti heç də gülüş doğurmaq, yaxud göz yaşı axıtmaq, ehtiras, yaxud qəzəb oyatmaq deyildir, əksinə, insanın ümdə arzularını oyatmaqdır, necə ki, bunu təbiət edir. Lakin insanların bir çoxunun maraqları və arzusu o qədər mənasız və ikrahedicidir ki, müasir dövrü bədii yaradıcılıqda yalnız bayağı süjetlərlə təsvir etmək lazım gəlir. Bu onu realizm sənətinə gətirib çıxarmışdır. Yetkin Floberin əqidəsincə, bədii yaradıcılığın başlıca qayəsi onun mötəbərliyi olmalı, sənətkar öz "Mən"ini əsərə daxil etməməli, öz yaradıcılığında görünməməli, necə ki, təbiətdə Allah gözə görünmür, onun subyektiv "Mən"ini gözlə görmək yox, hər yerdə hiss etmək lazımdır. Yazıçı bədii əsərdəki subyektiv məqamları "romantik" metoda aid edir, realist sənətkardan tələb edirdi ki, öz yaradıcılığında təsvir etdiyi hadisələrə "təbii elmi" yanaşsın. Onun obyektiv üslubu portret xarakteristikasını, hiperbolizasiyanı inkar edir. Bu, ümumiyyətlə yeni dövrün bədii yaradıcılığının estetik prinsiplərindən biri kimi təqdim olunur, yeni estetik idealın mahiyyətini müəyyən edirdi.

Floberin dünyagörüşü və estetik prinsipləri özünün tam təcəssümünü "Xanım Bovari. Əyalət əxlaqı" (1857) əsərində tapmışdır. Əsərin kompozisiyası elə qurulmuşdur ki, burada cərəyan edən hadisələr oxucuları dövrün estetik zövqünü qiymətləndirməyə imkan verir. O, estetik görüşlərində belə bir mühüm cəhəti əsaslandırırdı: forma ideyaların "üst paltarı" deyildir, onun "bədənidir", ideya isə formanın "canı", "həyatıdır". Üslub sənətkar üçün "düşünmək" vasitəsidir, ona görə də üslub üzərində işləmək əslində əsərin estetik məzmununu, onun estetik idealını formalaşdırmaqdır. Yeni incəsənətin

vəzifəsi fikrin sirrini öyrənməkdir.

Bu baxımdan Zolyanı dövrünün estetik ovqatını daha həssas duyan yazıçı hesab etmək olar. Zolya hesab edirdi ki, yazıçılar, sənət adamları da səliqəli fəhləyə bənzər varlıqlardır, fəhlələr binanı diqqətlə yoxlayır, çürümüş taxtaları, daxili çatları, laxlamış daşları–yəni zahirən görünməyən bütün nasazlıqları üzə çıxarırlar, çünki bunları vaxtında görmədikdə bina məhv ola bilər. Dünya şöhrəti qazanmış "Ruqon-Makkari. İkinci imperiya dövründə bir ailənin təbii və sosial tarixi" romanlar silsiləsində Zolya bir ailənin timsalında irsin və mühitin insan taleyinə göstərdiyi təsiri təsvir etmişdir. Amma burada ənənəvi qaydada başa düşülən realizmdən naturalizmə keçid özünü göstərir. Naturalizm estetikasının prinsiplərinə uyğun olaraq o, həmçinin aşağı sosial təbəqələrin həyatının təsvirini özünün yaradıcılıq idealı hesab etmişdir. Naturalist estetikanın nəzəriyyəçisi kimi eksperimental roman konsepsiyasını irəli sürmüş, hesab etmişdir ki, naturanı öyrənmək yalnız alimin deyil, həmçinin yazıçının metodu olmalıdır. Ümumən realizmin təsiri bağışlayan naturalizmin estetik ideal baxımından ciddi qüsuru bu idi ki, naturalist sənətkarlar ümumiləşdirmə və tipikləşdirməyə ciddi yanaşmır, öz personajlarının psixoloji aləminin açılması məsələsini ön plana çəkirlər. Onlar insanın əxlaqi dəyərlərinin köklərini irsi aləmdə, yaxud sosial mühitdə axtarırlar. Bu səbəbdən də həmin cərəyana mənsub olan sənətkarlar öz müəllif mövqelərini bildirməkdən, əxlaqi qiymətləndirmədən çəkinirlər.

Realizm estetikasının daha bir törəməsi XIX əsrin 70-80-ci illərində həmin Fransada yaranaraq başqa ölkələrin incəsənətinə də sirayət edən impressionizmdir. Daha çox rəssamlıq və qismən heykəltəraşlıqda özünü göstərən bu cərəyan özündən əvvəlki realizmin davamı olmuş, insanın təbiətlə vəhdəti onun başlıca idealını təşkil etmişdir. Elə "təəssürat" mənasını verən "impressionizm" anlayışı da fransız rəssamı K. Monenin "Təəssürat. Günəşin doğması" mənzərə rəsminin adı ilə bağlıdır. Digər fransız boyakarları O.Renuar, E.Deqa, K.Pissarro, A.Sisley, B.Morizo, heykəltəraş O.Rode və b. da impressionizm üslubunda əsərlər yaratmaqla sənətin bədii ifadə formalarını təzələyib zənginləşdirmiş, bədii ifadə vasitələri və humanist idealları ilə incəsənətin sonrakı inkişafına təsir göstərmişlər. XIX əsrin sonu-XX əsrin əvvəllərində onun davamı kimi meydana gələn postimpressionizmin nümayəndələri gerçəkliyin estetik dərkində daha bir addım atmış, bədii təfəkkür və estetik idealın çərçivəsini genişləndirməyə, həyatın ani təəssüratlarından uzunsürən maddi-mənəvi durumlarının təsvirinə çalışmışlar. P.Sezann, V.Van Qoq, P.Qogen, A. De Tuluz-Lotrek kimi görkəmli sənətkarlar bu estetik məktəbin nümayəndələridir.

Ümumiyyətlə, XIX əsr Avropa estetik fikri müxtəlif cərəyanların yaranması, artıq formalaşmış bədii metodların yeni estetik ideallara uyğunlaşdırılması baxımından da əlamətdardır. Mütərəqqi romantizm adını alan yeni cərəyan ənənəvi romantizmdən gerçəkliyin təsvirinə daha yaxın olması ilə fərqlənir. Bu bədii-estetik metodun ən görkəmli nümayəndəsi V.Hüqodur. Onun bədii yaradıcılığında təsvir olunan həyat faktlarına tarixi yanaşma metodu üstün yer tutur. Hüqoya görə, bədii yaradıcılıqda ifrat qütblü dəyərlər ifadəsini tapmalıdır: xeyir və şər, eybəcərlik və gözəllik, komiklik və faciə. Gözəllik idealı, onun fikrincə, insanın təbii keyfiyyətini göstərmək, daxili aləmini açmaq, sosial idealını əks etdirməkdir, dövrümüzün əsl gözəlliyi isə təsvir keyfiyyətidir. İnsanın xarici harmoniyası hələ ideal varlıq təsəvvürünü yaratmır, başlıca məsələ insanın daxili aləmini olduğu kimi açmaqdır. Bu mənada bədii yaradıcılığın dəyəri heç də müşahidələrin fotoqrafik dəqiqliklə əks olunması ilə ölçülmür. Bir sözlə, bədii yaradıcılığın başlıca estetik qayəsi təkmil insan obrazını yaratmaqdır.

Ümumiyyətlə, XIX əsr incəsənətdə müxtəlif, bir-birinə zidd, bəzən isə bir-birini tamamlayan qeyri-klassik, irrasional fəlsəfi və estetik konsepsiyaların meydana gəlməsini şərtləndirmiş, bədii təfəkkür və estetik idealın tamamilə fərqli, müxtəlif məzmunlu dərkinə və incəsənətdə təcəssümünə ciddi təsir göstərmişdir. Bu baxımdan Artur Şopenhauerin estetika elmində yaratdığı estetik və fəlsəfi refleksiya xətti maraqlıdır. O deyirdi ki "Mənim fəlsəfəmi bir ifadə ilə formulə etmək olar: dünya-iradənin özünündəkidir"(1 s.96)Varlığın və insanın mahiyyəti probleminin tədqiqinə xüsusi diqqət yetirən Şopenhauer "Dünya iradə və təsəvvür kimi" əsərində göstərir ki, insanın təbiəti öz iradəsindən asılı vəziyyətdədir və bu, varlığın dərin sirlərinə nüfuz etməyə mane olur. Ona görə də insan mənasız qüvvə olan iradədən azad olmalıdır. Bu prosesdə incəsənətin rolu böyükdür, çünki o, çoxölçülüdür. İncəsənət, bir tərəfdən, bütün mövcudatın mahiyyətini üzə çıxarır, gizli ideyaları insan idrakı üçün əlçatan, digər tərəfdən fərdi iztirabdan azad edir, fərdi iradəsindən yüksəyə ucaldır, onun subyektiv iradəsini aradan qaldırmağa çalışır. Şopenhauer hesab edir ki, gerçəkliyin dərk

edilməsinə uyğun olan vasitə incəsənətdir, çünki incəsənətin əsl məqsədi gözəllikdir. Gözəllik obyektiv qavranılan fenomendir, lakin bu, elmi idrakdakı obyektivlikdən tamamilə fərqlidir, yəni subyektivlikdən, iradənin hökmündən azad bir şeydir. O bu mənada obyektiv seyrdir ki, belə halda xalis ideyalar dərk olunur. Əgər dünya bir təsəvvür kimi yalnız iradənin görüntüsüdürsə, incəsənət, bədii yaradıcılıq bu görüntünün izahıdır. O, predmetləri təmiz, aydın göstərərək, onları məcmu şəkildə daha yaxşı görməyə imkan verir. Şopenhauerin fikrincə, insan təbiətinə dərindən nüfuz edən bədii əsər gözəlliyi dərk etdirməklə cəmiyyətin eybəcərliklərini yaşamaqdan uzaqlaşdırır.

XIX əsrin digər görkəmli filosofu Fridrix Nitsşenin estetikasında yaradıcılığın mühüm prinsipləri olan Apollon və Dionisi fenomenləri universal xarakter daşıyır, çünki bunların sayəsində müxtəlif dövrlərin müxtəlif mədəniyyətlərini xarakterizə etmək mümkündür. Apollon incəsənətinin əsasında dünyanı nizama salmaq, onu daha anlaşıqlı etmək, deməli, onunla insanların ünsiyyətini artırmaq ideyası durur. Başqa sözlə, belə halda insan özünü elə hiss edir ki, sanki o, dünyanı əlinə alaraq idarə edir. Ümumiyyətlə, insanın dünya ilə münasibəti həmişə Xaosla Nizamın qarşılıqlı təsiri sayəsində təşəkkül tapır. Xaosu dərk etmək onu strukturlaşdırmaq, onu qarşılıqlı əlaqədə olan komponentlərin, aydın başa düşülən hisslərin sistemi kimi görmək arzusundan irəli gəlir. Nitsşenin əqidəsincə, buna yalnız insanın xülyalara can atmaq ehtirasını ifadə edən Apollon sənətinin bədii impulsları qabildir. Bununla yanaşı, Apollon tipli yaradıcılıq daim özünüaldatmadır, çünki o, insanı sonsuz dərəcədə qane etmək bacarığından məhrumdur, sadəcə olaraq, bu işin öhdəsindən gəlmək iqtidarında deyildir. Dionisi tipli yaradıcılığın estetik meyarları yeni xülyalar, yeni nizam yaratmır, çünki o, canlı stixiya incəsənətidir. Belə yaradıcılıq növünü seçmiş sənətkarların estetik idealı varlığın ənginliklərinə baş vurmaq, heç bir məhdudiyyətlə hesablaşmamaqdır. Nitsşenin fikrincə, Dionisi incəsənəti elə yaradıcılıq formasıdır ki, məhz o, dövrün müasir durumuna adekvatdır. Dionisi yaradıcılığına harmoniya yabançıdır. Buna görə də harmoniya varlığın elə bir stixiyalı girdabıdır ki, hər gün insanı bədbəxtliklər, sevinclər və iztirablar axınına cəlb edir. Bu baxımdan, alman filosofu Apollon tipli yaradıcılığın dünya ziddiyyətlərini əks etdirmək qabiliyyətinə şübhə edir. O əmindir ki, bunun öhdəsindən yalnız Dionisi tipli fenomen gələ bilər, çünki o, dünyanın mahiyyətini hadisələrdə deyil, hadisələrin o biri tərəfində aşkara çıxara bilir.

Beləliklə, Dionisi incəsənəti insanın qarşısında "varlığın ana ağuşuna" - bütün şeylərin əsasının əsası olan mahiyyətə yol açır, gizli vəziyyətlərin yaşantısına imkan yaradır. Onun fikrincə, gələcək incəsənətin taleyi dünyanın sirlərini aşkarlayan yaradıcılığın adekvat priyomlarının nə dərəcədə işlənib hazırlanmasından asılı olacaqdır. Təbiətinə görə pessimist olan Nitsşenin əqidəsincə, həyat elə qurulub ki, hər bir insanı son nəticədə məğlubiyyət gözləyir. Lakin insan bu taleyini cəsarətlə qarşılamalıdır. Buna görə də bədii yaradıcılığın ümdə vəzifəsi insanı xülya yuxusuna qərq etmək deyil, dünyanın ənginliklərinə nüfuz etməkdə ona yardımçı olmaqdır. Hər halda, incəsənətə belə fəlsəfi yanaşma yeni reallıqlarda bədii yaradıcılığın potensial imkanlarını axtarmağa stimul yaratmış, XX əsrdə yeni estetik axtarışlara təkan vermişdir.

Əvvəlki epoxalardan fərqli olaraq XIX əsrin sonu XX əsrin əvvəllərində bədii-estetik həyatının unikallığı bunda idi ki, nəzəriyyə sahəsində realizm və digər nikbin estetik ideallı bədii metodlarla bir vaxtda əks mövqedə duran dekadens (tənəzzül, düşkünlük) cərəyanı da meydana gəlmişdir. Bu anlayış altında birləşənlər "xalis sənət", "sənət sənət üçündür" prinsipini irəli sürərək, ictimai ideallardan tamamilə uzaqlaşırlar. Əgər realizm dünyanın obyektiv təsvirinə üstünlük verirdisə, ilk dəfə fransız simvolist şairlərinin yaradıcılığında təzahür edən tənəzzül təkcə bədii yaradıcılıq və estetik idealın böhranını deyil, həmçinin şəxsiyyətin dünyagörüşündə, əməli fəaliyyətində düşkünlüyü də ifadə edir, metodoloji baxımdan isə sənətkarın subyektiv yanaşma tərzini ön plana çəkirdi. Simvolizm bir növ romantizm ənənələrini davam etdirərək, subyektiv aləmi obyektiv aləmə qarşı qoyur, sənətkarın fərdi mövqeyini vacib sayır, qəhrəmanın mənəvi azadlığına, faciəvi hissə geniş yer ayırır, mənəvi dəyərlərə şübhə ilə yanaşırdı. Sənətkarın subyektiv aləmini simvollar–hissi qavrayışdan kənarda yerləşən ideyalar vasitəsilə açmaq, ifadə olunmayanı ifadə etmək simvolizmin başlıca estetik meyarı olmuşdur. Simvolizm bütün Qərbi Avropa ədəbiyyatlarında—Fransada S.Malarme və A.Rembo, Belçikada E.Verxarn, Almaniyada Q. Qauptman, İngiltərədə O.Ouayld və b. sənətkarların əsərlərində özünü göstərmişdir.

Azərbaycan ədəbiyyatında simvolizm cərəyan

kimi olmayıb, lakin XX əsrin əvvəllərində müəyyən əsərlərə öz təsirini göstərib. Məsələn, C.Məmmədquluzadə "Ölülər" pyesində simvolik ümumiləşdirmədən istifadə edib. Fanatizmə təslim olmuş müsəlmanlar mənəvi ölülük rəmzi kimi verilir. Bu, estetik ideyanın simvolik ifadə formasıdır. Hüseyn Cavidin "İblis" dramı da simvolik təsvir üsulu ilə yaradılmışdır. Əsərin adına çıxarılmış İblis obrazı şər məzmunun, neqativ idealın daşıyıcısı olan insanın simvolu kimi verilir. Simvolizm subyektiv aləmi açıb göstərməklə "gizli reallığın" sirlərini açmağa, mənəvi qayəsini üzə çıxarmağa çalışır.

Belə bir "gizli reallığı" təsviri sənətdə simvolizmədək impressionizm cərəyanı açırdı. Hər halda bu iki cərəyanın böyük xidməti bunda idi ki, onlar bədii yaradıcılıqda fərdi başlanğıcın imkanlarına müstəsna əhəmiyyət vermişlər. Təsadüfi deyildir ki, məhz impressionizm və simvolizm XX əsr incəsənətinə körpü atmışdır. Qeyri-klassik estetika (bəzən deyildiyi kimi, nonklassika) bütün XX əsr dövründə son inkişaf prosesində postmədəniyyət simasını almış, yəni ənənəvi mədəniyyətdən prinsipcə başqa bir fenomenə qlobal keçidlə nəticələnmişdir.

Beləliklə, qeyri-klassik fəlsəfə və estetikanın başlanğıcını qoyan XIX əsr, dünya mədəniyyəti tarixində bədii yaradıcılığın yeni tipinin təşəkkülü, bədiilik meyarlarının dəyişməsi, yeni tipli estetik idealın formalaşması dövrü kimi mühüm yet tutur.

**Açar sözlər:** *Qeyri klassik, estetika, estetik ideal, gözəllik, irrasionalizm, realizm, simvolizm, impressionalizm.*

## ƏDƏBİYYAT SİYAHISI:

*1. Bayramzadə E. Fəlsəfə. Dərs vəsaiti. Bakı: 2017, 216 s.*

*2. Əlizadə.H. Estetika. Bakı: "Elm", 2007, 380 s.*

*3. Cəfərov M.C. Azərbaycan ədəbiyyatında romantizim. Bakı: Azərb.SSR EA, 1963, 218 s.*

*4. Prof.Dr. İsmayıln Tunalı Fəlsəfə. Bakı: Araz nəşriyyatı,2004, 165 s.*

*5. Əsgərova N. Mənəvi-estetik dəyərlər: mahiyyəti, tarixi və bu günü. Bakı: QHT nəşriyyatı, 2017, 160 s https//ebooks.az/view/O7nHGN6j.pdf*

*6. Xəlilov S.Fəlsəfə tarixi və müasirlik. Bakı: Azərbaycan Universiteti, 2006, 408 s. https//ebooks.az/view/aMOiPDVI.pdf*

**Rahila Jafarova**

**Non-classical aesthetics and aesthetic ideal**

## SUMMARY

The article shows the renewal of the social and spiritual life of the society in the 19th century, the emergence of various artistic and aesthetic trends, the establishment of pluralism in artistic creativity, and the formation of each of its own aesthetic ideals. The author notes that the innovation in the social and spiritual life of society in non-classical aesthetics had an impact on artistic creativity and aesthetic ideals.

**Key words:** *Non-classical, aesthetics, aesthetic ideal, beauty, irrationalism, realism, symbolism, impersionalism.*

**Рахила Джафарова**

**Неклассическая эстетика и эстетический идеал**

## РЕЗЮМЕ

В статье показано обновление социальной и духовной жизни общества в XIX веке, появление различных художественно-эстетических течений, установление плюрализма в художественном творчестве, формирование у каждого собственных эстетических идеалов. Автор отмечает, что новаторство в социальной и духовной жизни общества в неклассической эстетике оказало влияние на художественное творчество и эстетические идеалы.

**Ключевые слова:** *неклассика, эстетика, эстетический идеал, красота, иррационализм, реализм, символизм, импрессионализм.*

UOT 101.1::316

# ƏMƏK FƏALİYYƏTİ ZAMANI KOMMUNİKASİYANIN TƏZAHÜR FORMALARI

**PƏRVİN KƏRİMOVA**
*Xəzər Universiteti, İngilis dili və Ədəbiyyatı Departamentinin müəllimi, doktorant*
*E-mail: pkerimova@khazar.org*

Əmək fəaliyyəti insanın sosial davranışının elementi kimi ortaya çıxır. Bu proses tamamilə sabitdir və insanın yerinə yetirməli olduğu bir sıra funksiyaları özündə ehtiva edir. Bu funksiyalar onun vəzifələridir və bəzən özü, bəzən isə müəyyən bir təşkilat tərəfindən tənzimlənir.

Əmək fəaliyyəti və onun mahiyyəti insanın gündəlik həyatını və yaşamını təmin edən ən əsas faktorlardan biridir. Əmək fəaliyyətinin formalaşması və təmin olunması isə uşaqlıqdan insana öyrədilə biləcək ən vacib vərdişlərdən biridir. Bu vərdiş aşılana bilməsə, nəticədə cəmiyyətə və özünə yararsız fərd formalaşacaqdır. Odur ki, hər hansı şəxsiyyətin formalaşdırılması zamanı onun gələcəkdə məşğulluğunun təmin edilməsi önəmli faktorlardan biridir. Məşğulluğun təmin edilməsi elə birbaşa əmək fəaliyyətinin mövcud olması deməkdir (5, s.90).

Məşğulluq və kadrların idarə edilməsi sahəsində mütəxəssislər aşağıdakı vəzifələrlə məşğul olurlar:

• sosial həyata dəstək vasitələrinin yaradılması

• elm sahəsində ideyaların inkişafı və yeni dəyərlərin formalaşması

• hər bir işçinin həm işçi, həm də fərd kimi inkişafı.

Bundan əlavə, əmək və əmək fəaliyyəti bir sıra spesifik xüsusiyyətlərə malikdir. İlk növbədə, bir sıra konkret əmək əməliyyatlarını ehtiva edir. Eyni şirkətdə əmək fəaliyyəti hər bir işdə fərqli ola bilər, ancaq yenə də bu şirkətə xasdır. Həmçinin, bütün müəssisələr məhsul satışı və ya xidmətlərin göstərilməsi üçün maddi-texniki şəraitə görə fərqlənirlər.

Əmək fəaliyyəti konsepsiyasının düzgün formalaşması üçün iki əsas parametr mövcuddur:

• Birincisi, işçinin psixofiziki vəziyyətini, başqa sözlə, onun hər bir şəraitdə fiziki və əqli işləri yerinə yetirmək qabiliyyətini müəyyən edir.Təbii ki, bu, əksər hallarda gözlənilir. Ancaq nəzərə almaq lazımdır ki, son zamanlarda bəzi şirkətlər fiziki qüsurlu şəxslərin də əmək fəaliyyətini həyata keçirməsi üçün şans yaradır.

• İkinci parametr isə işçinin əmək fəaliyyətini yerinə yetirdiyi şərtləri müəyyən edir.

İşin icrası zamanı yüklər bu parametrlərdən asılıdır. Fiziki olanlar müəssisənin texnoloji avadanlığından, əqli olanlar isə işlənmiş informasiyanın həcmindən yaranır. Monoton iş zamanı yaranan risklərlə yanaşı, işçilər arasındakı münasibətlər də nəzərə alınmalıdır (6, s.32).

İndi cəmiyyətdə bir çox funksiyalar avtomatlaşdırılıb. Buna görə də, müəyyən bir işçi kateqoriyasının əsas vəzifəsi avadanlıqları yoxlamaq və lazım olduqda onu yenidən proqramlaşdırmaqdır. Nəticədə, fiziki gücün dəyəri azalır və hər şey robotlaşmış formaya keçir. Daha çox insan intellektual işləməyə üstünlük verir. Bəzi proseslərin avtomatlaşdırılmasının digər faydası işçilərin zərərli təsirlərə məruz qala biləcəyi ərazilərdən, ətraf mühit və ya digər risklərdən uzaqlaşdırılmasıdır.

İstehsal proseslərinin avtomatlaşdırılmasının mənfi tərəfi də var - motor fəaliyyətinin azalması, nəticədə fiziki hərəkətsizliyə səbəb olur. Böyük sinir gərginliyi səbəbindən fövqəladə vəziyyət yarana bilər və işçi nevroloji xəstəliklərə daha həssas olur. Həmçinin, məlumatların emal sürəti aşağıdakılara görə çox aktiv şəkildə artır (3, s.176).

Bu gün əmək fəaliyyəti zamanı yaranan əsas problemlərdən biri, yəni insan və texnologiya arasında qarşılıqlı əlaqənin optimallaşdırılması həll edilməsidir. Eyni zamanda, işçilərin psixi və fiziki xüsusiyyətləri nəzərə alınmalı və bir sıra standartlar hazırlanmalıdır.

Əmək fəaliyyətinin xüsusiyyətləri və funksiyalarından danışdıqda hər şeydən öncə onu deyə bilərik ki, əmək fəaliyyəti, xüsusilə məhsuldar və reproduktiv kimi proseslərlə bağlı olan müəyyən xüsusiyyətləri təmin edir. Bu halda birinci növ əməliyyatlar ikincidə üstünlük təşkil edir. Reproduktiv prosesin mahiyyəti bir növ enerjini digərinə çevirməkdir. Bu zaman enerjinin bir hissəsi tapşırığa sərf olunur. Beləliklə, hər bir kişi öz gücündən mümkün qədər az istifadə etməyə çalışır və eyni zamanda qənaətbəxş nəticə əldə edir.

Reproduktiv proses yaradıcı iş nəticəsində xarici aləmə enerji verir. Eyni zamanda, insan enerjisini praktiki olaraq sərf etmir və ya yenidən bərpa edir. İnsanın əmək fəaliyyətinin yerinə yetirdiyi funksiyalar arasında aşağıdakıları vurğulamaq lazımdır.

• Sosial-iqtisadi funksiya. Bu funksiyanın mahiyyəti ondan ibarətdir ki, əməyin subyekti, işçi ətraf mühitin resurslarına təsir edir. Bu fəaliyyətin nəticəsi maddi nemətlərdir, vəzifəsi cəmiyyətin bütün üzvlərinin ehtiyaclarını ödəməkdir.

• Nəzarət. İnsanın əmək fəaliyyətinin həyata keçirdiyi nəzarət funksiyası əmək kollektivinin üzvləri arasında davranış normaları, sanksiyalar və standartlarla tənzimlənən mürəkkəb münasibətlər sistemini yaratmaqdan ibarətdir. Buraya əmək qanunvericiliyi, müxtəlif əsasnamələr, nizamnamələr, təlimatlar və digər sənədlər daxildir ki, onların məqsədi kollektivdə sosial əlaqələrə nəzarət etməkdir.

• Sosiallaşma. Sosiallaşma funksiyası sayəsində sosial rolların siyahısı daim zənginləşir və genişlənir. İşçilərin davranış nümunələri, normaları və dəyərləri təkmilləşdirilir. Beləliklə, kollektivin hər bir üzvü özünü cəmiyyət həyatının tamhüquqlu iştirakçısı kimi hiss edir. Nəticədə işçilər nəinki bir növ status alırlar, həm də sosial kimlik hiss edə bilirlər.

• Təcrübə. Bu, hər bir işçinin hansı bacarıqların formalaşdığı əsasında çalışmasında, uğur qazana bilməsində özünü göstərir. Odur ki, bunu bu və ya digər şəkildə yaradıcı, özünü inkişaf etdirmiş hər bir insanda müşahidə etmək mümkündür. Buna görə də əmək fəaliyyətinin nəticələrini yaxşılaşdırmaq üçün vaxtaşırı əmək kollektivi üzvlərinin bilik və bacarıq səviyyəsinə olan tələbləri artırılır.

• Məhsuldarlıq. Məhsuldar funksiya təcrübələrin həyata keçirilməsinə yönəldilir. Bir növ yaradıcılıq, eləcə də özünü ifadə etməkdən asılıdır. Bu funksiya nəticəsində yeni texnologiyalar yaranır (1, s.66).

İstənilən əmək fəaliyyəti müxtəlif sahələrə aid olan ayrı-ayrı elementlərə bölmək olar: Əməyin təşkil edilməsi və işin paylaşılması. Bu elementlərdən biri olan işin təşkili prosesi təmin etmək üçün zəruri olan fəaliyyətlər toplusudur. Bu, həm də istehsal nəticələrinin yaxşılaşdırılması üçün əmək kollektivindən rasional istifadədir.

İş paylaşımı əmək münasibətlərində vacib nüanslardan biridir. Bütün istehsal proseslərinin müvəffəqiyyəti işçi heyətindən asılıdır, onların hər biri iş vaxtı ərzində işində olmalıdır. Hər bir işçinin öz əmək funksiyası var, onları yerinə yetirirlər və müqaviləyə uyğun olaraq əməkhaqqı alırlar. Eyni zamanda, burada əmək bölgüsü mövcuddur ki, hər bir işçi şirkətin fəaliyyətinin yönəldildiyi ümumi məqsədin bir hissəsi olan ona tapşırılan vəzifələri yerinə yetirir.

Hər bir şirkət, idarə, müəssisə müəyyən vəzifələri yerinə yetirmək üçün müstəqil olaraq kadr seçə bilər. Əmək fəaliyyətinin elementlərinə başqa bir anlayış - əməyin kooperasiyası daxildir. Bu prinsipə görə, iş nə qədər müxtəlif hissələrə bölünürsə, tapşırıqları yerinə yetirmək üçün bir o qədər çox işçi birləşdirilməlidir. Kooperasiya istehsalın ixtisaslaşması, yəni müəyyən bir məhsul növünün buraxılışının müəyyən bir vahiddə konsentrasiyası kimi bir anlayışı ehtiva edir (8, s.44).

İşçilərin məhsuldarlığı və səmərəliliyi avadanlıqların vəziyyətindən, iş şəraitindən asılı olduğundan, müəssisələr keyfiyyətli istehsal məqsədləri üçün istifadə olunan avadanlıqlara xüsusi qayğı göstərməlidirlər. Bunun üçün də əmək fəaliyyətinin stimullaşdırılması məqsədilə aşağıdakılar həyata keçirilməlidir.

1. Birincisi, planlaşdırma aparılır, yəni otaqdakı yer işçinin rahatlığını təmin edəcək və mövcud sahədən səmərəli istifadə edə biləcək şəkildə yerləşdirilməlidir.

2.İşçinin ona tapşırılan işləri yerinə yetirəcəyi zəruri avadanlıqların alınması da önəmli məqamdır.

3. Quraşdırılmış avadanlıqların saxlanması, sonrakı təmiri və işini yaxşılaşdırmaq,

Bu element bir işi başa çatdırmaq üçün tələb olunan vaxta nəzarət edir. Bu göstərici sabit deyil: bir insan müəyyən bir müddət ərzində normadan artıq iş görə bilər. İşçi uzun müddət müəyyən bir normaya uyğun işləsə belə, istənilən vaxt fəaliyyətinin səmərəliliyini artıra və tapşırıqların öhdəsindən xeyli tez gələ bilər (4, s.55).

İş yerində ən mühüm və cəlbedici amillərdən biri əmək haqqıdır. Əgər işçi öz vəzifələrini zərurətdən daha yaxşı yerinə yetirirsə, vəzifədə irəli sürülə və ya önə çıxarıla bilər. Beləliklə, qazanmaq istəyi işçinin məhsuldarlığının artmasına səbəb olur.

Əməyin səmərəliliyini artırmaq yolları, müəssisənin fəaliyyətinin nəticəsi təkcə işçilərin sayının artırılmasından və maddi-texniki bazanın yaxşılaşdırılmasından deyil, həm də mövcud işçilərin bacarıqlarının inkişafından asılıdır. Bu, yerində təlim vasitəsilə əldə edilir. Bu tip təlim mahiyyət etibarilə orqanizmin işçinin gələcəkdə yerinə yetirməli olduğu yeni psixofizioloji funksiyalara uyğunlaşmasıdır.

Əmək fəaliyyətinin məqsədinə çatmaq üçün işçiyə istirahət lazımdır. İşçilərin əməyinin nəticəsinin keyfiyyətini yaxşılaşdırmağın ən təsirli yollarından biri iş və istirahət rejiminin optimallaşdırılmasıdır.

Bir qayda olaraq, iş və istirahət rejiminin dəyişməsi müəyyən vaxt intervallarında, yəni: iş növbəsi (fasilə), günlər (standart iş günü), həftələr (həftə sonları), il (bayram) həyata keçirilir.

İstirahət üçün ayrılan xüsusi vaxt işçinin işlədiyi şəraitdən və əmək müqaviləsinin şərtlərindən asılıdır. Bu həm qısa fasilələrə (iş günü ərzində), həm də uzun fasilələrə (bütün il) aiddir. Buna görə də əksər peşələr üçün qısamüddətli istirahət norması 5-10 dəqiqədir. Bu fasilə sayəsində orqanizmin psixofizioloji funksiyalarını bərpa edə və stressi aradan qaldıra bilərsiniz.

Əmək fəaliyyəti prosesində ortaya çıxan kommunikasiya işgüzar kommunikasiya adlanır.

İşgüzar kommunikasiyada prosesin 3 tərəfi (buna tərkib hissəsi də demək olar) var:

• Kim danışır,
• Kimə danışılır
• Nə danışılır.

Burada ən önəmli məsələlərdən biri qarşımızdakına və ya bizi dinləyənlərə bunu hansı formada çatdırmağımızdır, yəni bunu necə deyirik. Qısaca demiş olsaq, fikrimizi tam izah etməmişik deməkdir. Uzun-uzadı izahlarla qarşımızdakını yormuş olarıq. Bəs, biz işgüzar kommunikasiyanı düzgün qurmaq üçün necə davranmalıyıq? (2, s.76).

İşgüzar kommunikasiya başqa ölkələrin təcrübəsində öyrənilib və tədris olunur. Hətta bəzi ölkələrdə bu sahənin öyrənilməsi üçün xüsusi kurslar təşkil olunur. Məsələn, qardaş ölkə Türkiyə Cümhuriyyətində məhz işgüzar kommunikasiyanı ayrı-ayrı fərdlərdə aşılamaq və ya təkmilləşdirmək üçün müxtəlif bürolar fəaliyyət göstərir. Müasir, yəni qloballaşma dövründə bu sahəyə olan marağın belə artması da, təbii ki, səbəbsiz deyildir. Çünki işgüzar kommunikasiyanı düzgün qurmağı bacaran hər bir şəxs uğurlu işçidir, uğurlu idarəçidir və s.

İşgüzar kommunikasiyanı düzgün qurmağı bacaran hər bir kəs, ilk növbədə, uğurlu iş həyatına addım atmış olur. Odur ki, iş həyatında müvəffəqiyyətli olmaq üçün bir işi düzgün bacarmaq kifayət deyil. İş həyatında uğurlu olmaq üçün insani münasibətlərinizi gücləndirməlisiniz. Axı qeyd etdiyimiz kimi, düzgün ünsiyyət qurmaq bacarığı iş və şəxsi həyatda uğur gətirir.

Ünsiyyət qurmaq, daha doğrusu, düzgün ünsiyyət iş həyatında uğur gətirir. Ünsiyyət düşünə biləcəyiniz qədər mürəkkəb deyil. Nə demək istədiyinizi, kimə deyəcəyinizi və ünsiyyət quracağınız şəxs və ya insanların anlayacağı şəkildə çatdırmağınız vacibdir (7, s.66).

İstənilən sahədə ünsiyyət özünü emosional tərkib hissəsi kimi də qabarıq şəkildə göstərir. Əyani bir misal. Düşünün ki, kimsə sizinlə acıqla, hirslə, yüksək tonla və qərəzlə danışır. Sizcə ünsiyyətin bu forması zamanı bütün məlumatlar gəlib sizə çatacaqmı?! Əlbəttə ki, xeyr. Müəyyən andan sonra siz qarşınızdakına sadəcə olaraq qulaq asmadığınızın fərqinə varacaqsınız. Söylədiklərimin doğruluğuna əmin olmaq istəyirsinizsə bir anlıq uşaqlığınızı xatırlayın. Əminəm ki, valideyniniz sizi danlayarkən və ya işdə rəhbərlik sizi uzun-uzadı tənbeh edərkən (ortada yüksək ton da varsa) bu hissləri yaşamısınız. Məhz bu səbəbdən kiminlə danışacağımızı, nə danışacağımızı və necə danışacağımızı çox diqqətlə seçməliyik.

Əmək fəaliyyətinin motivasiyası məsələsi də önəmli nüanslardan biridir. Maddi təzminat şəklində əsas motivasiya ilə yanaşı, işçinin müəyyən şərtlərdən və səbəblərdən irəli gələn başqa həvəsləndirici, motivasiyaedici səbəbləri də ola bilər. Məsələn, əsas motivasiyalardan biri komandadan kənarda deyil, komanda daxilində olmaq ehtiyacıdır. Bu amil başqa bir səbəbə - özünü açıqlamaq istəyinə təsir edir ki, bu da əksər hallarda idarəetmə mövqeyi tutmaq istəyən yüksəkixtisaslı mütəxəssislər üçün xarakterikdir.

Əgər işəgötürənin marağı varsa, işçilərin əmək fəaliyyətinin yüksəldilməsində bu zaman həvəsləndirmə sistemi daha səmərəli işləyəcək. Həvəsləndirmə işin ümumi istiqaməti nəzərə alınmaqla şirkətdə formalaşmış ənənələrə əsaslanmalıdır. Eyni zamanda, həvəsləndirmə sisteminin işlənib hazırlanmasında müəssisə işçilərinin də iştirak etməsi arzuolunandır.

## ƏDƏBİYYAT SİYAHISI:

*1. Dərketmə və onun fazaları. “Tədqiqlər”. AMEA Dilçilik İnstitutu. Bakı, “Elm”, 2003, № 4, s. 37-39.*

*2. Dil və dərketmədə qarşılıqlı əksolunmalar. “Elmi axtarışlar”, AMEA Folklor İnstitutunun elmi toplusu, XXV buraxılış, Bakı, “Səda” 2006, s. 111-115.*

*3. Erden, G. “Etiğin kavramsal açılımı: iletişim ve etik arasındaki ilişki”, İletişim ve etik. 2013, Konya: Eğitim Yayınevi*

*4. Xəlilov B. “Azərbaycan dilində işgüzar və*

*akademik kommunikasiya" fənnindən mühazirələr .*

*5. Kolçak, M. Meslek Etiği. İstanbul: Ekin Basım yayın Dağıtım, 2013*

*6. Quliyev T.Ə., Məmmədov Ə.İ. Əməyin iqtisadiyyatı və sosiologiyası, Bakı – 2009*

*7. Muradov S.M. Azərbaycanın əmək potensialı və ondan istifadənin strategiyası. Azərbaycan E.A.-nın xəbərləri; Bakı – 2001, №3-4 6,*

*8. Ильина Л.О. Рынок труда и управление человеческими ресурсами, Москва – 2006*

## XÜLASƏ

Araşdırmamızdan da göründüyü kimi, əmək mürəkkəb ictimai hadisədir. Əməyi bir tədqiqat predmeti kimi nəzərdən keçirərkən adətən bir neçə aspekt fərqləndirilir, bunlara aşağıdakılar daxildir: iqtisadi, sosial, psixo-fizioloji, texniki və texnoloji, hüquqi. Ancaq bütün məsələlərin kökündə düzgün kommunikasiyanın təmin edilməsidir. Əmək kommunikasiyasını da işgüzar, akademik kimi fərqləndirə bilərik. Ancaq formasından asılı olmayaraq kommunikasiya düzgün qurulmalıdır ki, əmək fəaliyyəti də keyfiyyətli alınsın.

**Açar sözlər:** *əmək fəaliyyəti, kommunikasiya, sosial davranış, məşğulluq.*

## SUMMARY

As our research shows, labor is a complex social event. When considering labor as a research subject, several aspects are usually distinguished, which include: economic, social, psycho-physiological, technical and technological, legal. But at the root of all issues is ensuring proper communication. We can also distinguish labor communication as business and academic. However, regardless of its form, communication should be established correctly so that labor activity is also of high quality.

**Key words:** *labor activity, communication, social behavior, employment.*

## РЕЗЮМЕ

Как показывают наши исследования, труд представляет собой сложное социальное явление. При рассмотрении труда как предмета исследования обычно выделяют несколько аспектов, к которым относятся: экономический, социальный, психофизиологический, технико-технологический, правовой. Но в основе всех проблем лежит обеспечение надлежащего общения. Также можно выделить трудовое общение как деловое и академическое. Однако, независимо от ее формы, общение должно быть налажено правильно, чтобы трудовая деятельность также была качественной.

**Ключевые слова:** *трудовая деятельность, общение, социальное поведение, занятость.*

UOT 101.1::316

# İNSANSIZ GƏLƏCƏK – TRANSHUMANİZM

ORCİD İD: 0000-0002-6875-6483

**MƏLAHƏT MƏMMƏDOVA**
*Bakı Dövlət Universitetinin*
*Fəlsəfə kafedrasının doktorantı*

*E-mail: mila-mamedova@inbox.ru*

## Transhumanizmin mahiyyəti

Transhumanizm, siyasi dairələrdə, xüsusən də, amerikan demokratlarının mövqelərində insan cəmiyyətinin gələcək inkişafının potensial ideoloji konsepsiyası hesab olunur. Bu, insan təkamülünün elə bir mərhələsidir ki, insanın bioloji tərəfləri tədricən hibridləşəcək, yəni insan, öz mahiyyətindən maşına doğru dəyişəcək. Elmi-texniki yüksəlişin nəticəsi olaraq süni intellekt daha da önə çıxacaq, insanla maşın öz yerlərini dəyişəcək.[20] Cəmiyyət “seçilmişlər” və “yerdə qalanlar”la günü-gündən daha çox sistem kimi fəaliyyət göstərəcək, bununla da “yerdə qalanlar” bioloji təkamüldə olduğu kimi tədricən itəcək.

İnformasiya axınında yaşayan insan getdikcə bioloji maşına bənzəməkdədir. Bu sistemdə kütləvi informasiya vasitələri “müqəddəs”, “din xadimi” rolunu oynamaqdadır. Elmin qarşısında dayanan əsas vəzifə, maşın “zəkası” yaratmaqdır. Bu zaman, insan ən ağıllı varlıq olma statusunu itirəcək. Məhz bu məqsədə çatan zaman “yeni dünya nizamının” qurulacağı hesab olunur. Bu baş verəndə isə insan öz dəyərini itirəcək və digər “mükəmməl formalarla” müqayisədə o qədər də lazım olmayacaq. İnsan intellekti kompüterə yüklənəcək və ötürüləcək ki, bu da “informativ ölümsüzlüyə” gətirib çıxaracaq.

Jak Attali hesab edir ki, süni seçimdən kənarda qalanların gələcəyi o qədər də ürəkaçan olmayacaq: elektron çiplərin qoşulması, “ailə planlaması” proqramları, sterilizasiya. Artıq olanlar tədricən ölür, süni seçim onları əmrləri icra edən kiborqlara çevirir. Könüllü evtanaziya artıq bir hüquq sayılır və özünü öldürmək də “sosial azadlıqlara” aid edilməkdədir.

Transhumanizm ideoloqları hesab edir ki, insan getdikcə alt növə çevriləcəkdir və bu, eynilə, müasir insanın şimpanzedən ayrılması prosesi kimi olacaqdır. Ancaq burda da seçilmiş insanlar iştirak edə biləcək. Onlar xüsusi vaksinlərlə öz ömürlərini uzada biləcəklər və ya surroqat analıq, klonlaşdırma ilə övlad sahibi ola biləcəklər [21].

İnsanın maşınla ünsiyyəti insanı tədricən “bionik insana” çevirəcək. Kompüter avadanlıq olmayıb, tədricən “dosta” çevriləcək. Elektron avadanlıqlar simbioz həyat tərzinə, bu isə öz növbəsində total nəzarətə imkan verəcək. Bu sistem “elektron konslager” də adlanır.

Bu qlobal prosesin elementləri bəzi detallarda öz əksini tapır: Süni böhran və ənənəvi ailələrin dağılması. Məsələn, bir çox Avropa ölkəsində eynicinslilərin nigahı rəsmi qaydada qəbul olunmuşdur. “Elektron əqli çatışmazlığın” həyata keçirilməsi. Bu, əsasən kiçik yaş səviyyələrində uşaqlar üçün elektron oyunlar, cizgi filmləri, verilişlər vasitəsilə həyata keçirilir. Ənənəvi dinlərin dağılması - Elektron vasitələr, tabletlər, telefonlar və.s vasitəsilə diqqəti cəmiyyət problemlərindən daha çox əyləncəyə yönləndirir, yeni texnologiyadan böyük asılılıq yaradır. Bəzi tədqiqatçılara görə, transhumanizm qnostisizmə çox yaxındır. Yəni burada informasiya müqəddəs bir mahiyyət kimi qəbul olunur [9].

Texniki-sənaye-texnoloji proseslər dövrünü yaşayan insanlıq, bu proseslərin davamı və nəticəsi olan kiber-texnolojiləşməni yaşamaqdadır. Darvinçi təkamül, bioloji təkamül və psixologiyadan bəhrələnən ikinci bir intibah kimi qəbul olunan transhumanizm, insanı yalnız neyro-bio-fizioloji və genetik fəaliyyətlə biolojidən biyonikliyə təkamül etməklə kifayətlənməyən, insanın yaşadığı mühiti də dəyişən bir hərakatdır. Transhumanizm ağıllı şəhərlərin, sürücüsüz avtomobillərin və robotik alətlərin mövcud olduğu, hətta hegemon olduğu bir dünya yaratmaq məqsədindədir. Təkcə bununla yetinməyən bu dövr, kosmosa səyahət və kosmosda koloniya yaratmaq kimi məqsədləri də qarşıya qoymaqdadır [7].

## Transhumanizm ikinci intibah kimi

Oksford Universiteti Qloballaşma və inkişaf fakültəsinin professoru İan Qoldin dünyanın yeni bir intibah yaşadığını və yaşadığımız dövrü “ən yaxşı”, ya da “ən pis” əsr etmənin insanlığın öz əlində olduğunu söyləyir. Robotik, süni intellekt, kibernetik texnologiyalarla insanlığın yeni bir həyat tərzinə sahib olmasıyla və transhumanizm vasitəsiilə “ikinci intibah” yaşanılacağı iddia edilir.

İkinci bir intibah olaraq qəbul edilən transhumanist dövrdə texnoloji inkişafın xidmət sektorunda həyatı hər nə qədər asanlaşdıracağı və rifah bəxş edəcə-

yi iddia edilsə də bu proses, həm dövlətlər- millətlər, həm də fərdlər arasında bərabərsizliyin olmasını da zəruri edir. Çünki əldə edilməsi maliyyəsiz mümkün olmayan transhumanist texnologiya "varlı-kasıb" ayırımını daha da dərinləşdirəcək [14].

Kapitalizm və sənayeləşməylə birlikdə sekulyarizm hakim olmuş, Tanrı arxa planda qalmış və təbiət istismar mənbəyinə çevrilmişdir. Texnologiya vasitəsilə humanizm radikallaşdırılmış və transhumanizm dövrünə daxil olunmuşdur. Termin olaraq ilk dəfə 1957-ci ildə J.Xaksli tərəfindən bir inanc olaraq işlədilən transhumanizm, bir tərəfdən insan qalma, digər tərəfdən yeni imkanların reallaşdırılması ilə insanın öz fövqünə keçmə prosesidir.

Humanizm insanın, təbiət və Tanrı qarşısındakı yerini dəyişdirmək, transhumanizm isə insan təbiətini dəyişdirmə və onu təbiətdən və Tanrıdan qoparmaq məqsədindədir [4]. Və əsas diqqət bədənlərimizə, düşüncələrimizə, davranışlarımıza yönəlmişdir. XXI əsrin bir reallığı olsa da, nəzəri və praktik kökləri XIX və XX əsrə gedib çıxan transhumanizmin nəzəri tərəflərini Darvin, Freyd və s. kimi elm adamları, praktik hissəsini isə sənayeləşmə, texnolojiləşmə və başqa amillər formalaşdırır.

**Transhumanizmin inkişafında texnologiyanın rolu.** Ömrü uzatmaq, zehin yükləmə, bədən dondurma, insanın intellektual, fiziki və psixoloji bacarığını artırmağı qarşısına məqsəd qoymuşdur. Bütün bunlara baxmayaraq, paradoksal ölçüdə "insan qalmaq" iddiasında olan və təkcə insanı deyil, ətrafı da modifikasiya edən transhumanizm, daha yaxşı insanlar və məkanlar yaratmağa çalışır. Yuxuya və çətin şəraitə davam gətirə bilən super əsgər döyüşçülər yaratmaq səyləri ilə yanaşı insansız təyyarə və tanklar, robot əsgərlər yaratmaq məqsədindədir. Məsələn, ilk uzaqdan idarə olunan təyyarələri 1940-cı illərdə nüvə bombası daşımasında istifadə edən ABŞ-ın The Office of the Secretary of Defense Unmanned Systems Roadmap adlı qurumu gələcək illər üçün planlar hazırlamışdır. Burada əsgərlər üçün riski azaltmaq məqsədilə insansız vasitələr, insansız sistemlər və ya ölümcül silahların hazırlanması nəzərdə tutulur. İnsansız sistemlər hava, torpaq və suda olmaqla üç böyük qrupa ayrılırlar. Yəni insansız yer və hava sistemləri, pilotsuz torpaq, dəniz və ya sualtı vasitələri ehtiva edir. Çinin Ehang şirkəti turistləri daşıya biləcək insansız hava nəqliyyatı hazırladığını və bir neçə şirkətin də hamı üçün avtonom uçan avtomobillərin modellərini hazırladığını elan etdi [21].

Texnologiya ilə sıx bağlantısı olsa da kökləri və inkişafı baxımından dini-qnostik, neo-bütpərəst bir hərəkat olan transhumanizm, ateizm-aqnostisizmin müəyyən bir həddidir. Artıq Nyuton, Edison, Eynşteyn kimi öz laboratoriyalarında işləyən elm adamları yoxdur. Bu fiqurlara bənzəməyən, onlardan çox fərqli olan B.Qeyts, E.Mask, A.Levandovski və R.Kurzveil kimi maliyyə ilə bağlı olan və çoxlu pullar qazanan insanlar bu dövrün alimləridir [9].

Transhumanizm Dekartın düşünən varlıq və mexanik dünya düşüncələrinə əsaslanan fəlsəfəsilə, tanrıçılıq və kosmos arasında əlaqə olduğunu göstərməyə çalışan Nyuton fizikası ilə də bağlıdır.

J.Hughesə görə, transhumanizm insan oğlunun bədən və beyin sərhədlərini aşmaq üçün texnologiyadan istifadəni vacib sayır.

Nik Bostrom dərin tarixi köklərə sahib olduğunu iddia etdiyi transhumanist fikirlərin tarixi köklərini qədim Şumerdəki "Bilqamış dastanı"na qədər aparır.

Bostorm "Süni intellekt" adlı kitabında süni zəka ilə təbii zəkanı ayırırdı. Ağıl ilə təbiətə hakim olmağı bacaran insan, ona görə, süni zəka ilə daha da irəli gedə bilər. Onun fikrincə, insan zəka ilə dil, texnologiya və digər məsələləri inkişaf etdirməyi bacarmışdır. Hər dövr, özündən əvvəlki dövrdən daha uğurlu olaraq irəliləmişdir. Bir gün insan, maşın beyinlər yaradaraq super intellekt ilə daha da güclü olacaqdır. Amma bu, sadəcə, bir ehtimaldır. Çünki super zəkanı yaradan da insandır. İnsan bu sahədə öz dəyərlərini qorumalı və buna uyğun super zəka yaratmalıdır. Homosapiensdən robosapiensə keçid kimi ifadə olunan bu dövrü xarakterizə edən əsas ünsür süni intellektdir [12].

Tobi Volş "Süni intellekt dünyası" adlı kitabında qeyd edir ki, homosapiens öz inkişafı dövründə özündən əvvəli homoneandertala mövcud olmaq imkanı verməyib, yəni onun təkmil formasına çevrilib. Deməli, "ağıllı insan"ın ardınca daha yeni bir forma yarana bilər. Bu proseslər nəticəsində homosapiensin sonrakı forması homodigitalistdir. Volş düşünən maşınların, süni intellektin insandan bir çox şeydə üstün olduğunu göstərməyə çalışır: öyrənə bilən, insanla müqayisədə daha sürətlə işləyən, istirahətə, yuxuya ehtiyacı olmayan, duyğusuz, tez və ağıllı qərarlar verə bilən. Volş onu da vurğulayır ki, süni intellekt və insan qarşıdurmasında insan xoşbəxt olmaya bilər.

Stephen Hakinq və Elon Mask süni intellektin nüvə təhlükəsi, qlobal istiləşmə və ümumiyyətlə, mövcudluq üçün təhdid olduğunu qeyd edirlər. Onla-

rın fikrincə, bu gedişatla texnologiya insanlığı məhv edə bilər. S.Hakinq bununla bağlı olaraq deyirdi: "Son dəfə xəbərdarlıq edirəm. Süni zəka ilə bağlı fəaliyyətlərinizi dayandırın. Yaratdığınız robotlar insanlığın yerini alacaq" [6].

Braydla görə hazırda qaranlıq bir dövrdə yaşayırıq. Ən böyük problem texnologiyadır. Qlobal istləşmə təbiətdə öz mənfi təsirlərini göstərməkdədir. Siyasət və iqtisadiyyat isə texnologiyalara uyğun formada qəlibləşməkdədir. Varlı daha da varlı, kasıb daha da kasıblaşmaqdadır. Cəmiyyətlərdəki sinfi bərabərsizliklər dərinləşdikcə fərqli fikirlər, fərqli yanaşmalar da formalaşmaqdadır ki, bu da öz növbəsində, dünyanı anlamanı, münasibətləri tənzimləməni çətinləşdirir. Cəmiyyətin intellektual mənzərəsini müasir informasiya əlaqələri formalaşdırmaqdadır. Bu məqsədlə yeni fəaliyyət sahələri, istiqamətləri də yaranmaqdadır. Bu fəaliyyət sahələri öz növbəsində istər cəmiyyət həyatında, istər təbiətdə öz mənfi təsirlərini göstərir [22]. Bu təsirləri aradan qaldırmaq və ya azaltmaq üçün hazırlanan texnologiyalar isə, başqa problemlərə səbəb olur. Bu cür qarışıq səbəbnəticə zənciri hər gün yaranmaqdadır. Belə bir dövrdə, texnologiyanın insanı əsir aldığı şəraitdə insanın həqiqətən də rahatlıq tapacağı və ya əksinə, dəli olacağı sual altındadır.

Transhumanizm prosesi və ya planı "ilk günah" və ya "səhvə" görə daha böyük günaha və pozuntuya bənzəyir. Bu prosesin "X-men" filmindəki baxışlarda olduğu kimi, "firounlaşma"mı, yoxsa ideal yeni insanlıq prosesimi olub-olmadığını, insanın maşınla əlaqəsi müəyyənləşdirəcəkdir. İnsanoğlu transhumanizmlə bir daha "qadağan olunmuş alma"nı yeyib başına bəla açmaq astanasındadır. Tesla və Space X-in yaradıcısı Maskın dediyi kimi, "gələcək üçün böyük təhlükə" yoxsa facebookun qurucusu Zükerberqin dediyi kimi "insanlıq üçün bir ümiddirmi?". Tamamlanmamış bir proses olduğu üçün insanın həm qorxu, həm də ümid içərisində olduğunu söyləyə bilərik. Applenın yaradıcısı S.Cobs artıq insan üçün ayrılmaz olan kompüter, tablet və ya ağıllı telefonun simvolu kimi "dişlənmiş alma" seçməsi, bəlkə də insanın özünü təkrar-təkrar bəlaya saldığına, səhvinin təkrarlanmasına işarə etmişdir [9].

**Nəticə**

Bütün mənfi və müsbətlərinə baxmayaraq, transhumanizmi qloballaşmanın ən güclü təsir vasitələrindən biri hesab edə bilərik. Nə qədər çalışsaq da, bu gün, özümüzü texnologiyalardan, onların istifadəsindən kənarda saxlaya bilmərik. Elə bir dövr yetişib ki, demək olar ki, bütün həyatımız, texnologiyalardan asılıdır. Təbii ki, bu proseslərin bizim üçün əslində hansı nəticələr verəcəyi qeyri-müəyyəndir. Qeyri-müəyyənlik özlüyündə həmişə qorxu yaradır...

**ƏDƏBİYYAT SİYAHISI:**

***Azərbaycan dilində***

*1. Nəsibov Elşən - İnkişaf və sülh ideyalari, III kitab, Bakı, Elm və təhsil nəşriyyatı, 2013, 216 səh.*

*2. Nuriyev Əli -İnsan və həyat fəlsəfəsi. Bakı, Çaşıoğlu nəşriyyatı, 2005. 263 səh.*

*3. Platon-Dövlət, Sumqayıt, Bilik nəşriyyatı, 2014, 432 səh.*

*4. Zeynalov. M. Fəlsəfə tarixi. Bakı. 2001. 544 səh*

***Türk dilində***

*5. Açıköz Mustafa. Toplumların inşasında batı transhumanizminin geleceyi ve manipülasyon aracı olarak felsefe ve egitimin kullanımı. Ankara. Gece yayınları. 2019. Səh 139*

*6. Bayraktar Mehmet. "Təkamül nəzəriyyəsi". Ankara. TDV nəşriyyatı 339 səh*

*7. Caner Taslaman, Evrim Teorisi ve Tanrı. İstanbul. İstanbul nəşriyyatı. 2016. 125 səh.*

*8. Dağ Ahmet. Ş Teoman Duralı düşüncesinde metafizikten makinaya batı medeniyyeti. İstanbul. Felsefe ve sosial bilimler dergisi. 2016. Səh 262*

*9. Dağ Ahmet. İnsansız dünya transhumanizm. İstanbul. Ketebe yayınları. 2022. 248 səh*

*10. Uğur Serap. Transhümanizm ve öyrenmedeki değişim. Açık öyretim uygulamalar ve araştırma dergisi. 2018. Ankara 74 səh.*

***Rus dilində***

*11. Бокова Ирина-Новый гуманизм в XXI веке. (статья) Курьер Юнеско, Октябрь-декабрь, 2011 г, с 4-5.*

*12. Луков. В. А - Трансгуманизм. Москва. Энциклопедия гуманитарных наук. 2017 г, с 245-251*

*13. Межуев В. М.-Гуманизм и современная цивилизация, Москва, Человек, № 3, 2013, С. 5-16.*

*14. Мухаметшин Фарит -Новый гуманизм как мировоззренческая основа культуры мира. Международная жизнь, № 1, С. 56-62. 2012.*

*15. Пелипенко А. А. - Возможен ли постгуманизм?, Москва, Человек, № 3, 2013, С. 17-28.*

***İngilis dilində***

*16. Askland Andrey. "The misnomer of transhumanism and directed evolution". İnternational journal of emerging technologies and society. 2011. 72 p*

*17. Fernando Francesca - Posthumanism, Transhumanism, Antihumanism, Metahumanism, and New Materialisms differences and relations (article). Existenz journal 2013, volume 8, №2, 26-32*

*18. Hankins James -Renaissance civic humanism. Cambridge University press, 2000. 332 p.*

***İnternet resursları***

*19. Evrimcilerin "üstün insan hayalleri". https://yaklasansaat.com/YsVsCode/https/http-folders/dunyamiz/canlilar_ve_evrim/ustun_insan_hayalleri.html*

*20. Глобализация, трансгуманизм и последние времена. https://napravdestoy.livejournal.com/3767600.html*

*21. Трансгуманизм как элэмент глобализации. https://anna-news.info/transgumanizm-kak-element-globali/*

*22. The convertation. https://theconversation.com/super-intelligence-and-eternal-life-transhumanisms-faithful-follow-it-blindly-into-a-future-for-the-elite-78538*

## XÜLASƏ

Transhumanizm humanizmdən fərqli olaraq, texnologiyanın təsiri ilə insanın öz təbii keyfiyyələrinin fövqünə çıxması və ya öz təbii sərhədlərinin aşılmasına çalışan cərəyandır. Transhumanizmə görə elm və texnikanın inkişafı ilə insan ağlının təsir dairəsi genişlənəcək, insanın təbii mahiyyəti dəyişəcəkdir, o, kiborqa çevriləcəkdir. Transhumanizm ideoloqları hesab edir ki, insan getdikcə alt növə çevriləcəkdir və bu, eynilə, müasir insanın şimpanzedən ayrılması prosesi kimi olacaqdır. Ateist bir istiqamət olan transhumanizmin bəzi nümayəndələrinə görə, dünyada müəyyənedicilik rolu Tanrıya deyil, insana məxsusdur. Texnoloji tanrı yaradılmasını gözləyən transhumanist cərəyan, humanizmin məqsədi olan insanı Tanrının yerinə qoyaraq insanı əbədiləşdirmə, sonsuz və qüdrətli tanrının yerini və rolunu insana vermək arzusundadır. Transhumanizm müasir elm və texnologiyanın güc və imkanlarından istifadə etməklə əbədi həyat, ölümsüzlük kimi vədlər verməkdədir.

**Açar sözlər:** *transhumanizm, insan, süni intellekt, kiborq, qloballaşma.*

## РЕЗЮМЕ

Трансгуманизм, в отличие от гуманизма, представляет собой направление, при котором под влиянием техники человек выходит за пределы своих природных качеств или пытается преодолеть свои естественные пределы. Согласно трансгуманизму, с развитием науки и техники расширится сфера влияния человеческого разума, изменится природная сущность человека, он станет киборгом. Идеологи трансгуманизма считают, что человек постепенно станет подвидом, и это произойдет точно так же, как и процесс отделения современного человека от шимпанзе. По мнению некоторых представителей трансгуманизма, являющегося атеистическим направлением, роль детерминации в мире принадлежит не Богу, а человеку. Трансгуманистическое течение, ожидающее создания технологического бога, хочет увековечить человека, являющегося целью гуманизма, поставив человека на место Бога, и дать человеку место и роль бесконечного и могущественного бога. Используя силу и возможности современной науки и техники, трансгуманизм обещает вечную жизнь и бессмертие.

**Ключевые слова:** *трансгуманизм, человек, искусственный интеллект, киборг, глобализация.*

## ABSTRACT

Transhumanism, in contrast to humanism, is a direction in which a person goes beyond his natural qualities or tries to overcome his natural limits under the influence of technology. According to transhumanism, with the development of science and technology, the sphere of influence of the human capacity will expand, the natural essence of a person will change, and human will become a cyborg. Transhumanist ideologists believe that humans will gradually become a subspecies, which will occur exactly as the process of separating modern humans from chimpanzees. According to some representatives of transhumanism, which is an atheistic direction, the role of determination in the world belongs not to God, but to human being. The transhumanist current, awaiting the creation of a technological God, wants to perpetuate human, the goal of humanism, by putting man in the place of God, and give him the role of an infinite and powerful god. Using the power and possibilities of modern science and technology, transhumanism promises eternal life and immortality.

**Key words:** *transhumanism, human, artificial intelligence, cyborg, globalization.*

# MÜNDƏRİCAT

## SİYASİ ELMLƏR

İRADƏ NURİYEVA: ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN KADR SİYASƏTİ: "MİLLİLƏŞMƏ KONSEPSİYASINA UYĞUNLUQ" VƏ "YÜKSƏK PROFESSİONALİZM"........................................ 5

SƏİDƏ MƏMMƏDOVA: YENI BÖYÜK İPƏK YOLU LAYİHƏSİNƏ BEYNƏLXALQ REAKSİYALARIN TƏHLİLİ........................................................................................................................ 9

ГЮЛЬНАЗ ГАСАНОВА: УЧАСТНИКИ ИНФОРМАЦИОННОГО ПРОЦЕССА....................... 15

NAILA MAMMADOVA: THE USA POLICY ON "HUMANITARIAN INTERVENTION" DURING BILL CLINTON'S SECOND PRESIDENCY.................................. 20

ALI SADIGOV: US PRIORITIES IN THE SOUTH CAUCASUS......................................................... 23

MİKAYIL YUSİF: AZƏRBAYCAN SSR DÖVRÜNDƏ SİYASİ İNSTİTUTLARIN FƏALİYYƏT XÜSUSİYYƏTLƏRİNİN TƏHLİLİ............................................................................ 27

## TARİX

ARZU XƏLİLZADƏ: MİLLİ KOSMİK SƏNAYENİN ƏHƏMİYYƏTİ VƏ HƏYATA KEÇİRİLMƏSİ MEXANİZMLƏRİ.................................................. 33

GÜLNARƏ MƏMMƏDZADƏ: TALİBANIN DEVRİLMƏSİNDƏN SONRA TÜRKİYƏ-ƏFQANISTAN MÜNASİBƏTLƏRİ.................................................................................. 38

VÜSALƏ VEYSƏLOVA: BİRİNCİ DÜNYA MÜHARİBƏSİ İLLƏRİNDƏ İTALİYANIN TÜRKİYƏYƏ MÜNASİBƏTDƏ SİYASƏTİ.............................................................. 44

NƏRGİZ AXUNDOVA: ANTİK DÖVR METALLURGİYASININ ÖYRƏNİLMƏSİ ASPEKTLƏRİ........................................................................................................... 49

NƏRMİN ATAYEVA: NADİR XAN ƏFŞARIN SƏFƏVİ İMPERİYASI ƏRAZİLƏRİNİ OSMANLI İŞĞALINDAN AZAD ETMƏK UĞRUNDA MÜBARİZƏSI TÜRKİYƏ TARIXŞÜNASLIĞINDA........................................................................... 53

## İQTİSADİYYAT

DAĞBƏYİ ALLAHVERDİYEV: GEOSİYASİ TƏRƏQQİ, MAKROİQTİSADİ SABİTLİKVƏ MÜLKİ HÜQUQ MÜDAFİƏSİ..................................................................................... 60

GÜNAY ƏLİYEVA, HAVAXANIM SOLTANOVA: AZƏRBAYCANDA TRANZİT-NƏQLİYYAT XİDMƏTLƏRİNİN İNKİŞAFINA İNVESTİSİYA QOYULUŞUNUN ƏHƏMİYYƏTİ.................. 67

SƏFTƏR VƏLİZADƏ: ERMƏNİSTANDA İQTİSADİ İNKİŞAF VƏ ONUN DEMOQRAFİK VƏZİYYƏTƏ TƏSİRİ.................................................................... 72

FAMİL NİFTİYEV: SƏHİYYƏ KAPİTALININ İNSAN KAPİTALINA TƏSİRİNİN QİYMƏTLƏNDİRİLMƏSİ...................................................................... 78

HƏSƏN HƏSƏNOV: FİSKAL SİYASƏT İNKİŞAF ETMƏKDƏ OLAN ÖLKƏLƏRDƏ SABİTLƏŞMƏ ALƏTİ KİMİ.................................................................. 81

KAMRAN ABDURAHMANOV: AZƏRBAYCANIN ƏMƏK BAZARINDA GENDER PROBLEMİ.......................................................................................... 86

CƏLAL QULİYEV: NƏQLİYYAT TƏHLÜKƏSİZLİYİ ÜZRƏ BEYNƏLXALQ HÜQUQİ TƏMİNAT VƏ BEYNƏLXALQ ƏMƏKDAŞLIQ MƏSƏLƏLƏRİ.................................... 89

ELÇİN MƏMMƏDOV: MÜASİR İQTİSADİYYATDA LOGİSTİK STRATEGİYANIN FORMALAŞMASININ ƏSAS PRİNSİPLƏRİNİN TƏHLİLİ........................................ 93

GÜLBƏNİZ ƏLİZADƏ: İNTELLEKTUAL KAPİTALIN YARANMA MƏRHƏLƏLƏRİ VƏ STRUKTURU.......................................................................... 97

İDRİS QƏLƏNDƏROV: MONETAR SİYASƏTİN MALİYYƏ BAZARINA TƏSİRİNİN TƏHLİLİ.......................................................................... 101

KƏNAN MƏMMƏDOV: COVID-19 PANDEMİYASI DÖVRÜNDƏ ŞİRKƏTLƏRİN MALİYYƏ VƏZİYYƏTİ VƏ KREDİT RİSKLƏRİNİN TƏHLİLİ.................................... 105

LAMİYƏ ƏHMƏDOVA: AZƏRBAYCANDA SIĞORTA BAZARININ MÖVCUD VƏZİYYƏTİNİN TƏHLİLİ.......................................................................... 109

ƏKRƏM MAHMUDZADƏ: ƏT MƏHSULDARLIĞINI ARTIRMAQ ÜÇÜN MAL-QARANIN QİDALANMASI VƏ KÖKƏLDİLMƏSİ ÜSULLARI........................................ 113

MƏMMƏDƏLİ HÜSEYNZADƏ: AZƏRBAYCAN RESPUBLİKASINDA SOSİAL İQTİSADİ İNKİŞAFA DÖVLƏT SİYASƏTİNİN DƏSTƏYİ........................................... 117

NİGAR HEYDƏROVA: MÜASİR ŞƏRAİTDƏ SIĞORTA XİDMƏTLƏRİ BAZARINDA RƏQƏMSAL XİDMƏTLƏRİN TƏTBİQİNİN CARİ VƏZİYYƏTİNİN TƏHLİLİ........................ 121

RAKİM HAQVERDİYEV: LOYALLIQ İNSAN KAPİTALININ KEYFİYYƏT GÖSTƏRİCİSİ KİMİ.......................................................................... 125

PƏRVANƏ SƏMƏDZADƏ: QARABAĞ İQTİSADİ RAYONUNUN BƏRPASINDA KOB-LARIN POTENSİAL ƏHƏMİYYƏTİ.............. 129

QORXMAZ VƏLİYEV: AZƏRBAYCANDA TURİZMİN İNKİŞAFI İLƏ BAĞLI ƏSAS KRİTİK MƏQAMLAR.............. 133

QURBAN MƏMMƏDOV: RƏQƏMSAL İQTİSADİYYATIN QİYMƏTLİ KAĞIZLAR BAZARININ İNKİŞAFINA TƏSİRİ VƏ ONUN QİYMƏTLƏNDİRİLMƏSİ.............. 137

TURAN QARAYEV: XƏZƏR DƏNİZİ NƏQLİYYATINDAN İSTİFADƏ EDƏRƏK TƏDARÜK ZƏNCİRİNİN TƏŞKİLİ ÜSULLARI.............. 141

XƏYAL ƏKBƏROV: AZƏRBAYCANDA ELEKTRON TİCARƏT ƏNƏNƏSİNİN YAYILMASINDA MƏDƏNİYYƏTİN ROLUNUN QİYMƏTLƏNDİRİLMƏSİ.............. 145

ŞƏHRİYAR KƏRİMOV: MÜASİR ÇAĞIRIŞLAR DÖVRÜNDƏ AZƏRBAYCANDA YÜNGÜL SƏNAYENİN YÜKSƏK TEXNOLOGİYALAR ƏSASINDA İNKİŞAF ETDİRİLMƏSİ PRİORİTETLƏRİ.............. 149

RÜFƏT BAXŞƏLİYEV: REGİONLARDA BANK-KREDİT MÜƏSSİSƏLƏRİNİN FƏALİYYƏTİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ.............. 154

## FƏLSƏFƏ VƏ SOSİOLOGİYA

ADİL SADIXOV, FAİQ ƏLİYEV: DAVAMLI İNKİŞAF ŞƏRAİTİNDƏ MÜXTƏLİF MƏDƏNİYYƏTLƏRİN MÜNASİBƏTİ.............. 159

MÜSLÜM NƏZƏROV: POSTİNDUSTRİAL CƏMİYYƏTDƏ AZƏRBAYCANDA TƏHSİLİN İNKİŞAFININ ƏSAS İSTİQAMƏTLƏRİ.............. 164

NURAY QİBLƏLİYEVA: DƏYƏR KATEQORİYASININ FƏLSƏFİ MAHİYYƏTİ VƏ TİPOLOGİYASI.............. 169

RAHİLƏ CƏFƏROVA: QEYRİ-KLASSİK ESTETİKA VƏ ESTETİK İDEAL.............. 175

PƏRVİN KƏRİMOVA: ƏMƏK FƏALİYYƏTİ ZAMANI KOMMUNİKASİYANIN TƏZAHÜR FORMALARI.............. 180

MƏLAHƏT MƏMMƏDOVA: İNSANSIZ GƏLƏCƏK – TRANSHUMANİZM.............. 184

**Founder:**
**“Kaspi” Geopolitical Research Center**

**Corrector:**
**Leyla Binyatova**

**Designer:**
**Tural Huseynov**

**Address of the editorial office:**
**Fikret Amirov Street 1, Baku, Azerbaijan**
**Tel: (+994 12) 493 04 15**
**Fax: (+994 12) 493 04 15**
**E-mail: geostrategiya@gmail.com**

**Number of copies printed: 300**
**Order №306**

**Published by**
**“MSV NƏŞR” LLC publishing house**

**Təsisçi:**
**"Kaspi" Geosiyasi Araşdırmalar Mərkəzi**

**Korrektor:**
**Leyla Binyatova**

**Dizayner:**
**Tural Hüseynov**

**Redaksiyanın ünvanı:**
**Bakı şəhəri, Fikrət Əmirov küçəsi 1**
**Tel.: (+994 12) 493 04 15**
**Faks: (+994 12) 493 04 15**
**E-poçt: geostrategiya@gmail.com**

**Tiraj: 300**
**Sifariş №306**

**"MSV NƏŞR" MMC nəşriyyatının**
**mətbəəsində çap olunub**